*asinx + bcosx = c* tənliyində sinus və kosinus yarımarqumentin tangensi ilə ifadə edək.

*sinx* – ifadə etmək üçün məxrəcə "1" yazıb əsas eyniliklərdən istifadə edək.

$$sinx = \frac{2sin\frac{x}{2}cos\frac{x}{2}}{cos^2\frac{x}{2} + sin^2\frac{x}{2}}$$

Hər tərəfi $cos^2\frac{x}{2} \neq 0$ – a bölsək, $sinx = \frac{2tg\frac{x}{2}}{1+tg^2\frac{x}{2}}$ alarıq.

Eyni qayda ilə *cosx* yazaq, $cosx = \frac{cos^2\frac{x}{2} - sin^2\frac{x}{2}}{cos^2\frac{x}{2} + sin^2\frac{x}{2}} = \frac{1-tg^2\frac{x}{2}}{1+tg^2\frac{x}{2}}$

*sinx* və *cosx* yarımarqumentin tangensi ilə ifadə etdikdən sonra həmin ifadələr *asinx* + *bcosx* = *c* tənliyində yerinə yazaq, $a\frac{2tg\frac{x}{2}}{1+tg^2\frac{x}{2}}+b\frac{1-tg^2\frac{x}{2}}{1+tg^2\frac{x}{2}}$ = c ifadəsini alarıq.

$tg\frac{x}{2}=t$ əvəzləməsi aparsaq, tənlik $a\frac{2t}{1+t}+b\frac{1-t^2}{1+t^2}$ = c şəklinə düşəcək. Sonuncu tənliyi həll edib $t_1, t_2, \dots, t_m$ köklərini alıb, $tg\frac{x}{2}=t$ əvəzləməsində həll etmək lazımdır.

$$tg\frac{x}{2}=t_k(k=1,2,\dots,m)$$

3) Bircins tənliyə gətirməklə həll etmək üsulu.
asinx + bcosx = c · 1 tənliyində sinusu və kosinusu məlum eyniliklərlə əvəz edək.

$$\begin{cases} sinx=2sin\frac{x}{2}cos\frac{x}{2} \\ cosx=cos^2\frac{x}{2}-sin^2\frac{x}{2} \\ cos^2\frac{x}{2}+sin^2\frac{x}{2}=1 \end{cases}$$

bu üç eyniliyi asinx+bcosx=c tənliyində yerinə yazsaq,

$$2asin\frac{x}{2}cos\frac{x}{2}+b\left(cos^2\frac{x}{2}-sin^2\frac{x}{2}\right)=c\left(cos^2\frac{x}{2}+sin^2\frac{x}{2}\right)$$

Sonuncu tənliyi sadələşdirsək,

$$(c+b)sin^2\frac{x}{2}-2asin\frac{x}{2}cos\frac{x}{2}+(c-b)cos^2\frac{x}{2}=0$$

Hər tərəfi $cos^2\frac{x}{2}$ – ə bölüb $\left(cos^2\frac{x}{2}\neq 0\right)$ sadələşdirsək, tənlik

$$(c+b)tg^2\frac{x}{2}-2atg\frac{x}{2}+(c-b)=0$$

şəklə düşər. Bu tənliyin həlli isə 2-ci üsula gəlir. Yəni, əvəzetmə yolu ilə kvadrat tənliyi həll edəcəyik. Alınan kökləri $tg\frac{x}{2}$ ilə ifadə edib ümumi həllər çoxluğunu qeyd etmək lazımdır.

***Ədəbiyyat***

1. *Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, İlham Hüseynov "Üumi təhsil müəssisələrinin 10 – cu sinifləri üçün Riyaziyyat fənni üzrə dərslik". Radius*
2. *Rəşid Məmmədov, Hüseyn Xəlilov, Musa Heydərov, Bahadır İskəndərov, Şəmşəd Hüseynov "Riyaziyyat I" . Bakı – 2021*
3. *M.C.Mərdanov və b. Cəbr və analizin başlanğıcı, X sinif üçün dərslik, Bakı: Çaşıoğlu 2004*
4. *Ю.М.Коляагин. методика преподавания математики в средней школе (частная методика), Москва: Просвешение, 1972,370*

**Z.N.Nəbizadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**nbizadzarina@gmail.com**

# RƏQƏMSAL İDARƏETMƏ

***Xülasə***

*Məqalə açıq sistem olan məktəblərin çevrədən təsirlənərək günü-gündən inkişafına ehtiyac olması probleminin qoyuluşu ilə başlayır. Liderin güc mənbələri barədə məlumatlar, onların istifadə qaydaları barədə məlumat verilir. ABŞ-da fəaliyyət göstərən ISTE təhsil texnologiyaları sahəsi üzrə standartları müəyyən edən qurumun təhsil idarəçiləri üçün müəyyən etdiyi standartlar sıralanır və hər biri haqqında məlumat verilir. Bəzi ədəbiyyatlarda rəqəmsal liderlik anlayışı "Sənaye 4.0" anlayışının ilə əlaqələndirildiyi haqqında məlumatlar verilir. Ümumilikdə məqalədə müxtəlif müəlliflərin rəqəmsal liderlik yanaşmalarından və rəqəmsal liderin sahib olmalı olduğu xüsusiyyətlər qeyd olunmuşdur.*

# ЦИФРОВОЕ УПРАВЛЕНИЕ

***Резюме***

*Статья начинается с проблемы необходимости повседневного развития школ с открытой системой, подверженной влиянию внешней среды. Приведены сведения об источниках питания лидера и правилах их использования. ISTE, американское агентство по установлению стандартов в области образовательных технологий, составляет список и предоставляет информацию о стандартах, установленных для администраторов образования. В некоторых источниках сообщается, что концепция цифрового лидерства связана с концепцией «Индустрия 4.0». В целом в статье упоминаются подходы к цифровому лидерству разных авторов и характеристики, которыми должен обладать цифровой лидер.*

# DIGITAL MANAGEMENT

***Summary***

*The article begins with the problem of the need for day-to-day improvement of schools, which are open systems affected by the environment. Information about the leader's power sources and usage rules is given. The US-based educational technology standards-setting institution ISTE lists the standards set for education administrators and provides information about these standards. Some literature reports that the concept of digital leadership is associated with the concept of "Industry 4.0". In the article, the digital leadership approaches of various authors and the characteristics that a digital leader should have are mentioned.*

***Açar sözlər:*** *rəqəmsallaşma, onlayn təhsil, rəqəmsal liderlik*

***Ключевые слова:*** *цифровизация, онлайн-образование, цифровое лидерство*
***Key words:*** *digitalization, online education, digital leadership*

## GİRİŞ

Məktəblər açıq sistemlər hesab olunduğu üçün biz onları ətraf mühitdən təcrid olunmuş formada təsəvvür edə bilmərik. Açıq sistemlərin özünəməxsus cəhətlərindən biri onların çevrədən qəbul etdikləri xammalı (input) emal etməsi və çevrələrinə məhsul olaraq təqdim etmələridir. Burada xammal deyilərkən məktəblərə yeni gələn şagirdləri, emal prosesi dedikdə onların məktəbdə təlim-tərbiyə alması və output dedikdə isə artıq məzun olaraq cəmiyyətə qatılmalarını hesab etmək olar.

Açıq sistemlər ətraf mühitdə, çevrədə olan gözləntiləri nəzərə alır, vizyonuna, ümumi idarəetmə prosesinə bu yenilikləri gətirir. Müasir dövrdə isə texnologiyasız ətraf mühiti və inkişaf etmiş çevrəni təsəvvür etmək mümkün deyil.

Digər tərəfdən, "rəqəmsal liderlik" və "rəqəmsal çağda liderlik" bir-biri ilə əlaqəli olsa da fərqli anlayışlardır. Bəzən texnoloji liderlik və rəqəmsal liderlik anlayışları bənzər termin kimi istifadə olunur. Lakin unutmaq olmaz ki, texnoloji liderlik daha qədim tarixə malikdir. Rəqəmsal liderlik isə ona nəzərən daha yeni anlayışdır.

Müasir dövrdə rəqəmsal texnologiyalardan istifadə liderin rəqiblərindən daha irəli apara və aid olduğu qurumun səmərəliliyini artıra bilər. Liderin rəqəmsal texnologiyalardan istifadə etmə gücünə nəzər salmazdan öncə həm keçmişdə, həm də bu gün liderlərin istifadə etdiyi əsas güc mənbələrindən bəhs edək. Liderlik anlayışının təməlində təsir etmə faktoru dayanır. Lider özü isə müxtəlif üsul və vasitələrdən istifadə etməklə başqalarına təsir edir. Bu üsul və vasitələri liderin istifadə etdiyi güc qaynaqları, güc mənbələri kimi dəyərləndirmək mümkündür. Liderin güc qaynaqlarını mükafat gücü, məcburetmə (zorakı) gücü, qanuni (hüquqi, rəsmi) güc, mütəxəssis gücü və xarizmatik (şəxsi) güc olmaqla beş başlıq altında təsnif edə bilərik.

Mükafat (reward) gücü. Liderin müxtəlif həvəsləndirmə üsul və vasitələrindən istifadə etməklə qrup və ya təşkilatdakı üzvlərin düşüncə və davranışlarına təsir etməsidir. Liderin bu gücü istifadə etməsinin səbəbi liderin təşkilati resursları isifadə etmə səlahiyyətinin olduğunu izləyicilərə bildirməkdir. Lider mükafatlandırma resurslarına sahibdirsə, bu gücü istifadə etməsi izləyicilərində müsbət fikir formalaşdıracaq. Liderin səlahiyyətində olan mükafatlar sayca nə qədər çoxdursa, onun mükafatlandırma gücü də bir o qədər çox olacaq və ətrafındakı insanlara təsir etmə gücü də bir o qədər yüksək olacaq. Mükafatlandırma lider tərəfindən əmək haqqının artırılması, yüksəldilməsi, məsuliyyətin artırılması, daha yaxşı işin verilməsi, əlavə ödəniş,

tərif, təqdir, qrup daxilində hörmət və statusun dəyişdirilməsi kimi vasitələrdən istifadə etməklə tətbiq edilə bilər. Mükafat gücü daha çox lider şəxsin eyni zaman rəhbər kimi fəaliyyət göstərdiyi hallarda istifadə olunan liderlik gücüdür. Mükafat gücünün də düzgün zamanda və ədalətlə idarə olunması olduqca vacibdir.

Məcburetmə/zorakı (coercive) gücü. Tarixən istifadə olunmuş və bu gün də öz aktuallığını müəyyən müəssisələrdə hələ də qoruyan güc növüdür. Mükafatlandırma gücündən fərqli olaraq bu gücün əsasında qorxu və cəza vardır. Zorakı güc, liderin tabeliyində olanların onun göstərişlərinə tabe olmadıqları təqdirdə cəzalandırma gücünü əks etdirir. Lider bu güc ilə işçilərə qarşı fiziki güc tətbiq edə, işlərinə xitam verə, vəzifəsini aşağı sala, şifahi xəbərdarlıq edə və ya maaşlarını kəsə bilər. Effektiv lider, zəruri ehtiyac olmadıqca bu gücü tətbiq etməkdən çəkinir. Çünki güc tətbiqinin həddən artıq olması işçilərin qəzəblənməsinə və məhsuldarlığının azalmasına səbəb olur.

Qanuni (legitimate) güc. Əsasını qurumun iyerarxiyasından alır və liderin təşkilatdakı statusundan əldə etdiyi gücdür. İdarəçinin tutduğu vəzifədən bəhrələnərək ətrafdakı insanlara təsir etmək gücünü və səlahiyyətini ifadə edir. Liderlər ona tabe olanların davranışlarına rəsmi qaydalara əsaslanaraq təsir edir. Tədqiqatçılar bu gücلə təsir göstərmə səylərinin nəzarət tələb etdiyini və bunun üçün uyğun bir mühitin mövcud olmasını zəruri hesab edir, əks halda qanuni güc mənbəyinin əhəmiyyətinin və təsir gücünün azalacağını ifadə edirlər.

Mütəxəssis (expert) gücü liderin sahib olduğu bilik və təcrübə ilə tabeçiliyində olanların davranışlarına təsir etmək bacarığıdır. Liderin mövzu ilə bağlı bilik və bacarıqları nə qədər dərindirsə və digərləri bu mövzuda təcrübəsizdirsə, liderin gücü daha yüksək səviyyədə olacaqdır. Bu gücə sahib olan liderlər təhsil müəssisələrindəki vəzifələrin necə icra olunacağı ilə bağlı bir bacarığa sahibdirlər. Xüsusən əhəmiyyətli problemləri həll etmə bacarıqlarına sahib liderlər daha çox mütəxəssis gücü daşıyırlar. Bu gücə sahib liderlərin əhatəsində olanlara daha çox təsir etmə, onları ardınca aparma ehtimalı vardır.

Xarizmatik güc liderin şəxsi xüsusiyyətləri ilə əhatəsindəkilərə təsir etmək gücünü ifadə edir. Bu güc izləyicilərin sevdikləri, sadiq olduqları idarəçilərinin sevgisini qazanma arzusuna əsaslanan gücdür. Liderə heyranlıq dərəcəsi və ya izləyicilərinin onunla özlərini eyniləşdirməsi dərəcəsi nə qədər çox olarsa, liderin xarizmatik gücü o qədər təsirli olar. İzləyicilər liderlərin müsbət rəyini qazanmaq üçün onun hər istədiyini yerinə yetirmək, onu bir növ təqlid etmək və onun sahib olduğu mövqeləri mənimsəmə yönündə davranışlar nümayiş etdirir. Bu növ güc də fərdə bağlı güc hesab olunur.

Göründüyü kimi, liderin və menecerlərin güc qaynaqları eyniyyət təşkil edir. Lakin menecerlər hər hansı təşkilatda rəsmi statusun daşıyıcısı olduqları üçün məcburetmə, qanuni və mükafatlandırma gücündən liderlərə nisbətdə daha çox faydalanarkən, lider izləyicilərinə təsir etmək üçün daha çox öz xarizması və mütəxəssis gücünü istifadə etməyə üstünlük verirlər.

ABŞ-da fəaliyyət göstərən ISTE təhsil texnologiyaları sahəsi üzrə standartları müəyyən edən qurumdur. ISTE kommersiya hədəfi olmayan, qeyri-hökumət təşkilatıdır. ISTE, təhsildə əsas tərəflər olan müəllimlər, tələbələr və təhsil idarəçiləri üçün texnologiya standartlarını müəyyən etmişdir. Təhsil idarəçiləri üçün ilk dəfə məhz 2002-ci ildə NETS-A (National Educational Technology Standards for Administrators-Təhsil idarəçiləri üçün milli təhsil texnologiyaları standartları) qəbul olunmuşdur. 2009-cu ildə NETS-A standartları ISTE təşkilatı tərəfindən yenilənmişdir. Yeni qəbul olunmuş standartlara görə texnoloji liderlərdə tələb olunan əsas cəhətlər aşağıdakı kimi sıralanır:

1. Vizyoner liderlik;
2. Rəqəmsal əsrdə öyrənmə mədəniyyəti;
3. Professional təqbiq sahəsində mükəmməllik;
4. Sistemli inkişaf;
5. Rəqəmsal vətəndaşlıq (ISTE 2009).

Rəqəmsallaşma həyatın bütün sahələrində olduğu kimi məktəb idarəetməsinə də təsir edir.

Ümumiyyətlə, "rəqəmsallaşdırma" termininə iki prizmadan yanaşmaq mümkündür. Terminə sırf texniki cəhətdən yanaşsaq, onu analoq informasiyaların rəqəmsal informasiyaya çevrilməsi kimi izah etmək mümkündür. Başqa bir yanaşma olaraq isə rəqəmsallaşma bütövlükdə cəmiyyətin elektron məlumatların emalı sahəsindəki inkişafı kimi izah oluna bilər. Ribble, Bailey, and Ross (2004) tərəfindən rəqəmsal vətəndaşlığa dair aşağıdakı elementlər müəyyən edilmişdir. Etiket qaydaları, ünsiyyət, əlçatanlıq, savad, ticarət, qanun, hüquq və vəzifələr, sağlamlıq və rifah, rəqəmsal təhlükəsizlik. Rəqəmsal liderə məxsus olmalı olan xüsusiyyət, bacarıq və səriştələri aşağıdakı kimi müəyyən etmək olar.

1. İnkişaf etməkdə olan texnologiya alətləri və platformalar haqqında məlumatlılıq;
2. Rəqəmsal məzmunun dəqiqliyi, doğru, yanlış və ya təhrif olunmuş məlumatların ayırd edilə bilməsi;
3. Onlayn sahələrdə özünüdərk və mənlik şüurunun mövcud olması;
4. O cümlədən şəxsi virtual sərhədlərin yaradılması məxfilik, vaxtın düzgün idarə edilməsi;

5. Peşəkar, strateji və karyera yönümlü onlayn brendinqin (öhdəlik) inkişaf etdirilməsi;
6. Şəxsi öyrənmə şəbəkəsinin qurulması (əməkdaşlıq);
7. Rəqəmsal texnologiyaların liderliyə inteqrasiyası;
8. Kiber münaqişələrin həlli və vasitəçilik;
9. Rəqəmsal qərar qəbuletmə strategiyaları əsasında müsbət, orijinal və konstruktiv fəaliyyət (vətəndaşlıq);
10. Sosial mediadan sosial yaxşılıq üçün istifadə (2, s. 59).

Promsri (2019) rəqəmsal liderlərə aid spesifik davranışları bir neçə başlıq altında birləşdirir. Onun fikrincə bu cəhətlərə sahib olan liderlər rəqəmsal çevriliş etmək iqtidarında ola bilər.

1. Rəqəmsal lider dəyişən ətraf mühiti müşahidə etməli, anlamalı və rəqəmsal sahədə çevriliş edə biləcək texnologiyaların fərqində olmalıdır.
2. Vizyon müəyyən edərkən rəqəmsallaşma əsaslı qurmalı və rəhbərlik etdiyi təşkilata düzgün formada çatdırmağı bacarmalıdır.
3. Müştərilərin tələblərində olan fərqlilikləri anlamağı bacarmalıdır. Tələblərə cavab verərkən çevik, uyğunlaşa bilən (flexible) olmalıdır.
4. Yeni fürsətlər yarandığı zaman onlardan istifadə etməyə həvəsli olmalıdır. Rəhbərlik etdiyi təşkilatda əməkdaşlar bu fürsətlərdən yararlanarkən müəyyən səhvlərə yol verərsə, bu səhvlərə qarşı tolerant olmağı bacarmalıdır.
5. Təşkilat üzvlərinin birgə çalışmasına dəsdək olmalı və əməkdaşlığa töhfə verən addımlar atmalıdır.

Rəqəmsal liderin ən əsas cəhətlərindən biri, əlbəttə, onun dəyişən dünyaya uyğunlaşmağı bacarmasıdır. Əgər o ətraf aləmi yaxşı müşahidə etmir və rəhbərlik etdiyi sahədə tələb olunan texnologiyalar və müasir çağırışlar barədə xəbərsizdirsə, mənim fikrimcə burada rəqəmsal idarəetmədən söhbət gedə bilməz.

Hər bir müəssisə və təşkilatın özünə məxsus vizyonu olmalıdır. Vizyon, görünməyənləri qavramaq sənətidir (Quigley, 1998). Rəqəmsal liderlik edən şəxs hazırda mövcud olmasa belə, gələcəkdə olması ehtimal olunan prosesləri öngörməyi bacarmalı, qurduğu vizyonda rəqəmsallığı aparıcı istiqamət olaraq seçməlidir. Vizyonun müəyyən edilməsi qədər onun təşkilata düzgün çatdırılması da çox əhəmiyyətlidir. Bu mənada lider təşkilatın rəqəmsal əsaslı vizyonda olduğunu əməkdaşlara düzgün çatdıra bilməli, onların da kariyera planlaması və ya ümumilikdə gündəlik fəaliyyətlərində bunu əsas götürməsinə töhfə verməyə çalışmalıdır.

Levin ali təhsil müəssisələrində institusional dəyişikliyi dörd kateqoriyaya ayırır (9, s. 409):

1) təşkilati paradiqma dəyişikliyi,
2) institusional missiyanın və ya təşkilatın hədəflərinin dəyişdirilməsi,
3) təşkilat mədəniyyətinin dəyişməsi,
4) təşkilati proseslərin dəyişməsi.

Qeyd etmək lazımdır ki, rəqəmsal transformasiyaya yönəlmiş dəyişiklik prosesləri hər dörd sahədə dəyişikliklər tələb edir.

Rəqəmsal liderlik sürətli, iyerarxiyalar arası çarpaz əlaqələri olan liderlik növüdür. Bu lider komanda yönümlü olmalı, innovasiyaya üstünlük verən kooperativ yanaşmaya sahib olmalıdır. Bəzi ədəbiyyatlarda rəqəmsal liderlik anlayışı "Sənaye 4.0" anlayışı ilə əlaqələndirilir. "Sənaye 4.0" dedikdə dördüncü sənaye inqilabı nəzərdə tutulur. Bu termin sürətli dəyişikliyi əsas götürür. "Sənaye 4.0"-dan ən yaxşı formada yararlanmaq üçün müəssisənin formatından asılı olaraq müvafiq texnologiyalara və onların istifadəsinə maksimum sərmayə qoymaq lazımdır.

## NƏTİCƏ

4-cü sənaye inqilabı dövründə bütün sahələrdə olduğu kimi təhsildə və təhsildə liderlik anlayışlarında müasir meyillər özünü göstərir. Rəqəmsallaşmadan uzaq qalan qurumların müasir dövrdə inkişafdan da geri qalması labüddür. Müxtəlif müəlliflər tərəfində verilən rəqəmsal liderlik xüsusiyyətləri ilə daha yaxından tanış olaraq bu cəhətləri özündə inkişaf etdirən liderlər rəqəmsallaşan dünyaya inteqrasiya ola bilər.

### *Ədəbiyyat*

1. *Abbasov, A., Tolay, E. (2021). Dijital Liderliğin Bireysel Performans Üzerindeki Etkisi: Azerbaycan'da Endüstri 4.0 Teknolojilerini Uygulayan Bir Firmada Araştırma. İzmir Yönetim Dergisi, 2(1), 59-74*
2. *Ahlquist, J. (2014). Trending Now: Digital Leadership Education Using Social Media and the Social Change Model. Journal of Leadership Studies, 8(2), 57–60. doi:10.1002/jls.21332*
3. *Bresciani, S., Ferraris, A., Romano, M. and Santoro, G. (2021), "Digital Leadership", Digital Transformation Management for Agile Organizations: A Compass to Sail the Digital World, Emerald Publishing Limited, Bingley, pp. 97-115. https://doi.org/10.1108/978-1-80043-171-320211006*
4. *Düzgün, S. (2022). Okul Yöneticilerinin Teknolojik Liderlik Öz Yeterlikleri ile Uzaktan Eğitime Yönelik Görüşlerinin İlişkisi. Gazi Üniversitesi, Gazi Eğitim Fakültesi Dergisi, 42(2),1243-1274*
5. *Ehlers, U.D. (2020). Digital leadership in higher education. Journal of Higher Education Policy and Leadership Studies, 1(3), 6 -14. DOI: https://dx.doi.org/10.29252/johepal.1.3.6*
6. *Ehlers U. Digital Leadership in Higher Education. johepal 2020; 1 (3) :6-14*

7. *ISTE. (2009). National educational technology standards for administrators. Washington: International Society for Technology in Education. ISTE. (2019). ISTE Standards. Retrieved February 22, 2022 from iste.org/standards*
8. *June 2020 Digital Leadership: A Framework for Successful Leadership in the Digital Age Simon Hensellek, University of Duisburg-Essen, Duisburg, Germany*
9. *Levin, J. S. (1998). Presidential influence, leadership succession, and multiple interpretations of organizational change. The Review of Higher Education, 21(4), 405 -425*
10. *Oberer, Birgit and Erkollar, Alptekin, Leadership 4.0: Digital Leaders in the Age of Industry 4.0 (November 2018). International Journal of Organizational Leadership, 2018, Available at SSRN: https://ssrn.com/abstract=3337644*
11. *Öz, Ö. (2020). DİJİTAL LİDERLİK: DİJİTAL DÜNYADA OKUL LİDERİ OLMAK . Uluslararası Liderlik Çalışmaları Dergisi: Kuram ve Uygulama, 3 (1),45-57. https://dergipark.org.tr/en/pub/ijls/issue/53618/635293*
12. *Petry, T. (2016). Digital Leadership: Erfolgreiches Führen in Zeiten der Digital Economy. Freiburg: HaufeLexware. görünməyənləri qavramaq sənətidir (Quigley, 1998)*

**M.E.Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*mehriban.3433@gmail.com*

# TÖRƏMƏNİN EYNİLİKLƏRİN ÇEVRİLMƏLƏRİNƏ TƏTBİQİNİN ÖYRƏDİLMƏSİ

**Xülasə**

*Məqalədə törəmə anlayışının məktəb riyaziyyat təlimində xüsusi əhəmiyyət kəsb edildiyi araşdırılır. Törəmə anlayışının bir sıra anlayışlarının araşdırılmasında tətbiqi sahələri nəzərdən keçirilir. Bunlardan biri də törəmə anlayışının triqonometrik eyniliklərin çevrilmələrinə tətbiqinin öyrədilməsi geniş şəkildə şərh edilərək misallar üzərində yoxlanılır.*

# ОБУЧЕНИЕ ПРИМЕНЕНИЮ ПРОИЗВОДНОЙ К ПРЕОБРАЗОВАНИЮ УРАВНЕНИЙ

**Резюме**

*В статье рассматривается значение репродукции в школьной математике. Рассмотрено изучение ряда понятий понятия генетического строения. Одним из них является учение о применении понятия воспроизводства к трансформации тригонометрических сходств.*

# TEACHING THE APPLICATION OF THE DERIVATIVE TO TRANSFORMATIONS OF EQUATIONS

**Summary**

*The article examines the importance of reproduction in school mathematics. The study of a number of concepts of the concept of genetic makeup is considered. One of these is the teaching of the application of the concept of reproduction to the transformation of trigonometric similarities.*

***Açar sözlər:*** *törəmə, çevrilmə, ifadə, funksiya, arqument, dəyişən*
***Ключевые слова:*** *производная, трансформация, заявление, функция, аргумент*
***Key words:*** *derivative, transformation, statement, function, argument, variable*

Riyaziyyat fənn kurikulumunun əsas hissələrindən biri də "Cəbr və funksiyalar" məzmun xəttidir. X sinfin riyaziyyat təliminə daxil edilən riyazi analiz elementləri şagirdlərin ümumi riyazi hazırlığını daha da möhkəmləndirir və onlarda mühakim yürütmə qabiliyyətlərini inkişaf etdirir. Törəmə anlayışının tədrisi şagirdlərin gələcək peşə hazırlığına hazırlanmasında mühüm rol oynayır. Törəmə anlayışı riyaziyyatın digər bölmələrinin öyrənilməsində rolu əvəz edilməzdir. Məsələn, funksiyaların araşdırılması, bəzi həndəsi

fiqurların sahələrinin və həcmlərinin hesablanması və s. kimi məsələlərin həllində öyrənmə prosesini daha da sadələşdirir.

Ənənəvi təhsil proqramında və hal-hazırda tətbiq edilən fənn kurikulumunda “Törəmə və onun tətbiqləri” ilə bağlı əsas anlayış geniş yer alır. X sinfin riyaziyyat dərsliyində “Törəmə və onun tətbiqləri” ilə bağlı məsələyə 8 saat vaxt verilmişdir ki, bu müddət ərzində qarşıya qoyulan məsələləri tam şəkildə şərh etmək çox da asan deyildir. Ona görə də apardığımız tədqiqat işində bu məsələni şərh etməyi qarşımıza məqsəd kimi qoymuşuq.

Aparılan araşdırmalardan aydın olur ki, X-XI sinif şagirdləri törəmə anlayışının digər anlayışlara tətbiq etməkdə böyük çətinliklərlə rastlaşırlar. Bu çətinlikləri aradan qaldırmaq üçün İKT, təlim texnologiyalardan, o cümlədən müasir təlim metodlarından səmərəli istifadə etməyi bacarmalıdırlar. Buna görə də bu mövzunun daha əyani və anlaşılan şəkildə tədris etmək daha məqsədəuyğundur. Törəmənin müxtəlif tətbiqlərinin öyrədilməsi metodikası şagirdlərin yaş xüsusiyyətləri və mövzunun çətinlik dərəcəsilə əlaqədar olaraq bu mövzu sistematik şəkildə XI sinfin əvvəlində başlayır. Bu, həmin bölmənin materiallarının mürəkkəb məntiqi struktura malik olması, zəruri materialın müəyyənləşdirilməsi və şərhi, xüsusilə teoremlərin məktəb kursu üçün münasib olan variantının tapılması, məsələ və misalların seçilməsi və s. ilə bağlıdır.

Törəmənin eyniliklərə çevrilməsinə tətbiqi məsələsinə aydınlıq gətirməzdən əvvəl aşağıdakı qeydlərdən istifadə olunması məsələni daha da sadələşdirir.

1) Əgər müəyyən intervalda iki funksiya eyniliklə sabitə bərabərdirsə, onda onun törəməsi həmin intervalda sıfıra bərabərdir. Yəni $(a, b)$ intervalında $f(x) = c = const$ isə $(a, b)$ intervalında $f'(x) = 0$.

2) Əgər verilən intervalda iki funksiya eyniliklə bərabər olacaq. Yəni $f(x) = g(x) \Rightarrow f'(x) = g'(x)$.

Buna aid bir neçə misala baxaq.

1. Şagirdə aşağıdakı ifadələri sadələşdirmək tapşırılıb.

$$A(x) = sinx + sin\left(x + \frac{2\pi}{3}\right) \cdot sin\left(x + \frac{4\pi}{3}\right)$$
$$B(x) = cosx + cos\left(x + \frac{2\pi}{3}\right) \cdot cos\left(x + \frac{4\pi}{3}\right)$$

Bəzi hesablamalar apardıqdan sonra doğruluğu müəyyən edildi ki,

$$A(x) = 0 \qquad (1)$$

Bəs $B(x)$ necə sadələşdirilməlidir?

Həlli: Törəmənin istifadə etmədən həllini verək.

$\sin\left(\frac{\pi}{2} + \alpha\right) = cos\alpha$ (2) eyniliyindən istifadə edək. Göstərək ki, $B(x) = A'(x)$. $(1)$ −dən istifadə etməklə alarıq ki, $B(x) = 0$. Bir neçə

arqumentli funksiyaların eyniliklə çevrilməsi tələb olunarsa, bir arqument dəyişən, qalanları isə parametr kimi götürülür.

1. Şagirdə $cosx \cdot cosy$ və $sinx \cdot siny$ törəmələrinin cəbri cəminə çevrilmə düsturları lazım idi. Fərz edək ki, o bunları unudub, ancaq törəmə hesablayanda aşağıdakı əsas üsulları və eyniliyi bilirdi.

$$sinx \cdot cosy = \frac{1}{2}\left(sin(x+y) + sin(x-y)\right)$$

Bu düsturu necə bərpa edə bilər?

Həlli: $x$-i dəyişən, $y$-i sabit qəbul etsək, $cosy = const$ olacaq. (1) eyniliyində hər iki tərəfinin $x$-ə görə törəməsini alaq.

$$cosx \cdot cosy = \frac{1}{2}\left(cos(x+y) + cos(x-y)\right).$$

Əgər tərsinə götürüb (1)-də $y$-ə görə differensiallasaq, yəni $x = const, y$ dəyişən bu zaman

$$sinx \cdot siny = \frac{1}{2}\left(cos(x+y) - cos(x-y)\right)$$

2. Cəmi hesablayın.

$$T_1 = 1\frac{2}{2} + \frac{3}{2^2} + \frac{3}{2^2} + \frac{4}{2^2} + \ldots + \frac{n}{2^{n-1}}$$

$$T_2 = 1 + 2 \cdot 6 + 3 \cdot 6^2 + 4 \cdot 6^3 + \cdots + 100 \cdot 6^{99}$$

Həlli: Törəməni tətbiq etmək üçün ədədlərin cəmindən funksiyaların cəminə keçək. Əvvəla daha ümumi cəmi hesablayaq.

$$S(x) = 1 + 2x + 3x^2 + \cdots + nx^{n-1}$$

Harada ki, *x* vahiddən fərqli həqiqi ədəddir, *n* isə istənilən natural ədəddir, *x*= $\frac{1}{2}$ $qiymətində\ T_1;\ x = 6, n = 100\ qiymətində\ isə\ T_2$ alarıq.

Elə bir $F(x)$ $funksiyası\ seçmək\ olar\ ki$, onun törəməsi $S(x)$ olsun. Aydındır ki, məsələn, F$(x)$= 1+x+$x^2$+$x^3$+ ... +$x^n$

$F(x)$-i başqa formada seçmək olar. Hər bir halda məsələnin ayrıca variantını alarıq. Beləliklə, $S(x) = F'(x)$. Lakin $F(x)$ həndəsi silsilə cəmidir.

Ona görə də $F(x) = \dfrac{x^{n-1} - 1}{x - 1}, (x \neq 1)$

Differensialın məlum xassələrindən istifadə edərək alarıq,

$$S(x) = \frac{n \cdot x^{n+1} - (n+1)x^n + 1}{(x-1)}$$

Xüsusi halda, $T_1 = 4 - (n+2)2^{1-n}$, $T_2 = \dfrac{(499 \cdot 6^{100} + 1)}{2}$

Misal: Əgər $f(x)$ funksiyası $[a, b]$ parçasında kəsilməz və parçanın bütün daxili nöqtələrində $f(x) = 0$-dırsa, bu parçada funksiya sabitə bərabərdir.

1. *rcsinx*, $\varphi'(x) = \frac{\pi}{2} - arccosx\ olsun.$

$f'(x) = \frac{1}{\sqrt{1-x^2}}$; $\varphi`(x) = \frac{1}{\sqrt{1-x^2}}$. Bu törəmələr $[-1;1]$ aralığın bütün daxili nöqtələrində təyin olunmuş və bir-birinə bərabərdir. Onda,

$$\left(f(x) - \varphi(x)\right)' = f'(x) - \varphi'(x) = 0 \sim f(x) = \varphi(x) = C$$

Yəni *arcsinx*$-\left(\frac{\pi}{2} - arccosx\right)$ =*C*. Bu bərabərlik $[-1;1]$ parçasının bütün nöqtələrində doğrudur. Onda $x = 0$ nöqtəsində də doğru olar.

$$arcsin0 - \left(\frac{\pi}{2} - arccos0\right) = C \sim C = 0$$

Deməli, $arcsinx = \frac{\pi}{2} - arccosx - dir\ və\ ya\ arcsinx + arccosx = \frac{\pi}{2}$ eyniliyi doğrudur.

***Ədəbiyyat***

1. *Məmmədov Ə.M. Cəbr və analizin başlanğıcının tədrisi. Bakı, 1995*
2. *Məmmədov Ə.M. Funksiya və onun xassələri. Bakı, 2002*
3. *Mərdanov M.C., Yaqubov M.H. və b. Cəbr və analizin başlanğıcı X-XI siniflər üçün dərslik. Bakı, 2003-2007.*
4. *Tomayev C.İ., Tomayev Q.İ. Cəbr və elementar funksiyaların analizi. Bakı, "Maarif" 1988.*
5. *Yaqubov M.H., və b. Riyaziyyat abituryentlər üçün. Bakı, TQDK, 2010.*
6. *Вавилов В.В., Мельников И.И. и.др. Задачи по математике. М., 1987 Литвиненко В.Н., Мордкович А.Г. Практикум по элементарной математике. М., 1991*

**Ü.N.Həsənova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*ulviyyehesenova547@gmail.com*

# VIII SİNİFDƏ KVADRAT TƏNLİYİN HƏLLİNDƏ İSTİFADƏ OLUNAN ÜSULLAR

***Xülasə***

*Məqalədə məktəb riyaziyyat kursunun 8-ci sinfində tədris olunan kvadrat tənliyin müxtəlif həll üsüllarından bəhs edilir. Məqalənin əsas ideyası 8-ci sinifdə tədris olunan kvadrat tənliyin mümkün ola biləcək ən optimal, əlverişli üsullarla həllərinin tapılmasına həsr* olunub.

# МЕТОДЫ, ИСПОЛЬЗУЕМЫЕ ПРИ РЕШЕНИИ КВАДРАТНОГО УРАВНЕНИЯ В VIII КЛАССЕ

***Резюме***

*В статье рассказывается о различных методах решения квадратного уравнения, изучаемых в 8 классе школьного курса математики.Основная идея статьи посвящена нахождению решений квадратного уравнения, изучаемого в 8 классе, с использованием наиболее возможны оптимальные и удобные методы.*

# METHODS USED İN SOLVİNG THE QUADRATİC EQUATİON İN THE 8TH GRADE

***Summary***

*The article talks about different methods of solving the quadratic equation taught in the 8th grade of the school mathematics course. The main idea of the article is dedicated to finding the solutions of the quadratic equation taught in the 8th grade using the most optimal and convenient methods possible.*

***Açar sözlər :*** *kvadrat tənlik, diskriminant, tam kvadrat, əmsal, kök*

***Ключевые слова:*** *квадратное уравнение, дискриминант, полный квадрат, коэффициент, корень*

***Key words:*** *quadratic equation, discriminant, complete square, coefficient, root*

Məktəb riyaziyyat kursunun 8-ci sinif dərsliklərində keçirilən mühüm mövzulardan biri də kvadrat tənliklərdir. Şagirdlərə ilk olaraq kvadrat tənlik anlayışı, onun əmsalları, kvadrat tənliyin standart şəkli, həmçinin çevrilmiş kvadrat tənliklərin yazılış şəkilləri və s. haqda məlumat verilir. Belə ki, $a \neq 0$ *olmaqla* $ax^2 + bx + c = 0$ *şəklində olan* tənliyə kvadrat tənlik

deyilir. Burada a - birinci əmsal, b - ikinci əmsal, c - isə sərbəst hədd adlanır. Bu mövzunu şagirdlərin daha dərindən mənimsəməsi üçün onlara misallar göstərilməlidir.

**Misal:** $3x^2 - 2x - 7 = 0$ kvadrat tənliyində əmsalları göstərin.

**Həlli:** Verilmiş tənlikdə birinci əmsal a=3, ikinci əmsal b=-2, sərbəst hədd c= -7 olar.

Daha sonra şagirdlərə çevrilmiş kvadrat tənlik anlayışı izah olunmalıdır.

$ax^2 + bx + c = 0$ tənliyin hər iki tərəfini $a$ əmsalına bölsək, nəticədə $x^2 + \frac{b}{a}x + \frac{c}{a} = 0$ tənliyini alarıq. Burada isə $\frac{b}{a} = p, \frac{c}{a} = q$ ilə işarə etsək, $x^2 + px + q = 0$ tənliyini almış olarıq. Bu tənliyə çevrilmiş kvadrat tənlik deyilir.

**Misal:** $2x^2 - 6x - 8 = 0$ tənliyinin hər iki tərəfini 2-yə bölsək, onunla eynigüclü olan $x^2 - 3x - 4 = 0$ çevrilmiş kvadrat tənlik alırıq.

Çevrilmiş kvadrat tənlik anlayışını daxil etdikdən sonra artıq natamam kvadrat tənlik anlayışı daxil edilir. $ax^2 + bx + c = 0$ tənliyində b və c əmsallardan heç olmasa biri sıfır olarsa, belə tənliyə natamam kvadrat tənlik deyilir.

1) Əgər b və c əmsalları sıfıra bərabər olarsa, $ax^2 = 0$ şəklində olan tənlik alırıq. Bu tənliyi həll etmək üçün hər tərəfi $a$ əmsalına bölməliyik. O zaman $x^2 = 0$ *şəklində tənlik* alırıq. Burada isə kökləri $x_1 = x_2 = 0$. Deməli, hər iki kökü sıfıra bərabər olması üçün b=0 və c=0 olmalıdır.

2) Əgər c=0 və b$\neq 0$ olarsa, onda $ax^2 + c = 0$ şəklində tənlik alarıq. Bu tənlikdən $ax^2 = -c$ , $x^2 = -\frac{c}{a}$ almış olarıq. Burada a və c eyni işarəlidirsə, tənliyin kökü yoxdur. Bu şəkildəki tənliklərin həlli şagirdlər tərəfindən araşdırılmalıdır. Bu həllin kökalma əməlinə gətirildiyi aşkar edilir. Hər bir şagird natamam kvadrat tənliklərin bütün növlərinə aid nümunələr təqdim etməyi və hər biri üçün həqiqi köklərin sayını müəyyən etməyi bacarmalıdır.

3) Əgər b=0 və $c \neq 0$ olarsa, $ax^2 + bx = 0$ şəklində tənlik alarıq. Bu tip tənliklərdə vuruqlara ayırma metodundan istifadə edilir. Yəni, x(ax+b)=0 tənliyində biri həmişə sıfır olmaqla iki kökü var: $x_1$=0 və $x_2 = -\frac{b}{a}$.

Daha sonra bunlara aid nümunələr verək.

Nümunə 1: $3x^2 = 0$ tənliyini həll edək. Bunun üçün tənliyin hər iki tərəfini 3-ə bölək. O zaman $x^2 = 0$ tənliyini almış olarıq. $x_1 = 0$ və $x_2 = 0$ alınır.

Nümunə 2: $2x^2 - 5x = 0$ tənliyini həll edin.

Tənliyin sol tərərfini vuruqlara ayıraq. $x(2x-5)=0$ alınar. Buradan isə $x=0$ və $2x-5=0$ alınar. Deməli tənliyin $x=0$ və $x=2{,}5$ olmaqla iki kökü var.

Nümunə 3: $4x^2-8=0$ tənliyini həll edin. $4x^2=8$, $x^2=2$, $x=\pm\sqrt{2}$ olar. Yəni tənliyin kökləri $x_1=\sqrt{2}$ və $x_2=-\sqrt{2}$ olacaq.

Daha sonra şagirdlər kvadrat tənliyin daha bir həll üsulu olan vuruqlara ayırma üsulu ilə tanış edilir. $ax^2+bx+c=0$ kvadrat tənliyini vuruqlara ayırmaq üçün elə m və n ədədləri tapırıq ki, bu ədədlərin cəmi b-yə, hasili isə c-yə bərabər olsun. Yəni, m+n=b, mn=ac olacaq. O zaman, $ax^2+bx+c=ax^2+mx+nx+c=x(ax+m)+(nx+c)$ (1) alarıq. Digər tərəfdən mn=c olduğunu bilərək (1)-də yerinə qoysaq, $x(ax+m)+\frac{n}{a}(ax+m)=(ax+m)(x+\frac{n}{a})$ olduğundan verilmiş tənliyi aşağıdakı kimi yazaraq həll edə bilərik:

$$ax^2+bx+c=(ax+m)(x+\frac{n}{a})=0$$

**Misal:** $4x^2-13x+10=0$ tənliyini həll edək.
**Həlli:** Burada $a=4,\ b=-13,\ c=10$.
$4x^2-13x-10=4x^2-mx-nx-10$ şəklində yazaq. Bu halda hasili 10, cəmi -13 olan ədədləri tapaq. Həmin ədədlər -8 və -5 olacaq. $mn=40$, $m+n=-13$. Deməli $4x^2-13x+10=4x^2-8x-5x+10=x)=x(4x-5)-2(4x-5)$=(4x-5)(x-2). Deməli, (4x-5)(x-2) = 0 şəklində tənlik alırıq. Bu tənliyi həll etsək, 4x-5=0 , x=1.25 və x-2=0 , x=2 almış olarıq.

Kvadrat tənliyi həll etməyin digər bir üsulu isə tam kvadrat ayırmaqladır. Bu üsuldan istifadə zamanı $x^2+bx$ ikihədlisinə $(\frac{b}{2})^2$ ifadəsini əlavə etsək, tam kvadrata tamamlanar.

$$x^2+bx+(\frac{b}{2})^2=(x+\frac{b}{2})^2.$$

**Misal:** $x^2-20x+36=0$ tənliyini tam kvadrata ayırmaqla həll edək.
**Həlli:** İlk öncə tənliyi $x^2-20x=-36$ şəklində yazaq. Daha sonra hər iki tərəfə $(\frac{20}{2})^2$ əlavə edək: $x^2-20x+(\frac{20}{2})^2=-36+(\frac{20}{2})^2$, $x^2-20x+100=64$, $(x-10)^2=64$. Buradan isə, $(x-10)=\pm 8$ şəklində yazaraq həll edə bilərik: $x_1=18$ , $x_2=2$ alarıq.

Kvadrat tənliyin digər həll üsullarına baxdıqda, hər birində məhdudiyyətlərlə qarşılaşdığımızı görə bilərik. Buna görə də kvadrat tənliyin ümumi həll üsulundan daha geniş istifadə olunur. Bu üsul bütün kvadrat tənliklər üçün keçərlidir. İstənilən kvadrat tənliyin bu üsul vasitəsiylə köklərini tapmaq olar.

$ax^2+bx+c=0$ ümumi halda kvadrat tənlik verilmişdir. Bu tənliyin hər iki tərəfini a əmsalına bölək: $x^2+\frac{b}{a}x+\frac{c}{a}=0$ alarıq. Daha sonra tam kvadrata ayırma üsulundan istifadə etsək, $x^2+\frac{b}{a}x=-\frac{c}{a}$ alarıq. İndi isə hər tərəfə $(\frac{b}{2a})^2$ əlavə edək: $x^2+\frac{b}{a}x+\left(\frac{b}{2a}\right)^2=(\frac{b}{2a})^2-\frac{c}{a}$ ol tərəfi iki ifadənin kvadratı cəmi kimi yazaq, sağ tərəfi isə sadələşdirək. $(x+\frac{b}{2a})^2=\frac{b^2-4ac}{4a^2}$, əgər sağ tərəf mənfi deyilsə, hər iki tərəfdən kök alaq: $x+\frac{b}{2a}=\pm x=\frac{-b\pm\sqrt{b^2-4ac}}{2a}$. $x+\frac{b}{2a}=\pm\sqrt{\frac{b^2-4ac}{4a^2}}$ hər iki tərəfdən $\frac{b}{2a}$ çıxsaq, kvadrat tənliyin kökləri düsturunu alarıq: $x_{1,2}=\frac{-b\pm\sqrt{b^2-4ac}}{2a}$.

Kvadrat tənliyin kökləri düsturunu $D=b^2-4ac$ işarə etməklə, $x_{1,2}=\frac{-b\pm\sqrt{b^2-4ac}}{2a}$ kimi yazmaq olar. Kvadrat tənliyin həqiqi köklərinin varlığı onun diskriminantından (D) asılıdır.

1) $D>0$ olarsa kvadrat tənliyin iki müxtəlif həqiqi kökü var: $x_{1,2}=\frac{-b\pm\sqrt{b^2-4ac}}{2a}$

2) $D=0$ kvadrat tənliyin iki bərabər həqiqi kökü var: $x_{1,2}=-\frac{b}{2a}$.

3) $D<0$ kvadrat tənliyin həqiqi kökü yoxdur.

**Misal:** $3x^2-7x+4=0$ kvadrat tənliyini həll edin .

**Həlli:** Bu tənlikdə a=3, b=-7, c=4 olduğunu bilərək,
D= $b^2-4ac=(-7)^2-4\cdot4\cdot3=49-48=1$ olacaq. O zaman tənliyin iki kökü olacaq çünki, $D>0$ olduğuna görə:

$$x_{1,2}=\frac{7\pm\sqrt{1}}{2\cdot3}\quad,\ x_1=\frac{7+1}{6}=\frac{8}{6}=\frac{2}{3}\ ,x_2=\frac{7-1}{6}=\frac{6}{6}=1.$$

Kvadrat tənliyin köklərinin seçmə üsülu ilə tapılmasında Viyet teoremindən istifadə edilir. Viyet teoremini tətbiq etmək üçün ilk öncə kvadrat tənliyi çevrilmış kvadrat tənliyə gətirmək lazımdır. Yəni, $ax^2+bx+c=0$ tənliyində hər tərəfi a əmsalına bölürük. Nəticədə, $x^2+\frac{b}{a}x+\frac{c}{a}x=0$ tənliyini alırıq. Burada $\frac{b}{a}=p,\ \ \frac{c}{a}=q$ ilə işarə etsək, $x^2+px+qx=0$ tənliyini alarıq.

**Teorem:** Çevrilmiş kvadrat tənliyin kökləri cəmi əks işarə ilə ikinci əmsala, hasili isə sərbəst həddə bərabərdir. $x_1+x_2=-p, x_1\cdot x_2=q$ olacaq.

**Misal:** $x^2-12x+q=0$ tənliyinin kökləri fərqi 2 olarsa, $q$-nü tapın.

**Həlli:** Bu tənlik çevrilmiş kvadrat tənlik olduğuna görə $x_1+x_2=12\ ,x_1\cdot x_2=q$ olacaq. Digər tərəfdən şərtdə verilənə görə $x_1-x_2=2$ . İndi isə sistem tənlik vasitəsilə bu bərabərsizlikləri həll edək.

**Həlli:** $x^2 - 12x + q = 0$ tənliyi çevrilmiş kvadrat tənlikdir. Deməli, bu tənliyə Viyet teoremini tətbiq edə bilərik. Bu zaman $x_2 = 12$ , $x_1 \cdot x_2 =$ q olacaq. Şərtdə verilənə görə $x_1 - x_2 = 2$ . Verilənlərdən istifadə edərək, $\begin{cases} x_1 - x_2 = 2 \\ x_1 + x_2 = 12 \end{cases}$ burada tərəf-tərəfə toplama qaydasından istifadə edərək, $2x_1 = 14$ $x_1 = 7$ alırıq. Birinci tənlikdə yerinə qoyaraq $7 - x_2 = 2$ bərabərliyindən $x_2 = 5$ alarıq. Onda $q = x_1 \cdot x_2$ olduğundan $q = 7 \cdot 5 = 12$ alınar.

**Məqalənin aktuallığı.** Kvadrat tənliklərin öyrənilməsi şagirdlərin iki və dörd dərəcəli tənliklərin öyrənilməsində, müxtəlif tənlik qurmaqla həll olunan məsələlərin həllində rolu böyükdür.

**Məqalənin praktik əhəmiyyəti.** Məktəblərdə tədris olunan kvadrat tənlik anlayışının öyrənilməsi şagirdlərə çox geniş spektrdə real həyati situasiyaya aid məsələləri həll etməyin mümkün olduğunu göstərir.

**Məqalənin elmi yeniliyi.** Riyaziyyat dərslərində kvadrat tənliklərin bir deyil, bir neçə üsülla həll edilməsinin yolları göstərilir.

***Ədəbiyyat***

1. *A.S.Adıgözəlov. Məktəbdə riyaziyyat təliminin elmi əsasları. Bakı, 2018.*
2. *B.Ö.Tahirov, F.M.Namazov, S.C.Əliyev. Elementar Riyaziyyat. Bakı, 2017.*
3. *N.Qəhrəmanova, M.Kərimov, İ.Hüseynov. 8-ci sinif metodik vəsait. Bakı, 2019.*
4. *N.Qəhrəmanova, M.Kərimov, İ.Hüseynov. 8-ci sinif dərslik. Bakı, 2019.*

**E.V.İsazadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***elchin.isa@bk.ru***

# C++ OBYEKTYÖNLÜ PROQRAMLAŞDIRMA DİLİ KİMİ

***Xülasə***

*Məqalədə C++ dilinin obyekt yönümlü olub-olmamasından bəhs edilir, həmçinin obyektyönümlü proqramlaşdırmanın (OOP) əsas anlayışları və xüsusiyyətləri, həmçinin OOP-nin yaradılması və inkişafı tarixi müzakirə olunur.*

# C++ КАК ОБЪЕКТНО-ОРИЕНТИРОВАННЫЙ ЯЗЫК ПРОГРАММИРОВАНИЯ

***Резюме***

*В статье рассматривается, является ли язык C++ объектно-ориентированным, а также обсуждаются основные концепции и особенности объектно-ориентированного программирования (ООП), а также история создания и развития ООП.*

# C++ AS AN OBJECT ORIENTED PROGRAMMING LANGUAGE

***Summary***

*The article discusses the basic concepts and features of Object-Oriented Programming (OOP), as well as the history of the emergence and development of OOP, and examines whether the C++ language is Object-Oriented.*

***Açar sözlər:*** *proqramlaşdırma, OOP, C++, siniflər, sinif yaradılması, sinif nümunələri, sinif tənzimləyiciləri, xassələr*

***Ключевые слова:*** *программирование, ООП, C++, классы, создание класса, примеры классов, регуляторы класса, свойства*

***Key words:*** *programming, OOP, C++, classes, class, creation, class, examples, class, regulators, properties*

Obyektyönümlü proqramlaşdırma (OOP) ən populyar proqramlaşdırma paradiqmalarından biridir C++ proqramlaşdırma dili Java, C#, Python və JavaScript ilə birlikdə obyektyönümlü proqramlaşdırmanı dəstəkləyən bir çox dillərdən biridir.

Proqramlaşdırmada məlumat əməliyyatlarını yerinə yetirən prosedurların və ya funksiyaların yazılmasından, obyektyönümlü proqramlaşdırma isə həm məlumatları, həm də funksiyaları ehtiva edən obyektlərin yaradılmasından ibarətdir. Obyektyönümlü proqramlaşdırma prosedur proqramlaşdırmadan bir sıra üstünlüklərə malikdir:

- OOP daha sürətli və yerinə yetirmək asandır;
- OOP proqramlar üçün aydın bir quruluş təmin edir;
- OOP C++ kodunu quru saxlamağa kömək edir, "təkrar etməyin" və onu saxlamağı, dəyişdirməyi və ayırd etməyi asanlaşdırır;
- OOP, daha az kod və daha qısa inkişaf müddəti ilə tam, təkrar istifadə edilə bilən tətbiqetmələr yaratmağa imkan verir.

Bəzi tərtibatçılar C++ dilini obyektyönümlü dil hesab edir, digərləri isə bunun belə olmadığını iddia edirlər. İndi biz C++ -nın obyektyönümlü proqramlaşdırma dili olub-olmadığını başa düşmək üçün obyektyönümlü proqramlaşdırmanı müzakirə edəcəyik.

1. Obyektyönümlü proqramlaşdırma nədir?
2. C++ obyektyönümlü proqramlaşdırma dilidirmi?
3. C++ dilində obyektyönümlü proqramlaşdırma.

**1. Obyektyönümlü proqramlaşdırma nədir?**

Obyektyönümlü proqramlaşdırma siniflərə, obyektlərə və OOP-un dörd konsepsiyasına əsaslanan proqramlaşdırma paradiqmasıdır: irsiyyət, kapsulyasiya, abstraksiya və polimorfizm OOP, real dünyanın proqram təminatının hazırlanmasında istifadə etdiyimiz dəyişənlər və funksiyalardan deyil, obyektlərdən ibarət olmasına əsaslanır. OOP-da hər bir obyektin yerinə yetirə biləcəyi xassələri və funksiyaları var. Xassələri və funksiyaları paylaşan obyektlər, obyektin miras alacağı xüsusiyyətlər və funksiyalar üçün plan kimi xidmət edən siniflər və alt siniflərə qruplaşdırıla bilər. OOP-un əsas anlayışları bunlardır:

1. Varislik: Bir sinfin başqa bir sinifdən məlumat və davranışı mirasalma qabiliyyəti. Funksiyaları miras alan sinif törəmə sinifdir və funksiyaları irsi aldığı sinif isə əsas sinifdir.
2. Encapsulation: Verilənlərin üzərində əməliyyatlar apara bilən funksiyalara bağlanması. Başqa bir vacib OOP texnikası olan məlumatları gizlətməyə imkan verir.
3. Abstraksiya: İstifadəçiyə yalnız yüksək səviyyəli metodları göstərmək üçün daxili funksiyaların maskalanması.
4. Polimorfizm: Eyni işi müxtəlif yollarla yerinə yetirmək bacarığı.

Bir sərçə və pinqvin düşünün. Hər ikisinin gözü var, lakin uçmaq qabiliyyəti yoxdur. Bütün quşlar uçuş funksiyasını paylaşmır, ona görə də əsas quş sinfi uçuş funksiyası təyin etməyəcək, lakin uçan quşdan əldə edilən siniflər uçuş funksiyasını təyin edəcək. Obyektyönümlü dillərin başqa bir xüsusiyyəti ondan ibarətdir ki, onların sintaksisi açar sözlərə siniflərə, metodlara və digər üzvlərə girişi məhdudlaşdırmağa və müəyyən etməyə imkan verir. Bu açar sözlər inkapsulyasiya və abstraksiyanı həyata keçirmək üçün zəruri olan giriş spesifikatorları (və ya giriş dəyişdiriciləri) kimi tanınır. OOP-

un faydaları çoxdur. Daha az kodlu proqramlar hazırlamaq üçün OOP-dan istifadə edə bilərik. Obyektyönümlü proqramlaşdırma kodun təkrarını azaltmağa kömək edir ki, bu da kodun mürəkkəbliyini və məlumat ehtiyatını azaldır. O, həmçinin kodun təkrar istifadə imkanını artırır. İstifadəçilər digər proqramlarda istifadə edə biləcəkləri fərdi obyektlər və siniflər yarada bilərlər.

**2. C++ obyektyönümlü proqramlaşdırma dilidirmi?**

C++ geniş şəkildə obyektyönümlü proqramlaşdırma dili hesab olunur. Stroustrup C proqramlaşdırma dilinə obyektyönümlü funksiyalar əlavə edərək C++ dilini inkişaf etdirdi. Dilin obyektyönümlü proqramlaşdırma dili olduğunu deyəndə çox vaxt onun obyektyönümlü proqramlaşdırmanı dəstəklədiyini nəzərdə tuturuq. Bununla belə, OOP-u dəstəkləyən populyar dillərin əksəriyyəti ciddi şəkildə obyekt yönümlü dillər deyil. Bunlar tez-tez digər məşhur paradiqmaları dəstəkləyə bilən çox paradiqma dilləridir. C++ bu kateqoriyaya düşür, çünki o, çoxsaylı paradiqmaları dəstəkləyir. O, təkcə obyekt yönümlü dil deyil, həm də funksional və prosedur dilidir. OOP dili hesab oluna bilsə də, C++ sırf obyekt yönümlü dil deyil. Bunun bəzi səbəbləri:

- Obyekt əsas tələb deyil: təmiz OOP dili proqramdakı bütün funksiyaları obyekt kimi qəbul edir. Lakin C++ digər proqramlaşdırma paradiqmalarını dəstəklədiyi üçün heç bir obyektdən istifadə etmədən tam proqram yaza bilərsiniz.
- Sinif əsas tələb deyil: "main" funksiyası sinifdən asılı olmayaraq mövcud ola bilər.

Bu məqamları nəzərə alaraq, əminliklə demək olar ki, C++ qismən obyektyönümlü proqramlaşdırma dilidir.

**C++ dilində obyektyönümlü proqramlaşdırma**

C++ obyektyönümlü proqramlaşdırmanı həyata keçirmək üçün sizə lazım olan hər şeyi təklif edir. Onun sinifləri və obyektləri, giriş spesifikatorları və irsiyyət, inkapsulyasiya, abstraksiya və OOP polimorfizmi anlayışları var.

**C++da sinif yaradılması**

Biz qeyd elədik ki, OOP-də məlumatlar və bu məlumat üzərində icra olunan əməliyyatlar vahid tərkibdə birləşir və buna inkapsuyasiya deyilir. Həmin bu tərkib - Sinif adlanır. Siniflərin tərtibi əvvəlki başlıqda keçdiyimiz strukt tiplərə oxşayır. Siniflərin strukturlardan əsas fərqi ondan ibarətdir ki, sinfin bütün elementləri susmaqla əvvəlcədən qapalı hesab olunur və onlara yalnız bu sinfin hədləri olan funksiyalar yiyələnə bilər. Lakin sinfin elementlərinə yiyələnmə rejimi, onun aşkar göstərilməsi ilə dəyişdirilə bilər. Sinif tipi obyektlər üçün təyin edilir. Siniflərin elanı, strukturların elanına oxşardır. Siniflərin elan olunma sintaksisi aşağıdakı kimidir:

classSinfin_adı{};

Sinif elan etmək üçün əvvəlcə class açar sözünü yazırıq, yeni yaratdığımız sinfə verdiyimiz adı, daha sonra isə fiqurlu mötərizə qoyub, nöqtəvergül ilə tamamlayırıq. Sinfə istədiyimiz adı verə bilərik. Sinfin daxilində onun həddləri elan olunur. Sinfin iki cür həddləri ola bilər: dəyişən həddləri və funksiya həddləri. Sinfin həddləri müraciət edilmə xassələrinə görə fərqlənirlər. Misal üçün elə həddlər ola bilər ki, onlara sinfindən xaricdə müraciət etmək olmaz, yalnız sinfin daxilinə görünməlidi. Elə həddlər (funksiya və məlumat) onlara proqramın istənilən yerindən, eləcə də digər siniflərdən müraciət etmək olar. Elə həddlər ola bilər ki, varis siniflər onları görməməlidir və s. Bütün bu tip müraciətlərə nəzarəti təmin eləmək üçün C++ -da sinfin müraciət tənzimləyicilərindən istifadə olunur. C++ dilində sinfin 3 müraciət tənzimləyiciləri var, bunlar aşağıdakılardır:

- public
- private
- protected

Həddlər bu üç tənzimləyicidən birinə məxsus olmalıdır. Biz qısa olaraq ilk əvvəl istifadə edəcəyimiz public tənzimləyicisinin izahını verək.

\- public – ümumi, public kimi elan olunan həddlərə proqramın istənilən yerindən müraciət etmək olar. Eləcə də digər siniflərdən. Həddi public elan etmək üçün sinfin daxilində public yazıb qoşa nöqtə qoyuruq. Daha sonra sinfin hamı tərəfindən müraciət olunmasına icazə verilən həddlərini aşağıdakı kimi yazırıq,:

```
classSinfin_Adı{
public:
//umumi heddler bura yazilir};
```

Siniflərin təyinində onların obyektlərinə başlanğıc qiymətlərini mənimsətmək üçün konstruktor adlanan xüsusi funksiyadan istifadə etmək olar. Konstruktorun sinfin gövdəsində təyin etmə formatı aşağıdakı kimidir:

```
sinfin adı(formal parametrlər siyahısı)
{konstruktorun gövdəsinin operatorları}
```

Konstruktorun adı sinfin adı ilə üst-üstə düşməlidir. Bu cür funksiya, sinfin hər bir obyektinin "new" operatoru ilə təyini zamanı avtomatik olaraq çağırılır. Konstruktorun əsas təyinatı obyektlərin qiymətlərinin mənimsədilməsidir. Konstruktor ixtiyari sinif üçün yaradıla bilər. Eyni zamanda sinifdə bir neçə konstruktor ola bilər.

Gəlin int tipli en və int tipli uzunluq adlı public həddlərdən ibarət olan düzbucaqlı adlı yeni sinif tipi yaradaq. Yuxarıdakı izaha əsasən düzbucaqlı sinfinin elanı aşağıdakı kimi olar:

```
classdüzbucaqlı{
public:
```

int en;
int uzunluq;}

**Məqalənin aktuallığı.** OOP konsepsiyasının öyrənilməsinin aktuallığı ondan ibarətdir ki, obyektyönümlü proqramlaşdırma dilləri daha geniş yayılmışdır. Həmçinin OOP proqram təminatının işlənib hazırlanmasında populyar proqramlaşdırma paradiqmasıdır ki, bu da proqramçıya OOP-ni başa düşməyi və tətbiq etməyi zəruri edir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə obyektyönümlü proqramlaşdırmanın (OOP) əsas anlayışları və xüsusiyyətləri öz əksini tapmış, habelə C++ dilinin obyektyönümlü olub-olmaması araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən informatika fənnini tədris edən müəllim və tələbələr, həmçinin bu sahə üzrə fəaliyyət göstərən mütəxəssislər istifadə edə bilər.

***Ədəbiyyat***

1. *Велов В.В. Основыязыка Delphi Программирование в среде. Delphi 2009.*
2. *Aydın Yunus oğlu Əliyev, İnformatika və Proqramlaşdırma, Bakı 2008, 396 səh.*
3. *Ащарина И.В. Объектно-ориентированное программирование в C++: лекции и упражнения .*
4. *Əhməd Sadıqov, C++ proqramlaşdırma dili, Bakı 2016, 74səh.*
5. *İnternet resursu: https://www.neansoft.com/kitab-borland_c_plus-plus_proqramlasdirma-dili.html.*
6. *Sahib Hüseynov, Obyektyönümlü proqramlaşdırma 2014, Bakı 2014, 408 səh.*
7. *İnternet resursu: https://ilkaddimlar.com/ders/c1/sinifler*

**E.E.İbrahimova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*esmeraldakerimi20@gmail.com*

# ELEKTRON TƏHSİL RESURSLARININ YARADILMASI VƏ İSTİFADƏSİ MƏSƏLƏLƏRİ

***Xülasə***

*"Elektron Təhsil Resursları" (EER) termini kompüter texnologiyası əsasında hazırlanmış və təkrar istehsal olunan tədris vasitələrinin bütün spektrini birləşdirir. ESM-dən dərsdə istifadənin əsas məqsədi müasir məktəblilər üçün çox zəruri olan tədris prosesini yeni səviyyəyə çatdırmaqdır. Elektron təhsil resursu anlayışı daha genişdir - bura səs yazıları, video kliplər və tələbələrin kompüter və ya planşetdə keçirdikləri tədris kompüter oyunları, testlər, viktorinalar daxildir.*

# ТРЕБОВАНИЯ К СОЗДАНИЮ И ИСПОЛЬЗОВАНИЮ ЭЛЕКТРОННЫХ ОБРАЗОВАТЕЛЬНЫХ РЕСУРСОВ

***Резюме***

*Термин «Электронные образовательные ресурсы» (ЭОР) объединяет весь спектр средств обучения, которые разработаны и воспроизводятся на базе компьютерных технологий. Главная цель использования ЭОР на уроках – вывести образовательный процесс на новый уровень, который так нужен современным школьникам. Понятие электронного образовательного ресурса значительно шире – это и звукозаписи, и видеофрагменты, и обучающие компьютерные игры, тесты, викторины, которые ученики проходят на компьютере или планшете.*

# REQUİREMENTS FOR THE CREATİON AND USE OF ELECTRONİC EDUCATİONAL RESOURCES

***Summary***

*The term "Electronic Educational Resources" (EER) combines the entire range of teaching aids that are developed and reproduced on the basis of computer technology. The main goal of using ESM in the classroom is to bring the educational process to a new level, which is so necessary for modern schoolchildren. The concept of an electronic educational resource is much broader - it includes sound recordings, video clips, and educational computer games, tests, quizzes that students take on a computer or tablet.*

***Açar sözlər:*** *elektron təhsil resursları (ETR), multimedia, interaktivlik, didaktik prinsiplər*

***Ключевые слова:*** *электронные образовательные ресурсы (ЕОР), мультимедиа, интерактивность, дидактические принципы*
***Key words:*** *electronic educational resources (EER), multimedia, interactivity, didactic principles*

**Məqalənin aktuallığı.** Məqalə elektron tədris resurslarının (ETR) yaradılması və onlardan tədris prosesində istifadəyə həsr olunmuşdur. Belə resursların yaradılması və tədrisdə istifadəsi müəllimlərin bu sahədə xüsusi maariflənməsini tələb edir. Bu məsələlərə dair ölkəmizdə metodik xarakterli tədqiqatlar və məqalələr çox azdır. Məqalə həm də bu boşluğu doldurmaq məqsədi daşıyır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə YN ETR-nın yaradılmasında klassik pedaqoji ideyalardan istifadə imkanlarına baxılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalə YN ETR yaradılması və tədris prosesində onlardan istifadə etmək istəyən müəllim və tələbələr üçün praktik və tətbiqi əhəmiyyət daşıyır.

Elektron tədris resurslarının (ETR) təhsil prosesindəki yeri müəyyən edilərkən müxtəlif təhsil formalarının xüsusiyyətləri nəzərə alınmalıdır. Şagirdlərin ETR ilə müstəqil işini təmin etmək üçün zəruri metodiki dəstəyə ehtiyacları var. Buna uyğun olaraq, tədris-metodiki materialların elektron formada təqdimatı, onun strukturu və materialın şərh metodu seçilməlidir. Mümkün olan çoxsaylı istifadəçilər üçün tədris-metodik resurslara çıxışı təmin etmək, onlara fərdi yanaşma, fəal öyrənmə və əks əlaqə metodlarından istifadə məqsədəuyğundur.

ETR üçün bir sıra tələblər var. Bu tələbləri belə qruplaşdırmaq olar:

1. pedaqoji tələblər (didaktik prinsiplər; metodik tələblər; mövzu seçiminin əsaslandırılması; istifadənin pedaqoji məqsədəuyğunluğu və səmərəliyi);
2. texniki tələblər;
3. erqonomik tələblər;
4. estetik tələblər.

**ETR-nın ümumi didaktik prinsipləri:**

Ənənəvi təhsildə olduğu kimi, müasir ETR-da didaktik prinsip və qaydalar nəzərə alınmalıdır:

**Əyanilik prinsipi.** Ətraf aləmin öyrənilməsinin, dərki onun əsas yolları görmə, eşitmə, mücərrəd düşüncədir. Görmə və eşitmə bu zaman məlumatlandırıcı, informasiya qəbuledici kanallardır. Məhz informasiya qavrayışının bu mühüm kanalları təlimin əyaniliyini təmin edir, diqqəti fəallaşdırır, qavrayışı audio-vizual və digər multimedia vasitələri əsasında daha da səmərəli edir.

**İnteraktivlik.** Təlim prosesində şagird bir sıra interaktiv hərəkətlər edir: tədris materialı ilə tanışlıq, dinləmək, məzmun elementləri arasında

naviqasiya, kömək sisteminə daxil olmaq, yoxlayıcı sualları cavablandırmaq və s. Bütün bunlar şüurun və yaddaşın səmərəliyini artırmağa kömək edir.

**Praktika ilə əlaqə** (praktik istiqamətlik). Bütün bölmələr və təlim modulları üçün praktikiyönümlü təlim materialları təqdim olunur - praktiki tapşırıqlar, təlim tapşırıqları, test sualları, laboratoriya işləri və s. təqdim edilir.

Materialın təqdim edilmə metodu (sadədən mürəkkəbə, anlayışlardan məntiqə, bilikdən səriştəyə) qavrama üçün əlçatandır. Bu həm müəllimin (və ya valideynin) köməyi ilə, həm də müstəqil şəkildə öyrənməyə imkan verir.

**Elmilik.** Kursun məzmunu onunla əlaqəli (inteqrasiya olunmuş) elmlərə, o cümlədən yeni təhsil texnologiyalarının əsası kimi İKT ideyalarına əsaslanır.

**Ardıcıllıq.** Kursun məzmunu məntiqi ardıcıl və ya təkrar öyrənməyə, özünütəhsilə imkan verir. Dialoq interfeysi, keçid sistemi keçmiş və ya sonrakı təhsil məlumatlarına, eləcə də istənilən əlavə məlumatlara, habelə ensiklopedik məlumatlara müraciət etməyə imkan verir.

**Təqdimatın modulluğu və dəyişkənliyi.** Material təlim modullarına (modullar mövzulara əsaslanır) və mikromodullara (mikromodullar anlayışlara əsaslanır) bölünür. Modullar təlimi fərdi, dəyişkən, çevik və icra edilən təlim tapşırıqlarından asılı olaraq müxtəlif ardıcıllıqda qurula bilər.

Təlim kursunun konseptual materialları (əlavə məlumatlar istisna olmaqla), multimedia formasında təqdim edilməli, müəllif tərəfindən səsləndirilməlidir. Başqa sözlə, ETR vizual, eşitmə və motor yaddaşın fəallaşdırılması hesabına materialın tez və keyfiyyətli yadda saxlanılmasına kömək edir. Bununla belə, öyrənilən materialların test tapşırıqları da şagird üçün əlçatan olmalıdır.

**Metodik tələblər** müəyyən akademik fənnin orijinallığı və xüsusiyyətlərini nəzərə alır; müvafiq elmin xüsusiyyətlərini, konseptual aparatını, qanunların öyrənilmə üsullarını nəzərə alır; informasiya emalının müasir üsullarını həyata keçirir.

**Təhsil proqramlarına və universal təyinatlı proqram vasitələrinə (UTPV) verilən texniki tələblər**

UTPV-dən tədris prosesində səmərəli istifadə üçün onun məzmunu və texniki parametrləri nəzərə alınmalıdır. Bunun üçün əsas tələblər aşağıdakılardır:

1. Sadələşdirilmiş versiyanın olması;
2. Yükləmə sürəti (mətn və qrafikanın yaddaşda optimal həcmi);
3. Naviqasiya rahatlığı, informasiya axtarış sistemləri vasitəsi ilə daxil olmaq imkanı;
4. Yüksək dərəcədə interaktivlik;
5. Yaradılması üçün optimal və müasir alətlərdən istifadə;

6. Proqram təminatı icrasının keyfiyyəti (paralel proqramların işə salınma imkanı, sorğulara cavab sürəti, periferik qurğularla iş);

7. Multimedia vasitələrindən adekvat istifadə, multimedia komponentlərin orijinallığı və keyfiyyəti;

8. İstifadəçinin səhv və düzgün olmayan hərəkətlərinə qarşı reaksiyanın verilməsi.

**ETR-nın məzmununa olan erqonomik tələblər:**

1. Şagirdlərin yaş və fərdi xüsusiyyətlərini, fəaliyyətin təşkilinin müxtəlif formalarını, müxtəlif təfəkkür növlərini, intellektual və emosional fəaliyyətin bərpası nümunələrini nəzərə almaq;

2. Öyrənmənin motivasiya səviyyəsinin yüksəldilməsi, şagirdin elektron resursla qarşılıqlı əlaqəsində müsbət stimulların təmin edilməsi;

3. İnformasiyanın təsvirinə (rəng spektri, oxunaqlıq, təsvirin aydınlığı), mətnin ekranda yerləşməsinə dair tələbləri müəyyən etmək.

Elektron resursların məzmununa və təqdimatına estetik tələblər: estetik tərtibatın resursun funksional məqsədinə uyğunluğu; rəng çalarlarının təyinatına və erqonomik tələblərə uyğunluğu; qrafik və təsviri elementlərin nizamlılığı, ifadəliliyi.

**Elektron təhsil resurslarından istifadə**

**1. Yeni nəsil ETR-dan (YN ETR) istifadə prosesində müəllim və şagirdin rolu dəyişir.**

YN ETR-dan istifadəyə əsaslanan tədris prosesində müəllimin rolu qismən dəyişir. Müəllim pedaqoji prosesdə birbaşa bilik və məlumat mənbəyi kimi yox, əlaqələndirici və ya mentor kimi iştirak edir. Müəllimin klassik funksiyaları transformasiya edilir. YN ETR əsasında təhsil prosesinin layihələnməsi, təşkili də fərqli olur. Bu zaman:

- əsas diqqət şagirdlərin idraki fəallığının yüksəldilməsinə yönəldilir;
- müəllim təlim prosesinin meneceri, rejissoru rolunda çıxış edir, şagirdlərə təlim materiallarını ötürür, təlim vəsaitlərini təqdim edir;
- təlim materialı təhsil məqsədi kimi deyil, tədris fəaliyyətinin təşkili vasitəsi kimi istifadə olunur;
- şagird öz müəllimi ilə yanaşı fəaliyyət subyekti kimi çıxış edir, onun şəxsiyyətinin inkişafı isə təhsilin əsas məqsədlərindən biri kimi çıxış edir.

**2. YN ETR istifadəyə əsaslanan dərs modelləri**

YN ETR fəal istifadə tədris prosesinin yenidən qurulmasına və tədris vaxtının rasional istifadəsinə imkan verir.

Dərsin ənənəvi forması tədricən əhəmiyyətini itirir. Şagirdlər yeni məlumatları artıq təkcə sinifdə deyil, həm də evdə, sərbəst şəkildə, YN ETR-ilə iş prosesində mənimsəyir, internet və digər informasiya resursları ilə müstəqil

iş prosesində əldə edirlər. Təbii ki, bu zaman kitablar, lüğətlər, məlumat soraqçaları, ensiklopediyalar və s. öz əhəmiyyətini saxlayır.

Elektron tədris modullarının tərkibi üç blokdan ibarət ola bilər: informasiya bloku, praktiki bloku və nəzarət bloku.

Dərslərin təşkilinin müxtəlif didaktik modellərində bütün növ elektron tədris modullarından istifadə mümkündür.

**Elektron tədris modullarnın informasiya (İ) bloku:**

- təlim məlumatlarının verilməsi;
- faktların, nümunələrin, konsepsiyaların təsviri;
- müstəqil işin təşkili.

**Elektron tədris modullarnın praktiki (P) bloku:**

- biliklərin möhkəmləndirilməsi və praktikada tətbiqi.

**Elektron tədris modullarnın nəzarət (N) növü:**

- öyrənilən materialın təkrarı və möhkəmlənməsi;
- cari, tematik və yekun nəzarət.

Yeni təlim modelində müxtəlif növ dərslərin təşkili mümkündür. Belə dərslərin bəzi tipləri ilə tanış olaq:

1. Dərs tipi 1. YN ETR istifadə edərək yeni materialın tətbiqi. Bu zaman müəllim aparıcı rol oynayır.
2. Dərs tipi 2. YN ETR və tələbələrin müstəqil fəaliyyətindən istifadə edərək yeni materialın mənimsənilməsi.
3. Dərs tipi 3. YN ETR-dan istifadə edərək seminar dərslərinin təşkili. Dərsin hazırlanmasında tələbələrin müstəqil fəaliyyətinin təşkili.

**3. YN ETR-dən istifadə əsasında virtual laboratoriya işi.**

Yeni materialın tətbiqi ilə laboratoriya işi, tələbənin real obyektləri öyrənmək, virtual eksperiment aparmaq, nəticələri müstəqil şəkildə təhlil etmək, etibarlığını yoxlamaq kimi işləri əhatə edir. Bildiyiniz kimi, laboratoriya dərsinin səmərəliliyi daha çox geniş təlimatlardan, tələbələrin fəaliyyətini tənzimləyən yaxşı qurulmuş suallar və tapşırıqlar sistemindən, əldə edilən nəticələrin dərk edilməsindən asılıdır. Bütün bunlar müvafiq olaraq YN ETR vasitəsi ilə həyata keçirilir. Bu cür təlim iş bacarıqlarının formalaşmasına, öyrənilən materialların dərindən təhlilinə, tədqiqat bacarıqlarının inkişafına töhfə verir. Dərsin sxemi yeni materialın öyrənilməsində istifadə olunan məntiqə yaxındır.

**4. YN ETR-dan istifadə edərək seminarların təşkili.**

Praktiki məşğələlərin əsas tərbiyəvi məqsədi müəyyən növ məsələlərin həlli üçün bacarıq və vərdişlərin formalaşdırılmasıdır. Buna görə də, belə bir dərsin aparılması prosesində tələbələrə təklif olunan tapşırıqlar nisbətən sadə olmalıdır.

ETR-dən istifadə etməklə aşağıdakı praktiki dərs növlərini qeyd edə bilərik.

**Reproduktiv və fərdi xarakterli praktikum**

Bu cür dərsin əsas hissəsi test xarakterli tapşırıqlar olub, elementar bacarıqların formalaşmasına yönəli P tipli elektron tədris moduludur. Bununla yanaşı qərarları alqoritmik xarakter daşıyan və axtarış nəzərdə tutmayan tapşırıqlar da dərsin mühüm hissəsi hesab olunur.

**Fərdi emalatxana**

Bu cür dərsin əsasını P tipli elektron tədris modulu təşkil edir. O, fərdiləşdirilməmiş seminardan onunla fərqlənir ki, nəzəri hazırlığın səviyyəsindən, akademik perfomansından və idrak üslubundan asılı olaraq müxtəlif tələbə qruplarına müxtəlif ETR təklif olunur. Burada şagirdlər fərdi surətdə çalışırlar.

**Dərs - problemin həlli**

Belə bir dərsin məqsədi əldə edilmiş nəzəri biliklərə əsaslanaraq problemlərin həlli üçün yeni texnika və üsulların formalaşdırılmasıdır. Bu dərs fərdi iş və qrup şəklində həyata keçirilə bilər. Bu cür dərslərin əsasını həlləri alqoritmik xarakterli olmayan və araşdırma tələb edən P tipli ETR ibarət tapşırıqlar təşkil edir. P tipli elektron tədris modulu müəllim tərəfindən müəyyən edilir. Problemlərin həlli üçün lazımi məlumatları ehtiva edən I tipli elektron tədris modullarından da istifadə olunur. Eyni zamanda, müəllim müəyyən I tipli elektron tədris modullarını tövsiyə edə bilər.

**Dərs - fikirlərin müzakirəsi**

Bu dərsin məqsədi müxtəlif üsullarla əldə edilən məlumatların təhlili əsasında fərziyyələr irəli sürmək bacarığını inkişaf etdirməkdir. Belə bir dərsin, eləcə də müzakirə dərsinin keçirilməsi üçün əsas I və P tipli elektron tədris modullarının olmasıdır. Belə dərslərin keçirilməsi şəraitində ETR-in məzmunu ideyaların irəli sürülməsi, onun səmərəsinin əsaslandırılması üçün əsas kimi istifadə oluna bilər.

**Dərs - problemli seminar**

YN ETR-dan istifadə edərək şagirdlər tərəfindən müxtəlif mövzuların öyrənilməsi, onların problem tipli sual və tapşırıqların həllinə sövq edilməsi, müzakirələrə imkan verən seminarların təşkili mümkündür. Bu cür dərslərin keçirilməsi üçün hər növ elektron tədris modulundan istifadə mümkündür.

***Ədəbiyyat***

1. *Аврамов Ю.С. Практика формирования информационно образовательной средына основе дистанционных технологий //Телекоммуни-кации и информатизация образования. -2015. - № 2. -с.13-15.*

2. *Рахимов О.Д. и другие. Качество образования и инновационные технологии. “Издательство: Наука и технологии”, 2015 .*
3. *Турдиева Г.С. Сулайманова М.А. Методы организации электронных учебных ресурсов в образовательном процессе через платформу дистанционного обучения moodle // ACADEMY. Научно-методический журнал, 2020. No 5 (56). Стр. 40-43*
4. *Турдиева Г., Хотамова Д. Возможности программного обеспечения dreamweaver для создания образовательных сайтов Научно-методический журнал "ACADEMY". N 5 (44), 2019.*

**R.R.Məmmədli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mammadliroya2@gmail.com***

# FİZİKA DƏRSLƏRİNDƏ ŞAGİRD TƏFƏKKÜRÜNÜN İNKİŞAF ETDİRİLMƏSİNDƏ PARADOKSAL SİTUASİYALARIN ROLU VƏ ONLARDAN İSTİFADƏ METODİKASI

***Xülasə***

*Təqdim edilən məqalədə orta məktəbdə fizikanın tədrisi prosesində şagirdlərin tədris-təfəkkür fəaliyyətlərinin inkişaf etdirilməsində paradoksal vəziyyətin yaradılması, meydana çıxan ziddiyyətlərin həlli yolunun axtarılması, şagirdlərin analitik baxış, tənqidi düşünmə, yaradıcı tətbiqetmə qabiliyyətlərinin o cümlədən, günün tələbinə uyğun olaraq şagirdlərin tədqiqatçı şəxsiyyət kimi yetişdirilməsi məsələləri ön plana çəkilərək şərh edilmişdir. Həmçinin fənn müəlliminin mövzu ilə əlaqədar ziddiyyətli vəziyyətləri aşkar edib, müddəalar şəklində təqdim edərək, onlar arasında ziddiyyətli paradoksları meydana çıxartmasının mahiyyəti göstərilərək əks etdirilmişdir.*

# РОЛЬ ПАРАДОКСАЛЬНЫЕ СИТУАЦИИ В РАЗВИТИИ МЫШЛЕНИЯ УЧАЩИХСЯ УРОКАХ ФИЗИКИ И МЕТОДИКА ИХ ИСПОЛЬЗОВАНИЯ

***Резюме***

*В представленной статье рассматривается создание парадоксальной ситуации в развитии учебно-мыслительной деятельности учащихся в процессе обучения физике в школе, поиск решения противоречий, аналитического видения учащихся, критического мышления, представлены творческие прикладные способности, а также развитие учащихся как исследовательских личностей в соответствии с требованиями времени. Также была показана и отражена сущность учителя-предметника, обнаруживающего противоречивые ситуации, связанные с темой, излагая их в виде суждений, и выявляя между ними противоречивые парадоксы.*

# THE ROLE OF PARADOXIC SITUATIONS IN THE DEVELOPMENT OF STUDENT THINKING IN PHYSICS LESSONS AND THE METHODOLOGY OF USING THEM

***Summary***

*The present article discusses the creation of a paradoxical situation in the development of the educational and mental activity of students in the process of teaching physics at school, the search for a solution to contradictions, the analytical vision of students, critical thinking, presents creative applied abilities, as well as the*

*development of students as research personalities in accordance with the requirements of the time. The essence of the subject teacher was also shown and reflected, revealing contradictory situations related to the topic, presenting them in the form of judgments, and revealing contradictory paradoxes between them.*

***Açar sözlər:*** *fizika, tədris, paradoks, situasiya, məntiqi təfəkkür, istidən genişlənmə, tədqiqatçılıq*
***Ключевые слова:*** *физика, учение, парадокс, ситуация, логическое мышление, тепловое расширение, исследование*
***Key words:*** *physics, doctrine, paradox, situation, logical thinking, thermal expansion, research*

XXI əsrin təhsili, təlimin məzmun və texnologiyasının strukturunda bir sıra dəyişiklərin edilməsi zərurətini meydana gətirdi. Müasir dövrün qlobal çağırışları təhsildə həlli vacib olan məsələləri daha da qabartmaqla, dövlət və cəmiyyətin həyatının prioritetinə çevirdi. Çünki müasir dövrdə təhsilin inkişafı, şagird şəxsiyyətinin inkişafının yüksək səviyyədə qurulmasını təmin edir ki, bu da şagirdlərin praktik bacarıqlarını məntiqi təfəkkürlərini və idrak fəallıqlarının inkişafına xidmət etməlidir. Bu məqsədlə müasir dövrün tələb və təkliflərinə uyğun olaraq müəllimlər bilik, bacarıq, vərdişlərə yiyələnməklə yanaşı tədris prosesinin yüksək səviyyəli təşkili üçün bir sıra üsul və vasitələrdən istifadə etməlidir. Şagird təfəkkürünün inkişaf etdirilməsi isə bu məsələnin ən başlıca meyarıdır. Hazırda təhsilin inkişafının əsas tendensiyası "Təhsil elmi tədqiqatın təhsil modelidir" konsepsiyasına əsaslanmaqla, orta məktəb fizika kursunun tədrisində şagirdləri tədqiqatçılığa, elmi yaradıcılığa sövq edən metodların tətbiq edilməsi başlıca məsələdir. Bu məqsədlə fizika müəllimləri tədris prosesində şagirdləri axtarışa istiqamətləndirən, bir sıra əqli əməliyyatlar icra etdirən (*analiz, sintez, müqayisə, ümumiləşdirmə*) şagirdləri analitik düşünməyə məcbur edən, onlarda baxılan məsələnin həllinə tənqidi baxışlar formalaşdıran, məntiqi və tənqidi təfəkkürü inkişaf etdirən paradoksal situasiyalar yaratmaqla tədris prosesini həyata keçirməyə ciddi ehtiyac vardır.

Paradoksallıq bir çox müəlliflərin dediyi kimi, dünyanın müasir elmi biliyinin xarakterik xüsusiyyətidir. Daim genişlənən biliklər vaxtaşırı, nəinki fikir ayrılığına, hətta köhnə dogmatik biliklərlə də ziddiyyət təşkil edir. Bəzən bu ziddiyyət o qədər kəskinləşir ki, onu paradoks adlandırmaq olar. Məsələn, cisimlərin sərbəst düşməsi və planetlərin orbitlərdə hərəkəti kimi müxtəlif hərəkət növlərini birləşdirən Nyutonun universal cazibə qanunu da paradoksallıqdan xali deyil.

Əvvəllər paradokslar ilk növbədə biliyə son dərəcə zəhlətökən bir maneə kimi qəbul edilirdi. Bu gün elmin ziddiyyətlər, paradokslar onların özünəməxsus kəskin forması kimi, elmi biliyin inkişafının təbii nəticəsi kimi

qəbul edilir. Deməli, paradokslar o zaman yaranır ki, bir-birini təkzib edən (ziddiyyətləri) iki mühakimə yürütməklə eyni dərəcədə sübut oluna bilsin. Paradoks (yunan dilindən - gözlənilməz, qəribə) - 1) ümumi qəbul edilmiş, ziddiyyətli (bəzən yalnız ilk baxışda) sağlam düşüncə ilə kəskin şəkildə ziddiyyət təşkil edən fikir, əsaslandırma; 2) adi fikirlərə uyğun gəlməyən qeyri-adi, gözlənilməz hadisə; 3) əsaslandırmanın məntiqi düzgünlüyünü saxlamaqla mənalı çoxluq nəzəriyyəsi və formal məntiqdə yaranan formal-məntiqi ziddiyyət kimi başa düşülür. Deməli, paradoks ümumi qəbul edilmiş fikirlərlə ziddiyyət təşkil edən, eyni zamanda (bəzən yalnız ilk baxışda) sağlam düşüncəyə zidd olan fikir, ifadədir (2).

Təhsilin məzmununun dəyişməsilə, müəllimlərin funksiya və vəzifələri dəyişmiş, məlum olduğu kimi onlar təkcə bilik mənbəyi, bilik verən deyil, biliyin müstəqil mənimsənilməsini təşkil edən, öyrənməni öyrədən, fasilitatorluq funksiyasını ifadə etməyə başlamışdır. Məhz belə olan halda fizikanın öyrənilməsi prosesində, biliklərin müstəqil mənimsənilməsi və tətbiqində süni və təbii şəkildə paradoksal situasiyaların yaradılması məsələsi daha da aktuallaşır.

Heç təsadüfi deyil ki, görkəmli fizik Albert Eynşteyn yazırdı: “Müəllimin ən böyük ustalığı - qarşısındakı öyrənənə idrakı məsələlərin həllinə və yaradıcılığına həvəs yaratmaqdır. Bunu, fənninə maraq oyatmağa çalışan hər bir müəllim yadda saxlamalıdır”. Xüsusən də bu məsələ ətraf aləmin öyrənilməsinə xidmət edən fizika fənni üçün olduqca önəmli hesab edilir (1). Bu istiqamətdə müəllim tədris prosesində şagirdlərin sıxlıq anlayışına dair biliklərinə istinad edərək belə bir maraqlı sualla sinifə müraciət edir: “Sizin fikrinizcə polad materialdan hazırlanmış iynə suda batarmı?” Şagirdlər bir qədər düşündükdən sonra bir qayda olaraq cavab verirlər: “Bəli, batar. Çünki iynənin hazırlandığı materialın sıxlığı suyun sıxlığından çox böyükdür.” Lakin müəllim içərisində su olan nəlbəkiyə iynəni ehtiyatla qoyur və iynə batmır (şəkil1).



**Şəkil 1.**

Yaranan paradoksal vəziyyət şagirdlərin marağına səbəb olur. Adətən, cismin suda batmaması üçün onun sıxlığı ya suyun sıxlığından kiçik, ya da ona bərabər olmalıdır. Əlbəttə, metalın sıxlığı suyun sıxlığından böyükdür. Lakin iynə ağırlıq qüvvəsindən daha güclü olan səthi gərilmə qüvvələri sayəsində suda batmır. Bu qüvvələrə görə su özünü səthi plyonka ilə örtülmüş kimi aparır. Bu plyonkada ilişmə qüvvələri ağırlıq qüvvəsinə qarşı yönəlir və iynə batmır. Gec və ya tez iynənin səthi islanacaq və iynə batacaq. Lakin iynəni piylə yağlasaq onun batmasının qarşısını almaq olar. Bu misalı canlılara da (həşəratlərə) aid etmək olar. Beləki, çoxlu həşəratlar var ki, onlar səthi gərilmə sayəsində su üzərində asanlıqla dura və sürətlə hərəkət edə bilirlər. İndi isə 8-ci sinif fizika dərsliyində “Cisimlərin istidən genişlənməsi” mövzusunun tədrisi ilə bağlı şagirdlərin müstəqil işləmək üçün təqdim edilmiş bir layihə-təcrübəyə nəzər yetirək.




**Şəkil 2.**

Şəkil 2-də göstərildiyi kimi şüşə butulkanı isti su ilə doldururuq (a). Bir neçə dəqiqə keçdikdən sonra suyu boşaldıb, butulkanın ağzına dərhal rezin şar keçiririk (b), butulkanı soyuq su şırnağının altına tutduqda şarın butulkanın içərisinə tədricən sorulduğunu izləyirik (c). Belə olan halda müəllim sinifdə əyləşən şagirdlərə müraciət edərək soruşur: “Nə üçün butulkanı soyutduqda rezin şar onun içərisinə soruldu”? Müəllimin sorğusu ilə birlikdə şagirdlərdə əqli əməliyyatların icrası prosesi başlanır. Onlar təcrübənin nümayişi ilə əlaqədar müxtəlif fikirlər, fərziyyələr irəli sürürlər. Yekunda müəllim şagirdlərin fikirlərini ümumiləşdirərək qeyd edir ki, butulkanı isti su ilə doldurduğumuz zaman divarları qızır. Butulkanın içərisindəki suyu boşaltdıqda butulkanın içərisinə müəyyən qədər hava dolmuş olacaq. Butulkanın içərisindəki istidən genişlənən hava butulkanı tərk edir və beləliklə, şüşə butulkanın içərisində seyrəkləşmiş hava yaranır. Şarı soyuq suya tutduğumuz zaman isə içərisindəki hava sıxılır (b). və sıxılma nəticəsində seyrəklik yaranır. Müəllim şagirdlərə müraciət edərək bildirir ki, seyrəkləşmiş qazda molekulların sayı azdır. Şagirdlər 7-ci sinif təzyiq bəhsinə dair biliklərinə istinad edərək bildirirlər ki, molekulların sayının azlığı təzyiqin azlığıdır. Axı

qazın təzyiqi molekulların vurduğu zərbələrin sayıdır. Və beləliklə, müəllim nəticəni belə əsaslandırır ki, soyuq su şırnağının altında genişlənən havanın sıxılması nəticəsində şarın üzərinə xaricdən vurulan təzyiq, daxildən vurulan təzyiqdən çox olduğundan şar butulkanın içərisinə doğru sorulmağa başlayır. 8-ci sinif fizika dərsliyində "İstilik balansı tənliyi" mövzusuna dair belə bir təcrübəyə diqqət yetirək. Şəkil 3-də təsvir edildiyi kimi kağız stəkana bir qədər su töküb ştativin halqalı tutqacında yerləşdirin. Stəkanın altında spirt lampası (və ya şam) qoyub fitili yandırın. Alov stəkanı altdan demək olar tamamilə bürüyür. Şagirdlər belə hesab edirlər ki, kağız stəkan alovlanacaq və su dağılacaqdır. Lakin nə baş verir: Alov stəkanı tamamilə bürüməkdə, su isə qızmaqda davam edir.

**Şəkil 3.**



Müəllim şagirdlərdən soruşur: "Niyə kağız stəkan alovlanmadı?" Şagirdlər hadisənin gedişi ilə əlaqədar kiçik qruplar daxilində və ya fərdi şəkildə mühakimə yürüdürlər. Bu kimi situasiyalar şagirdləri qrup daxili ünsiyyətə cəlb etməklə onları baxılan hadisə və prosesin aktiv iştirakçısına çevirir. Sonda müəllim şagirdlərə xatırladaraq bildirir ki, maye daxilində olan cismə iki qüvvə təsir edir. Yuxarı yönələn Arximed qüvvəsi və aşağı yönələn ağırlıq qüvvəsi. Mayeni qızdırarkən əvvəlcə mayenin aşağı qatlarındakı maye molekulları qızır, qızan molekullar Arximed qüvvəsinin təsiri nəticəsində mayenin səthinə qalxarkən, mayenin səthində olan soyuq su molekulları isə ağırlıq qüvvəsinin təsiri altında aşağı qatlara enir. Bu proses maye daxilində istilik tarazlığı yaranana qədər davam edir.

Yuxarıda qeyd edilənlərdən belə bir nəticəyə gəlmək olar ki, fizika fənninin tədrisinin səmərəliliyini, keyfiyyətini yüksəltmək üçün istifadə olunan təlim metodlarından, paradoksal situasiyalar, bu istiqamətdə böyük rol oynayır. Belə ki, yaradılan ziddiyyətli anların birində yaranan sual, hadisə barədə özü topladığı ilkin məlumata söykənən şagird, digərində isə sualın doğru cavabına malik olan müəllim durur. Sanki bu iki qütb arasında həqiqət uğrunda mübarizə gedir. Doğru cavabı aldıqdan sonra şagird yenidən öz əvvəlki tədqiqatçı mövqeyinə qayıdır və bu da verilən materialın mənimsəmə faizini artırır, məlumatların etibarlılığını, səmərəliliyini yüksəltməklə, onların təfəkkürünün inkişafına, yeni elmi məlumatların arxasınca getməyində əhəmiyyətli rol oynayır. Başqa bir neçə nümunəyə nəzər yetirək:

1. Yeri əhatə edən atmosfer qatında, yəni yerin səthindən müəyyən yüksəkliyə qalxdıqca qazların paylanması ardıcıllığı şəkil 4-də göstərildiyi kimi olmalıdır.




**Şəkil 4.**

Şagirdlərin 8-ci sinifdə kimyadan öyrəndikləri biliklərinə istinad edərək şəkil 4-də göstərilən mənzərə onlara təqdim edilir. Bu düzülüş doğrudurmu? Onlar kimyadan qazların xüsusuyyəti ilə əlaqədar müvafiq biliklərinə istinad edərək təhlillər aparılar. Yəni, nisbi atom kütlələrinə görə azot yüngül olduğu üçün yüksəklikdə, ondan bir qədər ağır oksigen isə ondan aşağıda şəkil 4-dən göründüyü kimi karbon qazı isə yer təbəqəsinə ən yaxın məsafədə səpələnmiş vəziyyətdə olmalıdır. Bu da o deməkdir ki, yer səthində yaşayan bütün canlılar, o cümlədən insanlar bu qazın mənfi təsirinə məruz qalmalıdırlar. Əslində isə bu hadisə baş verirmi? Xeyr. Bunun səbəbi nədir? sualları ilə müvafiq paradoksal situasiyalar yaradıla bilər.

2. Səkkizinci sinifdə "Maddənin aqreqat halının dəyişməsi" mövzusunu öyrənərkən şagirdlərə suyun qaynama temperaturunun atmosfer təzyiqindən asılı olduğu haqqında məlumat verilir. Buna görə də, onlar belə nəticə çıxarlar ki, eyni atmosfer təzyiqində suyun qaynama temperaturu eynidir. Belədirmi?

Buna müvafiq 3 növ mühakimə tərtib etmək olar.

A: Eyni atmosfer təzyiqində suyun qaynama temperaturu eynidir;

B: Bəzi hallarda eyni atmosfer təzyiqində suyun qaynama temperaturu fərqli olur;

C: Eyni atmosfer təzyiqində suyun qaynama temperaturu müxtəlifdir;

Ç: həmişə (bəzən) eyni atmosfer təzyiqində, suyun qaynama temperaturu eynidir.

A - C müddəaları arasındakı ziddiyyəti aşkarlayaq.

İçərisində eyni miqdar su olan iki qabı götürüb qızdırıcının üzərinə qoyuruq. Hər iki qabda suyun həcmi eynidir. Qablardan birinin daxili səthi

hamar, digərinki kobud, nahamardır. Qabların hər ikisinə termometr yerləşdiririk.

Sual olunur - bu qablarda su hansı temperaturda qaynayacaq? Şagirdlər qeyd edirlər ki. "Atmosfer təzyiqi eyni olduğu üçün qaynama temperaturları da eyni olacaq" cavabını dinlədikdən sonra qızdırıcını işə salırıq. Sonra qabların qızdırılması nəticəsində kobud səthə malik qabdakı suyun daha tez aşağı temperaturda qaynadığının şahidi oluruq. Niyə?

**Həlli:** Empirik olaraq müəyyən edilmişdir ki, mayenin qaynama temperaturu qabın materialından, onun təmizlik dərəcəsindən və həll olunmuş qazın növündən asılıdır. Bundan əlavə, bərk cismin səthi ona yapışmış kimi görünən qaz molekullarını saxlamaq qabiliyyətinə malikdir. Maye qızdırıldıqda, içərisində həll olunan hava qaz molekullarını birləşdirərək qabın divarlarına toplanır. Daxili səth kobud olduğundan, hava qabarcıqlarının sayı daha çox olur və bundan əlavə, hamar olan səthin çıxıntılı nöqtələri olmadığından buxar qabarcıqları daha sürətli hərəkət edərək buxarlanır. Buna görə hamar səthə malik qabda su, o birinə nəzərən daha yüksək temperaturda qaynayacaqdır.

Aparılan uzun müddətli məktəb təcrübəsi göstərir ki, mövzunun öyrənilməsində paradoksal situasiya yaratmaq üçün mütləq mövzuda baş verən hadisədə cərəyan edən zidiyyətli məqamları aşkara çıxarmaq, sonra isə onları ***müddəa*** şəklində şagirdlərlə birlikdə həll etmək lazımdır. Bu zaman şagirdlərin bütün təfəkkür əməliyyatları aktiv olacaqdır. Yəni, fizika müəllimi istənilən qədər belə paradoksal situasiyalar yaratmaqla şagirdləri düşünməyə, müxtəlif təfəkkür əməliyyatları (*analiz, sintez, ümumiləşdirmə, mücərrədləşdirmə* və s.) aparmağa yönəldə bilər. Bu da şagirdlərə tədris materialını yaxşı mənimsətməklə onların dərin elmi biliklərə yiyələnmələrini təmin edir ki, nəticədə məntiqi, tənqidi təfəkkürlərinin inkişafı təmin edilir.

***Ədəbiyyat***

1. *Əlizadə Ş.H., İsmayılov İ.N. Fizikanın tədrisi metodikası (ümumi məsələlər). Bakı. 2018*
2. *İsmayılov İ.N. Fizikanın tədrisi metodikasının müasir problemləri. Bakı, "ADPU-nun nəşri", 2019.*
3. *İsmayılov İ.N., Zümrüd Vidadi qızı. Fizikanin tədrisində paradokslardan istifadə şagird təfəkkürünü inkişaf etdirən amillərdən biri kimi (Ümumtəhsil orta məktəb fizika materialları əsasında). Pedaqoji Universitet Xəbərləri. Bakı, 2016, № 2s.106-116*
4. *Murquzov M. İ. və s. 7 və 8-ci sinfin fizika dərslikləri. Bakı, 2018*
5. *Ситнова Е.В., Развитие парадоксальности мышления как фактор обеспечения качества физического образования. Санкт-Петербург. 2010, 156 с.*

**N.T.Ələsgərli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*elesgerlinergiz2000@gmail.com*

# TƏFƏKKÜR FƏALİYYƏTİNİ İNKİŞAF ETDİRƏN VASİTƏ KİMİ OYUN TEXNOLOGİYALARININ XARAKTERİSTİKASI

***Xülasə***

*Riyazi oyun riyazi düşüncənin təməlinin qoyulduğu, real həyat təcrübəsi üzərinə qurulmuş inkişafetdirici bir fəaliyyətdir. Riyaziyyat insan zəkasının bir məhsulu olan fikir yürütmə, təxmin etmə və məntiqi mühakimə çıxarma kimi aktların üzərinə qurulduğu üçün uşaqlıqdan etibarən oynanan oyunlarda da bu fəaliyyətlərin yerinə yetirildiyini söyləmək mümkündür. Riyazi anlayışları şagirdlərin tətbiq edərək və əylənərək öyrənməsini təmin etməyin ən effektiv üsullarından biri bu oyunları genişləndirərək təlim mühitinə daşımaqdır. Oyunlar şagirdə elmin inkişafında riyaziyyatın rolunun və real həyatda riyaziyyatın əhəmiyyətinin fərqində olma, riyaziyyatı öyrənə biləcəyinə inamın yaranması ilə özünəinam formalaşdırma, öyrənməyə istəkli olma, məsələ həll etməkdən zövq alma və səbirli olma kimi bacarıqlar qazandırır. Bundan başqa, oyunlar şagirdlərin koqnitiv bacarıqlarının aktivləşməsini təmin edir. Beləliklə, oyunlar şagirdlərin riyazi təfəkkürünü inkişaf etdirərək dərsin məhsuldarlığını və keyfiyyətini artırır.*

# ХАРАКТЕРИСТИКА ИГРОВЫХ ТЕХНОЛОГИЙ КАК СРЕДСТВА РАЗВИТИЯ МЫСЛИТЕЛЬНОЙ ДЕЯТЕЛЬНОСТИ

***Резюме***

*Математическая игра – это развивающая деятельность, основанная на реальном жизненном опыте, где закладывается фундамент математического мышления. Поскольку математика является продуктом человеческого интеллекта, она основана на таких действиях, как рассуждения, предположения и логические суждения. Один из наиболее эффективных способов обеспечить усвоение учащимися математических понятий посредством практики и развлечения — внедрить эти игры в учебную среду. Игры дают учащемуся такие навыки, как осознание роли математики в развитии науки и важности математики в реальной жизни, формирование уверенности в себе за счет создания уверенности в том, что он может выучить математику, желание учиться, удовольствие от решения задач, и набраться терпения. Кроме того, игры обеспечивают активизацию познавательных навыков учащихся. Таким образом, игры повышают продуктивность и качество урока, развивая математическое мышление учащихся.*

# CHARACTERİZATİON OF GAME TECHNOLOGİES AS A MEANS OF DEVELOPİNG THİNKİNG ACTİVİTY

***Summary***

*A mathematical game is a developmental activity based on real-life experience, where the foundation of mathematical thinking is laid. Since mathematics is a product of human intelligence, it is based on actions such as reasoning, guessing, and making logical judgments. One of the most effective ways to ensure that students learn mathematical concepts through practice and fun is to extend these games into the learning environment. The games give the student such skills as being aware of the role of mathematics in the development of science and the importance of mathematics in real life, building self-confidence by creating confidence that he can learn mathematics, being willing to learn, enjoying solving problems, and being patient. In addition, games ensure the activation of students' cognitive skills. Thus, games improve the productivity and quality of the lesson by developing students' mathematical thinking.*

***Açar sözlər:*** *təfəkkür, oyun texnologiyası, riyazi oyun, koqnitiv bacarıqlar, inkişaf, xarakteristika*

***Ключевые слова:*** *мышление, игровая технология, математическая игра, познавательные способности, развитие, характеристика*

***Key words:*** *thinking, game technology, mathematical game, cognitive skills, development, characterization*

Oyunlar həyatımızın hər dövründə var olan, hər yaşda fərqli məqsədlər üçün faydalandığımız vazkeçilməz və əvəzolunmaz strukturlardır. Oyun anlayışı üçün konkret bir tərif ortaya qoymaq çətindir. Müxtəlifliyi, formaları, tətbiq səviyyələri və sahələrinə görə insandan-insana dəyişən tərifdir. Oyunu "istirahət, yenidən qurma, özünü ifadə etmə və sosial bir mədəni element" kimi bir sıra ifadələrə bərabər tutmaq olar. Daha sadə dillə desək, bir ya da daha çox şəxsin müəyyən qaydalar əsasında rəqabət edərək, ya da əməkdaşlıq edərək müəyyən bir hədəfə çatmaq üçün fəaliyyət göstərməsi kimi ifadə etmək olar. Oyun yeni bir şey ilə tanışlığın ilk mərhələsi rolunu da oynayır. Oyun həyatımıza müəyyən bir mühitdə "əşya nə üçündür?" sualı əvəzinə "bu əşya ilə nə edə bilərəm?" sualına cavab tapmağa imkan yaradan strukturdur (4, s. 41).

Faulkner (5) oyunun riyazi düşüncənin təməllərinin atıldığı, real həyat təcrübələri üzərinə qurulmuş bir proses olduğunu bildirmişdir.

İdrak və strukturist nəzəriyyələrdə diqqət cəlb edən məsələlərdən biri də fərdlərin inkişafında böyük əhəmiyyət daşıyan uşaqlıq dövrüdür. Bu dövrdə uşaqlar üçün oyun vazkeçilməz öyrənmə mühiti hesab olunur. Edərək öyrənmə olduqca əhəmiyyətlidir və uşaqlar oyun içərisində xarici dünyadan aldıqları məlumatları əvvəlcə təqlid, sonradan isə qaydaların köməyilə inkişaf etdirərək öyrənməni həyata keçirir.

Böyüklərin fikrincə, əylənmək vaxt xərcləmə yeri olaraq görülsə də, əslində oyunlar koqnitiv və psixomotor davranışların bir arada formalaşdırıldığı mühitdir. Xəyal edilmiş situasiyaların və hadisələrin canlandırılması yolu ilə biliklər mənimsədilir. Buna görə də, oyunlar bir sıra komponentləri özündə birləşdirir. Oyunlar içərisində uşaqlar təxəyyül bacarıqlarını işə salaraq öz həyat fəaliyyətlərini təşkil etməyi, nizama salmağı öyrənirlər.

Öyrənmə və öyrənmə mühitləri arasındakı əlaqələr təhlil edildiyində oyun texnologiyasından istifadənin bütün ehtiyacları ödəyə biləcək keyfiyyətə malik olduğu müəyyən edilmişdir. Çünki oyunlar şagirdlərin fəal olaraq iştirak edib, fərdi olaraq təfəkkür inkişaflarının təmin olunması ilə yanaşı, edərək-yaşayaraq öyrənmələrinə imkan yaradır (2, s. 18):

- Şagird mövzu ilə maraqlanırsa, öyrənmə həyata keçir. Bu səbəbdən, bütün təlim vasitələri və materialları şagirdin dərsdə fəal iştirakına cəsarət verəcək formada hazırlanmalı və seçilməlidir.
- Sinifdə öyrənilənlərin real həyatdakı situasiyalarda tətbiq edilə bilinməsi şagirdlərin təfəkkür inkişafına müsbət təsir göstərən amillərdən biridir.
- Rəsmlər, filmlər və digər bütün təlim materialları verbal izahın daha yaxşı anlaşılmasına kömək edir. Bu yolla, şagirdlərin vizual təfəkkürü inkişaf edir.
- Öyrənmə mühitləri hər şagirdin öz tempinə görə irəliləyə bilməsinə imkan verəcək şəkildə təşkil edilməlidir.
- Öyrənmə təlim mühitində işə qoşulan duyğu orqanlarının çoxluğu nəticəsində yaxşı və qalıcı ola bilir.

Oyunçuların fəaliyyətləri, fikirləri haqqında birbaşa rəy bildirməklə onların doğru-yanlış qiymətləndirilməsi aparıldığı üçün şagirdlərin yanlışlarını həmin dəqiqə vizual, səsli və s. şəkildə görmələrinə imkan verir. Yanlış bir addımda və ya yanlış gedişatda eyni nöqtəyə geri dönmələrini təmin edərək doğrunu tapmaqda onlara kömək edir. Real həyatdakı hadisələri, real simulyasiyalarla təhlükədən uzaq bir şəkildə qurmaq imkanı verir. Birdən çox duyğu orqanına xitab edərək öyrənmənin daha qalıcı olmasını təmin edir. Şagirdlər fəal olduqları üçün öyrənmə prosesinə bir növ nəzarət etmiş olurlar, araşdırma və kəşfetmə kimi bacarıqlar inkişaf etdiyi üçün öyrənmə də sürətlənir.

Riyazi təlimin daşıdığı məna və funksiyalar ilə bağlı fikir ayrılıqları olmasına baxmayaraq, təlim vasitəsilə şagirdin fiziki, əqli, emosional və sosial sahələrdəki potensialını ən uyğun şəkildə inkişaf etdirməsi mövzusunda fikir ortaqlığı yaranmışdır. Riyazi təlim fərdin bütün yönlərinin eyni zamanda inkişaf etməsinə imkan verir.

Koqnitiv bacarıqlar şagirdlərin həm məktəb, həm də sosial həyatlarındakı performansını yüksəldən faktorlardan biridir. Bilmə, tanıma, anlama, qavrama, fikir yürütmə, problem həll etmə kimi zehni fəaliyyətlər nəticəsində inkişafetdirici proses içərisində meydana gələn müsbətə doğru dəyişmə, inkişaf və irəliləmə təfəkkür inkişafı olaraq ifadə edilir. Təfəkkür fəaliyyətləri bir müşahidə və ya bir hadisədən əldə edilən mənaların, nəticələrin, toplanan məlumatların şərh olunması, mühakimə olunması prosesi olaraq adlandırılan zehni fəaliyyətlərdir. Təfəkkür fəaliyyətləri zamanı idrak başlığı altında diqqət, qavrama, yaddaş, oxu, yazı, nitq, problem həll etmə, fikir yürütmə, yaradıcılıq kimi bir çox sahə işə düşür (7, s.8).

Təfəkkür inkişafı ənənəvi olaraq uşağın normal inkişaf dövrləri üçün xronoloji baxımdan əlaqəli, müxtəlif xarakterli tipik performans nümunələri ilə xarakterizə olunur. Bu tipik performans nümunələri bir araya gətirilərək inkişaf dövrlərinin xüsusiyyətləri müəyyən edilmişdir. Simvolik funksiya təxminən 2-4 yaş arasında formalaşır və bu prosesdə uşaqlar mövcud olmayan obyekti və ya şəxsi təmsil edən sözlər, simvollardan istifadə edirlər. Varlığı dərk etmək və ifadə etmək qabiliyyətini inkişaf etdirirlər. İntuitiv düşüncənin yaş aralığı təxminən 4-7 yaşdır. Bu dövrdə uşaqlar ilkin düşüncədən istifadə etməyə başlayırlar və onlar müxtəlif sualların cavabını bilməyə can atırlar. 7-12 yaş aralığını əhatə edən dövrdə riyazi anlayışları öyrənən uşaqlar konkret əməliyyatlar apara bilirlər. Bu dövrdə sinifləndirmə, sadə məsələləri həll etmə kimi bacarıqların əldə edilir (6, s. 11).

İnkişaf dövrləri təhlil edilərkən hər dövrdə fərdlərdə ortaq xüsusiyyətlər müşahidə olunmuşdur. Lakin, bir sinifdə bütün şagirdlər eyni yaşda, eyni inkişaf dövründə olmalarına, müəllim tərəfindən şagirdlərə ortaq öyrənmə mühiti yaradıldığına baxmayaraq, şagirdlərin akademik uğurları, sinifdəki davranış formaları, öyrənmə stilləri, öyrənmə və qavrama müddəti arasında əhəmiyyətli dərəcədə fərqliliklər müəyyən oluna bilir. Bu hal şagirdlər arasındakı fərdi müxtəlifliklərə işarə edir.

Təlim və tədris prosesinin hazırlanmasında, təşkil olunmasında fərdi xüsusiyyətləri idraki, emosional, sosial və fizioloji baxımdan hərtərəfli şəkildə nəzərə almaq olduqca vacibdir.

İdrak psixologiyası informasiya emalı nəzəriyyəsi yeni informasiyanın xaricdən necə alındığını, alınan informasiyanın necə işləndiyini, uzun müddət necə saxlanıldığını və məlumatın necə əldə edildiyini anlamağa çalışır. İnformasiyanın emalı nəzəriyyəsi iki əsas elementə diqqət yetirir. Birinci maddə məlumat bazasıdır. Məlumat üç strukturdan ibarətdir: sensor yaddaş, qısamüddətli yaddaş/işçi yaddaş və uzunmüddətli yaddaş. Sensor yaddaş, gələn stimulu müəyyən edən ilk qavrayış prosesidir. Sensor yaddaşda emal olunan məlumat qısamüddətli yaddaşa keçir, daha sonra burada məna əsasında işlənir.

Qısamüddətli yaddaş məlumatın məna əsasında işləndiyi yerə deyilir. Məlumat fərdin yenidən ehtiyac duyduğu qədər uzunmüddətli yaddaşda saxlanılır. Uzunmüddətli yaddaş həyat boyu toplanmış biliklərin daimi anbarıdır.

İkinci maddə isə, məlumatın bir bazadan digərinə ötürülməsini təmin edən daxili, idrak fəaliyyətini əhatə edən koqnitiv proseslərdir. Bu idrak prosesləri məlumatın sensor yaddaşdan qısamüddətli yaddaşa keçidi, qısamüddətli yaddaşdan uzunmüddətli yaddaşa köçürülməsi və uzunmüddətli yaddaşdan geri gətirilməsidir.

Diqqət və seçmə qavrayışı məlumatın sensor yaddaşdan qısamüddətli yaddaşa keçidinə təsir edən proseslərdir. Sensor yaddaşdan diqqət və seçmə qavrayış vasitəsilə qısamüddətli yaddaşa gələn məlumat uzunmüddətli yaddaşa keçid üçün bəzi prosesləri izləyir. Təkrarlama, qruplaşdırma, mənalılıq, vizual kodlaşdırma və avtomatlaşdırma bu proseslərdəndir.

**Şəkil 1. Məlumatın yaddaşda işlənmə modeli (5, s.31)**




Təkrarlama məlumatın qısamüddətli yaddaşda daha uzun müddət qalmasına və uzunmüddətli yaddaşa ötürülməsinə imkan verir. Təkrarlama bir çox riyazi oyunların icra olunmasındakı əsas məqsədlərdən birinə xidmət edir. Bu isə köhnə və yeni məlumatların şagirdlərin daha yaxşı mənimsəmələrinə imkan verir. Qruplaşdırma, yeni məlumatların informasiyanın emalında daha böyük və daha mənalı vahidlərə çevrilməsidir. Qruplaşdırmanın köməyilə şagirdlər riyazi anlayışları asanlıqla təsnifləndirə bilirlər. Mənalandırmada qısamüddətli yaddaşda olan yeni informasiya uzunmüddətli yaddaşda olan

köhnə informasiya ilə əlaqələndirilərək mənalılaşdırılır və uzunmüddətli yaddaşda kodlaşdırılır. Vizual animasiya kodlaşdırmasında cisimlərin, ideyaların və hərəkətlərin zehni təsvirləri yaradılır. Bu, əsasən, riyazi oyunlar zamanı şagirdlərə təqdim olunan əşyalardan oyun qaydalarına müvafiq olaraq necə istifadə etməsi gərəkdiyini müəyyənləşdirməyə kömək edir. Avtomatlaşdırma prosesində məlumat və ya proseslər çox təkrarlanaraq tamamilə öyrənilir. Təlim zamanı avtomatlaşdırmanın sürətləndirilməsinə kömək edən ən təsirli texnologiya oyunlardır. Bu yolla, şagirdlər nəzəri biliklərini praktiki olaraq təcrübə edərək bir sıra vərdişlər qazanırlar. Məlumatın uzunmüddətli yaddaşdan bərpa edilməsi prosesi informasiyanın axtarışı və onun aktivləşdirilməsi funksiyasını yerinə yetirir (5, s. 31).

Ümumiyyətlə, oyunun köməyilə koqnitiv emal yaxşılaşır. Riyaziyyatın tədrisi metodlarına dəyişiklik gətirən təhsil tədqiqatları riyazi təfəkkürün inkişafının real təcrübələr vasitəsilə baş verə biləcəyini göstərir. Bu təcrübələr daha yaxşı yaddaş, mənimsəmə və effektiv problem həlli vərdişlərinin qazanılması ilə nəticələnən yeni qaydalar və strategiyaların formalaşmasına gətirib çıxarır. İnformasiyanın emalı nəzəriyyələri həm keyfiyyət, həm də kəmiyyət baxımından təfəkkürün inkişafına imkan yaradır. Saxlama və ya axtarış üçün yeni strategiyaların, problemin həlli qaydalarının və ya təsvir formalarının (məsələn, riyazi dil inkişaf etdirildikdən sonra şifahi izah kimi) ortaya çıxması keyfiyyət dəyişikliyinə misal ola bilər. Kəmiyyət dəyişikliyi yadda qalan əşyaların sayında, semantik yaddaşdakı məlumatların miqdarında, şagirdin tətbiq edə bildiyi strategiyaların sayında və bunlardan getdikcə daha səmərəli istifadənin öyrənilməsi ilə müşahidə olunur.

Belə nəticəyə gəlmək olar ki,

- Oyunun yerinə yetirdiyi ən əsas və vacib vəzifə uşağın təfəkkür inkişafına müsbət təsir göstərməsidir.
- Uşağın dünyanı və ətrafını kəşf etməsinə, lazımi məlumatları əldə etməsinə, maraq duyğusunun artmasına imkan verən oyun texnologiyasının təfəkkürün inkişafına verdiyi ən mühüm töhfə riyazi öyrənməni asanlaşdırmasıdır.
- Oyunda hər cür anlayış və əşyaları tanımaqla şagird ondan istifadənin xüsusiyyətlərini öyrənir. Bu öyrənmə zehndə riyazi anlayışların depolanmasına, bu anlayışların mənimsənilməsinə və bu yolla da, qəbul edilən informasiyanın biliyə, daha sonra bacarığa çevrilməsinə kömək edir.
- Oyun zamanı şagird daima düşünür, qavrayır, dərk edir, əməliyyatların ardıcıllığını izləyir, təsnif edir, simvollaşdırır, təhlil edir, sintez edir, qiymətləndirir, mülahizə yürüdür, seçim edir, səbəb-nəticə əlaqələri qurur, diqqətini cəmləşdirir, özünü məqsədə yönəldir, riyazi bacarıqları icra edə

biləcəyi fəaliyyət içərisində yer alır. Bu, koqnitiv inkişafa təsir edən mühüm amillərdən biridir.

- Keyfiyyətli oyun təcrübələri, oyunun zənginliyi və kompleks oyunlar şagirdlərdə koqnitiv səviyyədə çevikliyi dəstəkləyir, problemlərlə təkrar-təkrar məşğul olur və qarşısına çıxan mürəkkəb problemləri həll etmə bacarıqlarını və konvergent düşünmə bacarıqlarını inkişaf etdirir.

***Ədəbiyyat***


1. *Abbasov N.R. İbtidai siniflərdə riyazi oyunlar, əyləncəli məsələlər və riyazi testlər. Bakı: "Qarant", 2001.*
2. *Hüseynova E.M., Əliyeva N.S., Haqverdiyeva A.C., Riyaziyyat fənninin oyunlar vasitəsilə tədrisi (Metodik vəsait). Bakı, "Avropa" nəşriyyatı, Bakı-2019, 44 səh.*
3. *Bantova M.A., Vel'tyukova G.V., Polevşcikova A.M. Metodika prepodavaniya matematiki naçal'nykh klassov, M.: Prosveşçeniye, 1973.*
4. *Bloom, B.S., Engelhart, M.D., Furst, E.J., Hill, W.H.,&Krathwohl, D.R. (1956). Taxonomy of educational objectives: The classification of educational goals. Handbook 1: Cognitive domain. New York, Toronto: Longsmans Green.*
5. *Bruning, R.H., Schraw, G.J. and Norby, M.M, (2014). Bilişsel psikoloji ve öğretim.( Z. N. Ersözlü ve R. Ülker, Çev.). Ankara: Nobel Yayınevi.*
6. *Henry, K.M. (1973). The effect of games on cognitive abilities and on attitudes toward mathematics. Unpublished doctoral disseration. Oregon State University, Science Education, Oregon.*
7. *Lockhart, S. (2010). Play: An important tool for cognitive development. Extensions Cirriculum Newsletter from Highscope. 24(3). 1-9.*

**L.E.Alızadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***leyla.elnur99@mail.ru***

# ŞAGİRDLƏRDƏ MÜRƏKKƏB MƏSƏLƏ HƏLL ETMƏK BACARIQLARININ FORMALAŞDIRILMASI

***Xülasə***

*Riyaziyyat gündəlik həyatda müəyyən vəziyyətlərə tətbiq oluna bildiyi dərəcədə faydalıdır, məsələ həll etmə bacarığı isə məsələ həlli adı altında riyaziyyatı müxtəlif vəziyyətlərə tətbiq etmək bacarığıdır. Lakin riyazi məsələnin həlli yalnız məsələ riyazi dildə ifadə edildikdə başlanır. Başqa sözlə, riyaziyyatda yaxşı bir məsələ həll etmək üçün ilk növbədə riyaziyyatı yaxşı bilmək və riyaziyyatdan istifadə etmək bacarığı tələb olunur*

*Riyaziyyatda uğur qazanmağın yolu məsələni yaxşı həll etməklə birbaşa bağlıdır. Bu mənada riyaziyyatın tədrisində və öyrənilməsində məsələ həlli prosesinin necə işlədiyi çox vacibdir. Mürəkkəb məsələnin həlli kompleks şəkildə nəzərdən keçirilməlidir. Şagirdlərin məsələni müxtəlif yollarla həll edə bildikləri, məsələlərin həlli ilə bağlı fikirlərini həmyaşıdları və müəllimləri ilə asanlıqla paylaşa biləcəkləri sinif mühitləri yaradılmalıdır.*

# ФОРМИРОВАНИЕ У УЧАЩИХСЯ НАВЫКОВ РЕШЕНИЯ СЛОЖНЫХ ЗАДАЧ

***Резюме***

*Математика полезна в той мере, в какой ее можно применять к определенным ситуациям в повседневной жизни, а решение проблем — это способность применять математику к различным ситуациям под видом решения задач. Но решение математической задачи начинается только тогда, когда проблема выражена на математическом языке. Другими словами, чтобы решить хорошую задачу по математике, нужно сначала хорошо знать математику и уметь пользоваться математикой.*

*Успех в математике напрямую связан с хорошим решением задач. В этом смысле то, как работает процесс решения задач в преподавании и обучении математике, очень важно. Решение сложного вопроса следует рассматривать комплексно. В классе должна быть создана среда, в которой учащиеся могут решать проблемы разными способами и легко делиться своими идеями о решении проблем со своими сверстниками и учителями.*

# FORMATİON OF COMPLEX PROBLEM SOLVİNG

***Summary***

*Mathematics is useful to the extent that it can be applied to certain situations in everyday life, while problem solving is the ability to apply mathematics to various situations under the guise of problem solving. But solving a mathematical problem begins only when the problem is expressed in mathematical language. In other words, to solve a good problem in mathematics, you first need to know mathematics well and be able to use mathematics*

*Success in math is directly related to good problem solving. In this sense, how the problem solving process works in mathematics teaching and learning is very important. The solution of a complex issue should be considered comprehensively. Classroom environments should be created where students can solve problems in different ways and easily share their ideas about solving problems with their peers and teachers.*

***Açar sözlər:*** *şagird, mürəkkəb məsələ, ibtidai sinif, məsələ həlli*

***Ключевые слова:*** *школьник, сложная задача, начальная школа, решение задачи*

***Key words:*** *student, complex problem, elementary school, problem solving*

Sözün ən sadə mənasında tapşırıq istifadəçilər və şagirdlər tərəfindən öyrənilməli və həll edilməli olan məsələ kimi qəbul edilir. Amma riyazi sahədə bu kateqoriya daha mürəkkəb və birləşmiş elementdir. Riyazi məsələ onun həlli üçün diqqətli təhlil və konkret elmi trayektoriyaya əməl etməyi tələb edən sualdır. Məsələni həll etmək onun təfərrüatlarını başa düşmək, boşluqları doldurmaq və son nəticəni əldə etmək üçün müəyyən bir trayektoriya hazırlamaq və ya seçmək deməkdir. Üstəlik, son nəticə ədədi formada və ya konkret cavabda ifadə olunan son dərəcə dəqiq olacaqdır. Riyazi məsələ məqsədyönlü parametrdir. Riyazi məsələ şagirdin zehni fəaliyyətinin obyektidir. Bu, təkcə arqumentlər, məlumatlar və nəzərdə tutulan sual deyil. Vəziyyətin hər bir riyazi şərhi aydın bir quruluşa sahibdir.

Riyazi məsələlər müxtəlif yanaşmalarla təsnif edilə bilər. Məsələləri tədrisin məqsədlərinə görə iki sinfə bölmək olar: rutin və qeyri-müntəzəm məsələlər.

Rutin (Dörd Əməliyyat) məsələləri: Bunlar riyaziyyat dərsliklərində çox rast gəlinən və dörd əməliyyat məsələsi kimi tanınan məsələlərdir. Onlara xarici ədəbiyyatda söz problemi və ya hekayə problemi deyilir. Rutin problemlərin bir və ya bir neçə əməliyyatı ola bilər. Rutin problemləri, misal üçün: “Əli 212 səhifəlik kitabın birinci günü 30 səhifə, ikinci günü isə 42 səhifə oxudu. Üçüncü gün kitabın yarısını bitirdiyinə görə üçüncü gün neçə səhifə oxudu?” bu cür problemdir. Dördəməliyyatlı məsələlərin öyrədilməsinin məqsədi şagirdlərin gündəlik həyatda çox zəruri olan hesablama bacarıqlarını

inkişaf etdirmək, problem hekayəsindəki məlumatları riyazi tənliklərə köçürməyi, fikirlərini rəqəmlərlə ifadə etməyi, yazılı və vizual nəşrləri başa düşməyi öyrənməkdir (1, s. 23).

Qeyri-müntəzəm (Real) Məsələlər: Qeyri-müntəzəm problemlərin həlli üçün məlumatların təşkili, təsnifatlaşdırılması, əlaqələri görmək və emal bacarıqlarının xaricində bir-birinin ardınca bəzi fəaliyyətlərin görülməsi kimi bacarıqlar tələb olunur. Misal üçün; “Adam bir oyundan tülkü, ördək və bir kisə qarğıdalı qazanır. Bunlarla o, çayın bir sahilindən o biri sahilinə keçməli olur, ancaq bir qayıq var və o, çox kiçikdir. Kişi ilə birlikdə bu qayıq yalnız birini götürə bilər. Qarğıdalıdan keçsə, tülkü ördəyi, tülküdən keçsə, ördək qarğıdalı yeyə bilər. Onları itkisiz necə keçirə bilər?” belə bir məsələdir. Bu məsələlərə real həyatda rast gəlinə bilən bir vəziyyətin ifadəsidir. Ona görə də bunlar real həyat problemləridir.

Bütün problemləri həll etmək üçün istifadə olunan xüsusi bir yol və ya üsul yoxdur. Əgər belə bir üsul olsaydı, problem kökündən həll olunardı.

Şagirdlər tez-tez problemlə qarşılaşdıqda istifadə etmək üçün bir qaydanı xatırlamağa çalışırlar. Bu yaxşı cəhd deyil. Çünki problemin həllinin qaydaları yoxdur, lakin sistematikliyi var. Müəllimin əsas vəzifəsi problemin həlli ilə bağlı bu sistematika və strategiyaları şagirdə tanıtmaq və onlardan istifadə etməyi öyrətməkdir (2, s. 76).

Rutin və qeyri-müntəzəm məsələlərin həlli üçün ən çox qəbul edilən proses George Polya (1887-1985) tərəfindən verilmiş üç addımlı prosesdir. Bu addımları bilmək məsələnin həllini təmin etmir, lakin bu dörd addıma uyğun iş üsulu mürəkkəb məsələləri həll edərkən həlli asanlaşdırır.

Bu addımlar çərçivəsində əsas fəaliyyətlər aşağıdakılardır:

1. Məsələni anlamaq.

- Nə verildi?
- Nə istəyir?

Tələbə bu iki suala tam cavab verə bilirsə, məsələni başa düşmüşdür. Məsələni başa düşməyin başqa əlamətləri də var. Onlardan istifadə etməklə müəllim şagirdlərin məsələni başa düşüb-düşmədiyini yoxlaya bilər. Bunlara:

- Məsələdə natamam və ya artıq məlumat varmı?
- Məsələdən hansı məlumat əldə edilir?
- Məsələdəki hadisələr və əlaqələr üçün müvafiq rəqəmlər və ya diaqramlar çəkə bilərlərmi?
- Məsələni hissələrə (alt problemlərə) ayıra bilərmi?

2. Həll yolu ilə bağlı strategiyanın seçilməsi.

Problem başa düşüldükdən sonra həllində istifadə olunacaq strategiyanı seçmək vaxtıdır. Bu mərhələdə müəllimin rolu bəzi suallar vermək və

şagirdlərə uyğun strategiyalar seçməyə imkan yaratmaqdır. Lakin suallar şagirdlərin müstəqil düşüncə mühitinə xələl gətirməməlidir. Aşağıdakı suallardan istifadə etmək olar.

- Bu məsələdə nə axtarılır?
- Hansı məlumat verilir? Nə bilirsən, xatırla.
- Daha əvvəl buna bənzər başqa bir məsələni həll etmisinizmi? Orada nə etdin, yadındadır?
- Əgər bu məsələni həll edə bilmirsinizsə, buna bənzər daha sadə bir məsələni qeyd edib həll edə bilərsinizmi?
- Siz tərtib etdiyiniz həlldə bütün məlumatlardan istifadə edə bilərsinizmi?
- Bu məsələnin cavabını təxmin edə bilərsinizmi? Hansı dəyərlər arasında? (5,s. 45).

Aydındır ki, buradakı suallar problemin dərk edilməsi ilə çox sıx bağlıdır. Çünki uyğun strategiyanın seçilməsi problemi dərk etmək və strategiyaları tanımaqdan asılıdır. Məsələnin həllində bəzən bir, bəzən bir neçə strategiya birlikdə istifadə olunur. Bəzən eyni problemi həll etmək üçün müxtəlif strategiyalar uyğun ola bilər.

3. Həllin qiymətləndirilməsi.

Bu son mərhələdə alınan nəticələrin düzgün və mənalı olub-olmaması yoxlanılır. Bunun üçün alınan nəticə proqnozlaşdırılanla müqayisə edilir və ya əməliyyatlar yoxlanılır. Nəticələrin mənalı olub-olmaması cavabın real həyata uyğunluğu yoxlanılmaqla başa düşülür. Bənzər bir məsələ ilə qarşılaşsanız, onu necə həll etmək müzakirə olunur. Başqa bir həll yolu olub-olmaması araşdırılır. İstifadə olunan strategiyanın niyə seçildiyini izah edir.

Məsələnin həlli üçün uyğun başqa strategiya varsa, bu strategiyalardan hansının daha yaxşı olduğu müzakirə edilir. Məsələdə verilən və tələb olunanlar dəyişdirilərək, belə hallarda əldə edilən məsələnin necə həll olunacağı vurğulanır. Bu mərhələdəki fəaliyyətlər məsələ həll etməkdən daha çox ümumi olaraq problem həll etmə qabiliyyətini inkişaf etdirməyə yönəlmişdir.

Şagirdlərin həm zehni, həm də yazılı məsələ həllində ehtiyac duyduğu ən əsas bacarıq hesablamalardır. Yazılı əməliyyatlar say sistemini və rəqəmlər anlayışını yaxşı bilməkdən, əqli əməliyyatlar isə işin asanlığından asılıdır. Əməliyyatın asanlığının hər biri əməliyyatların xüsusiyyətlərinin nəticəsidir və tələbələrin əksəriyyəti bu xüsusiyyətlərlə tanış olmasalar da, onlar əməliyyatın asanlığını intuitiv şəkildə qavrayırlar. Xüsusilə ibtidai təhsilin ilk illərində problem həllində zehni əməliyyatlardan tez-tez istifadə olunur.

İbtidai Təhsil Riyaziyyat Proqramında şagirdlərin yaxşı məsələ həlledici olmaları üçün məsələləri həll edərkən aşağıdakı addımlara əməl

etmələrinin məqsədəuyğun olacağı və bu davranışlardakı çatışmazlıqların aradan qaldırılması lazım olduğu bildirilmişdir.

Bəzi məsələlərin həlli bir işlə bağlı bütün mümkün vəziyyətləri bilmək tələb edir. Belə hallarda, bir həllə nail olmaq üçün diqqətlə seçilmiş bir üsulla məlumatları və ya tapıntıları sadalamaq lazımdır.

Mürəkkəb məsələ həll etmə bacarığının inkişafı ibtidai təhsil üçün böyük əhəmiyyət kəsb edir. Baykul problemin həllinin vacibliyini aşağıdakı səbəblərə əsaslanaraq izah edir.

- İbtidai məktəb yaşı uşaqların əqli inkişafının sürətli olduğu illərə təsadüf edir. Mürəkkəb məsələ həll etmə bacarıqları bu illərdə uyğun yanaşmalarla daha sürətlə inkişaf etdirilə bilər.
- Riyaziyyat bacarıqları arasında məsələ həll etmə bacarığı mühüm yer tutur.
- İbtidai təhsilin iki vəzifəsindən biri fərdləri həyata hazırlamaqdır. Gündəlik həyatda hər gün müxtəlif problemlərlə qarşılaşır. Ölkəmizdə ibtidai sinif şagirdlərinin əhəmiyyətli hissəsinin təhsilini davam etdirməyərək həyata başladığını nəzərə alsaq, ibtidai siniflərdə bu qabiliyyəti inkişaf etdirməyin ən yaxşı yolu fərdlərin həyatda uğur qazanmasına, dolayısı ilə də xoşbəxtliyinə xidmət edir.

Mürəkkəb məsələ həlli şagirdin şəxsiyyət kimi inkişafını sürətləndirir. Qabiliyyətlərin, özünə hörmətin və özünə inamın inkişafını sürətləndirir. Bu səbəbdən şagird öz xeyrinə məsələnin həlli fəaliyyətlərində tam iştirak etmək üçün hər cür səy göstərməyə təşviq edilməlidir, çünki heç kim ona qarşılaşdığı çətinlikləri necə aradan qaldıracağını, məsələnin həllindən nə qazanacağını deyə bilməz. Şagird məsələnin həlli imkanları vasitəsilə öz qabiliyyətlərini kəşf edir və inkişaf etdirir. Qarşılaşdığı çətinliklərlə bağlı başqalarının qərar verməsini gözləmək əvəzinə, bu çətinliklərin həlli yollarını tapmağa təşviq edilən şagird, mövcud məsələnin tələb etdiyi şeyi etməyə çalışarkən öz bilik, anlayış, bacarıq və ehtiyaclarından istifadə etmək imkanı qazanacaq.

Bəzi ölkələrdə o qədər də qədim deyil ki, ibtidai təhsildə problemlərin həlli ilə bağlı tədqiqatlar dörd proses problemi ilə yanaşı, real həyat problemlərinə də diqqət yetirir. Bu tədqiqatlar son 20-30 ilin tədqiqatlarıdır və bu mövzuda ədəbiyyat kifayət qədər inkişaf etmişdir. İndi inkişaf etmiş ölkələrdə riyaziyyat tədrisinin diqqət mərkəzində problemlərin həlli öyrədilir və problemin həlli tədrisi real həyat problemlərinin həllini, o cümlədən məlumatların təhlili, həll strategiyalarının tanınması və istifadəsi, tədqiqatların aparılması, qruplarda işləmək, həmçinin dörd əməliyyat problemini əhatə edir. Təxmin etmə, məlumat toplama, ölçmə və hesablama bacarıqları kimi problemin həllinə töhfə verən tədqiqatlar mühüm hesab edilir.

Riyaziyyat universal olduğu üçün onun tədrisi də universaldır. Ona görə də ölkəmizdə problemin həlli tədrisinin bu tədqiqatda təklif olunan formada həyata keçirilməsində heç bir çətinlik yoxdur.

1. Azərbaycanda müəllim hazırlığı proqramlarında iştirak edən ibtidai sinif müəllimləri çox gec olmadan bu işləri tanımalı və həyata keçirməlidir.
2. Eksperimental tədqiqatlar vasitəsilə bütün siniflərə və yaş səviyyələrinə uyğun problem həll etmə yanaşmaları ortaya qoyulmalıdır.
3. Kurikuluma buna uyğun olaraq yenidən baxılmalıdır.

***Ədəbiyyat***

1. *Filiçeb S.V. və Y.F.Çekmaruov, Hesab məsələləri həlli üçün rəhbər, B., Azərnəşr, 2018.*
2. *Quliyev Ə.A., I-V finiflərdə əməl anlayışının propedevtikası, ADPU*-nun *xəbərləri, 2015.*
3. *Quliyev Ə.A., Riyaziyyatın tədrisində ümumiləşdirmə, Bakı "Elm"- 2009.*
4. *Həmidov S.S. Məktəbin ibtidai siniflərində məsələ həllinin metodikası. Bakı. 2003.*
5. *Həmidov S.S. I-IV siniflərdə riyaziyyatın tədrisi metodikası. Bakı 2004.*

**L.V.Həşimli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***hashimli.laman.302r@gmail.com***

# FƏNLƏRARASI ƏLAQƏLƏRİN REALLAŞDIRILMASINDA TEXNOLOGİYALARIN TƏSİRİ

***Xülasə***

*Məqalədə riyaziyyat fənnində fənlərarası əlaqələrin reallaşdırılmasında texnologiyaların təsiri ətraflı şərh edilmişdir. Bununla yanaşı riyaziyyat fənnində fənlərarası əlaqələrin reallaşdırılmasında texnologiyaların təsirinin vacibliyi araşdırılmışdır.*

# ВЛИЯНИЕ ТЕХНОЛОГИЙ В ОСУЩЕСТВЛЕНИИ МЕЖДИСЦИПЛИНАРНЫХ СВЯЗЕЙ

***Резюме***

*В статье подробно объясняется влияние технологий на реализацию междисциплинарных связей в предмете математика. При этом исследовалась важность влияния технологий в реализации междисциплинарных связей в предмете математики.*

# IMPACT OF TECHNOLOGIES IN THE IMPLEMENTATION OF INTERDISCIPLINARY RELATIONSHIPS

***Summary***

*In the article, the influence of technologies in the implementation of interdisciplinary relations in the subject of mathematics is explained in detail. At the same time, the importance of the influence of technologies in the implementation of interdisciplinary relations in the subject of mathematics was investigated.*

***Açar sözlər:*** *texnologiya, təlim, tərbiyə, inkişaf, diaqnostika*

***Ключевые слова:*** *технологии, обучение, образование, развитие, диагностика*

***Key words:*** *technology, training, education, development, diagnostics*

Pedaqoji texnologiyalara təlim texnologiyası, tərbiyə texnologiyası, inkişaf texnologiyası, diaqnostika texnologiyası daxildir. Təlim texnologiyası dedikdə, bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün əməliyyatlar kompleksi başa düşülür. Hazırda interaktiv metodlar, fəal təlim metodları, təlim texnologiyaları anlayışlarına tez-tez rast gəlirik. Xarici beynəlxalq

təşkilatlar, milli qurumlar, müasir təlim metod və texnologiyalarının təbliği müəllimlər arasında yayılması ilə əlaqədar 10 ildən artıqdır ki, seminarlar, mühazirələr, layihələr keçirirlər. Öyrənilən yeni tərz, metod, vasitə və yanaşmalar yaradıcılığı, müstəqilliyi inkişaf etdirməklə yanaşı, insan şəxsiyyətini, onun insanlara, təbiətə, cəmiyyətə münasibətini, mənəvi dünyasını və s. inkişaf etdirməli, zənginləşdirməlidir.

Əvvəlcə, interaktiv sözü haqqında: "interaktiv" anlayışı ingilis dilindən dilimizə, o cümlədən digər dillərə keçmədir. Hazırda "interaktiv pedaqogika", "interaktiv təlim", "interaktiv təlim metodları" və yaxud, yığcam olaraq "interaktiv metodları" ifadələrinə tez-tez rast gəlirik. Yeni anlayış kimi meydana çıxan "interaktiv pedaqogika" ifadəsini ilk dəfə 1975-ci ildə alman tədqiqatçısı Hans Frits işlətmişdir. Alimin tədqiqatlarında interaktiv prosesin məqsədi bu proses iştirakçılarının davranış modelini dəyişdirmək və yaxşılaşdırmaqdır. O, interaktiv metodlar haqqında interaktiv tərbiyə prosesi kimi danışır. Belə ki, alimə görə təlimdə interaktivliyi müəllim və şagirdin qarşılıqlı təsir – əməkdaşlıq qabiliyyəti kimi izah etmək olar. İnter – (ingilis dilində Enter) – ara (insanlararası), qarşılıq (insanların qarşılıqlı anlaşması, əməkdaşlığı, işi) və s. kimi başa düşülür. Metod olaraq interaktivlik təlim prosesində müəllim və şagird arasında işin gedişindən – mövzudan, şərhdən, dialoqdan, rollu oyundan həmin anda meydana çıxan yanaşma, izah və s.-dir. Yəni, bu tərz öncədən planlaşdırılmır, işin – təlim prosesinin gedişi bu məqamı ortaya çıxarır və daha çox şagirdin müstəqilliyi müdaxiləsi ilə baş verir. Digər tərəfdən, interaktivlik şagirdlərin özləri arasında da ola bilər. Əsas cəhət odur ki, bu prosesdə əməkdaşlıq edən, öyrənənlər və öyrədən eynihüquqlu mövqedə dayanırlar. Təbii ki, müəllim öyrədən olaraq təşkilatçılıq, koordinator, məsləhətçi, fasilifator funksiyasını yerinə yetirir. Şagirdlərin işlərinə müdaxilə etmədən problemləri qoyur, istiqamət verir, nəzarət edir, axtarış strategiyasını hazırlamağa kömək edir, amma təlim tapşırıqları üzərində uşaqlar özləri birlikdə öz aralarında mübahisə edərək, diskussiya apararaq işləyirlər.

Bununla yanaşı, hər bir şagirdin öz fikri, ideyası olur. Mübadilə nəticəsində fikirlər dəyişir, ideyalar təzələnir. Beləliklə, psixoloji abu-hava dəyişir. Qrupdakı zəif şagirdlər də müzakirədə fəal iştiraka qoşulurlar: məsələlərin müzakirəsi və kollektiv müzakirənin gedişində bir-birini dinləməyə alışırlar. Hər bir təlim tapşırığının bu cür həlli vasitəsilə onlar idraki axtarıcılıq taktikalarını təkmilləşdirir, təlimdə öz müvəffəqiyyət formulunu hər kəsin özü qurur. Beləliklə, təlim prosesində şagirdlərarası əlaqə, qarşılıqlı təsir və əməkdaşlıq əsas olur. Təlim nəticəsi təlim prosesi iştirakçılarının qarşılıqlı qüvvəsi ilə əldə edilir, şagirdlər təlim nəticələrinə görə öz üzərilərinə qarşılıqlı məsuliyyət götürürlər. Bunlar imkan verir ki, şagirdlər biliyi qavrama prosesini daha anlaşıqlı etsinlər:

- Öz fikrini formalaşdırmağı, onu düzgün ifadə etməyi, öz nöqteyi-nəzəri əsaslandırmağı, müzakirələşdirməyi və sübut etməyi öyrənirlər;
- Digərini eşitməyi, dinləməyi, alternativ fikrə hörmət etməyi öyrənirlər;
- Müxtəlif sosial vəziyyətləri modelləşdirməyi, müxtəlif həyatı vəziyyətlərə qoşulmaqla və bu həyatı duymaqla öz sosial təcrübələrini zənginləşdirirlər;
- Qrupda konstruktiv münasibətlər qurmağı, burada öz yerini müəyyənləşdirməyi, konfliktlərdən qaçmağı, onları həll etməyi, kompromis axtarmağı, dialoqa səy etməyi öyrənirlər;
- Təlim materiallarını təhlil edir, onlara yaradıcı yanaşırlar;
- Problemin ümumi həllini tapırlar;
- Layihələrlə iş fəaliyyətinə, müstəqil işləməyə, yaradıcı işlər görməyə alışırlar və s.

İnteraktiv metodlar müəllim və şagird əməkdaşlığını reallaşdırır, onları konstruktiv qarşılıqlı hərəkətə alışdırır, dərsdə psixoloji iqlimi sağlamlaşdırır, xoş abu-hava yaradır. Azərbaycanda interaktiv metodlarla işləyən az sayda olan müəllimlərin iş təcrübəsi xarici təcrübənin səmərəliliyini təsdiq edir. Lakin təlim prosesində məsələyə yanaşmada tam təqlid köçürmə olmamalıdır. Hər bir fəal, işgüzar Azərbaycan müəllimi şagirdlərin sosial şəraitini, ictimai mühitini, milli mentalitetini, adət-ənənələrimizi, fənnin, mövzunun fundamentallığını və ya praktikliyini, fənlərarası əlaqəni, hətta bilgilərin inteqrasiyasını, yaş və anlaq həyat təcrübəsi səviyyəsini və pedaqoji-metodik, psixoloji-iradi xüsusiyyətləri nəzərə almalı, prosesin təşkilinə yaradıcı yanaşmalıdır. Qeyd edək ki, interaktiv təlim metodlarından həmişə istifadə etmək onun təsirini azalda bilər. Həqiqi təlim üçün metod və texnologiyalar qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq seçilməlidir. Ona görə də müəllimlər məqsəd və şəraitdən asılı olaraq seçilməlidir. Müəllimlər fənnə, mövzuya, şagirdlərin təcrübə və bilik səviyyəsinə görə bütün təlim modellərində müxtəlif metodika və texnologiyalardan istifadə etməlidirlər. Əsas odur ki, təlim uşaqları inkişaf etdirsin. Onlara düşünmək, müstəqil fikir söyləmək, biliklərini tətbiq edə bilmək bacarıqları aşılasın. Onlarda ünsiyyət, anlaşma mədəniyyəti, öz problemlərini həll edə bilmək qabiliyyəti formalaşdırsın. Deməli, interaktiv təlim dedikdə, dərsdə yaranan, təlim prosesində meydana çıxan, şagirdlərarası öyrənmə ünsiyyəti və əməkdaşlığı, müəllim – şagird birliyi nəzərdə tutulur.

Çevik düşündürücü iştirak fəallığını doğurmayan metodlar uşaqların marağını təmin etmir, onları canlandırmır, fəaliyyətə qoşmur. Digər tərəfdən, hər bir uşağın (şagirdin) öz idealı, marağı, həyata hazırlıq istəyi var. Belə ki, təlimin həm məzmunu, həm də metodları bu istəyi təmin etməlidir. Daha bir amil isə, vətəndaş təhsili və tərbiyəsinin aktuallığıdır. Bütün bu şərtlər müasir

təlimin məzmunca metod və texnologiyalara görə yeniləşməsini zəruri edir. Pedaqoji prosesdə baş verən yeniliklərdən biri də təlimdə tərbiyəediciliyin daha da artmasıdır. İnteraktiv təlim şagirdlərə bilik vermə prosesində, həm də onları iradi, əxlaqi, əqli, estetik, mədəni, hüquqi, ekoloji, iqtisadi və digər akseoloji dəyərlər yönümündə inkişaf etdirir, formalaşdırır. Yeni tələblərə cavab verən pedaqoji kadr olmadan təhsili yenilik səviyyəsinə qaldırmaq mümkün deyildir. Hər şey müəllimdən, təhsili idarə edən insanlardan, onların vətəndaşlıq amalından, ləyaqət, mənəviyyat, mədəniyyət və müasir tələblərə cavab verən peşə – ixtisas hazırlığından asılıdır. Fəal və interaktiv metodlar bir-birilə sıx bağlıdır, amma tam eyni deyillər. İnteraktiv metodların hansı prosesdə zərurətə çevrildiyini irəlidə qeyd etmişik. Bəs, fəal təlim metodları nədir? Bu anlayış XX əsrin 80-cı illərindən Azərbaycanda işlənməyə başlamışdır. "Fəal" sözü bəlli olduğu kimi daha işlək, hərəkətdə, təsirdə olan mənasını verir. Fəal təlim metodlarının interaktiv təlim metodları ilə yaxınlığı mahiyyətindən doğur, lakin doğuluş və seçim təsirinə görə bir-birindən fərqlənir. Belə ki, əgər interaktiv metodlar dərsdə təlim prosesinin gedişindən doğursa, yəni biri digərini əvəz edərək meydana çıxırsa və öyrənənlərin hamısının birlikdə tam, müstəqil fəaliyyətini təmin edirsə, fəal metodlar irəlicədən planlaşdırılmış təlimin fəallaşdırılmasına şərait yaradır. Ənənəvi olaraq işlənən söz metodları, əyani, praktik metodlar bu gün də fəal metodlar sırasına daxildir. Rollu oyunlar, müxtəlif xarakterli didaktik çalışmalar, esse, test tapşırıqlarının icrası, diskussiya, müzakirə və s. fəal təlim metodlarıdır. Təlimin fəal metodları dedikdə, öyrənənlərin məlumatlanmasını, idrak müstəqilliyini, fikri fəallığını, yaradıcılığını artıran metodlar nəzərdə tutulur. İnteraktiv təlim qarşılıqlı fəaliyyət prosesində yaradıcı fəaliyyətə əsaslanmaq deməkdir. Bu gün məktəb nə üçün interaktiv təlim sorağındadır? Ənənəvi təlimin mahiyyəti ondan ibarətdir ki, təlimdə müəllimin fəaliyyətinin izahlı illüstrativ xarakteri üstünlük təşkil edir. Birinci yerə yalnız tədris vəzifələri ilə məhdudlaşan fənn xarakterli bilik, bacarıq və vərdişlərə yiyələnmək dururdu. Müəllimin fəaliyyəti ona yönəlirdi ki, necə etsə, hər şeyin aydın olmasını, başa düşülməsini təmin edə bilər. Bu da təlim fəaliyyətini yerinə yetirərkən müəllimin başlıca meyarı olurdu. Ənənəvi təlim tipində müəllim-şagird münasibətləri birtərəfli idi. Şagirdlər müəllimin dediklərini icra edir, onu təqlid edir, müəllim kimi olmağa çalışır. Dərsdə müəllimlə şagirdlər ancaq işgüzar əlaqə saxlayırlar. İnteraktiv təlim şagirdlərə bilik vermə məsələlərində, həm də onları iradi, əxlaqi, əqli, estetik, mədəni, hüquqi dəyərlər yönümündə inkişaf etdirib formalaşdırır.

İnteraktiv metodları aktuallaşdıran bir sıra tələblər var:

- İnsanların bazar iqtisadiyyatı cəmiyyətində yaşaması və hər kəsin özünün bu cəmiyyətdə yaşaya bilməsi üçün hazırlanması zərurəti;

- Uşaqların 20-30 il əvvəlki zamana görə dünyagörüşünün, sosial, texniki məlumatlıq səviyyəsinin yüksək olması;

Deməli, çevik, düşündürücü idrak fəallığını doğurmayan metodlar uşaqların marağını təmin etmir, onları canlandırmır, fəaliyyətə qoşmur.

Təlim strategiyası nədir? Təlim strategiyaları müəllimin təlim prosesində istifadə etdiyi metod, forma və üsulları əhatə edir. Pedaqoji ədəbiyyata təlim metodlarının müxtəlif növlərinin olduğu göstərilir. Məsələn, beyin həmləsi (əqli hücum), BİBÖ, klaster (şaxə) anlayışının çıxarılması, söz assosiasiyaları, akvarium, rollar üzrə oyun, venn dioqramı, layihələrin hazırlanması, ESSE və s. Beləliklə, "Tədris prosesinə fəal təlim metodlarının daxil edilməsi şagirdlərin passivliyinin aradan qaldırılmasına, təfəkkürün inkişafına, təlimin keyfiyyətinin yüksəldilməsinə şərait yaradır. Fəal təlim metodlarının tətbiqi nəticəsində "Təhsil sahəsində İslahat proqramı"nın təlim-tərbiyə prosesinin demokratikləşdirilməsi, humanistləşdirilməsi, humanitarlaşdırılması, diferensiallaşdırılması, fərdiləşdirmə, inteqrasiya prinsiplərini geniş tətbiq etməklə həyata keçirmək olar". (A.Mehrabov və b. Pedaqoji texnologiyalar. Bakı-2006, səh. 282)

Riyaziyyatla Coğrafiya fənninin inteqrasiyasını əks etdirən aşağıdakı məsələlərin həllinin təlimində təlim texnologiyaların tətbiqinə baxaq:

Məsələ 1: 600 000 miqyaslı xəritədə təsvirinin sahəsi 15 sm2 olan ərazinin həqiqi sahəsi nə qədərdir?

Həlli: Xəritə üzərindəki təsvirlə onun həqiqi forması oxşar fiqurlardır. Həndəsədən məlumdur ki, oxşar fiqurların sahələri nisbəti oxşarlıq əmsalının kvadratına bərabərdir. Yəni, $\frac{S_x}{S_H}=k^2$ (*) olur. Burada Sx – xəritə üzərindəki təsvirin sahəsi; SH - ərazinin həqiqi sahəsi; k-oxşarlıq əmsalıdır. Qeyd edk ki, oxşarlıq əmsalı xəritənin miqyasına bərabərdir. Ədədi qiymətləri nəzərə alaraq hesablamalar aparaq.

$$S_H = \frac{S_x}{k^2} = \frac{15}{\frac{1}{600000}}\, sm^2 = 15 \times 360000000000\, sm^2 = 15 \times 36000000\, m^2 = 15 \times 36\, km^2 = 540\, km^2$$

alarıq. Cavab: 540 km2

Həll etdiyimiz bu məsələ Riyaziyyat fənnində VI sinifdə, Coğrafiya fənnində isə VII sinifdə öyrənilən miqyas mövzusuna toxunulmuşdur. Aşkardır ki, məsələnin həlli zamanı yeni biliklər əldə olunmuş, formalaşdırılmışdır. Vərdiş üçün şagirdlərə bu tipli məsələlər daha çox işlədilməlidir. Nəticədə təlim texnologiyasının tətbiqini görürük. Öyrənilən biliklərin məsələ vasitəsilə möhkəmləndirilməsi zamanı müəllim tərəfindən aparılan yoxlama isə

diaqnostika texnologiyasının tətbiqini göstərir. Riyaziyyat fənnində müasir təlim texnologiyanın tətbiqi üçün müəllim aşağıda sadalanan müəyyən əməliyyatları həyata keçirməlidir:

- Ən yeni praktik bilikləri toplamaq;
- Pedaqoji prosesi təşkil etmək;
- Təlim strategiyalarını həyata keçirmək;
- Təlimin təşkilinə verilən əsas tələbləri ödəmək;
- Bilikləri şagirdlərə öyrənmə tərzlərinə (vizual, audial, kinestetik) görə ötürmək.

Müasir təlim texnologiyalarından tədris prosesində istifadəsinin texnoloji cəhətdən düzgün müəyyənləşdirilməsi müəllimdən peşəkarlıq və səriştəlilik tələb edir. Belə ki, təlim nəticələrini əldə etmək üçün məzmun xətti üzrə standartları reallaşdırarkən forma, üsul seçimi dərsin məqsədinə, tədqiqatın aparılmasına, məzmuna, metod və dərsin tipinə uyğun olmalıdır. Bundan başqa, mövzunun motivasiyası fənnin məqsəd və vəzifələrini, dərsin xarakterik xüsusiyyətlərini nəzərə almaqla refleksiya ilə uzlaşmalıdır. Riyaziyyat fənnində yeni təlim texnologiyalarının işini qısa bir sxemlə ifadə etsək aşağıdakı mənzərəni almış olarıq:

**Təfəkkürün fəallaşdırılması** → **Şagirdlərin fəallığı** → **Biliklərin səmərəli mənimsənilməsi**

İnteraktiv təlim üsulları olan "Klaster", "İnsert", "BİBÖ"dən dərslərdə intensiv şəkildə istifadə olunması dərsin keyfiyyətini artırmaqla, öyrənənlərin fəallığına imkan yaradır. V sinifdə "1.1.2 Mövqeli və mövqesiz say sistemləri ilə tanışdır, natural ədədləri müqayisə edir və düzür." standartını reallaşdırmaq üçün əlverişli üsullardan olan Venn diaqramından, BİBÖ-dən istifadə oluna bilər. Auksion üsulundan istifadə zamanı isə müəllim öyrənilən məsələni müəyyən edərək şagirdləri auksionun keçirilmə qaydaları haqqında təlimatlandırır. VI sinifdə "1.2.2 Vurma və bölmənin xassələrini tətbiq edir" standartını reallaşdırarkən ümumiləşdirici dərsdə ƏBOB, ƏKOB və onların xüsusiyyətləri sadalanır. Fikirlər bir-birini təkrarlamamalıdır. Oyunda axırıncı mümkün cavabı verən şagird "auksion"u qazanır. Kublaşdırma tədqiqat metodlarından biri olub mövzunun hərtərəfli öyrənilməsinə şərait yaradır. Kublaşdırma vasitəsilə şagird mövzunu təsvir və müqayisə etməyə, əlaqələndirməyə, təhlilə, tətbiq və mübahisəyə yönəldilir. Bu zaman şagirdin tənqidi və məntiqi təfəkkürü inkişaf edir, mövzuya hərtərəfli baxışı, qiymətləndirmə bacarığı, əməkdaşlıq vərdişləri formalaşır. "1.2.5 Nisbət, tənasüb, düz mütənasib, tərs mütənasüb kəmiyyətlərə və faizə aid məsələ həll edir." standartını reallaşdırarkən bu, tədqiqat metodlarından istifadə etməklə

mövzunun hərtərəfli öyrənilməsinə şərait yaranır. Təhsilin məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, hər bir təhsil pilləsində təhsialanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirən dövlət təhsil standartları müasir təlim texnologiyaları vasitəsilə reallaşa bilər. Yaxşı olar ki, hər bir təlim nəticəsinə uyğun təlim texnologiyası müəyyənləşdirilsin. Məsələn, əgər "fərqləndirir" fəaliyyəti reallaşdırılırsa, bunu Vennlə reallaşdırmaq daha effektiv və düzgün olar. Düzgün təlim formasının seçilməsi, təlim üsulunun düzgün müəyyənləşdirilməsi, tədqiqat sualının təlim nəticələrinə uyğun müəyyənləşdirilməsi və düzgün qiymətləndirmə meyarının müəyyənləşdirilməsi təbii ki, müəllimə qarşıya qoyduğu nəticəni əldə etməyə kömək edəcəkdir.

***Ədəbiyyat***

1. *Akif Nəzərov "Müasir təlim texnologiyaları. Bakı-2012.*
2. *Abdullayeva M.V. Riyaziyyatın tədrisi metodikası-1 (Ümumi metodika). Bakı-2020.*
3. *Nayma Qəhrəmanova, Famil Hüseynov "Ümumi təhsil məktəblərinin 5-ci sinfi üçün "Riyaziyyat" fənni üzrə dərsliyin metodik vəsaiti" Radius MMC.*
4. *Sevda İsmayılova, Arzu Huseynova "Ümumi təhsil məktəblərinin 6-cı sinfi üçün "Riyaziyyat" fənni üzrə dərsliyin metodik vəsaiti" Şərq-Qərb.*
5. *Sevda İsmayılova "Ümumi təhsil məktəblərinin 7-ci sinfi üçün "Riyaziyyat" fənni üzrə dərsliyin metodik vəsaiti" Şərq-Qərb.*

**T.Ş.Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***tnzlmmmdv@gmail.com***

# FƏZADA DÜZ XƏTLƏRİN QARŞILIQLI VƏZİYYƏTİNİN ÖYRƏNİLMƏSİ TEXNOLOGİYASI

***Xülasə***

*Məqalədə fəzada düz xətlərin müxtəlif qarşılıqlı vəziyyətləri araşdırılmışdır. Fəzada paralel düz xətlər, bu düz xətlərin paralellik əlamətləri ətraflı şəkildə şərh olunmuşdur. Həmçinin fəzada düz xətlərin perpendikulyarlığı və çarpaz düz xətlər haqqında da geniş məlumat verilmişdir.*

# ТЕХНОЛОГИЯ ИЗУЧЕНИЯ ВЗАИМОДЕЙСТВИЯ ПРЯМЫХ В ПРОСТРАНСТВЕ

***Резюме***

*В статье исследуются различные взаимные положения прямых в пространстве. Подробно объяснены параллельные прямые в пространстве, признаки параллельности этих прямых. Также подробно дана перпендикулярность прямых в пространстве и пересекающихся прямых.*

# TECHNOLOGY OF STUDYING THE INTERACTION OF STRAIGHT LINES IN SPACE

***Summary***

*In the article, various mutual situations of straight lines in space are investigated. Parallel straight lines in space, signs of parallelism of these straight lines have been explained in detail. Also, the perpendicularity of straight lines in space and cross straight lines are given in detail.*

***Açar sözlər:*** *fəza, müstəvi, düz xətt, paralel,* perpendikulyar
***Ключевые слова:*** *пространство, плоскость, прямая, параллель, перпендикуляр*
***Key words:*** *space, plane, straight line, parallel, perpendicular*

Bu mövzu fəzada düz xətt və müstəvilərin öyrənilməsinə həsr olunur. Həndəsənin planimetriya bölməsində iki düz xəttin müxtəlif qarşılıqlı vəziyyətləri araşdırılırdı. Həndəsənin planimetriya bölməsində olduğu kimi fəzada da iki müxtəlif düz xətt ya bir nöqtədə kəsişir, ya da kəsişmir. Planimetriyada kəsişməyən iki düz xətt paralel olurdu, lakin fəzada kəsişməyən düz xətlər iki halda mümkün ola bilər.

1. Verilmiş düz xətlər bir müstəvi üzərindədir.
2. Verilmiş düz xətlər bir müstəvi üzərində deyil.

Streometriyada yalnız birinci vəziyyətdə olan düz xətlər, yəni düz xətlər bir müstəvi üzərində yerləşəndə paralel hesab olunur. İkinci halda isə verilmiş düz xətlər çarpaz olur.

İlk növbədə düz xətlərin qarşılıqlı vəziyyəti üç formada təsvir edilir.

1. Düz xətlərin bir ortaq nöqtəsi var.
2. Düz xətin bütün nöqtələri üst-üstə düşür.
3. Düz xətlər paraleldir.

Verilən bütün hallarda düz xətlər bir müstəvi üzərində yerləşir. Belə bir sual ortaya çıxır. Fəzada düz xətlər elə vəziyyətdə ola bilərmi ki, onlardan bir müstəvi keçirmək olmasın?

Təcrübələr əsasında müəyyən olunmuşdur ki, belə düz xətlər var və mühakimələr əsasında aydın olur ki, həmin düz xəttlərin ortaq nöqtəsi ola bilməz.

Eyni müstəvi üzərində yerləşən və kəsişməyən iki düz xəttə streometriyada paralel düz xətlər deyilir. Eyni müstəvi üzərində yerləşməyən və ortaq nöqtəsi olmayan düz xətlərə çarpaz düz xətlər deyilir.

Teorem 1. Verilmiş iki düz xətdən biri müstəvi üzərində olub, o biri düz xətt həmin müstəvini birinci düz xəttə aid olmayan nöqtədə kəsirsə, onda verilmiş düz xətlər çarpaz düz xətlərdir.

a və b düz xətlərinin çarpazlığı a-b kimi işarə olunur və belə oxunur "a düz xətti çarpazdır b düz xəttinə".

Məsələ: Verilmiş iki paralel düz xətti kəsən bütün düz xətlərin bir müstəvi üzərində olduğunu isbat edin.



**Şəkil 1**

Həlli: Verilmiş a və b düz xətləri paralel olduğundan onlardan müstəvi keçirmək olar (şəkil 1). Bu müstəvini $\alpha$ ilə işarə edək. Verilmiş paralel düz xətləri kəsən c düz xəttinin $\alpha$ müstəvisi ilə iki ortaq nöqtəsi var. Məlum teoremə görə bu düz xətt müstəvi üzərindədir. Beləliklə, verilmiş iki paralel düz xətti kəsən bütün düz xətlər $\alpha$ müstəvisi üzərindədir.

Teorem 2. Verilmiş düz xətt xaricindəki nöqtədən bu düz xəttə bir və yalnız bir paralel düz xətt keçirmək olar.

İndi isə qeyd olunmuş teoremin isbatını verək: Tutaq ki, a verilmiş düz xətt, A isə bu düz xətt üzərində olmayan hər hansı nöqtədir (Şəkil 2). a düz xəttindən və A nöqtəsindən $\alpha$ müstəvisi



**Şəkil 2**

keçirək. $\alpha$ müstəvisi üzərində A nöqtəsində a düz xəttinə paralel olan hər hansı $a_1$ düz xətti çəkək. Aydınlaşdıraq ki, a düz xəttinə paralel olan $a_1$ düz xətti yeganədir.

Fərz edək ki, A nöqtəsindən keçib, a düz xəttinə paralel olan başqa bir $a_2$ düz xətti də var. $a_1$ və $a_2$ düz xətlərindən $\alpha_2$ müstəvisi keçirmək olar. $\alpha_2$ müstəvisi a düz xəttindən və A nöqtəsindən keçəcək. Onda, məlum teoremə görə $\alpha_2$ müstəvisi $\alpha$ müstəvisi ilə üst-üstə düşür.

Paralel düz xətlər aksiomuna görə $a_1$ və $a_2$ düz xətləri üst-üstə düşür. Teorem isbat olundu. Düz xətlərin paralellik əlaməti ilə tanış olaq.

Teorem 3. İki düz xətt üçüncü düz xəttə paralel olarsa, onda bu düz xətlər paraleldir.

İsbatı: Tutaq ki, b və c düz xətləri a düz xəttinə paralel yerləşir. İzah edək ki, və c düz xətləri paraleldir.

Planimetriyada biz a,b,c düz xətlərinin bir müstəvi üzərində yerləşdiyi hala baxmışdıq. Buna görə də belə fərz edək ki, verilmiş düz xətlər bir müstəvi üzərində deyildir. Tutaq ki, a və b düz xətləri $\beta$, a və c düz xətləri isə $\gamma$ müstəvisi üzərində yerləşir. $\beta$ *və* $\gamma$ müxtəlif müstəvilərdir (şəkil 3). b düz xətti üzərində yerləşən hər hansı bir B nöqtəsi qeyd edək. B nöqtəsi və c düz xəttindən müstəvi keçirək. Həmin müstəvi $\beta$ müstəvisini $b_1$ düz xətti boyunca kəsir. b1 düz xətti $\gamma$ müstəvisini kəsmir. Həqiqətən də, kəsişmə nöqtəsi a düz xətti üzərində olmalıdır, ona görə ki, b1 düz xətti $\beta$ müstəvisi üzərindədir. Digər tərəfdən də, o, həm də c düz xətti üzərində yerləşməlidir, çünki b1 düz xətti $\gamma_1$ müstəvisi üzərində yerləşir. Lakin, a və c düz xətləri paralelolduğundan kəsişmir.




**Şəkil 3**

b1 düz xətti $\beta$ müstəvisi üzərində yerləşdiyindən və a düz xətti ilə ortaq nöqtəsi olmadığından, o a düz xəttinə paralel olur. Onda paralel düz xətlər aksiomuna görə b1 düz xətti ilə üst-üstə düşən b düz xətti c düz xətti ilə bir müstəvi üzərindədir vəhəmin müstəvi ilə kəsişmir. Beləliklə, aydınlaşdırdıq ki, b və c düz xətləri paralel düz xətlərdir. Teorem isbat olundu.

Düz xətt və müstəvilərin paralellik əlamətini qeyd edək.

Əgər düz xətt və müstəvi kəsişmirsə, onda onlar paraleldir.

Teorem 4. Müstəvi üzərində olmayan düz xətt, bu müstəvi üzərindəki hər hansı düz xəttə paraleldirsə, onda həmin düz xətt müstəviyə paraleldir.

Məsələ: İsbat edin ki, müstəvi paralel düz birini kəsirsə, onda o birini də kəsir.

Həlli: Tutaq ki, a və b paralel düz xətt, $\alpha$ isə a düz xəttini A nöqtəsində kəsən müstəvidir. a və b düz xətlərindən müstəvi keçirək. O $\alpha$ müstəvisini hər hansı c düz xətti üzrə kəsir. c düz xətti a düz xəttini kəsir, deməli, ona paralel olan b düz xəttini də kəsir. c düz xətti $\alpha$ müstəvisi üzərində üzərində olduğundan, onda $\alpha$ müstəvisi b düz xəttini kəsir.

Fəzada düz xətlərin perpendikulyarlığı haqqında məlumat verək.

Müstəvi üzərində olduğu kimi, fəzada da düz bucaq altında kəsişən iki düz xəttə perpendikulyar düz xətlər deyilir.

Teorem 5: Kəsişən iki düz xətt uyğun olaraq perpendikulyar iki düz xəttə paralel olarsa, onda onlar da perpendikulyardır.




İsbatı: Tutaq ki, a və b perpendikulyar düz xətlərdir. $a_1$ və $b_1$ onlara paralel kəsişən düz xətlərdir. İsbat edək ki, $a_1$ və $b_1$ düz xətləri perpendikulyardır.

Planimetriyanın məlum olduğu kimi, əgər a,b,$a_1$,$b_1$, düz xətləri bir müstəvi üzərindədirsə, onda onlar teoremdə göstərilən xassəni ödəyir.

İndi fərz edək ki, verilmiş düz xətlər bir müstəvi üzərində deyil. Onda a və b düz xətləri hər hansı $\alpha$, $a_1$ və $b_1$ düz xətləri isə hər hansı $d_1$ müstəvisi üzərindədir. (şəkil 4). Məlum teoremə görə, $\alpha$ və $\alpha_1$ müstəvisi paraleldir. a və b düz xətlərinin kəsişmə nöqtəsi C, $a_1$ və $b_1$ düz xətlərinin kəsişmə nöqtəsi isə $C_1$ olsun. a və $a_1$ paralel düz xətlərinin təyin etdiyi müstəvidə $CC_1$ paralel düz xətt çəkək. Bu düz xətt a və $a_1$-i A və $A_1$ nöqtələrində kəsər. b və $b_1$ düz xətlər müstəvisində $CC_1$-ə paralel düz xətt keçirək və onun b və $b_1$ ilə kəsişmə nöqtələrini B və $B_1$ ilə işarə edək.

$CAA_1C_1$ və $CBB_1C_1$ dördbucaqlıları paraleloqramdır, çünki onların qarşı tərəfləri paraleldir. $ABB_1A_1$ dördbucaqlısı da paraleloqramdır. Onun $AA_1$, $BB_1$ tərəflərinin hər biri $CC_1$ düz xəttinə paralel olduğundan, onlar bir-birinə paraleldir. Beləliklə, dördbucaqlı $AA_1$ və $BB_1$ paralel düz xətlərindən keçən müstəvi üzərindədir. O isə $\alpha$ və $\alpha_1$ müstəvilərini AB və $A_1B_1$ paralel düz xətləri üzrə kəsir.

Paraleloqramın qarşı tərəfləri bərabər olduğundan, onda $AB=A_1B_1$, $AC=A_1C_1$, $BC=B_1C_1$. Üçbucaqların bərabərliyinin üçüncü əlamətinə görə,

ABC və $A_1B_1C_1$ üçbucaqları bərabərdir. Beləliklə, ACB bucağına bərabər olan $A_1C_1B_1$ bucağı düz bucaqdır, yəni $a_1$ və $b_1$ düz xətləri perpendikulyardır. Teorem isbat olundu.

Müstəvini kəsən düz xətt, müstəvi üzərində olan və kəsişmə nöqtəsindən keçən ixtiyari düz xəttə perpendikulyardırsa, onda bu düz xəttə müstəviyə perpendikulyar düz xətt deyilir.

Teorem: Düz xətt müstəvi üzərində kəsişən iki düz xəttə perpendikulyardırsa, onda o verilən müstəviyə perpendikulyardır.

***Ədəbiyyat***

1. *A.S.Adıgözəlov "Elementar həndəsə". Bakı, 2018.*
2. *A.V.Poqorelov "Həndəsə: orta məktəbin 7-11 sinifləri üçün dərslik". Bakı, Maarif, 1998.*
3. *M.C.Mərdanov "Ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün "Həndəsə" üzrə dərslik.*
4. *Nayma Qəhrəmanova, Məhəmməd Kərimov, İlham Hüseynov "Ümumtəhsil məktəblərinin 10-cu sinifləri üçün Riyaziyyat fənni üzrə dərslik". Radius, Bakı 2018.*

**S.N.Məlikova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sabinamelikova98@mail.ru***

# UNİVERSİTETLƏRDƏ ELEKTRON SƏNƏD DÖVRİYYƏSİNİN TƏŞKİLİ

***Xülasə***

*Təhsil müəssisələrində sənəd dövriyyəsi - sənədlərin yaradıldığı və ya qəbul edildiyi andan icrası və ya göndərilməsi başa çatana qədər yaradılması, təfsiri, ötürülməsi, qəbulu və arxivləşdirilməsi sistemidir. Elektron sənəd dövriyyəsi sistemi sənədlərlə işin yerinə yetirilməsinə də nəzarət edir və icazəsiz girişdən mühafizəni təmin edir.*

*Universitetlərin struktur bölmələrində informasiya axınının intensiv artması ilə əlaqədar olaraq idarəetmə qərarlarının qəbul edilməsinin səmərəliliyini, çevikliyini və mobilliyini artıra bilən kompleks avtomatlaşdırma vasitələrindən istifadə etmək zərurəti yaranır. Kağızdan elektron sənəd dövriyyəsinə keçid universitetin avtomatlaşdırılmasının aktual və prioritet vəzifələrindən biridir.*

# ОРГАНИЗАЦИЯ ДОКУМЕНТООБОРОТА В ЭЛЕКТРОННЫХ ВУЗАХ

***Резюме***

*Документооборот – это система создания, интерпретации, передачи, получения и архивирования документов с момента их получения или создания до момента их исполнения или отправки. Система электронного документооборота также контролирует выполнение работы с документами и обеспечивает защиту от несанкционированного доступа.*

*В связи с интенсивным увеличением информационных потоков в подразделениях вуза возникает необходимость использования комплексных средств автоматизации, позволяющих повысить оперативность, гибкость и мобильность принятия управленческих решений. Переход с бумажного на электронный документооборот является одной из актуальных и приоритетных задач автоматизации вуза.*

# ORGANIZATION OF DOCUMENT CIRCULATION IN ELECTRONIC UNIVERSITIES

***Summary***

*Document circulation is the system of creation, interpretation, transmission, reception and archiving of documents in the organization from the moment they are created or received until the execution or sending is completed. The electronic document circulation system also monitors the performance of work with documents and provides protection against unauthorized access.*

*In connection with the rapid increase in information flow in the department of higher schools, there is a need to use complex automation equipment that can increase the efficiency, flexibility or mobility of management decision-making. The transition from paper to electronic document circulation is one of the urgent and priority tasks of higher education automation.*

***Açar sözlər:*** *sənəd dövriyyəsi, universitet, sənəd, idarəetmə, tələb*
***Ключевые слова:*** *документо оборот, вуз, документ, менеджмент, студент*
***Key words:*** *document circulation, university, document, management, student*

## GİRİŞ

Sənəd idarəetməsi həm müəssisə daxilində (müəssisənin işçiləri arasında), həm də xarici tərəf müqabilləri ilə elektron məlumat mübadiləsinə xidmət edən müəssisə idarəetmə vasitələrindən biridir. Tez-tez "sənəd axını" termininin sinonimi kimi istifadə olunan "ofis işi" kimi bir termin də var, lakin onları bir-birindən ayırmaq lazımdır. "Ofis işi" bir təşkilatda idarəetmənin sənədli dəstəyi üçün tədbirlər toplusudur, "sənəd axını" termini, bir qayda olaraq, sənəd idarəetməsi çərçivəsində sənədlərin hərəkətini təsvir edir.

Universitelərdə sənəd dövriyyəsi həm mərkəzləşdirilmiş, həm də xüsusi struktur bölmələri səviyyəsində təqdim edilə bilər.

Orta səviyyəli bir müəssisənin əsas ünsiyyət problemi sənəd idarəetməsi ilə əlaqəli problemdir. Sənəd axını keyfiyyətsiz, etibarsız, rəsmiləşdirilməmiş və s. ola bilər. Bu problemlər məlumat itkisi mənbəyidir, müəssisə resurslarının qeyri-məhsuldar məsrəfləri son nəticədə maliyyə itkiləri ilə ifadə olunur (2,s.57). Belə bir müəssisədə qarşılıqlı əlaqənin tənzimlənməsi (normallaşdırılması) vasitəsi iş axınının optimallaşdırılması və onun sonrakı avtomatlaşdırılması, elektron sənəd idarəetmə sisteminin (və ya ESİS) yaradılmasıdır. Eyni zamanda, iş axınının avtomatlaşdırılması çox vaxt müəssisədə mühasibat uçotunun qurulması və avtomatlaşdırılması ilə paralel olaraq baş verir.

İş axınının avtomatlaşdırılması sistemləri xaricdə bizdən daha erkən geniş istifadəyə verildi və elektron sənəd dövriyyəsinin müxtəlif sahələrini təsvir edən öz terminologiyasını inkişaf etdirdi. Elektron sənəd idarəetmə sistemləri adlanan iş axınının avtomatlaşdırılması üçün məhsulların bütün sinfi mövcuddur.

Yanaşmaların hər birinin öz üstünlükləri və mənfi cəhətləri var. Beləliklə, hər hansı bir kommersiya sistemi satın alınarkən, təşkilatın kompüter avadanlığının təkmilləşdirilməsi, lazımi proqram təminatının (platformanın), texniki dəstəyin və lisenziyaların alınması üçün mümkün əlavə xərcləri nəzərə almaq lazımdır.

Elektron sənəd dövriyyəsi sisteminin seçimi təşkilatın infrastrukturunun layihəqabağı sorğusu, avtomatlaşdırma tələb edən məqsəd və vəzifələrin müqayisəli təhlili və ESİS-in funksionallığı ilə həyata keçirilməlidir (5,s.83).

Hər hansı bir müəssisə üçün xarakterik olan ofis işinin vəzifələri ilə yanaşı, təhsil müəssisələrinin sənəd dövriyyəsinin özünəməxsus xüsusiyyətləri vardır. Məhz, sənədlər əsasən təhsil, elmi və idarəetmə fəaliyyətini müşayiət edir. Onlar iş proseslərinin avtomatlaşdırılması üçün kafedralarda, fakültələrdə və struktur bölmələrdə istifadə olunan müxtəlif informasiya sistemlərində formalaşdırılır. Digər tərəfdən, belə proqram sistemləri eyni məlumatdan istifadə edir ki, bu da istifadəçi hərəkətlərinin təkrarlanmasına səbəb olur. Beləliklə, universitetin vahid kross-platformalı informasiya sistemi çərçivəsində mövcud olan məlumat və sənədlərin inteqrasiyası problemi aktualdır. Universitetin iş prosesində digər mühüm amil müxtəlif xidmətlər tərəfindən yaradılan və emal edilən məlumatların və sənədlərin informasiya təhlükəsizliyi məqsədilə təcrid olunmasıdır.

İş axınının avtomatlaşdırılması probleminin aparılmış sistem təhlilini nəzərə alaraq, bir neçə universitet özünün elektron sənəd idarəetmə sistemini hazırladı və tətbiq etdi. Sistem universitetin internet portalında informasiya xidməti kimi həyata keçirilir və digər korporativ xidmətlərdə də mövcud olan vahid istifadəçi məlumat bazasından istifadə edir. İstifadəçilərin sistem xidmətlərinə çıxışının idarə edilməsi qoşulma zamanı avtorizasiya əsasında administrator səviyyəsində həyata keçirilir.

Universitetlərin struktur bölmələrində informasiya axınlarının intensiv artması ilə əlaqədar olaraq idarəetmə qərarlarının qəbul edilməsinin səmərəliliyini, çevikliyini və mobilliyini artıra bilən kompleks avtomatlaşdırma vasitələrindən istifadə etmək zərurəti yaranır (1,s.39). Kağızdan elektron sənəd dövriyyəsinə keçid universitetin avtomatlaşdırılmasının aktual və prioritet vəzifələrindən biridir. Bundan əlavə, müasir universitetlərin biznes-proseslərinin mürəkkəbləşməsi şəraitində onların rəqabətqabiliyyətliliyini artırmaq üçün struktur bölmələrinin, lazım gəldikdə isə təşkilati strukturların fəaliyyətini optimallaşdırmaq, habelə onların qarşılıqlı əlaqəsini gücləndirmək lazımdır.

Müasir universitetlər informasiya texnologiyalarının tətbiqi baxımından bir sıra texniki və təşkilati xüsusiyyətlərə malik olan təşkilatların strukturu və idarə olunması baxımından mürəkkəbdir. Hər hansı bir müəssisə üçün xarakterik olan sənədləşmə işləri ilə yanaşı, ali təhsil müəssisələrinin iş axınının özünəməxsus xüsusiyyətləri var, yəni təhsil, elmi və idarəetmə fəaliyyətini müşayiət edən çoxlu sayda kağız sənədlər. Onlar müxtəlif struktur bölmələrində həm əl ilə, həm də informasiya sistemlərindən istifadə etməklə formalaşdırılır.

Universitetdə sənədlərin 80%-i kağız formada tərtib edilir və istifadə olunur. Yuxarıda qeyd olunan xüsusiyyətlər iş axınının avtomatlaşdırılmasının bir sıra problemlərinin yaranmasına səbəb olur (3,s.60).

Qeyd etmək lazımdır ki, universitetlər özəl proqram təminatı ilə yanaşı, uğurla fəaliyyət göstərən və effektivliyini sübut edən pulsuz proqram təminatına əsaslanan elektron sənəd idarəetmə sistemi korporativ informasiya sistemlərini təqdim edir və istismar edirlər. Bu proqram sistemlərinin təhlili əlavə tədqiqat tələb edir, ona görə də bu işdə bu sistemlərin göstəriciləri nəzərə alınmamışdır.

Xarici proqram təminatı istehsalçıları təhsil sənayesi üçün kifayət qədər funksional inteqrasiya olunmuş həllər təklif edirlər, lakin praktikada universitetlər Azərbaycan təhsil sisteminin xüsusiyyətlərinə daha çox uyğunlaşa bilməsi və iqtisadi məqsədəuyğunluğuna görə yerli məhsullara üstünlük verirlər.

Bir çox təhsil müəssisəsi müxtəlif struktur bölməsinin avtomatlaşdırılması üçün müasir informasiya texnologiyalarının işlənib hazırlanması və tətbiqi sahəsində kifayət qədər təcrübəyə malikdir. Sənədlərlə işin avtomatlaşdırılması üçün müasir informasiya texnologiyalarının tətbiqinin vacib istiqamətlərindən biri də universitetin ümumi şöbəsinin işinin avtomatlaşdırılmasıdır (5, s.42).

Ümumi şöbənin iş proseslərinin məcmusunu üç əsas qrupa bölmək olar: birincisi, daxil olan sənədlərin işlənməsi ilə bağlıdır; ikinci və üçüncü müvafiq olaraq çıxış və daxili sənədlərlə iş dövrünü təsvir edir. Öz növbəsində, hər bir qrupla iş dövrünə sənədlərin qeydiyyatı və kataloqların (sənədlərin müəllifləri, təşkilatların ünvanları, icraçılar göstərilməklə), jurnalların (icraya nəzarət, qəbul edilmiş və göndərilən yazışmalar göstərilməklə) formalaşdırılması daxildir.

## NƏTİCƏ

Sənədlərlə işləmək sənədin ilkin təfərrüatlarının elektron karta daxil edilməsini, ona nömrənin, o cümlədən daxil olan sənədlər üçün daxil olan nömrənin verilməsini nəzərdə tutur. Bundan əlavə, sənədin elektron surəti skan edilərək birbaşa elektron qeydiyyat kartına əlavə olunmaqla yaradıla bilər. Sənədlərdən daha səmərəli istifadə etmək üçün sənədlər arasında əlaqə yaratmaq məqsədəuyğundur. Bunun üçün müvafiq sənədlərə keçidlər elektron qeydiyyat kartının xüsusi sahəsinə qoyulur ki, bu da həm əlaqələndirilmiş sənədin qeydiyyat məlumatlarına, həm də onun elektron surətinə tez baxmaq imkanı verir. Bu cür əlaqələrin yaradılması əmrlər, sərəncamlar və digər yerli aktlarla həyata keçirilir.

***Ədəbiyyat***

1. *Əliyev, A. və Tağıyev, A. (2018). Ali Təhsil Müəssisələrində Elektron Sənəd Dövriyyəsi Sistemi. 2018 26th Signal Processing and Communications Applications Conference (SIU), İzmir, Türkiyə, səh. 1-4. doi: 10.1109/SIU.2018.8404437*
2. *Allahverdiyeva, G. (2019). Azərbaycan Universitetlərində Elektron Sənəd İdarəetmə Sistemi. Mühəndislik və Tətbiqi Elmlər Jurnalı, 14(15), 5236-5240.*
3. *Əmrahov, E. (2020). Azərbaycan Universitetlərində Elektron Sənəd Dövriyyə Sistemlərinin İstifadəsi. 2020-ci il 11-ci İnformasiya və Kommunikasiya Sistemləri üzrə Beynəlxalq Konfransın materialları (ICICS), Bəhreyn, səh. 132-137. doi: 10.1109/ICICS49690.2020.9109933*
4. *Quliyev, S. (2016). Azərbaycan Universitetlərində Elektron Sənəd Dövriyyəsi Sistemi. 2016-cı il 7-ci Beynəlxalq Təhsildə İnformasiya və Kommunikasiya Texnologiyaları Konfransının (ICTE) materialları, Xerson, Ukrayna, səh. 141-143. doi: 10.1109/ICTE.2016.7785239*
5. *Hüseynov, E. (2020). Ali təhsil müəssisələrində elektron sənəd dövriyyəsi sistemi: Azərbaycan nümunəsi. 2020-ci il Beynəlxalq Təhsil və e-Təhsil İnnovasiyaları Konfransının (ICEELI) materialları, Kuala Lumpur, Malayziya, səh. 40-44. doi: 10.1145/3447401.3447415*

**G.R.Quliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gquliyeva558@gmail.com***

# ÜMUMTƏHSİL MÜƏSSİSƏLƏRİNİN IX SİNİFİNDƏ SİTUATİV TAPŞIRIQLARIN HƏLLİ MODELİ

***Xülasə***

*Bu məqalə ümumtəhsil orta məktəblərinin IX sinifində tədris prosesində istifadə olunan situativ tapşırıqların həlli üçün təklif edilən modelin tətbiqindən bəhs edir. Və məqalədə göstərilmişdir ki, bu model IX sinifdə bir sıra anlayışların mənimsənilməsində böyük əhəmiyyət kəsb edir. Həmçinin məqalədə təklif edilən model əsasında nümunə verilmişdir.*

# СИТУАЦИОННЫЕ ЗАДАЧИ В КЛАССЕ IX КЛАСС СРЕДНИХ УЧЕБНЫХ ЗАВЕДЕНИЙ МОДЕЛИ

***Резюме***

*В этой статье обсуждается применение модели, предложенной для разрешения ситуации в вторичных средних школах IX класса в процессе обучения. И в статье говорится, что эта модель имеет большое значение в мастере ряда концепций в классе. Статья также задает пример, основанный на предлагаемой модели.*

# SİTUATİVE TASKS İN THE IX CLASSROOM OF SECONDARY EDUCATİON İNSTİTUTİONS MODEL

***Summary***

*This article discusses the application of a model proposed to resolve the situation in secondary secondary schools in the IX class in the teaching process. And the article states that this model is of great importance in the master of a number of concepts in the class. The article also set an example based on the proposed model.*

***Açar sözlər:*** *situasiya tapşırıqları, metodika, dərslik, fizikanın tədrisi*
***Ключевые слова:*** *ситуационные задачи, методы, учебник, обучение физике*
***Key words:*** *situation tasks, methods, textbooks, teaching physics*

Sitautiv tapşırıqların əsas məqsədi şagirdlərin şəxsi hüquqi təcrübələrinin mövcudluğunu üzə çıxarmaqdır. Bu tapşırqlar real hadisələrin şagirdlərin başına gələn məsələlərin, qarşılaşdıqları problemlərin həll edilməsi məqsədilə tətbiq edilir. Situativ tapşırıqları tərtib edərkən elə bir hadisə seçilməlidir ki, o həqiqətən baş vermiş olsun, şagirdlərin maraqlarına uyğun olsun, şagirdlər hadisə haqqında ətraflı informasiyaya malik olsunlar ki, onun həll yolunu axtarıb tapa bilsinlər.

Situativ tapşırıqlardan istifadə uzun vaxt apara bilər (təxminən 35 dəqiqə). Müəllim sinifdə dərs zamanı situativ tapşırıqlardan dərsin mərhələsini nəzərə alaraq müxtəlif iş formaları olan böyük və kiçik qruplarla və ya fərdi şəkildə istifadə edə bilər. Bu tapşırıqlardan dərsin tətqiqatın aparılması mərhələsində tətbiq edilə bilər.

Situasiya tapşırıqlarını aşağıdakı qaydada keçirmək olar:

1) Müəllim problemi və müzakirə üçün sualları öncədən hazırlamalıdır;

2) Hazırladığı problemə aid situativ tapşırıq tərtib etməli və tapşırığın hər bir alt sualını düşünüb diqqətli hazırlamalıdır;

3) Alt sualların hər biri ayrıca kartda yazıla bilər;

4) Sinifdəki şagirdlər hər biri 4-5 nəfərdən ibarət qruplara bölünür və hər qrupa alt suallardan biri təklif edilir və müzakirə edilməsi istənilir. Şagirdlər hadisəni tədqiq etməli, öz münasibətlərini bildirməlidirlər. Müəllim şagirdlərə kömək etmək üçün aşağıdakı kimi suallar verə bilər;

5) Kim? Nə? Harada? Nə zaman? Nə baş verdi? Kim iştirak edirdi? Faktların təqdimatında çatışmayan nə idi? və s.

6) Yekunda hər bir qrup öz işlərini bitirdikdan sonra sinifdə ümumi müzakira başlanır.

Dərs zamanı situativ tapşırıqların tətbiqin də bəzi problemlər meydana çıxır (3) və burada qeyd edilən problemlər, ancaq IX sinif şagirdləri üçündür. Yekunda qeyd olunan problemlərin (3) həlli ilə bağlı müəyyən bir sistem yaradılması daha çox məqsədəuyğun olub bizim tərəfimizdən aşağıdakı model irəli sürülmüşdür:




**Şəkil 1.**

Bu modelə əsasən IX sinifdə tədris edilən "İşıq hadisələri" mövzusuna aid Dövlət İmtahan Mərkəzi (DİM) tərəfindən hazırlanan test toplusundakı (5) bir nümunəyə baxaq:

***Situasiya №1***

Lupa vasitəsilə şəkilin bir hissəsinin xəyalı alınmışdır. Lupadan 20 sm məsafədə olan şəkilin xəyalı 3 dəfə böyüdülmüş olar.



**1.** Alınan xəyal necə xəyaldır?
**2.** Xəyal lupadan hansı məsafədə alınmışdır?
**3.** Lupanın fokus məsafəsini hesablayın.

***Həlli metodikası:***

1. Şagirdlər ən birinci tapşırığın mətnini diqqətlə oxumağa başlayır.

2. Mətni diqqətlə oxuduqdan sonra özünə tapşırıqla bağlı suallar verməyə başlayır. Məsələn, lupa nədir? f və ya d - nədir? və s.

3. Mətndən əsas anlayışları müəyyən edir:

Lupa - cismin düzünə, mövhumi, böyüdülmüş xəyalını almaq üçün istifadə olunur.

f - linzadan xəyala qədər olan məsafə;

d - cisimdən linzaya qədər olan məsafə;

Г - xətti böyütmə.

4. Bu əsas anlayışlar arasında əlaqə qurmağa çalışır:

$$\Gamma=\frac{|f|}{d} \quad (1)$$

$$\frac{1}{F}=\frac{1}{d}+\frac{1}{f} \ (2) \quad \text{və ya} \quad \frac{1}{F}=\frac{1}{d}-\frac{1}{|f|} \ (3)$$

5. Öz fərziyyəsini irəli sürür: 2-nömrəli tapşırığı (1) düsturu ilə hesablamalıyam və bu hesablama nəticəsində 3-nömrəli tapşırığı həll edə bilərəm. Əgər xəyal həqiqidirsə, (2) düsturu ilə və ya xəyal mövhumidirsə, onda (3) düsturu ilə hesablanır.

6. İrəli sürdüyü fərziyyəni fikri təcrübə ilə yoxlayır: lupa vasitəsilə xəyal mövhumi alındığına görə (3) düsturu ilə hesablanmalıdır. Şagirdin fikir təcrübəsi irəli sürdüyü fərziyyəsini doğruladığına görə tapşırığı həll etməyə davam edir. Əks halda yeni fərziyyə deməli olacaqdı.

7. Tapşırığın şərtini yazır:

Verilir: d=20 sm; Г=3

8. BS vahidlər sisteminə keçirilir. Bu mərhələ əsas mərhələlərdən biri olub doğru cavab almaq üçün çox önəmlidir.

d= 20sm= 0,2m; Г-adsız kəmiyyət olduğu üçün vahidi yoxdur.

9. Verilənlərə əsasən alt suallar üçün lazım olan düsturlar yekunda yazılır:

2-ci alt sual üçün: $\Gamma=\frac{|f|}{d}$

3-cü alt sual üçün: $\frac{1}{F}=\frac{1}{d}-\frac{1}{|f|}$

10. Məçhul müəyyən edilir: axtarılan kəmiyyəti düsturdan müəyyən edir.

11. Və tapdığı kəmiyyətlərdən istifadə edərək (düsturda yerinə qoyaraq) cavabı tapır:

2-ci alt sual: $\Gamma = \frac{|f|}{d}$ >> f= Г×d = 3 × 0,2=0,6 m

3-cü alt sual: $\frac{1}{F} = \frac{1}{d} - \frac{1}{|f|}$ >> $\frac{1}{F} = \frac{1}{0,2} - \frac{1}{0,6}$ = 0,3 m

12. Yekun mərhələ olaraq da aldığı cavabı dəyərləndirir: cavab doğrudursa, situativ tapşırığı həll düzgün həll etmiş olur; cavab doğru deyilsə, yenidən həll etməyə başlayır.

Göründüyü kimi, bu modeldən istifadə edərək situativ tapşırıqları həll etmək mümkündür.

***Ədəbiyyat***


1. *Murquzov M.İ., Abdullayev S.Q., Abdurazaqov R.R., Əliyev N.A. 9-cu sinif fizika dərsliyi. Bakı, 2005-192 səh.*
2. *Murquzov M., Abdurazaqov R., Əliyev R., Əliyeva D., Bayramlı H., 9-cu sinif üçün Fizika fənni üzrə dərsliyin Metodik Vəsaiti, Bakı, 2020-224 səh.*
3. *Ümumitəhsil məktəblərində fizika fənnin tədrisi prosesində situativ tapşırıqların tətbiqi problemləri.*
4. *Əlizadə Ş.H. İsmayılov İ.N. Fizikanın tədrisi metodikası (ümumi məsələlər). Bakı. 2018.*
5. *Fizika test toplusu / 2019-cu il / II hissə.*

**S.Y.Laçınov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***senanlacinov2000@gmail.com***

# İBTİDAİ SİNİFLƏRDƏ VAXT VƏ ONUN ÖLÇÜ VAHİDLƏRİ İLƏ ŞAGİRDLƏRİN TANIŞ EDİLMƏSİ

***Xülasə***

*Məqalədə ibtidai siniflərdə şagirdlərin vaxt və onun vahidləri ilə tanış edilməsi və şagirdlərə vaxt və onun ölçülməsi ilə bağlı məsələlərin izah edilməsi, vaxt ölçü vahidləri, bu vahidlər arasındakı əlaqələr, bu əlaqələrin şagirdlərə öyrədilməsi ilə bağlı məsələlər qeyd edilmişdir.*

# ОЗНАКОМЛЕНИЕ УЧАЩИХСЯ СО ВРЕМЕНЕМ И ЕГО ЕДИНИЦАМИ ИЗМЕРЕНИЯ В НАЧАЛЬНЫХ КЛАССАХ

***Резюме***

*В статье приводится ознакомление учащихся с временем и его единицами в начальных классах и разъяснение учащимся вопросов, связанных со временем и его измерением, единицами измерения времени связи между этими единицами отмечены вопросы, связанные с тем, как эти связи учат учащихся.*

# FAMILIARIZATION OF STUDENTS WITH TIME AND ITS UNITS OF MEASUREMENT IN PRIMARY GRADES

***Summary***

*The article introduces students to time and its units in primary grades and explains to students the issues related to time and its measurement, time measurement units the factors between these units the issues related to teaching these relationships to students are mentioned.*

***Açar sözlər:*** *vaxt, saat, sutka, gün, il, əsr, era, analoq, əyani, təlim, saniyə, dəqiqə, riyaziyyat, təqvim, hesab, zaman, hadisə, sabah, gecə, gündüz, günorta*

***Ключевые слова:*** *время, час, день, день, год, век, эра, аналоговый, наглядный, обучение, секунды, минуты, математика, календарь, арифметика, время, событие, завтра, ночь, день, полдень*

***Key words:*** *time, hour, day, day, year, century, period, analog, visual, learning, seconds, minutes, math, calendar, arithmetic, time, event, tomorrow, night, day, noon*

Şagirdlərin qavramaqda ən çətinlik çəkdikləri ölçü vahidi vaxtdır. Şagirdlər vaxt haqqında təsəvvürlərə hələ məktəbəqədərki dövrdə sahib olurlar.

İbtidai siniflərdə müəllimlərin şagirdlərə öyrədilməsində ən çox problem yaşadıqları bölmə məhz vaxt və onun ölçülməsidir. Buna görə də bu bölmə müəllimlərdən əlavə səy tələb edir. Buna səbəb kimi vaxtın mücərəd kəmiyyət olmasını və onun heç bir duyğu orqanımızla hiss olunmaması göstərilə bilər. Vaxt sadəcə axır. Vaxt əslində hadisədir. İnsan həyatının ən ayrılmaz və bütöv parçasıdır. Onu düzün istifadə edə bilmək hər insana nəsib olmur. İnsan ömrü boyu vaxtı səmərəli və düzgün istifadə etmək üçün çalışır. Buna görədir ki, insan oğlu vaxtı ölçməyə və qiymətləndirməyə səy göstərmişdir.

Vaxtın öyrədilməsində meydana çıxan çətinliklər aşağıdakılardan irəli gəlir.

1. Vaxt fasiləsiz axır.
2. Vaxtı dayandırmaq, yavaşlatmaq, sürətləndirmək mümkün deyil.
3. Vaxt aralıqları, müddət anlayışları, hadisələrin davam etmə müddətlərinə görə müqayisə edilməsi şagirdlər tərəfindən çətin qavranılır. Buna səbəb insan şüurunun qavradığı qədəri ilə vaxtın gah tez, gah da yavaş axmasıdır. Bəzi vaxtlar şən və əyləncəli zamanların tez, sıxıcı və çətin zamanların gec axdığını hiss etməmiz bunu misal ola bilər.

Vaxt haqqında təsəvvürlər şagirdlərdə digər təsəvvürlərlə müqayisədə çox gec yaranır. Bu da vaxtın maddi bir şəkildə olmaması ilə bağlıdır. Şagirdlər hələ məktəbəqədərki dövrdə gecənin gündüzlə əvəzlənməsi, fəsillərin növbələşməsi kimi hadisələrin fonunda şagirdlər vaxt anlayışı ilə tanış olurlar. Şagirdlərin vaaxt anlayışı ilə bağlı yaşadıqları ən böyük çətinlik hadisələrin hansı vaxt ardıcılığı ilə baş verdiyini tam qavraya bilmirlər. Bu hal onların nitqində rahatlıqla müşahidə olunur. Məsələn, şagirdlər bəzən “dünən” və “sabah” kimi anlayışları düzgün olaraq öz yerlərində işlətmirlər. Onlar danışarkən “biz dünən bakıya gedəcəyik. Mən sabah məktəbə getdim” kimi düzgün olmayan cümlələrdən istifadə edirlər.

I sinif şagirdləri “dünən”, “sabah”, “bu gün”, “əvvəl”, “sonra”, “tez”, “gec”, “keçib” “qalıb” və s. kimi anlayışları tədricən dərk edib düzgün istifadə edirlər. Vaxt təsəvvürlərini formalaşdırmaq üçün uşaqların praktik və tədris fəaliyyətləri ilə əlaqələndirmək olduqca vacibdir. Şagirdlər günlərin adları ilə, həftədəki ardıcılıqları ilə tanış edilirlər. Şagirdlərdə vaxtın axdığını hiss etdirmək üçün onların aşina olduqları müddətləri müqayisə etmək lazımdır. Məsələn, dərs müddəti, tənəffüs və s. İnsanların yaşlarını müqayisə etməklə, böyükdür, kiçikdir, qocadır, cavandır, yaşlıdır - kimi ifadələrin mənaları uşaqlara öyrədilir.

Şagirdlər II sinifdə vaxtın saatla və sonra dəqiqə ilə ölçülməsini öyrənirlər. Bu anlayışların öyrənilməsi zamanı qısa müddət ərzində davam edən hadisələrdən istifadə etmək olar. Şagirdlərin ay, il və gün anlayışlarının öyrədilməsi 3-cü sinfdə, əsr və saniyə anlayışları isə 4-cü sinifdə öyrədilir.

Şagirdlər aylarla tanış edilir. Ayların nömrələnməsi, hansı ayların 30, hansı ayların 31 gün olması kimi məsələlər şagirdlərə izah edilir. Müəllim şagirdlərə fevral ayının 28 gün olduğunu, hər dörd ildən bir 29 gün olduğunu və bunun necə hesablanacağını izah edir. Müəllim şagirdlərə hər 4-cü ilin uzun il olduğunu və bunun nəticəsində fevral ayının 29 gün olduğunu izah edir. Fevral ayının hansı il 29 gün olacağını, yəni hansı ilin uzun olacağını tapmaq üçün həmin ili 4-ə bölmək kifayətdir. Əgər qalıq alınarsa, qısa il (fevral ayı 28 gündür), qalıq alınmasa uzun il (fevral ayı 29 gündür) olur.

Şagirdlərə ay və il anlayışları öyrədilərkən təqvimdən istifadə böyük əhəmiyyət kəsb edir. Müəllim şagirdlərin təqvimdən istifadəni daha rahat öyrənə bilmələri üçün onların özlərinə təqvim düzəltdirə bilər. Şagirdlər cədvəl şəklində təqvim düzəldərkən ayları və günləri qeyd edir. Bu zaman şagird ayların sıra nömrələrin yaddaşına həkk edir. Bu zaman bir nüansı qeyd etmək lazım gəlir, şagirdlərə öyrədilməlidir ki, aylardan fərqli olaraq günlərin sırası əvvəlki və sonrakı illərdə fərqli olur. Məsələn, 2021-ci ilin oktyabrın 21-i cümə günü olubsa, 2023-cü ilin oktyabrın 21-i eyni gün olmaya bilər. Bu zaman belə bir məsələ ortaya çıxır. Ay və gün məlum olduqda həftənin hansı günü olduğunun tapılmasına aid: məsələn, fevral ayının 2-si həftənin hansı gününə düşür. Oktyabr ayında həftənin 5-ci günü (cümə günləri) hansı günlərə düşür.

Vaxt ölçü vahidlərindən gün (sutka) və il əsas ölçü vahidlərindən hesab olunur. Gün haqqında şagirdlərə məlumat verilərkən onun iki hissəsi gecə və gündüz, daha sonra isə onların hissələri haqqında - səhər, günorta, axşam, gecə məlumat vermək lazımdır.

Bu dövrdə şagirdlərdə vaxt ardıcılığını öyrətmək böyük əhəmiyyət kəsb edir. Qeyd etmişdik ki, ibtidai siniflərdə şagirdlərin ən böyük problemlərindən biridir. Şagirdlərdə dünən, bu gün, sabah anlayışları haqqında təsəvvürləri dəqiqləşdirmək və inkişaf etdirmək üçün müxtəlif işlər görmək lazımdır. Şagirdlərdə sutkanın uzunluğu barədə təsəvvürlər yaratmaq üçün "dünənki səhərdən, bugünki səhərə qədər bir gündür (sutkadır)", "dünənki günortadan, bugünki günortaya qədər bir gündür (sutkadır)" kimi ifadələrdən istifadə etmək olar. Bu zaman tam və nataman sutkaların sayına aid misallar verilir.

Vaxt haqqında təsəvvürlərin şagirlərin təfəkküründə daha da dəqiqləşdirmək və genişləndirmək üçün vaxtın ölçü vahidlərindən istifadə olunur. Bu məqsədlə saat və saniyə ölçü vahidləri şagirdlərə öyrədilir.

Şagirdlər saat anlayışı ilə tanış edilərkən müəllim çalışmalıdır ki, şagirdlərə daha çox həyatla əlaqəli misallar göstərsin. Bu məqsədlə davam etmə müddəti 1 saata yaxın olan hadisələrdən istifadə olunur. Məsələn, şirkət işçilərinin yemək saatı, bir dərsin davam etmə müddəti və s. Bu zaman saat bir vaxt parçası, müddət kimi şagirdlərlə tanış edilərkən şagirdlərin qavraması

asanlaşır. Eyni şəkildə iş dəqiqə anlayışı öyrədilərkən də istifadə olunur. Məsələn, 60 metr məsafəni 1 dəqiqəyə qaçmaq və s.

Müəllim şagirdləri saat və dəqiqə anlayışları ilə tanış etdikdən sonra həmin ölçü vahidləri arasında əlaqəni aşkar göstərmək üçün saat modelindən istifadə edir. 1 saat = 60 dəqiqə. Saat modelindən istifadə etmək üçün birinci olaraq kiçik və böyük əqrəblərin saatda oynadığı rol haqqında izah verilməlidir. Şagirdlərə izah olunur ki, kiçik əqrəb saatı böyük əqrəb isə dəqiqəni göstərir. Müəllim şagirdlərə saatın 12 bölgüyə bölündüyünü və hər bir bölgünün bir saatı ifadə etdiyini öyrədir. Böyük əqrəbin bir tam dövrü zamanı, kiçik əqrəbin yeri bir bölgüdən digərinə dəyişir. Bu hadisə saatın tamamlanması adlanır. Şagirdlərə öyrədilməli olan münasibətlərin bir digəri 1 sutkanın (gün) 24 saata bərabər olduğudur. Bu zaman bir sıra məsələlər nəzərə alınmalıdır. Bu məsələlər S.S.Həmidov tərəfindən aşağıdakı kimi göstərilmişdir.

1. Vaxtın hesablanmasında 60-lıq say sistemi istifadə olunur.
2. Vaxt həm 12-lik, həm də 24-lük sistemdə hesablanır. Müəllim sinifə analoq və mexaniki saat nümunələri gətirərək bu məsələ ilə şagirdləri agah edir.
3. Günün başlanğıc və bitiş saatları şagirdlərə izah olunmalıdır. Gün gecə saat 00-dan hesablanır. Saat gündüz 12:00 günorta hesablanır. Əgər 12 saatlıq sisitem istifadə olunarsa, saatı göstərməzdən əvvəl "səhər", "gündüz", "gecə" ifadələrindən istifadə olunur. 24-lük saat sistemində isə bu terminlərin istifadəsinə yer verilmir. 24 saatlıq sistem haqqında şagirdlərə izah verilməlidir.

Vaxt ölçü vahidləri arasındakı əlaqələr öyrədilməsi üçün müəllim cədvəl, məsələ və çalışmalardan istifadə edə bilər. Çalışmaların tərkibinə adlı ədədlər, vaxt ölçü vahidləri və kəsrlərlə əlaqələr daxil edilməlidir.

Vaxt ölçü kəmiyyətlərinin öyrədilməsində son mərhələ saniyə və əsr anlayışlarının öyrədilməsi təşkil edir. Əslində şagirdlər dəqiqə anlayışı öyrədilərkən saniyə anlayışı ilə tanış olurlar. Şagirdlər buna görə də saniyə anlayışı ilə vaxtın kiçik ölçü vahidi kimi tanış edilməsi zamanı çətinlik çəkmirlər. Müəllim saniyə anlayışını sadəcə izah etməklə yetinməməli saat cihazı ilə saniyə ilə praktik olaraq tanış etməlidir. Vaxt həyatımızın ən önəmli parçasıdır, buna görə də şagirdlərə ibtidai siniflərdən daha əvvəl məktəbəqədər təlim zamanı, vaxt haqqında izah verilir.

Əsr anlayışı öyrədilən zaman müəllim konkret misallardan istifadə edir. Müəllim şagirdləri era anlayışı ilə də tanış etməlidir. Era vaxtın hesablanması üçün başlanğıc rolunu oynayır. Müəllim şagirdləri bizim era, bizim eradan əvvəl anlayışları ilə tanış etməldir. Bu anlayışların izah edilməsində həyat bilgisi fənninə inteqrasiya edilə bilər.

Müəllim şagirdləri təqvim anlayışı ilə də tanış etməlidir. Müəllim istifadə olunan təqvimlər 1. Günəş, 2. Ay təqvimində illərin müxtəlif nömrələrlə işarə edilməsini izah edir. Təqvim hesablanması məsələlərində təqvim və hesab vaxtı adlı iki anlayış istifadə olunur. Təqvimə aid məslələrin verilməsi zamanı müəllim olduqca maraqlı məsələlərdən istifadə etməlidir. Belə məsələlər çox vaxt tarixi və əlamətdar günlərdən seçilir.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün Riyaziyyat fənni üzrə təhsil proqramı (kurikulumu) (I-IX siniflər) Bakı, ARTPİ, 2013, 430 səh.*
2. *Adıgözəlov A.S., Əhmədov İ.Q. İbtidai siniflərdə riyaziyyat təliminin xüsusi metodikası, Bakı, mütərcim 2001, 312 səh.*
3. *Həmidov S.S., Məcidova A.Ə. Məktəbin ibtidai siniflərində riyaziyyatın tədrisi metodikası ( ümumi və xüsusi metodika), Bakı – ADNSU – 2016, 410 səh.*
4. *Q.Balaşov (elmi red.) [ön söz], S.Tağıyeva, Z.Məmmədov. Kəmiyyətlər və onların öyrədilməsi metodikası (I-IV siniflər)Bakı, Adpu 2022, 250 səh.*

**N.Ş.Atayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***atayevanergiz202@gmail.com***

# ORTA MƏKTƏB RİYAZİYYATIN ÖYRƏDİLMƏSİNDƏ MÜASİR METOD VƏ VASİTƏLƏRDƏN İSTİFADƏSİ

***Xülasə***

*Orta məktəblərdə riyaziyyatın öyrədilməsində istifadə edilən müasir metod və vasitələrin ətraflı olaraq müzakirə edilməsini tələb edir. Bu metodlar arasında interaktiv mətn kitabları, riyaziyyat təlim platformaları, interaktiv və görsəl təlim alətləri, çox tərəfli və tərəfdaşlı işləmə, kompüter proqramları, riyaziyyat problemləri üzərində işləmə, müəyyən bir problem həll etmək üçün, ədədləri təhlil etmək üçün texnologiyalı vasitələr və s. daxildir. Bu metodlar riyaziyyat öyrənməsini daha maraqlı və effektiv edir və öyrənənlərə riyaziyyatın praktik tətbiqi üçün hazırlıq edir.*

*Müasir texnologiyaların orta məktəb riyaziyyat təhsilində istifadəsi, şagirdlərə daha maraqlı və motivasiyalı bir öyrənmə təcrübəsi verir. Bu texnologiyalar, şagirdlərin özünü qiymətləndirmələrinə, interaktiv təlim tətbiqləri vasitəsilə müqayisə etmələrinə, problemlər üzərində çalışmaq üçün fərdi təlim planları hazırlamağa imkan verir. Ayrıca, müasir vasitələr müəllimlərə daha effektiv tədris prosesi üçün vasitələr verir.*

# ИСПОЛЬЗОВАНИЕ СОВРЕМЕННЫХ МЕТОДОВ И СРЕДСТВ В ОБУЧЕНИИ МАТЕМАТИКЕ В СРЕДНЕЙ ШКОЛЬНОЙ

***Резюме***

*Требуется подробное рассмотрение современных методов и средств, используемых при обучении математике в общеобразовательной школе. К таким методам относятся интерактивные учебники, платформы обучения математике, интерактивные и визуальные средства обучения, многосторонняя и партнерская работа, компьютерные программы, работа над математическими задачами, технологические средства анализа чисел для решения конкретной задачи и т. д. включает в себя. Эти методы делают изучение математики более интересным и эффективным и готовят учащихся к практическому применению математики.*

*Использование современных технологий в математическом образовании в средней школе дает учащимся более интересный и мотивирующий опыт обучения. Эти технологии позволяют учащимся проводить самооценку, сравнивать результаты с помощью интерактивных учебных приложений и разрабатывать индивидуальные планы обучения для работы над проблемами. Также современные инструменты дают учителям инструменты для более эффективного учебного процесса.*

# USE OF MODERN METHODS AND TOOLS IN TEACHING SECONDARY SCHOOL MATHEMATICS

***Summary***

*A detailed consideration of modern methods and means used in teaching mathematics in a general education school is required. Such methods include interactive textbooks, math learning platforms, interactive and visual learning tools, multilateral and partner work, computer programs, work on mathematical problems, technological tools for analyzing numbers for solving a specific problem, etc. includes. These methods make the study of mathematics more interesting and effective and prepare students for the practical application of mathematics.*

*The use of modern technology in mathematics education in high school provides students with a more interesting and motivating learning experience. These technologies allow students to conduct self-assessments, compare results through interactive learning apps, and develop individualized learning plans to work through problems. Also, modern tools give teachers tools for a more effective learning process.*

***Açar sözlər:*** *müasir texnologiyalar, orta məktəb, riyaziyyat təhsili, interaktiv təlim, effektiv tədris, müəllim*

***Ключевые слова:*** *современные технологии, общеобразовательная школа, математическое образование, интерактивное обучение, эффективное обучение, учитель*

***Key words:*** *modern technologies, secondary school, mathematics education, interactive learning, effective teaching, teacher*

**Giriş:** Riyaziyyat, insanın fəlsəfəsindən sənətə, iqtisadiyyatdan mühəndisliyə qədər hər sahədə əhəmiyyətli bir rol oynayır. Bu səbəbdən orta məktəb də riyaziyyatın öyrənilməsi üçün ən əsas məkanlardan biridir. Lakin, özü də şagirdlər üçün məsələləri başa düşmək, alqoritmlər üzərində düşünmək və səhv hesablamaları düzəltmək kimi bir çox zəruri tələblərə əsaslanan riyaziyyat dərsləri çox şagirdlər üçün çətin ola bilir. Bu səbəbdən, müasir texnologiyaların orta məktəb riyaziyyat təhsilində istifadəsi, şagirdlərə daha maraqlı və interaktiv bir təcrübə təmin edir, həm də müəllimlərə daha effektiv tədris prosesi üçün vasitələr verir. Bu məqalədə, orta məktəb riyaziyyatının öyrənilməsində müasir metod və vasitələrin əhəmiyyəti və faydaları haqqında məlumatlar veriləcəkdir.

Riyaziyyat, insanların hər zaman faydalandığı və əməkdaşlığı olan bir elmdir. Orta məktəb dövrü isə riyaziyyatın ən əsas təhsil dövrüdür. Bu dövrdə şagirdlər, həyatlarında riyaziyyatın praktik tətbiq edilməsinə hazırlaşır və bu, onların kiçik yaşlardan bəri öyrəndikləri riyaziyyatın tətbiqi üçün gərəkli müsbət motivasiya yaratmaq üçün əhəmiyyətli bir mərhələdir.

Müasir texnologiyaların gündəmə gəlməsi ilə birlikdə, riyaziyyatın öyrədilməsində də bir çox müasir metod və vasitələr istifadə edilməkdədir. Bu

metodlar, interaktiv mətn kitabları, riyaziyyat təlim platformaları, interaktiv və görsəl təlim alətləri, çox tərəfli və tərəfdaşlı işləmə, kompüter proqramları, riyaziyyat problemləri üzərində işləmə, müəyyən bir problem həll etmək üçün ədədləri təhlil etmək üçün texnologiyalı vasitələr və s. daxildir.

Bu məqalədə, orta məktəblərdə riyaziyyatın öyrədilməsində istifadə edilən bu müasir metod və vasitələrə dair ətraflı bir müzakirə ediləcəkdir. Bu vasitələr riyaziyyat öyrənməsini daha maraqlı və effektiv edir və öyrənənlərə riyaziyyatın praktik tətbiqi üçün hazırlıq edir.

Əsas hissədə bildirə bilərik ki, orta məktəb riyaziyyatın öyrədilməsi zamanı müasir metod və vasitələrdən istifadə, şagirdlərə daha maraqlı və interaktiv bir təcrübə təmin edir, həm də müəllimlərə daha effektiv tədris prosesi üçün vasitələr verir (2).

- İnternet orta məktəb şagirdlərinə riyaziyyat məsələlərinin öyrənilməsində daha asan giriş imkanı təmin edir. Şagirdlər istədikləri vaxt internetə qoşularaq, müxtəlif mənbələrdən, videolardan, təlimat kitabcıqlarından, testlərdən və digər materiallardan istifadə edə bilirlər. Bu, şagirdlərin daha geniş bir məlumat bazasına sahib olmalarına kömək edir.
- Müasir təlim tətbiqləri, interaktiv təlim tətbiqləri, riyaziyyat problemləri üçün hazırlanmış tətbiqlər və proqramlar şagirdlərin və müəllimlərin işini çox asanlaşdırır. Bu tətbiqlər, hazır alqoritm və hesablama üsulları ilə təmin olunmuş riyaziyyat problemlərinə çözüm təqdim edir. Şagirdlər bu proqramlardan istifadə edərək həm də daha sürətli və effektiv şəkildə hesablama edə bilirlər.
- Müasir texnologiyalar şagirdlərin riyaziyyat məsələlərinə olan marağını və motivasiyasını artırır. Özünü daha maraqlı və interaktiv hiss edən şagirdlər daha çox iştirak edirlər və daha effektiv şəkildə öyrənirlər.
- Müasir vasitələr və metodlar müəllimlərə də kömək olur. Elektron kitabxanalar, müasir dərsliklər, təlim videoları və s.

Müasir texnologiyaların riyaziyyat təhsilində əhəmiyyəti son illərdə artmaqdadır. Bu texnologiyalar şagirdlər üçün daha maraqlı və interaktiv bir təcrübə təmin edir, həm də müəllimlərə daha effektiv tədris prosesi üçün vasitələr verir (4).

İnternet riyaziyyat mənbələrinə daha asan giriş imkanı təmin edir. Şagirdlər istədikləri vaxt internetə qoşularaq, müxtəlif mənbələrdən, videolardan, təlimat kitabçalarından, testlərdən və digər materiallardan istifadə edə bilirlər. Bu, şagirdlərin daha geniş bir məlumat bazasına sahib olmalarına kömək edir.

Riyaziyyat problemlərini həll etmək üçün hazırlanmış tətbiqlər və proqramlar şagirdlərin və müəllimlərin işini çox asanlaşdırır. Bu tətbiqlər, bir neçə dəyişiklik edilə bilən sətirlərdən ibarət olan, hazır alqoritm və hesablama

üsulları ilə təmin olunmuş riyaziyyat problemlərinə həll yolu təqdim edir. Şagirdlər bu proqramlardan istifadə edərək həm də daha sürətli və effektiv şəkildə hesablama edə bilirlər.

Texnologiyalar şagirdlərin riyaziyyat məsələlərinə olan marağını və motivasiyasını artırır. Özünü daha maraqlı və interaktiv hiss edən şagirdlər daha çox şagird aktivləri ilə iştirak edirlər və daha effektiv şəkildə öyrənirlər.

Orta məktəb riyaziyyatı təhsilin əsas hissələrindən biridir və şagirdlərin peşəkar karyerasını müəyyən edəcək ən mühüm sahələrdəndir. Riyaziyyatın əhəmiyyətindən asılı olaraq, müasir metodlar və vasitələrdən istifadə edilməsi şagirdlərin riyaziyyatı öyrənməsini daha maraqlı və effektiv edir.

Bir çox orta məktəblərdə, riyaziyyat dərsi müəllim tərəfindən qara lövhədə izah edilir və şagirdlər dərsi qulaq asaraq dinləyirlər. Bu metod artıq köhnəlmiş və zamanla yenilənməlidir. Yenilənmiş metodlar, şagirdlərin öz mədəniyyətinə uyğun şəkildə təlim prosesinə baxış açısını dəyişəcəkdir. Məsələn, hər bir şagirdin öz öyrənmə yolu və təcrübəsi var, buna uyğun olaraq müasir metodlar şagirdlərin öz öyrənmə yollarına uyğun şəkildə təlimi təmin edir.

Müasir metodlar arasında, interaktiv təlim vasitələri, vizual təlim vasitələri, məqalələr və video tədris vasitələri var. Bu vasitələrin hamısı şagirdlərin riyaziyyatı öyrənməsini daha maraqlı və özgün edir. Şagirdlər özləri vaxtlarını idarə etmək və riyaziyyatı öyrənmək üçün müxtəlif vasitələrə daxil olmaq üçün olan imkanlardan istifadə edir. Beləliklə, şagirdlər dərsi başa çatdırdıqdan sonra, onların anlayışı daha yüksək səviyyədə olacaq (3).

Həmçinin, müasir metodlar riyaziyyatın praktik tətbiqi üçün şagirdləri hazırlamaqda da kömək edir. Məsələn, riyaziyyat problemlərinin həllinə istinad edən təcrübələr şagirdləri riyaziyyatın tətbiqi üçün hazırlayır. Bu, şagirdlərin praktik tətbiq etmələrini, təcrübə qazanmalarını və özünə inamını artırır.

Müasir metodların bir başqa əhəmiyyətli üstünlüyü də onların öyrənilməsi üçün geniş imkanlar təmin etməsidir. Şagirdlər, müasir riyaziyyat proqramlarını, təlim oyunlarını və təlim aplikasiyalarını istifadə edərək, öz riyaziyyat biliklərini artırmağa və praktik təcrübə qazanmağa çalışa bilərlər. Həmçinin, interaktiv təlim vasitələri və video tədris müəllimlərə də böyük kömək edir. Onlar müəllimlərin təlimatlarını daha yaxşı başa düşmələrinə və şagirdlərin öyrənmə prosesinə aktiv qatılmağa imkan verir.

Müasir metodların bir başqa üstünlüyü də onların riyaziyyatın hər sahəsinə uyğun olmasıdır. Məsələn, şagirdlər təlim oyunları və təlim aplikasiyaları vasitəsi ilə hər hansı bir riyaziyyat sahəsindən öyrənə bilərlər, həm də müasir təlim vasitələri, məqalələr və videolar, şagirdlərin riyaziyyatın hər sahəsini daha yaxşı başa düşmələrinə kömək edir.

Müasir metodlar riyaziyyatın öyrənilməsi üçün bir çox müxtəlif texnologiyalardan istifadə edir. Aşağıdakı nümunələr bunlardan bəzilərini əks etdirir:

- İnteraktiv təlim vasitələri: Bu texnologiyalar riyaziyyatın öyrənilməsində ən geniş istifadə olunan metodlardan biridir. Bu vasitələr, video tədris, interaktiv testlər, məlumat bazaları və digər öyrənmə materiallarını birləşdirir. Şagirdlər bu vasitələri istifadə edərək öz öyrənmələrinə uyğun şəkildə riyaziyyat təlimi ala bilərlər.
- Təlim oyunları və təlim aplikasiyaları: Bu təlim vasitələri şagirdlərə riyaziyyatın öyrənilməsinə maraqlı və özgün bir yanaşma təqdim edir. Bu oyunlar və aplikasiyalar müxtəlif riyaziyyat problemlərini həll etmək üçün interaktiv tapşırıqlar təqdim edir.
- 3D və Virtual riyaziyyat modelləri: Bu texnologiyalar şagirdlərə riyaziyyatın ümumi konseptlərini daha yaxşı anlamaq üçün idealdir. Bu modellər şagirdlərə birinci şəxs tərəfindən riyaziyyat problemlərini həll etmək imkanı verir (1).
- Riyaziyyat proqramları: Bu proqramlar müxtəlif riyaziyyat problemlərini həll etmək üçün hazırlanmışdır. Bu vasitələr şagirdlərin riyaziyyat biliklərini artırmaq üçün idealdır və özünü yoxlamaq üçün də əlverişlidir.
- Onlayn dərslər: Müasir texnologiyalar, riyaziyyatın öyrənilməsində onlayn dərslərin daha çox istifadə olunmasına imkan verir. Şagirdlər onlayn dərslər vasitəsi ilə müəllimlərin təlimatlarına asanlıqla qatıla bilərlər.

Bu nümunələr müasir metod və vasitələrin riyaziyyatın öyrənilməsində necə işlədiyini göstərir. Bu texnologiyalar şagirdlərə riyaziyyatın öyrənilməsini daha maraqlı, əyləncəli və faydalı edir. Əlavə olaraq, bu metodlar şagirdlərin özünə yaxın bir yanaşma ilə riyaziyyat öyrənməsinə imkan verir və bəzi şagirdlər üçün ənənəvi təlim metodlarından daha effektivdir.

Riyaziyyatın tədrisində müasir texnologiyalarından istifadə etmək, şagirdlərin riyaziyyatda daha çox maraqlı olmalarını təmin edir və onların özəl şagird ixtiyaclarını qarşılaya bilir. Əlavə olaraq, müasir metodlar şagirdlərə riyaziyyatda daha çox özgüvənlilik verir və onların riyaziyyatdan qorxularını aradan qaldırmağa kömək edir.

Riyaziyyatın müasir metodları və vasitələri, riyaziyyatın öyrənilməsində ənənəvi təlim metodlarından daha effektivdir. Bu yeni metodların əsas hədəfi, şagirdlərin riyaziyyatda daha yaxşı nəticələr almasına kömək etməkdir.

Son olaraq, müasir metodlar şagirdlər üçün riyaziyyatın daha maraqlı, keyfiyyətli və özgün bir təlim prosesi təmin edir. Bu metodlar şagirdlərin öz öyrənmə yollarına uyğun şəkildə təlim etməyə imkan verir, müasir riyaziyyat

proqramlarının və təlim vasitələrinin şagirdlərə tərcüməsi ilə daha yaxşı riyaziyyat bilikləri qazanmağa və öz təcrübələrini artırmağa imkan verir. Bütün bunlar şagirdlər üçün riyaziyyatın öyrənilməsində daha effektiv bir metod təmin edir (5).

İnternetin mövcudluğu, öyrənmə platformaları, interaktiv təlim tətbiqləri və riyaziyyat problemləri üçün hazırlanmış tətbiqlər və proqramlar, şagirdlərə riyaziyyatın praktiki təcrübəsinin qarşısını açır. Bu texnologiyalar, şagirdlərin özünü qiymətləndirmələrinə, bir-biriləri ilə müqayisə etmələrinə, müxtəlif məsələlər üzərində çalışmaq üçün fərdi təlim planları hazırlamağa imkan verir. Buna əlavə olaraq, müasir vasitələr şagirdlərin riyaziyyat problemlərinə olan marağını və motivasiyasını artırır.

Müasir texnologiyaların orta məktəb riyaziyyat təhsilində istifadəsinin digər bir əhəmiyyətli faydası, müəllimlərə daha effektiv tədris prosesi üçün vasitələr verir. Təlim tətbiqləri, öyrənmə platformaları və interaktiv dərs materialları müəllimlərin öyrətmələrini daha maraqlı, interaktiv və özəl müəllimlərə lazımi məlumatlar verir. Bu vasitələr, müəllimlərin şagirdlərin məsələlərə baxışını daha yaxşı anlamaqlarına, onları daha yaxşı dəstəkləmələrinə və problemləri daha yaxşı həll etmələrinə imkan verir (7).

Son olaraq, müasir texnologiyaların orta məktəb riyaziyyat təhsilində istifadəsi, şagirdlərin riyaziyyatla bağlı müxtəlif sahələrdəki karyera və ya peşəkarlıq seçimlərində də daha müsbət bir təcrübə yaşamalarına kömək edir. Məsələn, bir şagirdin müasir riyaziyyat proqramları və tətbiqlərindən istifadə edərək, mühəndisliyə, maliyyə sahəsinə və ya biliklərinin tətbiqi sahələrinə marağı artırıla bilər.

Bütün bu faydaların yanında, müasir texnologiyaların riyaziyyat təhsilində istifadəsi bir çox şagirdlər üçün daha çox mübahisələrə və çətinliklərə səbəb olur. Bu şagirdlər üçün bu yeni texnologiyaların necə işlədiyini, onların əsas məqsədini və əlavə olaraq, şagirdlərin bu texnologiyaları düzgün istifadə etməsinə dair praktik məlumatlar tələb olunur (6).

Nəticə olaraq, müasir metod və vasitələr riyaziyyatın öyrənilməsində böyük əhəmiyyət daşıyır. Bu metodlar şagirdlərin riyaziyyat biliklərini artırmaq, praktik təcrübə qazanmaq və özgün öyrənmə yollarına uyğun şəkildə təlim etmək üçün idealdır. Müasir metodların istifadəsi ilə şagirdlər riyaziyyatdan qorxmaq yerinə onunla bağlı maraqlarını artıra bilərlər və daha keyfiyyətli bir öyrənmə təcrübəsi yaşaya bilərlər. Bu yolla şagirdlər riyaziyyat biliklərini artıraraq hər hansı bir sahədə uğurlu olmaq, karyera inkişaf etdirmək və ya universitet təhsili üçün hazırlaşmaq kimi çeşidli məqsədlər üçün hazırlaşmaq imkanına malik olurlar. Ən əhəmiyyətlisi, müasir metodlar

riyaziyyatın öyrənilməsinin daha effektiv, maraqlı və özgün bir yolu olduğunu göstərir.

Müasir texnologiyaların orta məktəb riyaziyyat təhsilində istifadəsi, şagirdlərə daha maraqlı və motivasiyalı bir öyrənmə təcrübəsi verir. Bu texnologiyalar, şagirdlərin özünü qiymətləndirmələrinə, interaktiv təlim tətbiqləri vasitəsilə müqayisə etmələrinə, problemlər üzərində çalışmaq üçün fərdi təlim planları hazırlamağa imkan verir. Ayrıca, müasir vasitələr müəllimlərə daha effektiv tədris prosesi üçün vasitələr verir. Hesab edirik ki, bu yeni texnologiyaların düzgün istifadəsi orta məktəb riyaziyyat təhsilində daha yaxşı nəticələr verməkdə köməklik göstərəcəkdir.

***Ədəbiyyat***

1. *Aslanov, C., Aslanova, S., & Akhmedov, F. (2019). "Matris və determinant" mövzusunun müasir təlim texnologiyaları ilə öyrədilməsinin tədqiqi. III International Congress on "Science and Technology"*
2. *İbrahimov, F.R. (2020). Online məktəbləşdirmə dövründə riyaziyyatın tədrisi üzrə müasir təlim texnologiyalarının istifadəsi. Beynəlxalq İnkişaf İdarəsi və Moderatoru, XIX cild, 19(6), 71-74.*
3. *Məmmədov, F. (2018). Riyaziyyat təlimində müasir texnologiyaların tətbiqi. Elmlər Akademiyasının Fəlsəfə və Hüquq Elmləri üzrə əməkdaşları, Elmi-Konsalting Mərkəzi.*
4. *Əliyev, T. (2015). İnteraktiv təlim metodikası: riyaziyyat dərsləri üzrə. Azərbaycanın Təhsil və Elmi-İnkişaf Problemləri İnstitutu Elmi Məqalələr Seriyası, 5(5), 90-93*
5. *Абдуллин, Р.Х., & Казимзаде, Г.А. (2021). Применение информационно-коммуникационных технологий в обучении математике. Вестник ТвГУ. Серия: Физика и математика, (2), 260-266.*
6. *Бронников, Е.А. (2020). Использование онлайн-курсов для повышения качества математического образования. Инновационное развитие экономики, (4), 32-37.*
7. *Козлова, Е.А., & Мещерякова, Е.А. (2018). Использование цифровых образовательных ресурсов в обучении математике. Известия высших учебных заведений. Поволжский регион. Общественные науки, (1), 43-48.*

**T.N.Məhərrəmbəy, R.R.Sultanov**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti, Lənkəran Dövlət Universiteti**
*maharrambayli@bk.ru, rsultanov@gmail.com*

# XƏZƏR DƏNİZİNƏ TÖKÜLƏN ÇAYLARIN EKOLOJİ VƏZİYYƏTİNİN ARAŞDIRILMASI

***Xülasə***

*Azərbaycana aid olan dəniz sahili digər Xəzəryanı ölkələrdən təbii ehtiyatlarının zənginliyi və müxtəlifliyi ilə seçilir. Respublikamız 10 milyard ton karbohidrogen ehtiyatı, qiymətli flora və fauna, əsasən də nərə balığının böyük həcmli ehtiyatı ilə fərqlənir. Ona görə də ərazidə ətraf mühitin qorunması, yenidən bərpa edilməsi, ekoloji təhlükəsizliyinin təmin edilməsi fövqəladə əhəmiyyətlidir. Uzun illər dənizə axıdılan sənaye və məişət çirkab suları, neft sənayesinin, dəniz nəqliyyatının və sahil ərazilərindəki turizm obyektlərinin tullantıları Xəzərin ekologiyasına mənfi təsir etmişdir. Statistik məlumatlara görə il ərzində dənizə Xəzəryanı dövlətlərdən 12 milyard m3 çirkab su atılır. Çirkab su və neft tullantıları sayəsində Xəzərdə nərə balığı təsərrüfatına 6 milyard dollar, kürü biznesinə isə 10 milyard dollar ziyan dəymişdir.*

# ИССЛЕДОВАНИЕ ЭКОЛОГИЧЕСКОЙ СИТУАЦИИ РЕК, ВПАДАЮЩИХ В КАСПИЙСКОЕ МОРЕ

***Резюме***

*Морское побережье, принадлежащее Азербайджану, отличается от других прикаспийских стран богатством и разнообразием природных ресурсов. Наша республика отличается 10 миллиардами тонн запасов углеводородов, ценной флорой и фауной, в основном осетровыми. Поэтому крайне важно охранять, восстанавливать и обеспечивать экологическую безопасность территории. Промышленные и бытовые сточные воды, отходы нефтяной промышленности, морского транспорта и объектов туризма в прибрежных районах на протяжении многих лет оказывают негативное влияние на экологию Каспийского моря.По статистическим данным, в год из прикаспийских государств в море сбрасывается 12 млрд м3 сточных вод. Из-за грязной воды и нефтяных отходов осетровому хозяйству на Каспии нанесен ущерб на 6 миллиардов долларов, а икорному бизнесу на 10 миллиардов долларов.*

# INVESTIGATION OF THE ECOLOGICAL SITUATION OF THE RIVERS FLOWING INTO THE CASPIAN SEA

***Summary***

*The sea coast belonging to Azerbaijan is distinguished from other Caspian countries by the richness and diversity of its natural resources. Our republic is distinguished by 10 billion tons of hydrocarbon reserves, valuable flora and fauna, mainly sturgeon. Therefore, it is extremely important to protect, restore, and ensure*

*environmental safety in the area. For many years, industrial and domestic sewage, waste from the oil industry, marine transport and tourism facilities in coastal areas have had a negative impact on the ecology of the Caspian Sea. According to statistical data, 12 billion m3 of waste water is thrown into the sea from the Caspian states during the year. Due to dirty water and oil waste, sturgeon farming in the Caspian Sea has been damaged by 6 billion dollars, and caviar business by 10 billion dollars.*

***Açar sözlər:*** *Xəzər dənizi, su hövzəsi, çirklənmələr, dəniz sahili, Xəzərin ekologiyası*
***Ключевые слова:*** *Каспийское море, акватория, загрязнение, морское побережье, экология Каспия*
***Key words:*** *Caspian Sea, water basin, pollution, sea coast, Caspian ecology*

Xəzər dənizi qapalı su hövzəsi olub, çirklənmə mənbələri müxtəlifdir. Bu mənbələr arasında isə birinci yeri dənizə axan çaylarla gələn çirkab maddələr tutur. İl ərzində 75 mln neft məhsulu, bərk tullantılar və çirkab sular çaylar vasitəsi ilə dənizə axıdılır. Müxtəlif istiqamətdə Xəzərə irili xırdalı 130 çay axır ki, bu çaylar vasitəsi ilə 40-45 km3 tullantı daxil olur.

Volqa çayı uzunluğuna və bolsululuğuna görə Avropanın ən böyük çayıdır. Uzunluğu 3530 km olan çayın ən böyük qolları Oka və Kama çaylarıdır. Xəzər dənizinə tökülən çay sularının 82%-i onun payına düşür. Volqa Xəzər dənizinə tökülərkən böyük delta əmələ gətirir. Volqa çayı üzərindəki SES-lər, hidrotexniki qurğular, su anbarları, məişət və kənd təsərrüfatı, sənaye tullantıları ilə çirklənərək ümumi çirklənmənin 93%-ni təşkil edir.

Kür çayı Xəzər dənizinə Azərbaycan ərazisindən daxil olan, Cənubi Qafqazın ən iri çayıdır. Onun uzunluğu 1515 km, sahəsi 204000 km2-dir. Kür yeraltı sular, yağış, qar, buzlaqların suları ilə qidalanıb, gursulu rejimli çaydır. Yaz çoxsulu, yay isə suyunun azaldığı fəsildir. Çayın 819 km-i Azərbaycan, 522 km-i Gürcüstan, 174 km-i Türkiyə və Ermənistanın bütün ərazisini təşkil edir. Kür çayının suyunun çirklənməsinə səbəb hər bir ölkədə energetika və emalın, suvarmanın kimya, metallurgiya sahələrinin inkişafı olmuşdur. Məlumatlara görə Kür çayına il ərzində Azərbaycan 25, Gürcüstan 265, Ermənistan 300 mln m3 çirklənmiş su axıdır. Odur ki, suda çirkləndirici maddələrin qatılığı yolverilən qatılıq həddindən dəfələrlə yüksəkdir (1). Kürün ən böyük qolu olan Araz çayı başlanğıcını Türkiyənin Bingöl Dağ silsiləsindəki bulaqlardan götürür. Onun hövzəsinin sahəsi 102000 $km^2$, uzunluğu 1072 km, mənbəyi isə 2600 m yüksəklikdədir. Araz Ermənistanın 628 km, Türkiyənin 357 km, Azərbaycanın 7 km ərazisindən keçir. Onun transsərhəd qolları Həkəri çayın sağ qolu olan Bərgüşad çayı, Arpaçay və Çanaxçay olub, ümumi sahəsi 7.1 min $km^2$-dir (2).




**Diaqram 1. Kür çayının yuxarı, orta və aşağı axınında çirklənmə səviyyəsi**




**Diaqram 2. Araz çayının yuxarı, orta və aşağı axınında çirklənmə səviyyəsi**

Arazın sol qolları - Həkəriçay, Əlincəçay, Vənəndçay, Oxçuçay, Gilyançay, Köndələnçay, Naxçıvançay, Ordubadçay, Vedi, Sevçur, Quruçay, Razdan, Azatçay, Meqriqet, Xaçınçay və Qərbi Arpaçaydır. Qaraş, Qoturçay və Zəngemar isə İran İslam Respublikası ərazisindən daxil olur.Yeraltı sular azsulu rejimdə çayın qidalanmasında əsas rol oynayır. Məhz buna görə də gursululuq

dövründə sulfat ionları çoxluq təşkil edir. Gursulu rejimdə sulfat ionu ilə yanaşı kalsium inonunun miqdarı da böyükdür. Çayın suyundan əsasən kommunal-məişətdə, su təchizatında, suvarmada istifadə edilir.




**Diaqram 3. Çaylarda oksigenin orta illik biokimyəvi istehlakı, mq $O_2$/l** (Diaqram AR Dövlət Statistika Komitəsinin məlumatları əsasında tərtib olunub).

Qudyalçay Quba Xaçmaz ərazisindən keçib, Xəzər dənizinə tökülür. O, Tufandağın şimal yamacından götürür. Quba ərazisindən Qudyalçay - sağ qol, Kimilçay - sol qol olmaqla 2 qola ayrılır. Ümumilikdə isə çay 7 qola sahibdir. Çay Nizavaya kəndi yanında Xəzərə tökülür. Qudyalçayın sahəsi 799 $km^2$, uzunluğu isə 108 km-dir (4). Qudyalçay sel və daşqınların intensivliyi ilə seçilən və Xaçmaz rayonunda ən çox çirklənməyə məruz qalan çaydır. Çayın 25 km-i rayon ərazisindən keçir. Qudyalçayın sahillərinin qorunmaması nəticəsində orada torpaq sürüşmələri və zibilxanalar əmələ gəlmişdir. Bunlar isə ekoloji tarazlığa mənfi təsir göstərir. Çayı ən çox çirkləndirən Xaçmaz rayonunda fəaliyyət göstərən zavod və kombinatlardan əmələ gələn çirkab sulardır. Çirkab sular təmizlənmədən Quba-Xaçmaz kanalizasiya kollektoru vasitəsi ilə çaya axıdılır və nəticədə çayın sahillərində kiçik zibilxanalar əmələ gəlir.

Qusarçay Böyük Qafqaz dağlarından axıb, Xəzər dənizinə tökülür. Onun orta illik axarı 158 mln. $m^3$/il, sutoplayıcı sahəsi 694 $km^2$, uzunluğu isə 114 km-dir (5). Çayın energetik potensialı böyükdür. Çayda Qusar, Xuray, Anıx və Quzun su elektrik stansiyaları fəaliyyət göstərmişlər. Çayın suyundan Anıx kəndindən mənsəbə kimi ərazidə suvarmada istifadə edilir. Tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, çayın suyunda mis birləşmələri və fenollara

təsadüf olunur. Bu çirkləndiricilərin yol verilən qatılıq həddi 2-5-dir. Digər çirkləndiricilər isə yol verilən qatılıq həddindən aşağıdır. Qusarçay vasitəsilə dənizə gətirilən kimyəvi maddələrin illik həcmi 55300 tondur. Bu kimyəvi maddələr içərisində neft məhsulları - 3.2 t, metallar - 1.6 t, fenollar - 0.3 t, xloridlər - 1264 t, sulfatlar - 13430 t, kalsium - 8690 t, maqnezium - 2370 t, hidrokarbonatlar - 25280 t, müşahidə olunmuşdur. İl ərazində Qusarçay vasitəsi ilə Xəzər dənizinə 23700 ton asılı maddə daxil olur (6).

Hövzəsinin sahəsi 24 km2, uzunluğu 36 km olan Astaraçay başlanğıcını 1500 Talış silsiləsindən götürüb, birbaşa Xəzər dənizinə axır. Çayın orta eni 6.7 km, orta hündürlüyü 470 m olub, əsas 9 qola sahibdir. Astaraçay Azərbaycanla İranın sərhəddində yerləşən transsərhəd çay olub, 5%-qar, 17%-yeraltı, 78%-yağış suları ilə qidalanır. Çaydan kənd təsərrüfatında suvarmada istifadə olunur (7).

## NƏTİCƏ

Araşdırmaların nəticəsində belə qənaətə gəlmək olar ki, hazırda ekoloji vəziyyəti olduqca gərgin olan Xəzər dənizinin çirklənməsində sahil zonasında yerləşən şəhərlərin, sənaye obyektlərinin, dənizin səviyyəsinin qalxması nəticəsində su altında qalmış mənbələrin, dənizdə neft hasilatı və nəqli ilə əlaqədar yaranmış problemlərin böyük rolu olsa da, əsas çirklənmə mənbəyinin dənizə axan çaylar olduğunu hesab etmək olar. Demək digər çirkləndirici mənbələrlə yanaşı Xəzərə tökülən çayların ekoloji vəziyyətinin yaxşılaşdırılması istiqamətində tədbirlərin görülməsi tələb olunur ki, bu da yalnız bizim ölkəmizdən deyil, bütün Xəzər hövzəsi ölkələrindən asılıdır. Odur ki, həmin ölkələrin bu ekoloji problemin aradan qaldırılması istiqamətində bir araya gəlməsi zəruridir. Xəzərin ekoloji vəziyyətini yaxşılaşdırmaq istiqamətində Xəzəryanı ölkələrin balıq, neft, rekreasiya ehtiyatlarının, dəniz nəqliyyatının inkişafı və mühafizəsi, həmçinin çirkab su və tullantıların dənizə axıdılmasının qarşısını almaq üçün əməkdaşlıqların güclənməsi təklif olunur.

***Ədəbiyyat***

1. *Qəhrəmanlı Y.V., Xəlilova A.Ə. "Xəzərin səviyyə dəyişmələrinin Azərbaycanın sahilyanı bölgələrinin ekoloji və təsərrüfat şəraitinə təsiri "STT, MKS-in müasir problemləri və ekologiya" mövzusunda Beynəlxalq Elmi-Praktiki Konfransın materialları. Bakı, 2014, səh. 22-25*
2. *İsmayılov Ç.N. "Xəzər dənizinin və sahil ərazilərin ekologiyası". Bakı, 2005, 128 səh.*
3. *Məmmədov R.M., Hümbətov A. Xəzər dənizinin səviyyəsinin dəyişməsi problemi. Azərbaycan Respublikasının konstruktiv coğrafiyası. Bakı, Elm, 1196. s.197-206.*

4. *Hüseynov A.T. Xəzər dənizi hövzəsinin əsas çayları. AMEA Mikrobiologiya institunun elmi əsərləri, XV cild, Bakı, Elm, 2017, s.24-40*
5. *Султанова Н.А. Экологическая модель плодородия почв под овощными культурами на Апшероне. Автореф. дис. канд. биол. наук. Баку, 2003, 18 с.*
6. *Azərbaycanın statistik göstəriciləri. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nəşrləri. Bakı-2021*
7. *İmanov F.Ə., Ələkbərov A.B. "Azərbaycanın su ehtiyatlarının müasir dəyişmələri və inteqrasiyalı idarə edilməsi", Monoqrafiya, Bakı-2017, s.42-48*

**A.X.Hüseynova**
**Lənkəran Dövlət Universiteti**
***aygunhuseynova667@gmail.com***

# MƏKTƏB BİOLOGİYASININ TƏDRİSİNDƏ ŞAGİRDLƏRİN MÜSTƏQİL İŞİNİN TƏŞKİLİ METODİKASI

***Xülasə***

*Məqalə orta ümumtəhsil məktəblərində biologiyanın tədrisində şagirdlərin müstəqil işinin təşkili metodikası probleminə həsr edilmişdir. Dərs təlim prosesinin əsas hissəsidir. Müəllim və şagirdlərin təhsil fəaliyyəti əsasən dərsdə cəmlənir. Məhz buna görə də bu və ya digər tədris fənləri üzrə şagirdlərin hazırlığının keyfiyyəti, əsasən dərsin dərəcəsi, məzmunu və metodik dolğunluğu ilə müəyyən edilir. Bu səviyyənin yetərincə yüksək olması üçün biologiya dərslərində müəllim dərsə hazırlıq zamanı şagirdlərin müstəqil fəaliyyətini təşkil etməli, onların sərbəst mühakimə yürütmək bacarıqlarını inkişaf etdirməyə çalışmalıdır.*

# МЕТОДИКА ОРГАНИЗАЦИИ САМОСТОЯТЕЛЬНОЙ РАБОТЫ СТУДЕНТОВ ПРИ ОБУЧЕНИИ ШКОЛЬНОЙ БИОЛОГИИ

***Резюме***

*Статья посвящена проблеме методики организации самостоятельной работы учащихся при обучении биологии в средних общеобразовательных школах. Урок является основной частью учебного процесса. Учебная деятельность учителей и учащихся в основном сосредоточена в классе. Именно поэтому качество подготовки учащихся по тому или иному учебному предмету в основном определяется степенью, содержанием и методической завершенностью урока. Для того чтобы этот уровень был достаточно высоким, учитель на уроках биологии должен организовать самостоятельную деятельность учащихся при подготовке к уроку, стараться развивать у них способность к самостоятельным суждениям.*

# METHODS OF ORGANIZING INDEPENDENT WORK OF STUDENTS IN TRAINING OF SCHOOL BIOLOGY

***Summary***

*The article is devoted to the problem of the method of organizing independent work of students in the teaching of biology in secondary schools. The lesson is the main part of the educational process. Educational activities of teachers and students are mainly concentrated in the classroom. That's why the quality of students' preparation for that or another subject is mainly determined by the degree, content and methodical completion of the lesson. In order for this level to be sufficiently high, the teacher in the biology lessons should organize the independent activity of the students*

*in preparation for the lesson, try to develop their ability to make independent judgments.*

***Açar sözlər:*** *dərs, təlim, müstəqil iş, metodika*
***Ключевые слова:*** *урок, обучение, самостоятельная работа, методика*
***Key words:*** *lesson, training, independent work, methodology*

Müasir qloballaşan dünyada cəmiyyətin sürətlə inkişafı və demokratikləşməsi prosesləri "sosial kapital" olan təhsilin artan roluna daha üstün dəyər verilməsi meylləri ilə müşayiət olunur. İndiki dövrdə təhsil hər bir ölkə üçün milli məsələyə, milli-mənəvi və sosial-iqtisadi tərəqqinin əhəmiyyətli və təsirli amillərindən birinə çevrilməkdədir. Respublikamızda təhsil sahəsində dövlət islahatları təhsilin məzmununun, təşkili formalarının, metod və texnologiyalarının yeniləşdirilməsi və zənginləşdirilməsi istiqamətində mütərəqqi yeniləşmələr artıq öz bəhrəsini verməkdədir (2).

Müstəqil fəaliyyəti orta ümumtəhsil məktəblərində dərs prosesində inkişaf etdirmək olar. Həm şagirdlər, həm də müəllimlər üçün dərs sözün geniş mənasında aktual olanda maraqlı olur. Müasir dərs tamamilə yenidir, həm də keçmişlə əlaqəsini heç bir şəkildə itirmir, bir sözlə aktualdır. Aktual - əhəmiyyətli, indiki dövr üçün vacib deməkdir. Həm də effektiv, hazırda yaşayan bir insanın maraqları ilə birbaşa əlaqəli, təcili, mövcud reallıqda özünü göstərir. Bundan əlavə, əgər dərs müasirdirsə, o, şübhəsiz ki, gələcəyin əsasını qoyur. Müasir dərs müəllimin şagirdlərin fəaliyyətinin təşkilatçısı olduğu, sosial qarşılıqlı əlaqə çərçivəsində şagirdlərin müstəqil işini təmin edən idrak prosesinə rəhbərlik etdiyi, öyrənmə motivasiyasını təmin etdiyi, formalaşdırdığı dərsdir. Öyrənmə motivasiyasını, tədqiqat işini, müstəqil işi təşkil edir, işdə tətbiq edir, beyin həmləsi metodunu, şagirdlərin idrak işinə refleksiv nəzarəti tətbiq edir (1). Təcrübədə pedaqoji təsir metodlarından istifadə etmək və uşaqlara müstəqil işləməyi öyrətmək üçün müəllimə təkcə pedaqogika və psixologiya üzrə dərin ixtisaslaşmış bacarıqlara deyil, həm də xüsusi metodik hazırlıq lazımdır.

Müasir dövrdə biologiya dərsinin strukturunda şagirdlərin müstəqil işinin təşkilinin səmərəliliyinin öyrənilməsi aktuallığı ilə diqqəti cəlb edir. Müstəqil iş elə bir idraki təlim fəaliyyətidir ki, şagirdin təfəkkürünün ardıcıllığı, onun zehni və praktiki əməliyyatları və hərəkətləri şagirdin özündən asılıdır. Sinifdə, o cümlədən biologiya dərslərində müstəqil işin olması zəruridir, çünki onlar iradə tərbiyə edir, səmərəliliyi, diqqəti artırır və şagirdlərdə intizamı möhkəmləndirir. Biologiya dərslərində müəllim şagirdlərin müstəqil işinə, müstəqil fəaliyyətə və nəticəyə əsaslanmalıdır. Ona görə də müasir pedaqogikanın ən mühüm vəzifələrindən biri də şagirdlərin təlimdə müstəqilliyinin inkişaf etdirilməsidir. Müstəqil iş hissi qavrayış, nəzəri təfəkkür

və praktik fəaliyyətin vəhdətidir. O, həyatın hər addımında, şagirdlərin bütün fəaliyyət növlərində və sosial münasibətlərində (məhsuldar və ictimai faydalı əmək, dəyəryönümlü və bədii-estetik fəaliyyət, ünsiyyət) və əlavə olaraq, müxtəlif tədbirlər həyata keçirməklə həyata keçirilir (3).

Şagirdlərin təhsil və idrak fəaliyyətinin yaradıcı, kəşfiyyat xarakterli olması və mümkün olduqda təhlil və ümumiləşdirmə elementlərinin daxil olması çox vacibdir. Bu və ya digər hadisənin və ya problemin öyrənilməsi prosesi bütün əlamətlərə görə tədqiqat xarakteri daşımalıdır. Bu, təhsil və idrak fəaliyyətinin gücləndirilməsinin digər mühüm prinsipidir. Təhsil prosesində eyni dərəcədə vacib olan özünü idarəetmə və özünü tənzimləmə mexanizmidir, yəni, öz-özünə öyrənmə prinsipinin həyata keçirilməsi zəruridir. Bu prinsip hər bir şagirdin öz bilik və bacarıqlarını artırmaq və təkmilləşdirmək, müstəqil əlavə ədəbiyyat öyrənmək, məsləhətlər almaq şəxsi fəal istəyi əsasında tədris və idrak fəaliyyətini fərdiləşdirməyə imkan verir. Şagirdlərin həm müstəqil, həm də kollektiv fəaliyyəti yalnız həvəsləndirmələr olduqda mümkündür. Buna görə də, aktivləşdirmə prinsipləri arasında təhsil və idrak fəaliyyətinin motivasiyasına xüsusi yer verilir. Güclü fəaliyyətin başlanğıcında əsas şey məcburiyyət deyil, şagirdin problemi həll etmək, nəyisə öyrənmək, sübut etmək, etiraz etmək istəyi olmalıdır. Çox vaxt şagirdlərimiz sərbəst bilik əldə etməkdə çətinlik çəkirlər, amma zamanın tələbi başqadır. Ona görə də şagirdlərimizin müstəqillik səviyyəsi heç də həmişə müasirliyin tələblərinə cavab vermir. Buradan belə nəticə çıxır ki, pedaqoji fəaliyyətə elə bir metodologiya tətbiq etmək lazımdır ki, müəllimə eyni tədris şəraitində şagirdlərin biliklərini praktikada tətbiq etmək qabiliyyətini əhəmiyyətli dərəcədə artırmağa kömək edə bilsin. Bu texnika şagirdin müstəqil fəaliyyətinə imkan yaradacaq ki, bu da öz növbəsində həm şagirdin marağını, onun tədris prosesində fəal iştirakını, həm də ümumilikdə təhsilin keyfiyyətini artıracaq (4).

Apardığımız müşahidələr göstərir ki, çox vaxt məktəblərdə müstəqil işə daha az dərs vaxtı ayrılır. Məktəblilərin müstəqil işinin təşkili, uyğun şərait olmadığı təqdirdə belə bir həcmdə yanaşma ağlasığmazdır. Bunun üçün şəraiti müəllim yarada bilər və yaratmalıdır. Tədris prosesində bir çox müəllimlər müasir dövrün effektiv metodlarından biri kimi, şagirdyönümlü öyrənmə yanaşmasının tələblərinə cavab verən əməkdaşlıq və problemli təlim metodologiyasına əsaslanan layihə metodologiyasına müraciət edirlər. Cəmiyyətin müasir məktəbə olan əsas tələbi elmi, istehsalat, sosial problemləri müstəqil, yaradıcı şəkildə həll etməyi, tənqidi düşünməyi, öz nöqteyi-nəzərini, əqidəsini inkişaf etdirməyi və müdafiə etməyi, sistemli şəkildə inkişaf etdirməyi bacaran şəxsiyyətin formalaşdırılmasıdır. Müstəqil işdən səmərəli istifadə yuxarıda göstərilən çoxlu sayda vəzifələri həll etməyə imkan verir. Mövcud reallığı nəzərə alsaq, cəmiyyət istər-istəməz təhsil prosesinin mədəni öz

Sahibkarlıq fəaliyyətinin müxtəlif cür növləri mövcuddur. Hər hansı biznes fəaliyyəti məhsul və xidmətlər istehsalı, mübadiləsi, məhsulun bölgüsü və istehlakı ilə sıx bağlıdır. Sahibkarlıq fəaliyyətinin aşağıdakı növləri var:

istehsal sahibkarlığı, kommersiya sahibkarlığı, maliyyə sahibkarlığı və konsultativ sahibkarlıq.

Sahibkarlıq fəaliyyəti fiziki şəxslərin, onların birliklərinin, habelə hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfat fəaliyyətinin bütün növləri, o cümlədən məhsul istehsalı, satışı və xidmətlər göstərilməsi formasında həyata keçirdikləri müstəqil təşəbbüskarlıq fəaliyyətidir. Sahibkarlıqla bağlı münasibətlər mülkiyyət formasından, fəaliyyət növündən və sahəsindən asılı olmayaraq beynəlxalq hüquqi öhdəlikləri ilə tənzimlənir.

Sahibkarın əsas vəzifələri aşağıdakılardan ibarətdir:

- qüvvədə olan qanunvericilikdən və bağladığı müqavilələrdən irəli gələn bütün vəzifələri yerinə yetirmək;
- işçinin əmək haqqını Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş minimum məbləğindən az olmayan səviyyədə ödəmək;
- qanunvericilikdə müəyyən edilmiş vergiləri, dövlət-sığorta, sosial müdafiə və digər fondlara ayırmaları ödəmək;
- qüvvədə olan normativ aktları rəhbər tutaraq ekoloji təhlükəsizliyin, əməyin mühafizəsinin, təhlükəsizlik texnikasının, istehsal gigiyenasının və sanitariyasının təmin edilməsi, arxitektura abidələrinin və digər tarixi abidələrin mühafizəsi sahəsində tədbirlər görmək;
- işçilərə qüvvədə olan qanunvericiliyə və müqavilələrə uyğun əmək şəraiti yaratmaq sahibkarlığın iqtisadi fəaliyyət növü kimi formalaşdırılmasında müəyyən şərtlərin olması tələb olunur. Bu şərtlərə ilk növbədə iqtisadi, sosial, hüquqi və digər faktorları göstərmək olar.

Sahibkarlıq fəaliyyətinin iqtisadi şərtlərinə ilk növbədə əmtəə təklifi və həmin əmtəələrə olan tələb, pul vəsaitinin həcmi, işçi qüvvəsinin və iş yerlərinin artıqlığı və çatışmazlığı, işçilərin əmək haqqının səviyyəsinə təsir edən amillər və s. aid edilir. İqtisadi vəziyyətə pul resurslarının həcmi, gəlirlərin səviyyəsi, investisiyaya yönəldilən kapitalın həcmi, həmçinin işgüzar əməliyyatları maliyyələşdirmək üçün istifadə ediləcək borc vəsaitinin məbləği əhəmiyyətli dərəcədə təsir göstərir.

Sahibkarlığın iqtisadi fəaliyyət növü kimi formalaşdırılmasında müəyyən şərtlərin olması tələb olunur. Bu şərtlərə ilk növbədə iqtisadi, sosial, hüquqi və digər faktorları göstərmək olar. Sahibkarlıq fəaliyyətinin iqtisadi şərtlərinə ilk növbədə əmtəə təklifi və həmin əmtəələrə olan tələb, pul vəsaitinin həcmi, işçi qüvvəsinin və iş yerlərinin artıqlığı və çatışmazlığı, işçilərin əmək haqqının səviyyəsinə təsir edən amillər və s. aid edilir. İqtisadi vəziyyətə pul resurslarının həcmi, gəlirlərin səviyyəsi, investisiyaya yönəldilən kapitalın həcmi, həmçinin işgüzar əməliyyatları maliyyələşdirmək üçün istifadə ediləcək borc vəsaitinin məbləği əhəmiyyətli dərəcədə təsir göstərir.

Bazar iqtisadiyyatının ən mühüm prinsiplərindən biri əmtəə istehsalçıları arasındakı azad rəqabətin mövcud olmasıdır. Rəqabət - öz sahibkarlıq fəaliyyətinin nəticələrini daha da yaxınlaşdırmaq məqsədi ilə ən əlverişli istehsal və satış şərtləri əldə etmək uğrunda istehsalçılar, mal göndərənlər, bir sözlə, firma və müəssisələr arasındakı mübarizədir. Bazar münasibətləri sistemində rəqabətin əsas məzmunu alıcı uğrunda mübarizə və onların ehtiyatlarının tam təmin edilməsidir. Bazarda daha çox pay və mövqe uğrunda mübarizə və bu sahədə əldə edilən müvəffəqiyyət ilk növbədə əmtəə istehsalçılarının istehsal etdikləri məhsulun keyfiyyəti və onun qiymətinin aşağı olmasından asılıdır. Əslində bazar münasibətləri şəraitində rəqabət sahibkarlıq fəaliyyətinin ən mühüm ölçü vahidi hesab edilir.

Sahədaxili rəqabət - bir sahə üzrə əmtəə istehsalçıları arasındakı rəqabəti xarakterizə edir. Əgər müəssisə yüksək əmək məhsuldarlığına nail olursa, orta səviyyəli əmək məhsuldarlığı ilə işləyən müəssisələrə nisbətən daha çox əlavə mənfəət əldə edir. Əksinə, texniki və texnoloji cəhətdən zəif inkişaf edən müəssisə istehsal etdiyi məhsulun fərdi dəyərini belə qazana bilmir.

Sahədaxili rəqabət müəssisələri elmi-texniki tərəqqinin inkişafına stimullaşdırır. Sahələrarası rəqabət - müxtəlif sahələrə daxil olan müəssisələr arasındakı rəqabəti xarakterizə edir. Sahələrarası rəqabət inkişaf etdiyi mühitdə kapitalın aşağı mənfəət normalarına malik olan sahələrin daha yüksək mənfəətə malik sahələrə axını yaranır.

Təbiidir ki, aşağı səviyyəli gəlirə malik sahələrdən kapitalın uzaqlaşması ilə bağlı əks mənzərə də müşahidə olunur. Belə ki, istehsalın həcmi aşağı düşür, sahənin məhsullarına olan tələb onun təklifini üstələyir, nəticədə isə qiymət yüksəlir. Qiymət bu zaman istehlakçının zövqünün və alıcı qabiliyyətinin, texnologiyanın və digər faktorların dəyişməsinə uyğun olaraq resursların yenidən bölüşdürülməsi üçün sitial funksiyasını yerinə yetirir. Sahələrarası rəqabətin inkişafı zamanı dinamik tarazlıq obyektiv olaraq təmin edilir, kapital qoyuluşundan, haraya qoyulmasından asılı olmayaraq bərabər mənfəət əldə edilməsi mümkün olur. Sahələrarası rəqabət həm də elmi-texniki tərəqqini stimullaşdırır. Rəqabət növlərinin təsnifləndirilməsi əmtəə istehsalının sayından, onların bazarda tutduğu xüsusi çəkisindən də asılı olur. Məhz bu baxımdan təkmil (azad) və qeyri-təkmil rəqabət növləri fərqləndirilir.

Azad (təkmil) rəqabətin əsas əlamətləri. Bu rəqabət mühitində iştirakçıların sayı məhdudlaşdırılmır, əmtəə istehsalçıları bazara daxil olmaq və çıxmaq baxımından mütləq mənada sərbəstliyə malikdirlər. Azad rəqabətə misal olaraq hər bir vətəndaşın sahibkarlıq fəaliyyəti ilə məşğul olması və öz fəaliyyətini dayandırmaq hüququnu göstərmək olar. Bu hüququn özü belə müxtəlif aspektləri əhatə edir. Belə ki, fəaliyyət sahəsi müəyyənləşdirilir, ona uyğun bu və ya digər strukturlar formalaşdırılır, muzdlu işçilər cəlb edilir,

səhmlər alınır, dövlət istiqrazları cəlb edilir, investisiya qoyuluşu təmin olunur və s. Azad rəqabət şəraitində vətəndaşların hər hansı fəaliyyət növünü seçməsi mümkündür. Azad rəqabət sistemində istehlakçıların diskriminalının bütün formaları istisna olunur. Azad rəqabət şəraitində bütün növ material, əmək, maliyyə və s. resurslar mütləq mənada mobil xarakter daşıyır, yəni daim hərəkətdə olur.

Azad rəqabət mühitinin iştirakçıları öz maliyyə resurslarını sadəcə olaraq yerləşdirmir, əksinə, gəlirlərin artmasına yönəldirlər. Eyni zamanda istehsal və satışın genişlənməsi baxımından kapitalın yerinin dəyişdirilməsi də həyata keçirilir. Bu isə, yalnız o halda mümkündür ki, həmin sahəyə əlavə resurslar cəlb edilir, qabaqcıl texnologiya tətbiq edilir. Hər bir rəqabət iştirakçılarının tam informasiya (tələb, təklif, qiymət, mənfəət norması və s. haqqında) əldə etməsi səhmlərin cəlb edilməsinə, məhsul satışında, tərpənməz əmlakın alınmasında ən düzgün və optimal variantların seçilməsinə imkan verir. Sonuncu halda iştirakçı dərk etməlidir ki, qoyulmuş səhmlər ona maksimum gəlir əldə etməyə imkan verməlidir.

Məhsulun müxtəlif mənada eyni adlı və yeni növlü olması ticarət markalarının və məhsulun keyfiyyətinin digər fərdi xarakteristikasının məhdudlaşdırılmasını özündə əks etdirir.

Vaxtında risk etmək qabiliyyətinə malik olan sahibkar etdiyi bu "fədakarlığa" görə əlavə gəlir əldə edir. Risk dedikdə çox zaman hüquqsuz fəaliyyətin yaradılması da başa düşülür. Bu anlayışın digər xarakterik cəhətləri də vardır. Risklərin xarakterik xüsusiyyətlərindən biri qarmaqarışıqlıq, gözlənilməzlik, inamsızlıq və təxmini fərziyyədi. Sahibkarlıq fəaliyyəti müəyyən təşkilati-hüquqi formaya malik nüansların əmlak məsuliyyəti çərçivəsində, yəni öz etdikləri risklər baxımından həyata keçirilir. Sahibkarların məlumatsızlığından istifadə etməklə bazarda aparılan əməliyyatlar hesabına öz fəaliyyətini canlandılırmağa cəhd göstərən xırda və orta firmaların təklifləri daim reklam edilir.

Risklərin nəticəsini aradan qaldırmaq üçün təkcə dərrakə və təcrübə deyil, həm də kifayət qədər maliyyə vəsaitlərinin olması da zəruridir. Konsultant firmalar, mal göndərənlər və podratçılar, adətən riskləri kompensasiyası üçün məhdud pul vəsaitlərinə malik olurlar.

Bu və digər layihələrin yüksək dərəcədə risklərə malik olması işçiləri məcbur edir ki, onun aşağı salınması imkanlarını axtarsınlar. Risklərin azaldılmasının əsas vəsaitlərinə aşağıdakılar daxildir:

- layihənin hazırlanmasına kompotent tərəf müqabilləri və məsləhətçilərin cəlb edilməməsi;
- proqramla bağlı layihə ərəfəsindəki işlərin və hazırlıq mərhələsinin genişləndirilməsi;

- bazar konyukturunun inkişaf tendensiyasının, məhsul və xidmətlərə olan tələbin proqnozlaşdırılması;
- layihənin iştirakçıları, onun icraçıları arasında risklərin bölüşdürülməsi;
- sığorta ilə bağlı məsələlərin vaxtında yerinə yetirilməsi;
- gözlənilməz risklərin aradan qaldırılması üçün vəsait ehtiyatının hazırlanması.

Sahibkarlıq risklərinin aşağı salınması bazar münasibətləri şəraitində müəssisə və firmalarda biznes-planın mükəmməl işlənib hazırlanmasından və proqnozlardan daha çox asılıdır. Planlaşma və proqnozlaşma müəssisənin həcmindən və onun mülkiyyətinin təşkilati hüquqi formasından asılı olmayaraq firmaların işgüzar fəaliyyətinin ayrılmaz tərkib hissəsidir.

Risklərlə bağlı qərarlar qəbul edilərkən sahibkarlar obyektiv və subyektiv faktorları nəzərə alırlar. Risklə əlaqədar qəbul edilən qərarda hər bir şəxsin fərdi cəhətlərinə orijinal düşüncə, həyəcanlanma səviyyəsi, zorakılıq, müstəqillik, eqoizm və s. daxil edilir. Psixoloqlar risklərə meyilliliyi və ya risklərə qarşı əks münasibəti şəxslərin özünəməxsus tipik xüsusiyyətləri ilə əlaqələndirirlər. Riskə münasibət əsas etibarı ilə şərtlərlə və ya insanların fərdi və psixoloji xüsusiyyətləri, yəni onda olan zorakılıq, həyəcanlanma və stress səviyyəsi ilə müəyyən edilir. Psixoloji tədqiqatlar göstərir ki, bütün bunlarla yanaşı şəxslərin digərinə eqoistlik və konfrontal risklərlə bağlı qərarların qəbul edilməsi o qədər də təsir etmir.

Risklərlə əlaqədar qərar qəbul edilərkən sahibkar bir neçə alternativ məsələləri də nəzərə almalıdır ki, bunlar da aşağıdakılardır:

- xüsusi ehtiyatlara və qüvvələrə etibarlılıq və inam səviyyəsi;
- stress hissinə qarşı möhkəm davranmaq;
- xarici mühitin vəziyyəti;
- digər ziddiyyət təşkil edən xüsusiyyətlər;
- özünə inamsızlıq;
- müəyyən motivlərdə stress hallarına qarşı davamsızlıq.

***Ədəbiyyat***

1. *https://en.wikipedia.org/wiki/Entrepreneurship*
2. *https://entrepreneurhandbook.co.uk/entrepreneurship/*
3. *https://ru.wikipedia.org/wiki/Предприниматель*
4. *https://www.hse.ru/edu/courses/381785468*

**Ə.G.Abdullayev**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
***abdullayevelirza2000@gmail.com***

# TEATRIN SOSİAL FUNKSİYALARI

***Xülasə***

*İnsan cəmiyyəti üçün teatr ənənəvi sənət növüdür. Bir minillikdən artıq müddət ərzində o, şəxsiyyətə çoxşaxəli təsir göstərmişdir: dünyanı izah edir, müxtəlif fəaliyyət növləri üçün emosional impulslar yaradır, böyük tərbiyəvi rol oynayır, müxtəlif fəlsəfi suallar doğurur və bununla da keyfiyyətlərin formalaşmasına kömək edir, müəyyən bir cəmiyyətdə həyat üçün zəruridir. Əsrlər boyu teatrın funksiyaları dəyişməsə də, müxtəlif dövrlərdə onların bəziləri xüsusi vurğulanıb. Teatr ictimai ünsiyyət institutu olmaqla həmişə ictimai və təşkilati proseslərə təsir göstərmiş, adətən aparıcı təbəqənin maraqlarını təmsil etmişdir. Teatr hər cür bürokratik və ya ideoloji məhdudiyyətlərə qarşı mübarizə aparsa da, mədəni həyatı istiqamətləndirən, nəyisə həvəsləndirən, nəyisə məhdudlaşdıran və çox vaxt onu sıxışdıran müxtəlif növ tənzimləyici qurumlar həmişə mövcud olmuşdur.*

# СОЦИАЛЬНЫЕ ФУНКЦИИ ТЕАТРА

***Резюме***

*Театр является традиционным видом искусства для человеческого общества. Уже более тысячелетия она оказывает многогранное влияние на личность: объясняет мир, создает эмоциональные импульсы к различным видам деятельности, играет большую воспитательную роль, ставит различные философские вопросы и тем самым помогает в формировании качеств, он необходим для жизни в определенном обществе. Хотя функции театра не менялись на протяжении веков, некоторые из них в разные периоды особо подчеркивались. Являясь институтом общественного общения, театр всегда влиял на социальные и организационные процессы, обычно представляя интересы руководящего класса. Хотя театр борется со всякого рода бюрократическими или идеологическими ограничениями, всегда существовали разного рода регулирующие институты, которые направляют, поощряют, ограничивают, а часто и подавляют культурную жизнь.*

# SOCIAL FUNCTIONS OF THEATRE

***Summary***

*Theater is a traditional art form for human society. For more than a millennium, it has had a multifaceted impact on the personality: it explains the world, creates emotional impulses for various types of activities, plays a great educational*

*role, raises various philosophical questions, and thereby helps in the formation of qualities, it is necessary for life in a certain society. Although the functions of the theater have not changed over the centuries, some of them have been specially emphasized in different periods. Being an institution of public communication, the theater has always influenced social and organizational processes, usually representing the interests of the leading class. Although theater struggles against any kind of bureaucratic or ideological restrictions, there have always been various kinds of regulatory institutions that guide, encourage, limit, and often suppress cultural life.*

***Açar sözlər:*** *teatr, ictimaiyyət, tamaşaçı, incəsənət, cəmiyyət*
***Ключевые слова:*** *театр, сообщество, публика, искусство, общество*
***Key words:*** *theatre, community, spectator, art, society*

Bu gün teatrın sosial ünvanı nədir? Onun sosial və estetik funksiyalarını necə müəyyən etmək olar? Bədii tərbiyə və şəxsiyyətin formalaşması sistemində teatrın rolu və yeri nədən ibarətdir?

Qeyd etmək lazımdır ki, bu gün teatr fərqlidir. Bir sıra teatrlar zərif elit auditoriyaya, eksperimental həlləri və ekstravaqant yenilikləri qiymətləndirə bilən təlim keçmiş auditoriyaya yönəlib. Kütləvi tamaşaçı ilə əvəzolunmaz uğura can atan teatrlar var. İndiki insanın sosial-mədəni davranış seçimi, indiki tamaşaçının isə teatr seçimi var. Teatrların rəngarəngliyini həm teatr həyatında yeniləşmə, tərəqqi, həm də formalaşmış teatr ənənələrinin məhvi hesab etmək olar.

Zamanın qanununa görə bədii qiymətli əsərlər illər keçdikcə öz əhəmiyyətini itirmir, estetik zövq obyekti olmaqda davam edir və yeni istedadların yetişməsinə zəmin yaradır. Əhəmiyyətsiz və ya tamamilə orta səviyyəli olanlar, bir vaxtlar kommersiya uğuru və ya ictimaiyyətlə bir anlıq uğur qazansalar belə, geridə heç nə qoymadan unudulur.

Bəs tamaşa nəyi geridə qoya bilər? O, zaman keçdikcə rəssamların rəsmləri kimi bahalaşa bilməz, gələcək nəsillər tərəfindən indiki formada görünməyəcək. Bir dəfə yaradılan unikal sənət əsəri zamanla necə əks olunacaq?

Teatrın psixoloji abu-havasının spesifikliyi, aktyor və tamaşaçının enerji mübadiləsi, kütləvi qavrayış və ictimaiyyətin reaksiyasının birbaşa kortəbiiliyi teatrın ictimai rəyə təsir etdiyini və ümumilikdə cəmiyyətin həyatı ilə əlaqəli olduğunu söyləməyə əsas verir.

Teatrda insan rollar sisteminə yiyələnir, sosial stereotipləri mənimsəyir və öz hərəkətlərinin sosial mənasını dərk edir. Teatr sosial oriyentasiya vasitəsidir, çünki idrakın emosional və yaradıcı təbiəti tamaşaçıya həyat təcrübəsinin arsenalında alınan teatr məlumatlarından istifadə etməyə kömək edir. Bir insan bunun necə mümkün olduğu və hisslərini necə ifadə etməməsi, müəyyən bir vəziyyətdə necə hərəkət etməli olduğu barədə aydın bir dərs alır.

Beləliklə, tamaşaçı özünü qəhrəmanla eyniləşdirməklə özünü sosial normaların daşıyıcısı ilə müqayisə edir, mənəvi ideala yaxınlaşmağa stimul qazanır. Sərbəst seçim, estetik zövq və yaradıcı fəaliyyət hissi vasitəsilə tamaşaçı insan davranışının çoxsaylı variantlarına öz qiymətini verir.

Bir neçə sənətin imkanlarını birləşdirən və istifadə edən teatr insan duyğularının, təcrübələrinin, affektlərinin bütün miqyasına, insan hiss və qabiliyyətlərinin məcmusuna müraciət edir. O, tamaşanın üçüncü iştirakçısından - tamaşaçıdan (K.S.Stanislavski) iştirakçılıq və təxəyyülün yüksək inkişaf səviyyəsini tələb edir. Teatra xas olan yüksək diqqət həcmi və seçicilik, sərt qavrayış təşkilatının olmaması və məcburi baxış bucağı onun tamaşaçı şəxsiyyətinin yaradıcı potensialını aktuallaşdırmaq qabiliyyətini müəyyənləşdirir.

Dramada məna konsentrasiyası həddindən artıqdır və buna uyğun olaraq tamaşaçı bir axşam bir neçə insan həyatını yaşayaraq, cəmlənmiş həyat təcrübəsi alır. Eyni zamanda, birbaşa gündəlik hadisə forması qorunub saxlanılır, çünki teatrda baş verən hər şey vizual, konkretdir və tamaşaçının gözü qarşısında cərəyan edir. Amma bu həyat "teatr reallığı" sferasındadır, bir qədər kənarlaşdırılıb, ictimaiyyətdən ayrılıb, gündəlik həyatın heç bir xırdalıqları və qəzaları yoxdur, yaxın planda təqdim olunur və bütün bunlar tamaşanı tamaşaya çevirir. Nəticə etibarı ilə tamaşaçı real həyatda hər zaman reallaşması mümkün olmayan bir şeydən xəbərdar olur. Beləliklə, teatr tamaşaçının ictimai davranışını modelləşdirir və ünsiyyətin normativ modeli kimi çıxış edir.

K.S.Stanislavski deyirdi ki, teatrdan gələn tamaşaçı dünyanı, gələcəyi teatra gəlməmişdən daha dərindən görməlidir. Dünyanı və gələcəyi daha dərindən görməyə kömək edən bir teatr olub, var və inanmaq istəyirəm ki, bəşəriyyət var olduqca var olacaq. Əvvəlki nəsillərdən bizə miras qalmış mənəvi dəyərlərin əsası əsasən ötən illərin teatrının təsiri altında formalaşmışdır. İndiki teatr təkcə bizim indiki dünyagörüşümüzü müəyyən etmir.

K.S.Stanislavski deyirdi: "Yaradıcılıq anında söz şairdən, alt mətn rəssamdan gəlir. Əks halda tamaşaçılar aktyoru görmək üçün teatra tələsməz, evdə oturub tamaşa oxuyardılar. Deməli, teatrda alt mətn yaranır. "Teatr elə bir şey haqqında danışmaq iqtidarındadır ki, onun üçün lazım olan sözlər, anlayışlar hələ doğulmayıb, digər sənət növlərində vizual vasitələr yoxdur. Teatr sferasında idrak funksiyasının bu "xüsusi varlığı" teatrın müxtəlif funksiyalarını qiymətləndirən tamaşaçının müəyyən dərəcədə şüurlu, hətta şüursuz şəkildə ağlına gəlir. (1)

Həqiqətən də teatr ən yaxşı həyat məktəbidir, çünki o, dünya haqqında, həyat haqqında məlumat mənbəyi kimi çıxış edir, düşüncə yaradıcılığına səbəb olur. İnsan varlığının mənası, insan ruhunun dərinlikləri haqqında düşüncələr

oyatmaq ümumən sənətin, o cümlədən teatr sənətinin nəcib və zəruri məqsədidir. Beləliklə, teatrın ən mühüm funksiyalarından biri idrak funksiyasıdır. Onun sayəsində sosial təcrübənin bir nəsildən digərinə, bir ölkədən və xalqdan digərinə ötürülməsi həyata keçirilir. Ona görə də gənc tamaşaçını teatrla tanış etmək çox vacibdir.

Bu "teatr məktəbi"ndə insanlar qocalığa qədər oxuyur, özünü bir çox rollarda sınayır, nəinki müəyyən həyat problemləri haqqında məlumat alır, həm də düşünməyi öyrənir. SSRİ xalq artisti K.K.İrd yazırdı: "Gələcəyin teatrı haqqında düşünəndə mən ilk növbədə onu bəşəriyyətə ən humanist və ən sevincli fəaliyyətdən – təfəkkürdən həzz almağı öyrədən, sözün müdrik teatrı kimi görmək istəyirəm". (3)

İfaçılıq sənətinin idrak funksiyası ilə yanaşı qanuni olaraq bir sıra başqaları (estetik, əyləncəli, kommunikativ, ictimailəşdirici, kompensasiyaedici, oynaq, normativ və s.) mövcuddur, teatr çoxfunksiyalıdır, buna görə də o, cəmiyyətin həyatında belə mühüm yer tutur.

Teatrın yuxarıda sadalanan bəzi funksiyalarını nəzərdən keçirək.

Əyləncə funksiyasına istehsalın qeyri-adiliyinə istiqamətləndirmə, sevimli aktyorlarınızla görüş və tamaşanın parlaq əyləncəsi (musiqi, işıq, dekorasiya, kostyumlar) daxildir. Bu funksiya kommunikativ funksiya ilə sıx bağlıdır. Teatr, tamaşa xalq şənliyindən, ritualdan yaranıb, onun ən parlaq anları bütün iştirakçıların fəaliyyəti, kollektiv hərəkəti olub. Belə ki, kənd təsərrüfatı bayramlarında tamaşa hərəkətlə birləşirdi. Bu və ya digər ayinlərin - bu spontan folklor teatrının iştirakçıları eyni zamanda aktyorlar idilər. Ənənəvi folklor şənliklərinin digər tərəfi də xarakterikdir: kollektiv təcrübə, hisslər, hərəkətlər. Buradan güman etmək olar ki, məhz bu ənənəvi folklor xüsusiyyətləri - bütün iştirakçıların emosional ünsiyyətə ehtiyacı bugünkü teatrın qiymətləndirilməsinə təsir göstərməlidir. Bütün sənət növləri arasında bu, bir sənət kimi teatrdır, təbiətcə kollektivdir, şəxsiyyətlərarası təmasları ən məzmunlu formada təqlid edən, bir sənət kimi, digərlərindən qat-qat çox dərəcədə insanları empatiyaya və əməkdaşlığa cəlb edir. Bir şəkildə başqa bir insanla birləşmək, onunla daha dərin, daha yaxın və daha müxtəlif münasibət qurmaq imkanı verir. Deməli, teatrın kommunikativ funksiyası cəmiyyətin bütövlüyünün qorunmasına cavabdehdir. Məhz bu funksiya cəmiyyətə teatra fərdi deyilsə, bütövlükdə cəmiyyət üçün zəruri olan xüsusi sosial dəyər kimi yanaşmağa imkan verir.

Teatrın kompensasiya və əyləncə funksiyaları ilə müəyyən mənada üst-üstə düşən oyun funksiyası sosial tənzimləmənin bir çox aspektlərinə təsir göstərir.

"Oyunun sərbəst yaradıcılıq kimi başa düşülməsindən çıxış edərək, F.Şiller estetik fəaliyyətin izini gördü. Tanınmış holland kulturoloq J.Huizing isə oyunda insan mahiyyətinin ən mühüm təzahürünü gördü. Oyun

iştirakçıların gündəlik həyatdan, istehsal fəaliyyətindən, normativ sosial mühitdən təcrid olunmasını tələb edir.

Oyunun qaydalarını qəbul etməklə tamaşaçı gündəlik problemlərdən yayınır və sosial əhəmiyyətli fəaliyyətlərdə yerinə yetirilməmiş istəklərinə görə kompensasiya alır. Oyun əyləncə kimi müxtəlif qüvvələr və tərəflər arasında sosial və ya siyasi qarşıdurma nəticəsində yaranan psixoloji gərginlik səviyyəsini azaltmaq kimi mühüm funksiyanı yerinə yetirir. Bu, hər bir cəmiyyətdə zarafatcıl və soyğunçulara, klounlara və əyləncələrə tələbat olduğunu izah edə bilər.Teatrın ictimailəşdirici funksiyası teatr məhsullarının istehlak modası və prestiji ilə bağlıdır. Dəbli bir tamaşaya baxmaq, "görməyə getmək" məşhur aktyorun həmişə statuslu əhəmiyyəti olub və bu gün də var.

Burada teatrın ictimai funksiyalarının yalnız bir hissəsi qeyd olunur. Bütün bunlar, eləcə də adlarını çəkmədiyim bir çox funksiyalar daimi qarşılıqlı əlaqədədir və bir-birini tamamlayır.

N.N.Kornienko teatrın fəaliyyəti haqqında məqaləsində yazır: "Müasir teatr müxtəlifliyə can atır. Teatrın cəmiyyətin norma və bədii standartlarına münasibətdə müxtəlifliyi, funksional dəyişkənliyi istər-istəməz yayılmağa, onun sosial funksiyalarının, "davranışının" tip və üslublarının bir-birinə nüfuz etməsinə səbəb olur. Özlüyündə teatr ideyalarının, mənalarının, formalarının, "davranış" üslublarının, məqsədlərinin, dəyərləndirmələrinin, istiqamətlərinin bolluğu bədii mədəniyyətin struktur elementlərinin yeni birləşməsi yolu ilə inkişafını və yeniləşməsini təmin edir. (4)

***Ədəbiyyat***

1. *Станиславский К.С. Собр. соч., Т. 3. М., Искусство, 1955.*
2. *Немирович-Данченко Вл. И. Театральное наследие. Т. 1. М., 1952.*
3. *Ирд К.К. Размышления о театре. Л., Искусство, 1973.*
4. *Корниенко Н.Н. Социальные функции искусства и его видов. Функционирование театра в оценке зрителей и экспертов. М., Наука, 1980.*

**V.S.Qəhrəmanov**
**Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti**
***Vusal860@mail.ru***

# AZƏRBAYCANDA MUSİQİ İKONOQRAFİYASINA DAİR ELMİ ARAŞDIRMALAR

***Xülasə***

*Vüsal Qəhrəmanovun "Azərbaycanda musiqi ikonoqrafiyasına dair elmi tədqiqatlar" adlı məqaləsində musiqi ikonoqrafiyasına dair məlumat verilir. Həmçinin 2004-cü ildə "Musiqi dünyası" jurnalında nəşr olunan Alla Bayramovanın "Azərbaycan musiqi alətlərinin təsviri sənət əsasında şərhinə dair" adlı məqaləsi təhlil olunur.*

# НАУЧНЫЕ ИССЛЕДОВАНИЯ МУЗЫКАЛЬНОЙ ИКОНОГРАФИИ В АЗЕРБАЙДЖАНЕ

***Резюме***

*В статье Вусала Кахраманова «Научные исследования музыкальной иконографии в Азербайджане» представлена информация о музыкальной иконографии. Также анализируется статья Аллы Байрамовой «Об интерпретации азербайджанских музыкальных инструментов на основе изобразительного искусства», опубликованная в журнале «Мир музыки» в 2004 году.*

# SCIENTIFIC RESEARCH ON MUSIC ICONOGRAPHY IN AZERBAIJAN

***Summary***

*Vusal Kahramanov's article "Scientific research on music iconography in Azerbaijan" provides information on music iconography. Also, Alla Bayramova's article "On interpretation of Azerbaijani musical instruments based on fine art" published in "World of music" magazine in 2004 is analyzed.*

***Açar sözlər:*** *ikonoqrafiya, ikonologiya, portret, akvarel, musiqi aləti, tar, kamança və s.*

***Ключевые слова:*** *иконография, иконология, портрет, акварель, музыкальный инструмент, тар, кяманча и др.*

***Key words:*** *iconography, iconology, portrait, watercolor, musical instrument, tar, kamancha, etc.*

Məlum olduğu kimi musiqi ikonoqrafiyası – musiqiçilərin (bəstəkarların, ifaçıların) və musiqi alətlərinin, eləcə də musiqi süjetlərinin rəssamlıq, qrafika, bədii miniatür, heykəltəraşlıq və keramika üzərindəki

təcəssümünün bədii təsvirlərini və şəkillərini öyrənən və sistemləşdirən bir sahədir. Musiqi ikonoqrafiyasının vəzifəsi hər hansı bir xalqa məxsus mədəniyyəti və hər hansı bir dövrə məxsus cəhətləri araşdırmaq məqsədi ilə təsvirin dəqiqliyini müəyyən etmək, onu təhlil etmək və ona şərh verməkdir. Ümumiyyətlə, ikonoqrafiyanı – obrazları əsasən bədii mövzu ilə əlaqəli şəkildə araşdıran, təsvir və təhlil edən şəkillər toplusu da adlandırmaq olar. Musiqi ikonoqrafiyası – tarixi musiqişünaslığın köməkçi sahəsidir.

Musiqi ikonoqrafiyasında müxtəlif dövrlərin musiqi mədəniyyətinin öyrənilməsində vacib mənbə ilkin mədəniyyətə aid olan qayaüstü (Azərbaycanda Gəmiqaya-Qobustan) rəsmlərdir. Həmçinin arxeoloji qazıntılar zamanı musiqi alətlərinin təsviri verilən məişət əşyaları, musiqiçilərin iştirakı ilə təsvir olunan ritual mərasimlər və s. də bura aiddir. Etnoorqonologiya sahəsində ikonoqrafiya elementlərinin araşdırılmasının vacibliyi, qədim musiqi alətlərinin bərpası prosesində xüsusilə vacib bir mərhələdir. “Musiqi alətləri haqqında olduqca mühüm və misilsiz məlumat ehtiva edən ikonoqrafiya və ədəbiyyat, uzaq keçmişin musiqi həyatının mənzərəsini bərpa etmək üçün bir çox hallarda yeganə qaynaqdır” (3, 7).

Azərbaycanda orqanologiya sahəsi üzrə əsas mütəxəssis kimi tanınan Səadət Abdullayeva, musiqi alətləri ilə bağlı öz araşdırmalarında, Məcnun Kərimov isə qədim musiqi alətlərinin bərpasında ikonoqrafiya elementlərindən bəhrələnmişdir. A.Nəcəfzadənin Azərbaycanda nəfəs alətləri və idiofonlu çalğı alətləri ilə bağlı araşdırmalarında da ikonoqrafik yanaşmalara rast gəlinir. S.Abdullayevanın “Musiqi dünyası” jurnalının 2016-cı il 69-cu sayında nəşr olunan “Azərbaycan xalq çalğı alətləri haqqında qaynaqları araşdırarkən” adlı məqaləsində, alim musiqi ikonoqrafiyası və musiqi arxeologiyası istiqamətində maraqlı tədqiqatlar aparır. O, yazır: “Təsviri sənət nümunələri (rəssamların çəkdiyi şəkillər, xüsusən kitab miniatürləri, divar rəngkarlığı) çalğı alətlərinin tədqiqində mühüm mənbə təşkil edir (1, 13). S.Abdullayeva, həmçinin tədqiqatlarında K.Zaksın metoduna istinad edərək musiqi nəticələrini arxeoloji nəticələrlə yoxlayır. Alətlərlə bağlı məlumatları dəqiqləşdirmək üçün o, risalələrdən, şifahi xalq ədəbiyyatından, eləcə də klassik poeziya nümunələrindən, səyyahların, diplomatik korpusun üzvlərinin yol qeydlərindən məlumat mənbəyi olaraq qaynaqlanır. “Nizamidə musiqi, musiqidə Nizami” adlı kitabında isə Səadət xanım bu mövzunu tam şəkildə əhatə edərək fundamental araşdırmalar aparır. O, çalğı alətlərinin muzey eksponatlarını isə vizual əşya olaraq, tədqiqatın aparılması üçün ən dəqiq mənbə hesab edir. Musiqi ikonoqrafiya metoduna istinadən S.Abdullayeva, XVI əsr miniatürlərindəki qanun alətinin, “Cahanarayi - Şah İsmayıl Səfəvi” tarixi salnamənin miniatürlərində təntənəli rəsmi qəbullar zamanı ifa olunan çəngin, hərbi döyüşlərdə çalınan kərənay, qavdum və nəfir kimi alətlərin təsvirləri haqqında məlumat verir. Şəki xan sarayının divar rəsmlərində təsvir olunan

şeypur, zurna, kərənay, kus, nağara və s. alətləri qeyd edir, Q.Qaqarinin “Şamaxı rəqqasələri” akvarel tablosunun dəqiq görünüşünə görə (tablonun sağ küncündə döşəmə üzərində qoyulmuş çəğanələrin üst və altdan görünüşləri çəkilib) isə çəğanə alətinin sonradan Məcnun Kərimov tərəfindən bərpa olunmasını və bu alətin tədrisə daxil edilməsi məsələsinin aktual bir problem olduğunu vurğulayır.

Mənbəşünaslıqla bağlı bir çox tədqiqatlarda da ikonoqrafik metoddan istifadə olunur. 2010-cu ildə Bakıda keçirilən “Türkdilli xalqların musiqi alətləri” mövzusunda beynəlxalq simpoziumda Z.Səfərovanın “S.Urməvi risalələrində musiqi alətlərinin şərhi, bərpası və inkişafı”, L.Kazımovanın “Dərviş Əlinin risaləsində musiqi alətləri”, S.Ağayevanın “Ə.Fərabinin və Ə.Marağayinin risalələrindəki türk musiqi alətləri və onların araşdırma metodları”, G.Abdullazadənin “Əl-Fərabinin əsərlərində şahrud aləti” kimi məruzələrdə ikonoqrafik tipoloji əlamətlərdən bəhrələnilmişdir.

“Musiqi dünyası” jurnalının 2004-cü il 19-cu sayında Alla Bayramovanın “Azərbaycan musiqi alətlərinin təsviri sənət əsasında şərhinə dair” adlı məqaləsi nəşr olunmuşdur. Məlum olduğu kimi, sənətşünaslıq üzrə elmlər doktoru Alla Bayramova, öz araşdırmalarında incəsənətin qarşılıqlı əlaqələrinə dair fənlərarası tədqiqatlara daha geniş yer verir. Belə ki, biz onun bir çox araşdırmalarında Azərbaycan musiqi sənətinin təsviri sənətlə və bədii ədəbiyyatla qarşılıqlı əlaqələri ilə bağlı tədqiqatlarının şahidi oluruq. O, doktorluq dissertasiyasında konkret olaraq Azərbaycan ədəbiyyatı və Azərbaycan bəstəkarlarının əsərlərinə, daha geniş aspektdə isə N.Gəncəvi və Q.Qarayev yaradıcılığına fənlərarası prizmadan yanaşmışdır. Musiqi ilə təsviri sənətin qarşılıqlı əlaqələrinə gəlincə isə bu mənada tarixi musiqişünaslığın köməkçi istiqamlərindən biri olan musiqi ikonoqrafiyası sahəsini xüsusilə vurğulamaq lazımdır. A.Bayramova ilk dəfə olaraq Nizaminin poemalarının əlyazmalarında əks olunan musiqi alətlərinin, miniatürlərinin, xüsusilə çəng musiqi aləti və onun ifa xüsusiyyətlərinin musiqi ikonoqrafiyası ilə öyrənilməsini həyata keçirmişdir.

A.Bayramova, öz məqaləsində Azərbaycan orqanologiyası üzrə kitablarda qədim musiqi alətləri və bu alətlərdə ifa edən musiqiçilərin Şərq miniatürlərində təsvir edildiyini, hətta bütün bunların xarici ölkələrin kolleksiyalarında, London, Paris, ABŞ, Sankt-Peterburqda Saltıkov Şedrin adına ümumi kitabxanada, Moskvada Şərq Xalqları İncəsənəti Muzeyində, Tbilisidə İncəsənət muzeyində yer aldığını vurğulayır. Muzeylərdə araşdırmalar aparan A.Bayramova, musiqi alətlərinin tarixi haqqında Azərbaycan təsviri sənəti və tətbiqi sənətinin nə dərəcədə dəqiq məlumat verdiyini araşdırır. A.Bayramova öz məqaləsində qaval və dəf alətləri haqqında yazaraq qeyd edir ki, bu iki alət Musiqi Ensiklopediyasında sinonim olaraq verilir, lakin bu belə deyildir. Bu, membranlı alətlər, öz texnologiyalarına,

akustik paramretrlərinə görə bir-birindən fərqlənirlər. Səadət Abdullayeva da öz məqaləsində dəf alətinin qaval alətindən əvvəl yaranması haqqında məlumat vermişdir, amma XX əsrdə dəf öz populyarlığını itirərək istifadə olunmadığı üçün bu termin qalmış və folklorçular dəfi qavalla eyniləşdirməklə qeyri-iradi olaraq Azərbaycan alətlərinin sayını azaltmışlar. Bu fikirlərə əlavə etmək istərdik ki, dəf aləti profesional ritm aləti kimi nəzərdə tutularaq təkcə xanəndələr üçün deyil, instrumental musiqi nümunələrini müşayiət etmək üçün də məqsədəuyğun olmuşdur. Qaval isə əksər vaxtlarda xanəndələrin əlində yüngül ritm saxlamaq və bir atribut kimi özünü təsdiqləmişdir. Yəni XX əsrin əvvəllərindən Azərbaycanda xanəndəlik sənətinin geniş vüsət alması və muğam ifaçıları üçün qaval alətininin prioritet olması da dəfin populyarlığının itirilmə səbəbi kimi göstərilə bilər.

Müəllif, məqalədə qədimdən milli alətimiz olan tarın qədim tarixə malik olması haqqında da yazır. Sadıqcanın "Azərbaycan tarının atası" adlandırılması fikrinin yalnışlığını, onun xidmətlərinin "müasir Azərbaycan tarının atası" kimi dəyərləndirildikdə daha ədalətli yanaşma olacağını vurğulayır. Məlum olduğu kimi ikonoqrafik eyniliklərin köməyi ilə bir çox qədim musiqi alətlərimiz M.Kərimov tərəfindən bərpa olunmuşdur, bizim araşdırmalarımızda isə M.Məmmədovun da bu sahədə əhəmiyyətli təcrübələrinin olduğu dissertasiyada qeyd edilmişdir. K.Kərimov yazır: "Azərbaycan miniatürlərinin müxtəlif aspektlərdə öyrənilməsi, Azərbaycan xalqının incəsənət və mədəniyyətinin, eləcə də musiqi alətlərinin daha dərindən öyrənilməsinə kömək edəcəkdir" (4, 33).

A.Bayramova öz məqaləsində təsviri sənət əsərlərində rast gəlinən musiqi alətlərinin yanlış görüntülərini də aşkara çıxarır. O, həm də qədim miniatür təsvirlərdə kamança alətinin yayının ovucda həm yuxarı, həm də aşağı istiqamətdə tutulması kimi görüntülərə münasibətini bildirərək, bunu XIX əsrədək kamanın iki növünün mövcud olması kimi izah edir. Müəllif, Toğrul Nərimanbəyovu, Mirzə Qədim İrəvanini kamanın tutulma qaydasındakı incəlikləri qeyri-adi dəqiqliklə təsvir etdiklərini, lakin rəssamların yaratdığı əsərlərdə musiqi alətlərinin və onların ifa olunma təsvirlərində qeyri - adekvat hallara rast gəlindiyini də qeyd edir. O, Nəcəfqulu İsmayılovun təqdim etdiyi təsvirdə kamanın ovucla aşağı istiqamətdə tutulması, İsmayıl Məmmədovun qrafik işində isə dəfin təsvirindəki yalnış görüntüləri vurğulayır. Azərbaycan Dövlət İncəsənət muzeyində yer alan O.Sadıqzadənin akvarel texnikası ilə çəkilmiş "Fitnə" əsərinin təsvirində isə yürüyən atın üzərində Fitnənin cəng musiqi alətində ifa etməsi təsvir olunur ki, bu da reallıq olaraq mümkünsüzdür. Müəllif, bu işə öz münasibətini bildirərək və məntiqli olaraq onu digər bənzər rəsmlə müqayisə edərək yazır: "Rəssamın yaddan çıxardığı və ya ikinci dərəcəli hesab etdiyi bir detal – Fitnənin dayanmış atının cilovundan tutan mehtərin, Britaniya muzeyində saxlanılan Müzəffər Əlinin miniatüründə, XVI

əsr kitab illüstriyasında yer aldığı üçün bu cür səhnələr mümkündür" (2,16). Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru A.Bayramova, həmçinin Qara Qarayevin muzeydə yer alan portretindəki klaviaturanın da reallığa uyğun olmadığını, ümumiyyətlə təsvirlərdə musiqi nöqteyi nəzərindən rast gəlinən yanlışları və uşaq nəşrlərində bəzi detalların təsvirinin nəzərdən qaçırılmasını tənqid edir. O, bunu rəssamın musiqi biliyinin olmaması, eləcə də detallara diqqətsizliyi və laqeydliyi kimi qiymətləndirir.

Ervin Panofski vizual təsvirin və təhlilinin bir neçə səviyyəsini özündə birləşdirən şərh sxemi təklif edir: "ikonoqrafiyaya qədərki, ikonoqrafik və ikonoloji"(5, 43). İkonologiya - XX əsrin 20-30-cu illərində incəsənət tarixində yaranan, bədii əsərin simvolik aspektlərini öyrənən ikonoqrafiyanın əlavə tədqiqat istiqamətidir. Yəni ikonologiya - ikonoqrafiyanın davamıdır, lakin fərqi ondadır ki, o, təsvirin birbaşa (obyektiv) mənasının arxasında müxtəlif xarakterli hər cür əlavə mənaları üzə çıxaran geniş şərh və təfsir metodunu əhatə edir. İkonoloji metodika, bədii-tarixi əsərlərdə - müxtəlif fenomenlərin vizual olaraq öyrənilməsində vacib əhəmiyyət kəsb edir. Sənət tarixi metodu kimi ikonologiya təcrübəsi, təsvirin və mizan-səhnənin detallarına və təfərrüatlarına diqqət yetirməyi, həmçinin əsərin müxtəlif səviyyəli məzmun və mənalarını başa düşməyi əhatə edir (6,185). Bu mənada əlavə etmək istərdik ki, məqalədə aşkara çıxarılan təsvir predmetlərindəki yanlış faktlara biz Azərbaycan kino tarixinin təhlilində də rast gəlirik. Məsələn, "Azərbaycanfilm"in istehsalı olan, Rasim Ocaqov tərəfindən çəkilmiş "Ad günü" kinofilmində Azərbaycanın xalq artisti Aftandil İsrafilov xromatik qarmonda (Azərbaycan qarmonu) ifa etdiyi "Nazilə" rəqsinin səslənməsindən istifadə olunur. Amma təəssüf ki, rejissor R.Ocaqov, filmdə Əlinin ifasını yanlış olaraq diatonik qarmon (rus qarmonu) vasitəsilə təqdim edir.

***Ədəbiyyat***

1. *Abdullayeva S. "Azərbaycan xalq çalğı alətləri haqqında qaynaqları araşdırarkən". Musiqi dünyası. 4/69, 2016*
2. *Bayramova A.H. Azərbaycan musiqi alətlərinin təsviri sənət əsasında şərhinə dair. Musiqi dünyası, 1-2/19,2004*
3. *Bayramova A.H., Şeyxzamanlı R.A. Musiqi Nizami "Xəmsə"sinin səhifələrində. Gəncə, 2021*
4. *Kərimov K. Azərbaycan miniatürləri. Bakı, İşıq, 1980*
5. *Панофский Э. Иконография и иконология: введение в изучение искусства Ренесанса// Смысл и толкование изобразительного искусства. СПб., 1999*
6. *Торопыгина М.Ю. Иконологическая традиция и анализ фильма // Academia. 2021. № 2*

**F.T.Məmmədova**
**Azərbaycan Memarlıq və İnşaat Universiteti**
***fidann1999@mail.ru***

# GƏNCƏ MƏDƏNİYYƏTİ VƏ QƏDİM MEMARLIQ ABİDƏLƏRİ

***Xülasə***

*Mədəniyyət elə bir sahədir ki, onun vasitəsilə müxtəlif dairələrdə varlığımızı bildirə, təbliğatımızı apara bilərik. Zəngin, qədim, köklü mədəniyyətimiz imkan verir ki, dünyada qürurlu təbliğat işini aparaq və milli kimliyimizi bütün bəşəriyyətə təqdim edək. Dünyanın ən qədim xalqlarından olan Azərbaycan xalqı özünün tarixi, maddi – mədəniyyət abidələri ilə haqlı olaraq fəxr edir. Azərbaycan mədəniyyətinin belə güşələrdən biri də Nizami yurdu Gəncə şəhəridir.*

*Şeyx Nizami yurdu ulu Gəncədə onun qədimliyini, zəngin tarixini əks etdirən və sübut edən memarlıq abidələri yetərincədir. Belə ki, 500-dən yuxarı tarixi abidə siyahıya alınmışdır ki, bunlardan 300-ə yaxını dövlət tərəfindən qorunur.*

# ГЯНДЖИНСКАЯ КУЛЬТУРА И ДРЕВНИЕ АРХИТЕКТУРНЫЕ ПАМЯТНИКИ

***Резюме***

*Культура — это такое поле, через которое мы можем выражать свое присутствие в различных кругах и осуществлять нашу пропаганду. Наша богатая, древняя, глубоко укоренившаяся культура позволяет нам вести гордую пропагандистскую работу в мире и представлять всему человечеству нашу национальную идентичность. Азербайджанский народ, один из древнейших народов мира, по праву гордится своими историческими, материальными и культурными памятниками. Одним из таких уголков азербайджанской культуры является город Гянджа, родина Низами.*

*В Гяндже, на родине шейха Низами, достаточно архитектурных памятников, отражающих и доказывающих ее древность и богатую историю. Так, внесено в список более 500 памятников истории, из которых около 300 охраняются государством.*

# GANJA CULTURE AND ANCIENT ARCHITECTURAL MONUMENTS

***Summary***

*Culture is such a field through which we can express our presence in various circles and carry out our propaganda. Our rich, ancient, deep-rooted culture allows us to carry out proud propaganda work in the world and present our national identity to all mankind. The people of Azerbaijan, one of the oldest nations in the world, are rightfully proud of their historical, material and cultural monuments. One such corner of Azerbaijani culture is the city of Ganja, home of Nizami.*

*There are enough architectural monuments reflecting and proving its antiquity and rich history in Ganja, the home of Sheikh Nizami. Thus, more than 500 historical monuments have been listed, of which about 300 are protected by the state.*

***Açar sözlər:*** *Gəncə, mədəniyyət, abidə, memarlıq abidələi, qədim, türbə*
***Ключевые слова:*** *Гянджа, культура, памятник, архитектурный памятник, древний, могила*
***Key words:*** *Ganja, culture, monument, architectural monument, ancient, tomb*

Qədim tarixə və özünəməxsus bədii ənənələrə malik olan Azərbaycan memarlığını nəhəng daş kitaba bənzətmək olar. Onun səhifələrində uzaq və yaxın keçmişimizi, xalqımızın tarixi inkişafını yaşadan müxtəlif dövrlər öz əksini tapıb. Bu kitabı Gəncəsiz təsəvvür etmək sadəcə mümkün deyildir. Belə ki, Nizami Gəncəvi – Cavad xan ünvanlı Gəncə Azərbaycanın şərəfli tarixə malik qədim və şöhrətli şəhərlərindəndir. Zaman-zaman aparılan arxeoloji qazıntılar insanların bu ərazidə çox-çox qədimlərdən yurd-yuva saldıqlarından xəbər verir. Bu gün şəhərin daşıdığı "Gəncə" adının necə yaranması barədə dəqiq məlumat olmasa da, tədqiqatçıların onun izahı ilə bağlı söylədiklərində məntiqli yanaşmaların mövcudluğunu müşahidə etmək mümkündür. Bu mənada tarixçi-alim F.Əhmədovun şəhərin əvvəlcə Gəncə yox, Qança (və ya Kançə) adlandırılması barədə qənaətləri daha inandırıcıdır. Bu sözün ilk hissəsi olan "qan", "kan", "kaan" və "xan"ın türk dillərində hakim, sərkərdə və başçı, ikinci hissəsi olan "ca"-nın (cə, ça, çə) isə məkan, yer və yurd mənasında izahı qarşılığında, demək olar ki, «Gəncə», «Qanca», «Kancə» sözləri «xan yeri», «xan məkanı», «xan yurdu», «xanın və xaqanın oturduğu yer» kimi izah olunur. Məşhur yaşayış məskənlərinin yaşının müəyyən olunmasında adətən qədim memarlıq tikililərinin mühüm əhəmiyyət kəsb etdiyini nəzərə alsaq, burada VIII əsrdən salınmış İmamzadə qəbiristanlığı və "Göy imam" məqbərəsinin olması burada həmin yüzilliyin əvvəllərindən şəhərin mövcud olduğunu söyləməyə əsas verir. Gəncənin uzaq-yaxın keçmişinə işıq salmalı olsaq, onda buradakı Comərd Qəssab türbəsi, Gəncə körpülərinin dayaqları, Zərrabi məscidi, Cavad xan dəftərxanası, Gəncə qapıları, Nizami Gəncəvi məqbərəsi və digər tikililər dediklərimizi təsdiqləyir. Zamanında yerli sənətkarların yaradıcı təxəyyülünün və yüksək ustalığının sayəsində bənzərsiz görkəm alan, uzaq X yüzillikdə "Aranın anası" kimi məşhurlaşan Gəncə təəssüf ki, əvvəlcə 1139-cu ildə baş verən zəlzələnin, daha sonra isə monqolların hücumundan sonra kifayət qədər dağıntılara məruz qalmış, söz xiridarlarını ilhamlandıran gözəlliyini itirmişdir. Öz tarixinin XIV-XV əsrlə bağlı səhifələrini Cəlairlər, Qaraqoyunlular və Ağqoyunlular kimi dövlətlərlə bağlı keçirən Gəncə şəhəri öz əzəli simasını bərpa etməyə səy göstərməklə yanaşı, həm də sənətkarlığın müxtəlif sahələrinin inkişafını şərtləndirmişdir.

Əgər XI əsrə aid edilən Gəncə darvazaları şəhərdə metalişləmənin yüksək səviyyəsini özündə əks etdirirdisə, XIV-XVII yüzilliklərin yadigarları olan və hazırda Gəncə tarix-diyarşünaslıq muzeyində nümayiş etdirilən qoç heykəlləri isə burada daşoymanın özünəməxsus bədii ənənələrə malik olduğunu sərgiləyir. Azərbaycanın orta əsrlər tarixinə qiyabi nəzər salıb, şəhərdə olmuş əcnəbi səyyahların qeydlərinə istinad etsək, onda onun Səfəvilər, xüsusilə də Qacarların nüfuzlu Ziyadoğlular şəcərəsinin üç yüz illik idarəçiliyi dövründə Gəncənin əvvəlki tarixi bədii-memarlıq şöhrətini qaytardığını söyləyə bilərik. Yerli sənətkarların Nizami yurdunda ərsəyə gətirdikləri qədim tikililərin bizim günlərə gəlib çatmasında onlara zaman-zaman göstərilən diqqət və qayğının da müsbət təsiri olmuşdur. XX yüzilliyin əvvəllərində Gəncə Xeyriyyə Cəmiyyətinin təşəbbüsü, eləcə də sonrakı bir neçə illik qərinə ərzində müxtəlif yerli qurumların səyi ilə görülən bərpa-təmir işlərinin nəticəsidir ki, hər bir gəncəliyə qürurvericilik bəxş edən Qala bürcü, Ozan məscidi, Şah Abbas karvansarası, Çökək hamam, Alban məbədi, Qazaxlar məscidi, Qızılhacılı məscidi, Cavad xan dəftərxanası və digər tarixiləşmiş memarlıq abidələri bu gün də gündən-günə yeniləşən yurdun bədii-tarixi simasına bənzərsizlik bəxş etməkdədir. Bir çox ölkələrdən fərqli olaraq Azərbaycan şəhərlərinin bədii simasının formalaşmasında heykəl-abidələrin iştirakı yalnız ölkənin XI Ordu tərəfindən işğalından sonrakı illərdə mümkün olmuşdur. Bununla belə demək lazımdır ki, Azərbaycanda inşa olunan sarayların və mülki tikililərin memarlıq həllində müxtəlif sənətkarlıq növlərindən istifadə, zamanın axarında onların dövrünün estetikasını özündə yaşadan bədii-tarixi abidələrə çevrilməsini şərtləndirmişdir, desək, həqiqəti ifadə etmiş olarıq. Bu mənada Şərq intibahının müxtəlif sənət sahələrində təzahürünü özündə yaşadan Azərbaycan memarlığının Gəncə ünvanlı nümunələrində həcmlərdə ifadə olunan plastikada həm də yerli ustaların daşoyma istedadı duyulmaqdadır.

Hazırda Gəncə şəhərində Fiziki mədəniyyət və idman mərkəzlərindən başqa Cəfər Cabbarlı (Azərbaycanın tanınmış dramaturqu) adına Gəncə Dövlət Dram teatrı, Fikrət Əmirov adına Gəncə Dövlət Filarmoniyası, “Zarrabi” poeziya teatrı, Gəncə Dövlət kukla teatrı kimi bizə miras qalan ən qədim mədəniyyət mərkəzləri fəaliyyət göstərir. Şəhərdə 5 Musiqi məktəbi, Uşaqlar üçün peşə məktəbi, İncəsənət məktəbi, 5 muzey, 3 mədəniyyət evi, 6 klub, musiqi evi, 27 kitabxana fəaliyyət göstərir.

Şeyx Nizami yurdu ulu Gəncədə onun qədimliyini, zəngin tarixini əks etdirən və sübut edən memarlıq abidələri yetərincədir. Belə ki, 500-dən yuxarı tarixi abidə siyahıya alınmışdır ki, bunlardan 300-ə yaxını dövlət tərəfindən qorunur. VIII əsrə aid tarixi memarlıq abidəsi - xalq arasında Göy günbəz, Göy məscid, yaxud Göy İmam kimi tanınan “İmamzadə” kompleksi, Şah Abbas məscidi və ya Gəncə Cümə məscidi, Qazaxlar məscidi, Şahsevənlər məscidi, Qırıxlı məscidi, Ozan məscidi, Hüseyniyyə məscidi və ya Tatlar məscidi,

Bağbanlar məscidi və ya Mirzə Kərim məscidləri bu gün fəaliyyətdədir. Eyni zamanda Mollacəlili məscidi, Zərrabi məscidi, Xəlfəli məscidi, Qızıl Hacılı məscidi, Şərəfxanlı məscidi, Hüseyniyyə məscidləri mədəniyyət idarələrinin nəzdində fəaliyyət göstərir. Gəncənin qədimiliyini əks etdirən çoxlu sayda zəngin tarixə malik türbələr və abidələr şəhərə marağı daha da artırır. Cavad xan türbəsi - Gəncə şəhərində, Şah Abbas meydanında, Şah Abbas məscidinin yaxınlığında yerləşən türbə. Arran memarlıq məktəbi üslubuna uyğun bişmiş kərpicdən dördkünc formada inşa edilib və üstü günbəzlə örtülmüşdür. Türbənin mərkəzində Cavad xanın məzarı durur.

**COMƏRD QƏSSAB TÜRBƏSİ**

Comərd Qəssab türbəsi - Qədim Gəncə ərazisində, Bakı-Gəncə dəmir yolu xəttindən cənubda yerləşən tarixi memarlıq abidəsidir. Türbədə dəfn edilmiş Comərd Qəssab rəvayətə görə, Gəncədə böyük hörmətə malik dürüst, çəkidə dəqiq, mərd, əliaçıq və xeyriyyəçi qəssab olmuşdur. Türbə planda səkkizguşəli formaya malikdir. Səkkizguşənin küncləri həm daxildən, həm də xaricdən çıxıntılarla işlənmişdir. Onun tikintisi zamanı kvadrat formalı bişmiş kərpic və əhəng məhlulu qarışığından istifadə olunmuşdur. Məhz bu baxımdan, Gəncə şəhərinin və bütövlükdə ölkənin ən maraqlı memarlıq abidələrindən biri, eyni zamanda Gəncənin memarlıq məktəbinin gözəl nümunəsi, ən qiymətli abidəsi, incisi, sözün əsl mənasında tarixin yadigarı olan Comərd Qəssab türbəsindən söz açmaq istərdim...

Bu türbənin divarında, daşında bənzərsiz naxışlar, Gəncənin zəngin keçmişindən xəbər verir. Türbə sovet hakimiyyəti illərində baxımsızlıqdan dağılmışdı. Türk dünyasının fenomeni, əbədiyaşar Heydər Əliyev rəhbərlik etdiyi bütün dövrlərdə Azərbaycanda tarixi abidələrin, müqəddəs dini məbədlərin qorunub saxlanmasına, təmirinə və bərpasına xüsusi fikir vermişdir. Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa etdikdən sonra cəmiyyətin bütün sahələrində olduğu kimi, tarixi abidələrinin bərpası, yeni prinsiplər əsasında inkişafı üçün real şərait yarandı. Bu vəzifələrin yerinə yetirilməsinə 1993-cü ildə ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə gəldikdən sonra başlanıldı. Ulu öndər Heydər Əliyevin siyasi kursunun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi ölkəmizi dünyada zəngin tarixin, ənənələrin və tolerant dəyərlərin mövcud olduğu məkan kimi tanıtdı. Məhz onun bariz nümunəsidir ki, dövlət başçısı cənab İlham Əliyev belə abidələrin bərpası və yenidən tikilməsi üçün olduqca mühüm addımlar atmışdır. Bəli, özünəməxsus memarlıq üslubu ilə fərqlənən Gəncə abidələri xalqımızın uzaq və qaranlıq keçmişinin öyrənilməsində müstəsna əhəmiyyətə malik olan abidələrdən biri də Comərd Qəssab türbəsidir. Gəncə sakinlərinin yaddaşında əfsanə şəklində qorunub saxlanan Comərd Qəssab barədə çoxlu sayda əfsanə və rəvayətlər bu gün də Gəncənin yerli sakinləri arasında dolaşmaqdadır. Öz dövründə Əlyar (Əli Aşiq)

adını qəbul edən Comərd Qəssab Gəncə şəhərinə yadellilərin hücumu zamanı şəhəri müdafiə edərkən qəhrəmancasına döyüşərək şəhid olmuş və şəhər əhalisi onu həlak olduğu yerdə dəfn etmişdir. Təxminən VII-VIII əsrlərə aid edilən Comərd Qəssab türbəsi Gəncə çayının sağ sahilində "İmamzadə" dini ziyarətgah kompleksinin cənubuna doğru təxminən 1500 m məsafədə, Gəncə Dövlət Tarix Mədəniyyət Qoruğunun ərazisində yerləşir. Məhz ilk dəfə məqbərə burada olubmuş. Vaxtilə Comərd Qəssab türbəsi yerli əhali tərəfindən müqəddəs ziyarətgah yer sayılaraq, daim ziyarət edilib. Comərd Qəssab türbəsində ilk dəfə 1920-ci illərdə Azərbaycan Arxeologiya Komitəsi və 1940-cı ildə isə arxeoloq İsaq Cəfərzadə tərəfindən arxeoloji tədqiqatlar aparılıb. Türbə 1139-cu il zəlzələsində dağılsa da sonradan yerli əhali tərəfindən bərpa edilərək 1950-ci illərə yarı uçuq, qəzalı vəziyyətdə çatıb. 1950-cı illərdə isə türbə baxımsızlıqdan tam yararsız vəziyyətə düşür və uzun müddət bu vəziyyətdə qalır. 2004-cü il dekabr ayının 2-də Comərd Qəssab türbəsinin yenidən açılışı olub. Türbənin bərpası Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu tərəfindən həyata keçirilib. Comərd qəssabın qəbri üzərində əvvəlki türbənin bənzəri olaraq 8 tağlı, üzəri günbəzlə tamamlanan məqbərə inşa edilərək şəhər sakinlərinin ixtiyarına verilib.

Məktəbdaxili nəzarətin məqsədi – direktiv və hüquqi-normativ sənədlərdə irəli sürülən, məktəbin qarşısında qoyulan vəzifələrin icrasını maksimum təmin etməkdən ibarətdir. Nəzarətin qarşısında həmçinin pedaqoji prosesin yaxşılaşdırılmasına nail olmaq, təcrübəsiz müəllimlərə kömək göstərmək, işin vəziyyətini ətraflı öyrənməklə vaxtında təshih etmək kimi məqsədlər durur. Bu məqsədlərə əməl edildikdə işdəki səhvlərin qarşısını vaxtında almaq, təlim-tərbiyənin səmərəsini artırmaq daha asan mümkün olur (1, s.4). Nəzarət aşağıdakılara uyğun olaraq həyata keçirilir:

- Azərbaycan Respublikasının dövlət təhsil standartlarına;
- Əməyin ödənilməsinin yeni sisteminə;
- “Təhsil Haqqında” Azərbaycan Respublikasının Qanununa;
- Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasına;
- Uşaq hüquqları haqqında konvensiyaya;
- Ümumtəhsil müəssisələrinin nümunəvi əsasnaməsinə;
- Azərbaycan Respublikası Təhsil Nazirliyinin təlimati məktublarına;
- Məktəbin nizamnaməsinə.

## Məktəbdaxili nəzarətin əsas məqsədi

Məktəbdaxili nəzarətin əsas məqsədi ilk növbədə Dövlət təhsil standartlarının səmərəli tətbiqi üzrə fəaliyyətin təmin edilməsidir. Dövlət təhsil standartları nədir? Ümumi təhsilin dövlət standartları “Təhsil haqqında” qanununa, “Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası”na əsasən hazırlanıb. Dövlət standartları ümumi təhsilin məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsilverənlərin keyfiyyət göstəricilərini, təhsilalanların bilik, bacarıq və vərdişlərinin səviyyəsini özündə əks etdirir. Dövlət standartları fənlər üzrə məzmun standartları və kurikulumların hazırlanmasında başlıca rol oynayır. Dövlət standartları 5 il müddətinə qüvvədədir. (4, s.1) Habelə, nəzarətdə səmərəliliyi əsas tutan direktor tabeçiliyində olan müəllimlərdə yeni kompetensiyaların formalaşdırılması məqsədilə qabaqcıl təcrübənin öyrənilməsi və yayılmasında maraqlı olmalıdır. Əlbəttə, hər bir məktəbdə öz pedaqoji ustalığına görə seçilən müəllimlər vardır, onlardan örnək alınmalıdır. Bundan başqa məktəbdaxili nəzarətin əsas məqsədi təhsilalanların,

təhsilverənlərin və məktəbin fəaliyyəti barədə məlumatların toplanması və cari vəziyyətin diaqnostikası proseslərinin təkmilləşdirilməsidir.

**Məktəbdaxili nəzarətin əsas vəzifələri:**

1. Məktəbdə təhsilalanların real hazırlıq səviyyələrini müəyyənləşdirmək. Bu zaman müəyyən təhlillər apararaq geriləmələri aradan qaldırmaq, yaxın perspektivli məqsədlərə çatmaq üçün işlər görmək mümkündür. Bu şagirdlərin buraxılış (9, 11-ci siniflər), olimpiada və müxtəlif yarışlarda, beynəlxalq qiymətləndirmə proqramlarında iştirakında yaxşı nəticələr göstərməsinə səbəb olur.

2. Nəticələrin qarşıya qoyulmuş məqsədlərə uyğunluq dərəcəsini müəyyən etmək. Aydındır ki, hər bir məktəbin bir visionu, fəaliyyət planı olur. Məktəbdaxili fəaliyyətlər məktəbin yaxın və uzaq perspektiv məqsədlərini müəyyən etməyə imkan verir. Qarşıya qoyulmuş məqsədlərə nə dərəcədə nail olunduğunu müəyyən etmək üçün təlim nəticələrinin səviyyəsinə baxılır. Mövcud kəm-kəsirlər araşdırılaraq onların aradan qaldırılması məqsədi ilə işlər görülür, müzakirələlər aparılır.

3. Tədris prosesinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsi yollarının araşdırılması. Tədris prosesində səmərəliliyin əldə edilməsi ümumilikdə təsilin keyfiyyətinin yüksəlməsinə gətirib çıxarır. Bu da regionda məktəblər arasında rəqabətin artmasına, məktəbin visionunun da genişlənməsinə səbəb olur.

4. İdarəetmənin və pedaqoji fəaliyyətin təkmilləşdirilməsi. İdarəetmənin təkmilləşdirilməsi birbaşa məktəbdaxili nəzarətin düzgün təşkil edilməsindən asılıdır. Nəzarət idarəetmədə olan nöqsanların, qaydalara riayət edilib edilməməsinin, işçilərin öz fəaliyyətində buraxdığı yanlışlıqların aşkara çıxarılmasında əhəmiyyətli rol oynayır. Məktəbdə təhsil səviyyəsinin yüksəlməsində maraqlı olan hər bir direktor innovativ yeniliklərin tətbiqində, müəllimlərin pedaqoji fəaliyyətinin təkmilləşdirilməsində, onların ixtisasartırma kurslarına cəlb edilməsində maraqlı olmalıdır. Müəllimlərin pedaqoji fəaliyyətinin təkmilləşdirilməsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2007-ci il 25 iyun tarixli 102 nömrəli qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının Konsepsiya və Strategiyası"nda da öz əksini tapmışdır.

**Məktəbdaxili nəzarətin gözlənilən nəticələri:**

- Şagirdlərdə təhsilə, özünü inkişafa marağın artırılması;
- Şagirdlərdə sosial bacarıqların formalaşdırılması, onların cəmiyyət həyatına hazırlanması;
- Şagirdlərin məktəbdaxili və məktəbdənkənar fəaliyyətinin nəticələri haqqında tam informasiya almaq;

➢ Məktəbin pedaqoji işçilərinin yaradıcı imkanlarını, təlim-tərbiyənin qabaqcıl forma və metodlarının tətbiqi və onların həyata keçirilməsi üçün şəraitin yaradılması;

➢ Təhsilalanların maraq və tələbatlarına uyğun keyfiyyətli təhsil əldə etməsi;

➢ Məktəbdaxili idarəetmənin təkmilləşdirilməsi, idarəetmədə sistemliliyə nail olmaq;

➢ Yaradıcı pedaqoji kollektivin təşkili;

➢ Təlim motivasiyasının yüksəldilməsi.

**Sənədlər:** Məktəbdaxili nəzarət həyata keçirilərkən aşağıdakı sənədlər olmalıdır:

***Məktəbdaxili nəzarətin planı:*** Planın reallaşdırılması zamanı əvvəlcədən nəzərdə tutulmayan halları, maneələri, dəyişən şəraiti nəzərə almaq lazım gəlir. Hazır plana kor-koranə əməl etmək, necə deyərlər, onun quluna çevrilmək olmaz; yaranmış vəziyyəti nəzərə alaraq plana yaradıcı yanaşmaq və orada müvafiq dəyişikliklər aparmaq vacibdir. (2, s.133) Məktəb işinin planlaşdırılmasında üç növ plan – cari, illik və perspektiv plan hazırlanır. Perspektiv plan gələcək illər üçün tərtib edilir və burada göstərilən məsələlər öz əksini tapır: əvvəlki illərdə görülən işlərin təhlili, gələcək illər üçün məktəbin vacib vəzifələrinin müəyyən edilməsi, şagirdlərin sayında dəyişiklik, məktəbin inkişafının təşkilati problemi, təlim-tərbiyə işlərinin pedaqoji təhlili, pedaqoji kadrlarla iş, inzibati təsərrüfat işləri və məktəbin maddi texniki bazasının möhkəmləndirilməsi. İllik plan məktəbin bütün həyatını əks etdirir və daha çox konkret olur. İllik plan adətən aşağıdakı bölmələrdən ibarət olur:

| |
|---|
| 1. Əvvəlki tədris ilində məktəb işinin təhlili; |
| 2. Yeni tədris ilində məktəbin vəzifələri; |
| 3. Ümumi icbari təhsilin həyata keçirilməsi; |
| 4. Təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsi; |
| 5. Şagirdlərlə sinifdənxaric və məktəbdənkənar işlərin təşkili; |
| 6. Şagirdlərin təlim-tərbiyəsində məktəb, ailə və ictimaiyyətin əlbir işi; |
| 7. Pedaqoji şuranın işi; |
| 8. Metodik işlər, ixtisasartırma və attestasiya; |
| 9. Elmi nailiyyətlərin və qabaqcıl təcrübənin tətbiqi; |
| 10. Məktəbi idarə və məktəbdaxili nəzarət; |
| 11. Səhiyyə-sağlamlıq işləri; |
| 12. Təşkilati-təsərrüfat işləri; |
| 13. Məktəbin maddi bazası. |

Cari plan ayrı-ayrı bölmələr üzrə fəaliyyət proqramlarının hazırlanmasını əks etdirir və ona əsasən illik planda müəyyən düzəlişlər aparıla bilər. Cari planlaşdırmaya müəllimin tematik və dərs üzrə planları, sinif rəhbərlərinin rüblük və illik, məktəb direktoru və onun müavinlərinin həftəlik və aylıq planları aid edilir. Bundan başqa direktorlar il ərzində 40- 50 saat dərs dinləməli və onların pedaqoji təhlilini verməlidir. Bu təhlil zamanı məktəb rəhbəri obyektiv və ədalətli olmalı, müəllimlərə fəaliyyətlərində düzgün istiqamət verməlidir. Müəllimin işinə nəzarətlə yanaşı şagirdlərin təliminə də nəzarət olunur. Bu zaman şagirdlərin proqram materialını necə yerinə yetirməsinə, onların inkişaf dinamikasına, şəxsiyyətin necə formalaşmasına diqqət yetirilir.

***Məktəbdaxili nəzarətin yerinə yetirilməsi haqqında hesabat:*** Hesabatda məktəbin ümumi fəaliyyətində olan nöqsanlar, geriləmələr gizlədilmədən göstərilməli, onları doğuran səbəblərin obyektiv və subyektiv cəhətləri araşdırılmalıdır. Bununla yanaşı, məktəbin uğurları və inkişafın dinamikasının da təhlili qeyd edilməlidir. Hesabatın nəticələrinə uyğun səmərəli planlaşdırma aparılır.

***Yoxlamalara dair aktlar, arayışlar, nəzarət jurnalı:*** Əvəzedilmiş və buraxılmış dərslərin qeydiyyatı jurnalı (nömrələnməli, məktəbin direktorunun möhürü və imzası ilə təsdiq edilməlidir). Məktəbdaxili Nəzarət Jurnalı (dərsdinləmələr, monitorinq və müşahidələr haqqında qeydiyyat aparılır, nömrələnir, məktəb direktoru tərəfindən imzalanaraq möhürlənilir). Pedaqoji və tədris-köməkçi işçilərin tabel jurnalı (tətil günlərində işçilərin davamiyyəti qeyd olunur, nömrələnir, direktor tərəfindən imzalanaraq möhürlənir). Məktəb üzrə şagirdlərin gündəlik dərsə davamiyyət jurnalı. Fərdi söhbətlərin qeydiyyatı jurnalı (burada məktəb işçiləri, şagird, valideynlərlə aparılmış fərdi söhbətlər haqqında qeydiyyat aparılır).

### *Ədəbiyyat*

1. *Arif Muradov. Məktəbşünaslıq - məktəbi idarəetmə elmidir. "Azərbaycan məktəbi". -2009. -№5. -s.29-39.*
2. *İsmixanov M.A., Bəxtiyarova R.Ə. Məktəbin idarə edilməsi. Bakı, 2012, 236 səh.*
3. *Milli Eğitim Vakfi İktisadi İşletmesi Denetim Rehberi Muzaffer Vural Er, Milli Eğitim Vakfi İç Denetçisi, Milli Eğitim Vakfi Ankara-2016*
4. *https://edu.gov.az/upload/file/tehsil-pillesinin-dovlet-strandartlari-ve-proqramlari.pdf*
5. *https://aztehsil.com/news/4842-pedaqoji-idaretmd-hesabatllq.html*
6. *https://nsportal.ru/download/yandex.html#https://nsportal.ru/sites/default/files/2017/10/22/mktbdaxili_nzart.docx*
7. *https://muasirtehsil.az/arxivlər/1790*

**F.İ.Allahverdiyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***allahverdiyevafiruze066@gmail.com***

# TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ MONİTORİNQ FƏALİYYƏTİ

***Xülasə***

*Məqalədə təhsil müəssisələrində monitorinq fəaliyyətindən bəhs olunur. Hazırda təhsil sahəsində monitorinq təhsil monitorinqi kimi geniş vüsət almışdır. Təhsil monitorinqi təhsil sisteminin fəaliyyəti haqqında məlumatların toplanması, saxlanması, emalı, yayılmasının təşkili üçün elə bir sistemdir ki, bu da təkcə onun vəziyyətinin davamlı monitorinqini deyil, həm də inkişafının proqnozlaşdırılmasını təmin etmək üçün istifadə edilir. O, məlumatların toplanması, saxlanması yolu ilə dəyişikliklər dinamikasının fasiləsiz izlənməsi, cari vəziyyətin təhlili, qiymətləndirilməsi, bununla da təhsil sisteminin, xüsusilə təhsil keyfiyyətinin proqnozlaşdırılması üçün möhkəm zəmin yaradır.*

# МОНИТОРИНГ ДЕЯТЕЛЬНОСТИ В ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

***Резюме***

*В статье говорится о мониторинговой деятельности в образовательных учреждениях. Сегодня мониторинг в сфере образования получил широкое распространение как образовательный мониторинг. Мониторинг образования – это система сбора, хранения, обработки и распространения информации об эффективности системы образования, которая используется не только для обеспечения постоянного наблюдения за ее состоянием, но и для прогнозирования ее развития. Благодаря сбору и хранению данных он постоянно отслеживает динамику изменений, анализирует и оценивает текущую ситуацию, формируя тем самым прочную основу для прогнозирования системы образования, особенно качества образования.*

# MONITORING ACTIVITIES IN EDUCATIONAL INSTITUTIONS

***Summary***

*The article talks about monitoring activities in educational institutions. Today, monitoring in the field of education has become widespread as education monitoring. Education monitoring is a system for collecting, storing, processing and distributing information about the effectiveness of the education system, which is used not only to ensure constant monitoring of its condition, but also to predict its development. Through the collection and storage of data, it constantly monitors the dynamics of*

*changes, analyzes and evaluates the current situation, thus forming a solid basis for predicting the education system, especially the quality of education.*

***Açar sözlər:*** *təhsil, monitorinq, şagird, müəllim, nəzarət və s.*
***Ключевые слова:*** *образование, мониторинг, ученик, учитель, супервизия и др.*
***Key words:*** *education, monitoring, student, teacher, supervision, etc.*

Təhsil monitorinqi bütövlökdə təhsil sisteminin, o cümlədən təhsil müəssisələri və təhsil məkanına daxil olan digər obyekt və subyektlərin durumu üzərində sistemli şəkildə müşahidlələrin aparılmasını təmin edən kompleks prosesdir. (1, səh. 288)

"Monitorinq" anlayışı latın dilindən olub, monitor – müşahidə, nəzarət, xəbərdarlıq sözündəndir (5). Təhsildə monitorinq məsələləri B.S.Avanesov, Q.Q.Azqaldov, A.E.Baxmutski, G.A.Bordovski, L.P.Zelenova, V.Q.Qorb, S.A.İvanov, V.İ.Kovalenko, E.İ.Lokşina, A.N.Mayorova, V.K.Murova, P.K.Murova, N.F.Efremova, F.R.Subetto və başqa tədqiqatçıların əsərlərində tədqiq edilmişdir.

Monitorinq ölçmə və müqayisə üçün aydın əsaslar üzərində qurulur. Ölçmə hər hansı bir standarta uyğunluqdur. Monitorinq məlumatları oxşar xüsusiyyətlərə malik iki və ya daha çox sistemi müqayisə etmək qabiliyyətini (oxşar şəraitdə olan müəssisələr) və zamanla bir obyekt barədə məlumatları müqayisə etmək bacarıqlarını (eyni məktəbdə bir neçə il ərzində əldə edilmiş təhsil nəticələrinin müqayisəsi) təmin etməlidir.

Monitorinq bütün idarəetmə funksiyaları ilə əlaqələndirilir, idarəetmənin informasiya təminatına yönəldilir, onun effektivliyini təmin edir və istənilən vaxt sistemin vəziyyətini mühakimə etməyə imkan verir. Təhsil fəaliyyətinin bütün səviyyələrində və pillələrində monitorinq və onun idarə edilməsi müvafiq mütəxəssislər və idarəetmə strukturları tərəfindən təşkil edilir. Monitorinq prosesin izlənilərək, onun inkişaf tendensiyalarını proqnozlaşdırılmasını və bunu nəzərə alaraq fəaliyyətin tənzimlənilməsini mümkün edir.

Monitorinqin məqsədi təhsil sektorunun vəziyyəti və fəaliyyətinin əsas göstəriciləri barədə daxil olan məlumatların ümumiləşdirilməsi və təhlili, inkişaf meyillərinin qiymətləndirilməsi və proqnozlaşdırılması, keyfiyyətli təhsilə nail olmaq üçün əsaslandırılmış idarəetmə qərarlarının qəbul edilməsi üçün zəmin yaratmaqdır.

Bu məqsədə çatmaq üçün aşağıdakı vəzifələr qarşıya qoyulur:

- Nəzarətin və tədris prosesi şəraitinin təşkili, onun məzmunu və nəticələri haqqında etibarlı və obyektiv məlumatların əldə edilməsi;
- İnformasiyanın sistemləşdirilməsi, onun səmərəliliyinin və əlçatanlığının artırılması;

- Vahid normativ materialların, diaqnostika üsullarının işlənib hazırlanılması və istifadə edilməsi;
- Bütün səviyyə və pillələrdə, müxtəlif sahələrdə monitorinq tədqiqatları mexanizminin yaradılması;
- Təhsildə baş verən dəyişikliklərin və onlara səbəb olan amillərin vaxtında aşkar edilməsi;
- İdarəetmə orqanlarının, təhsil müəssisələrinin, maraqlı tərəflərin və cəmiyyətin monitorinq zamanı əldə edilmiş sosial əhəmiyyətli məlumatlarla təmin edilməsi.

Monitorinqin müxtəlif sahələri mövcuddur. Lakin onun əsas sahələrinə aşağıdakılar aid edilir və bu sahələrdə müşahidə-nəzarət işləri aparılır:

- Təhsil sahəsində qanunvericiliyə riayət edilməsi;
- İcbari təhsilin təmin edilməsi;
- Tədris prosesinin avadanlıqlarla təmin edilməsi;
- Təhsil nailiyyətlərinin səviyyəsi;
- Şagirdlərin sağlamlıq vəziyyəti;
- Müəllimlərin peşəkar bacarıqları;
- İdarəetmə fəaliyyətinin təşkili;
- Təhsil sisteminin səmərəliliyi;
- Təhsil sistemində psixoloji iqlim;
- İnnovativ fəaliyyət;
- İnkişaf proqramlarının həyata keçirilməsi və s.

Monitorinq prosesi zamanı müxtəlif növ ölçmələrdən istifadə edilir: pedaqoji, didaktik, sosioloji, psixoloji, tibbi, sanitar, iqtisadi, statistik və s. Monitorinqin məqsədlərindən və təşkilati imkanlarından asılı olaraq həm ayrı-ayrı sahələrdə, həm də kompleks şəkildə həyata keçirilməsi mümkündür. Monitorinqin həyata keçirilməsi dedikdə, davamlı nəzarət işinin təşkili və aşağıdakılara əsaslanaraq məlumatların yığılması nəzərdə tutulur (4, s.145):

- dövlət və regional səviyyələrin normativ aktları ilə təsdiq edilmiş hesabatlar;
- təhsil müəssisələrinin lisenziyalaşdırılması, dövlət akkreditasiyası zamanı daxil olan sənədlər və materiallar; məzunların dövlət yekun attestasiyası; pedaqoji və idarəetmə heyətinin ixtisasının artırılması və sertifikatlaşdırılması; innovativ fəaliyyətin ekspertizası;
- planlaşdırılmış, xüsusi təşkil olunmuş monitorinq tədqiqatlarının nəticələri.

Təhsildə keyfiyyətin təmin edilməsi mexanizmlərinin inkişafı Azərbaycanın dünya məkanına inteqrasiyası, müstəqil qərarların qəbulu kontekstində təhsil müəssisələrinin idarə edilməsi prinsiplərinin yenidən nəzərdən keçirilməsini zəruri edir. Eyni zamanda, təhsilalanların təlim

nəticələrinin artırılması üçün təhsil sferasında keyfiyyətin idarə olunmasına xüsusi tələblər qoyulur. Buna görə də, təhsilin keyfiyyətinin effektiv idarə edilməsində daimi nəzarət aparıcı rol oynayır.

Təhsilin keyfiyyəti dedikdə, əldə edilmiş bilik səviyyəsinin cəmiyyətin, dövlətin, təhsil xidmətlərinin istehlakçısının tələblərinə, biliklərin əldə edilməsi şərtlərinə uyğunluğu nəzərdə tutulur.

Təhsilin keyfiyyətinin idarə edilməsi dedikdə, səmərəli tədris prosesinin təşkil olunması, göstərilən xidmətlərin təhsil ehtiyaclarını ödəmək üçün əlverişli şəraitin yaradılması və son olaraq, əvvəlcədən müəyyən edilmiş məqsədlərə uyğun olaraq tədris prosesini tənzimləmək üçün məlumatı tez qəbul etməyə və onu emal etməyə imkan verən meyarlar bazasının qurulması nəzərdə tutulur. (3, s.608)

Təhsilin keyfiyyətinin monitorinqinin təşkili və məzmunu monitorinq subyektlərinin fəaliyyətində məqsədyönümlülük, ardıcıllıq, bütövlülük, çoxşaxəlilik və s. köməyi ilə əldə edilən məlumatlar əsasında həyata keçirilir.

Təhsilin keyfiyyətinin monitorinq sisteminin yaradılmasının aktuallığı təkcə təhsilin keyfiyyətinə deyil, həm də tədris prosesinin monitorinq ehtiyacları ilə bağlıdır. Bu sistem yaradılarkən monitorinq fəaliyyətinin konseptual və texnoloji modelinin işlənib hazırlanması, kadr hazırlığı, təhsilin keyfiyyətinə nəzarət sisteminin və effektivliyinə dair tədqiqatların işlənib hazırlanmasını idarə edən xüsusi strukturun yaradılması, monitorinq tədbirlərinin maliyyələşdirilməsi kimi tədbirlər planı hazırlanıb tətbiq edilməlidir.

Bütün görülən bu tədbirlər əsasında əldə olunan nəticələrə görə təhsil nailiyyətlərinə qoyulan tələblər bunlardır: təhsilin təkmilləşdirilməsi və təlim nəticələrinin yaxşılaşdırılması, təhsil standartlarının əldə edilməsi barədə şagirdlərin, onların valideynlərinin və müəllimlərin məlumatlandırılması, məktəblərin və təhsil şöbələrinin hesabatlılığının təmin edilməsi, təhsil sahəsində idarəetmə qərarlarının qəbulunda əks-əlaqənin qurulması, fəaliyyətin təhlili, gələcək fəaliyətin planlaşdırılması.

Təhsil monitorinqi elə pedaqoji və idarəetmə kateqoriyasıdır ki, o, informasiya nəzəriyyəsinin ümumi müddəalarını köçürmür, onları pedaqogika, psixologiya və idarəetmə dilinə çevirir. Keyfiyyətli monitorinq sisteminin qurulması təlim nəticələrinin səmərəliliyinin artırılmasında aparıcı rol oynayır. Təhsildə keyfiyyətə xidmət edən monitorinqə təhsilalanlara verilən bilik bacarıq və dəyərlərin müasir zamanın tələblərinə uyğunluğunu müəyyənləşdirən və inkişafa xidmət edən başlıca kateqoriya kimi baxmaq lazımdır.

Monitorinq zamanı informasiyanın ardıcıl toplanılması, onun işlənilməsi, sistemləşdirilməsi, təhlili, qiymətləndirilməsi, şərhi, gələcək

tədbirlərin proqnozunun və bunlara əsaslanaraq, korreksiya işlərinin inkişafı təmin edilməlidir.

Bir sözlə, monitorinq idarəetmədə təşkilati strukturun əhəmiyyətli komponentidir. Təhsil müəssisələrində idarəetmənin təkmilləşdirilməsinə, nöqsan və qeyri-etik halların aradan qaldırılmasına, nailiyyətlərin əldə edilməsinə, təhsilalanların təhsil prosesinə adaptasiya olmasına, idarəetmənin fundamental elementlərinə nəzarətin gücləndirilməsinə xidmət edir.

***Ədəbiyyat***

1. *A.O.Mehrabov. Müasir təhsilin konseptual problemləri. Bakı, "Mürtəcim", 2010, 516 səh.*
2. *A.Cahangirov. "Təhsilimiz dünəndən sabaha. Optimistin baxışları". Bakı, "Şərq-Qərb", 2020, 384 səh. + 24 səh. foto*
3. *Гребенникова В.М. К вопросу об оценке качества дополнительного профобразования специалистов социального профиля на основе квалиметрического подхода / В.М.Гребенникова, Н.И.Никитина, Е.В.Комарова // Фундаментальные исследования. 2014. № 11. С. 605–611.*
4. *Ефремова Н.Ф. Эвалюация и логистика: новые инструменты в управлении качеством обучения // Фундаментальные исследования. 2014. № 8–6. С. 1455–1459*
5. *Сахарчук Е.И. Непрерывное образование учителя: теория и практика. Сергеев Н.К., Сериков В.В., Сахарчук Е.И., и др. Коллективная монография / Волгоградский государственный социально-педагогический университет. Волгоград, 2016. 360 с*

**N.R.Rəcəbli**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***rnurxan@mail.ru***

# TƏHSİL MÜƏSSİSƏLƏRİNİN İDARƏ EDİLMƏSİNDƏ MARKETİNQ FƏALİYYƏTİNİN ROLU

***Xülasə***

*Təhsil xidmətləri bazarının yaranması və inkişafı ilə təhsil təşkilatları getdikcə rəqabətin subyekti kimi çıxış edirlər. Qloballaşma prosesləri, demoqrafik vəziyyət, resursların (ilk növbədə maliyyə resurslarının) təhsil təşkilatları arasında bölüşdürülməsi üzrə rəqabət mexanizmlərinin yayılması təhsil bazarında rəqabəti gücləndirir. "Müştəri yönümlülük" prinsipinin həyata keçirilməsi, təhsil təşkilatlarının təhsil xidmətləri istehlakçılarının məmnunluq səviyyəsini artırmaq üçün əhəmiyyətli səylər göstərməyə başladığı, bunun üçün getdikcə daha çox müxtəlif marketinq üsulları və vasitələrindən istifadə etdiyi vəziyyətə əhəmiyyətli dərəcədə təsir göstərir. Buna görə də təhsil təşkilatları üçün effektiv marketinq tədqiqatlarının aparılması təhsildə idarəetmənin mühüm sahəsinə çevrilir.*

# РОЛЬ МАРКЕТИНГОВОЙ ДЕЯТЕЛЬНОСТИ В УПРАВЛЕНИИ ОБРАЗОВАТЕЛЬНЫМИ УЧРЕЖДЕНИЯМИ

***Резюме***

*С возникновением и развитием рынка образовательных услуг образовательные организации все в большей мере выступают субъектами конкурентной борьбы. Усиливают конкуренцию на образовательном рынке процессы глобализации, демографическая ситуация, распространение конкурсных механизмов распределения ресурсов (преимущественно финансовые ресурсы) между образовательными организациями. Значимое влияние на ситуацию оказывает реализация принципа "ориентации на потребителя", когда образовательные организации начинают прилагать существенные усилия для повышения уровня удовлетворенности потребителей образовательных услуг, все чаще используя для этого различные методы и инструменты маркетинга. Поэтому проведение результативных для образовательных организаций маркетинговых исследований становится важным направлением менеджмента в образовании.*

# THE ROLE OF MARKETİNG ACTİVİTİES İN THE MANAGEMENT OF EDUCATİONAL İNSTİTUTİONS

***Summary***

*With the emergence and development of the market of educational services, educational organizations increasingly act as subjects of competition. The processes*

*of globalization, the demographic situation, and the spread of competitive mechanisms for the distribution of resources (primarily financial resources) among educational organizations are intensifying competition in the educational market. The implementation of the principle of "customer orientation" has a significant impact on the situation, when educational organizations begin to make significant efforts to increase the level of satisfaction of consumers of educational services, increasingly using various marketing methods and tools for this. Therefore, conducting marketing research that is effective for educational organizations is becoming an important area of management in education.*

***Açar sözlər:*** *marketinq, bazar, təhsil, müəssisə, istehsal, məhsul, rəqabət, müştəri, məqsəd*

***Ключевые слова:*** *маркетинг, рынок, образование, предприятие, производство, продукт, конкуренция, заказчик, цель*

***Key words:*** *marketing, market, education, enterprise, production, product, competition, customer, purpose*

Bazar münasibətləri şəraitində müəssisənin istehsal-satış fəaliyyətinin effektliliyi bilavasitə onun bazara, istehlakçıların tələbatına, alış motivlərinə və davranışına uyğunlaşma səviyyəsindən asılıdır. Başqa sözlə desək, bazarda o müəssisələr yüksək istehsal-satış göstəricilərinə nail olurlar ki, onlar istehlakçıların tələbatını daha dolğun ödəyən, onlara daha çox fayda verən məhsullar istehsal edir və bunun sayəsində bazarda daha dayanıqlı mövqeyə malik olurlar. Buna isə məhz marketinq konsepsiyasını tətbiq etməklə nail olmaq mümkündür (1).

İxtisaslaşdırılmış ədəbiyyat təhsildə idarəetmə nəzəriyyəçiləri və praktiklərinin diqqətini getdikcə marketinqin idarə edilməsi məsələlərinin öyrənilməsi zərurətinə cəlb edir. Mövcud maliyyə-iqtisadi böhran təhsil müəssisələrini öz xidmətlərini təşviq etmək üçün daha fəal addımlar atmağa sövq edir, ona görə də deyə bilərik ki, iqtisadi problemlər ictimai istehsalın bütün sahələrində, o cümlədən təhsildə marketinq texnologiyalarının inkişafı üçün katalizator rolunu oynayır. Təhsil müəssisəsinin marketinq strategiyasının inkişafı üçün vacib olan, adətən "təmin edilməli olan bir şeyə ehtiyac" kimi başa düşülən "ehtiyac" anlayışının şərhidir. İnsan müəyyən ehtiyacı təmin edə bilməyəndə ya onu ödəmək qabiliyyətini artırmaq üçün tədbirlər görür, ya onu əvəz edir, ya da tələblərinin səviyyəsini daha təvazökar edir. Marketinqin əsas məqsədi haqqında ən çox yayılmış fikirlərdən birində deyilir ki, bu, "ehtiyac tapmaq və onu ödəmək istəyidir". Təhsil xidmətləri "müəyyən ehtiyacları ödəmək, istifadə və ya istehlak üçün təklif oluna bilən hər hansı ehtiyac" kimi müəyyən edilən xüsusi bir məhsul növüdür. Məhsul istənilən ehtiyacı ödəyə bilən hər hansı bir şeydir. Belə ki, orta məktəbdə əsas məhsul əsas və əlavə təhsilin təhsil xidmətidir, həm də bir çox dəstəkləyici prosesləri həyata keçirir ki, bunun da nəticəsi tələbələrin qida, istilik və rahat öyrənmə şəraitinə olan

ehtiyaclarının ödənilməsidir, yəni məktəblilərin valideynlərinin uşaqlarının təhlükəsizliyinə olan ehtiyacları və s.

Marketinq mənasında bazar "bəzi məhsulların mövcud və ya potensial satıcıları və alıcılarının məcmusudur". Təhsil xidmətləri bazarı həm fiziki məkanda, həm real vaxtda, həm də virtual olaraq inkişaf edir. "Təhsil bazarı"nın strukturuna xidmətlər bazarı və onları təmin edən təhsil müəssisələri ilə yanaşı, təhsil xidmətlərinin istehlakçıları toplusu da daxildir. Belə ki, xüsusən də təhsildə marketinq çərçivəsində abituriyentlərin, eləcə də orta ixtisas təhsili müəssisələrinin tələbələrinin, uşaq bağçalarının şagirdlərinin və onların valideynlərinin bazar seqmentasiyası həyata keçirilir. Beləliklə, təhsil xidmətləri bazarının məntiqi belədir: müəyyən bir təhsil müəssisəsi tərəfindən müxtəlif səviyyəli və xarakterli ehtiyaclar potensial istehlakçının müvafiq alıcılıq qabiliyyəti ilə müəyyən növlərə və ya təqdim olunan məhsullara tələbi formalaşdıran müəyyən xidmətləri almaq istəklərinə çevrilir. Buna görə də belə nəticəyə gəlmək olar ki, təhsil müəssisələrinin marketinq fəaliyyəti insanların təhsil sahəsində müəyyən xidmətlərə daim dəyişən ehtiyaclarını ödəməyə kömək edir. Bu gün marketinq fəaliyyəti də idarəetmə sisteminin funksiyasına çevrilir, çünki təhsil müəssisəsinin idarə edilməsinin effektivliyi əsasən marketinqin nə dərəcədə effektiv olmasından asılıdır. Məsələn, bir universitetdə əla müəllim heyəti, peşəkarcasına hazırlanmış təhsil proqramları və s. ola bilər, lakin universitetin xidmətləri ali təhsil bazarında təbliğ edilməzsə, tam və yüksək səviyyəli təhsilin təmin edilməsində əhəmiyyətli uğur qazana bilməz.

Müasir təhsil müəssisəsinin marketinq fəaliyyəti nədən ibarətdir? Bu suala birmənalı cavab vermək mümkün deyil, çünki bu fəaliyyətin mahiyyətini, məzmununu və təşkilini müəyyən etmək üçün bir çox yanaşma var. Beləliklə, təhsil müəssisələrinin marketinq fəaliyyətinin aşağıdakı növlərini xüsusi qeyd etmək olar:

- **Təhsil xidmətlərinin marketinqi:** məsələn, universitetin müəllimləri tərəfindən hazırlanmış təhsil proqramları bazarında universitet tərəfindən yeni məhsulların təşviqi;
- **Təhsil mallarının marketinqi:** "müəllim və təhsil müəssisəsinin işçilərinin həm müstəqil olaraq təqdim oluna bilən, həm də tədris prosesində istifadə oluna bilən peşə fəaliyyətinin məhsulları (tədris və təlim (kompüter) proqramları, tədris vəsaitləri, didaktik materiallar və s.)";
- **Ərazi marketinqi:** Azərbaycanın böyük şəhərlərinin mərkəzində yerləşən bir çox təhsil müəssisəsi təhsil müəssisəsinin cəlbedici brendini formalaşdırmaq üçün ərazidən fəal şəkildə istifadə edir;
- **Müəssisənin marketinqi:** bura qurumun imic, prestij, effektiv fəalliyyəti aiddir;

➢ **İdeya marketinqi:** “təhsil müəssisəsinin şöhrəti və çəkisi onun təhsil fəaliyyətindən, pedaqoji yanaşmaların müasirliyindən və perspektivindən asılıdır”, həmçinin effektivliyinə təhsil müəssisəsinin işçilərinin, ilk növbədə müəllimlərin və məzunların bacarıqları və nailiyyətləri böyük təsir göstərən şəxsiyyət marketinqi;

➢ **Əlavə xidmətlərin marketinqi:** təkcə universitetlər üçün deyil, digər növ təhsil təşkilatları üçün də çox tələb olunan fəaliyyətdir (məsələn, qeyri-formal ödənişli təhsil növlərinin təbliği, gələcək birinci sinif şagirdlərinin tədrisi üçün hazırlıq qrupları və s.);

➢ **Təhsil müəssisəsinin mühitinin marketinqi:** müəssisənin asudə vaxt mühitinə, idman infrastrukturuna və s.;

➢ **Qarşılıqlı marketinq:** təhsil müəssisəsinin biznes əlaqələrinin etibarlı tərəfdaşı kimi reputasiyasının formalaşdırılması;

➢ **Sənaye marketinqi:** investisiya bazarında olduğu kimi xidmət istehlakçıları bazarında da formalaşır. Əlavə vəsaitdə təkcə ayrı-ayrı müəssisələr deyil, bütövlükdə təhsil sektoru da maraqlıdır. Buna görə də, investisiya layihələri təhsil müəssisələrinin maliyyə sabitliyini artırmaq üçün populyar bir texnologiyaya çevrilir. Buna misal olaraq universitetlərin qrant fəaliyyəti, məktəblər tərəfindən investisiya layihələrinin hazırlanması və s.

Təhsil müəssisəsində marketinqin idarə edilməsi, təhsil müəssisəsinin xidmətlərinin təşviqi sahəsində marketinq siyasətinin sonrakı formalaşdırılması və həyata keçirilməsi üçün bazar araşdırması sahəsində fəaliyyətlərin planlaşdırılması, təşkili və nəzarəti sistemidir. Marketinq fəaliyyəti sahəsində işin təşkili üçün hamı tərəfindən qəbul edilmiş universal struktur yoxdur. Bununla belə, aydındır ki, təhsil müəssisəsi uzunmüddətli perspektivdə marketinq fəaliyyətinin həyata keçirilməsinin mümkün yollarının nə olduğunu - başqa sözlə, onun marketinq strategiyasının nə olduğunu başa düşməlidir. Strategiya hazırlamaq və onun növünü seçmək qərarı təhsil müəssisəsinin rəhbərliyi tərəfindən - ola bilsin ki, müzakirələr və strategiyanın həyata keçirilməsinə yönəlmiş marketinq planının məzmunu ilə bağlı kollektiv rəyin hazırlanması əsasında qəbul edilir.

Təhsil müəssisəsində marketinq proseslərini müxtəlif strukturlar idarə edə bilər. Məktəbəqədər və ümumi təhsil müəssisələrində marketinqin xüsusi bölməyə ayrılması yersiz görünür. Burada, bir qayda olaraq, direktor müavinlərindən biri xidmətlərin təşviqi ilə məşğul olur. Bəzən elə bir vəziyyət tapa bilərsiniz ki, məktəb internetdə təhsil müəssisəsi haqqında məlumat məzmununu yeniləmək və onun fəaliyyətini mediada yerləşdirmək üçün, materiallar hazırlamaq üçün marketoloq kimi kompüter elmləri müəllimindən istifadə edir. Çox vaxt bu, məktəb rəhbərliyinin marketinqə lazımi diqqət yetirmədiyini və bu fəaliyyətin epizodik və çox vaxt səmərəsiz olduğunu göstərir. Eyni zamanda, təhsil müəssisəsinin yuxarı rəhbərliyi səviyyəsində

marketinq fəaliyyətinin təşkili nümunələri var. Xüsusilə, təhsil müəssisəsində ixtisaslaşmış marketinq şöbəsi yaradıla bilər. Bu gün bunu əksər Azərbaycan universitetlərinin strukturunda müşahidə etmək olar. Marketinq şöbəsinin işinə ümumi rəhbərlik, bir qayda olaraq, prorektorlardan birinə həvalə edilir. Marketinq şöbələri öz işlərində onların fəaliyyətini tənzimləyən müxtəlif sənədləri rəhbər tuturlar: marketinq şöbəsi haqqında Əsasnamə, təhsil müəssisəsinin marketinq siyasəti, vəzifə öhdəlikləri və s.

Marketinq sahəsində təhsil müəssisəsinin rəhbərliyinin idarəetmə funksiyalarının təsnifatı aşağıdakı əsas fəaliyyət sahələrini ayırmağa imkan verir: *analitik, təminat, marketinq, nəzarət, formalaşdırma.* Bunları daha ətraflı nəzərdən keçirək:

**1. Analitik funksiyalar:**

- təhsil xidmətləri bazarının öyrənilməsi və seqmentləşdirilməsi;
- rəqiblərin, tərəfdaşların, müştərilərin, istehlakçıların, digər maraqlı tərəflərin tələblərinin və s. öyrənilməsi;
- təhsil müəssisəsi tərəfindən göstərilən xidmətlərin çeşidinin öyrənilməsi;
- təhsil müəssisəsinin və onun əsas rəqiblərinin marketinq siyasətinin təhlili.

**2. Funksiyaların təmin edilməsi:**

- təhsil müəssisəsinin xidmətlərini lazımi təşviq vasitələri ilə təmin etmək: internetdə veb-saytların, sosial qrupların yaradılması, marketinq funksiyalarının icraçı səviyyəyə həvalə edilməsinə imkan verən platformanın yaradılması;
- bazarın tələb etdiyi yeni təhsil xidmətlərinin hazırlanmasına və tətbiqinə başlanılması;
- təhsil müəssisəsinin məhsullarının keyfiyyətinin və rəqabət qabiliyyətinin idarə edilməsi və s.

**3. Satış funksiyaları:**

- hədəf istehlakçı seqmentinə diqqət yetirməklə müxtəlif paylama kanalları vasitəsilə təhsil xidmətlərinin təşviqi sisteminin təşkili;
- marketinq texnologiyalarından istifadə üzrə kadrların (məsələn, təhsil proqramlarının menecerlərinin) hazırlanmasının təşkili;
- qiymətləndirmə üzrə tövsiyələrin işlənib hazırlanması;
- təhsil müəssisəsində xidmət proseslərinin təkmilləşdirilməsi üzrə təkliflərin hazırlanması.

**4. Nəzarət funksiyaları:**

- təhsil müəssisəsi üçün marketinq planlarının tərtib edilməsi;
- marketinq planının icrası prosesinin monitorinqi sisteminin inkişafı (məsələn, təhsil müəssisəsinin bölmələrində marketinq kompleksinin ayrı-ayrı işlərinin yerinə yetirilməsinə nəzarət sisteminin təşkili yolu ilə);

- təhsil müəssisəsinin əməliyyat və strateji marketinq planlarının vaxtında uyğunlaşdırılması;
- təhsil müəssisəsinin şöbələri ilə əks əlaqə sisteminin yaradılması.

**5. Formalaşdırma funksiyaları:**

- təhsil müəssisəsinin xidmətlərinə tələbatın məqsədyönlü formalaşdırılması;
- təhsil xidmətləri bazarında təhsil müəssisəsinin brendi haqqında müsbət təsəvvürün formalaşdırılması;
- təhsil müəssisəsinin xidmətlərinə reklam və stimullaşdırıcı tələbat (2).

## NƏTİCƏ:

Təhsil müəssisəsində marketinq fəaliyyətinin təşkili problemi çox genişdir və ətraflı araşdırılmalıdır. Xüsusilə, xüsusi marketinq vasitələri, təhsil sferasında qiymət texnologiyaları və təhsil müəssisələri üçün digər çox konkret məqamlar aydınlaşdırılmalıdır. Bu məqalədə marketinq menecmentinin əsas elementləri və funksiyaları haqqında yalnız ən ümumi fikir verməyə, həmçinin müasir təhsil müəssisələrinin davamlı inkişafı üçün bu sahənin əhəmiyyətini izah etməyə çalışdım.

***Ədəbiyyat***

1. *A.T.Məmmədov "Marketinqin əsasları" Bakı, 2007.*
2. *Filip Kotler "Marketinq Menecment" Ekspress-kurs.2-ci nəşr Bakı, 2008.*
3. *O.H.Rzayev, S.M.Məmmədov, Ş.N.İsmayılov "Təhsilin idarə olunmasının əsasları" Bakı, 2010.*
4. *"Azərbaycan Respublikasında ali təhsilin yeniləşməsi uğrunda: təhsil islahatlarına dəstək" layihəsi çərçivəsində "Avropa ali təhsilinə inteqrasiya: problemlər, perspektivlər" mövzusunda Tətbiqi Tədqiqatlar Fondu və Azərbaycan Turizm İnstitutunun birgə keçirdikləri elmi praktik konfransın materialları. Bakı, 2011, s.38-47.*

**E.V.Müslümzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***16.11.17.eltac@gmail.com***

# TƏHSİL MÜƏSSİSƏSİNİN NƏTİCƏYÖNÜMLU İDARƏ EDİLMƏSİNİN MONİTORİNQİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

***Xülasə***

*Təhsil müəssisələrinin nəticəyönümlü idarə edilməsi şagirdlərin təlim nəticələrinin yaxşılaşdırılması və təhsilin keyfiyyətinin yüksəldilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Bu prosesə şagird nailiyyətlərinin ölçülməsi, müəllimin fəaliyyətinin qiymətləndirilməsi və təhsil müəssisələrinin məqsədlərinə çatmasını təmin etmək üçün xüsusi meyarların müəyyən edilməsi daxildir. Nəticəyönümlü idarəetmənin monitorinqi və qiymətləndirilməsi şagirdlərin uğurlarının artırılması, müəllimlərin inkişafı və təhsil müəssisələrinin məqsədlərinə çatması üçün vacibdir. Bu məqsədlə şagird nailiyyətlərini ölçmək üçün standartlaşdırılmış testlərdən, müəllimin fəaliyyətini qiymətləndirmək üçün müəllimin qiymətləndirmə alətlərindən, təhsil müəssisələrinin məqsədlərinə çatmasını təmin etmək üçün fəaliyyət göstəricilərindən istifadə olunur. Bu üsullar təhsil müəssisələrinin fəaliyyətinin monitorinqi və təkmilləşdirilməsi üçün istifadə olunan dəyərli üsullardır.*

# МОНИТОРИНГ И ОЦЕНКА РЕЗУЛЬТАТИВНОГО УПРАВЛЕНИЯ ОБРАЗОВАТЕЛЬНОЙ ОРГАНИЗАЦИЕЙ

***Резюме***

*Ориентированное на результат управление образовательными учреждениями важно для улучшения результатов обучения студентов и повышения качества образования. Этот процесс включает в себя измерение успеваемости учащихся, оценку работы учителей и установление конкретных критериев для обеспечения того, чтобы образовательные учреждения достигли своих целей. Мониторинг и оценка управления, ориентированного на результат, необходимы для повышения успеваемости учащихся, повышения квалификации учителей и достижения целей образовательных учреждений. С этой целью используются стандартизированные тесты для измерения достижений учащихся, инструменты оценки учителей используются для оценки работы учителей, а показатели эффективности используются для обеспечения того, чтобы образовательные учреждения достигли своих целей. Эти методы являются ценными методами, используемыми для мониторинга и улучшения деятельности образовательных учреждений.*

# MONİTORİNG AND EVALUATİON OF THE RESULT-ORİENTED MANAGEMENT OF THE EDUCATİONAL İNSTİTUTİON

***Summary***

*Result-oriented management of educational institutions is important for improving the learning results of students and raising the quality of education. This process includes measuring student achievement, evaluating teacher performance, and establishing specific criteria to ensure that educational institutions meet their goals. Monitoring and evaluation of results-oriented management is essential for increasing student success, teacher development, and achieving educational institutions' goals. For this purpose, standardized tests are used to measure student achievement, teacher evaluation tools are used to evaluate teacher performance, and performance indicators are used to ensure that educational institutions achieve their goals. These methods are valuable methods used for monitoring and improving the activities of educational institutions.*

***Açar sözlər:*** *təhsil, tələbə, şagird, təhsil müəssisəsi, qiymətləndirmə, monitorinq*

***Ключевые слова:*** *образование, студент, воспитанник, образовательное учреждение, оценивание, мониторинг*

***Key words:*** *education, student, pupil, educational institution, evaluation, monitoring*

## GİRİŞ

Təhsil müəssisəsinin fəaliyyətinin nəticəyönümlü idarə edilməsinin əsasını ümumi idarəetmə nəzəriyyələri təşkil edir. Bunlara, ilk növbədə, riyazi nəzəriyyələr (hərəkətə nəzarət, oyunlar, əməliyyatların tədqiqi və s.) daxildir. İdarəetmə qərarlarının qəbulu, növbə və idarəetmə nəzəriyyələri daha xüsusi diqqət mərkəzindədir. Çox güman ki, təhsil müəssisəsinin idarəetmə nəzəriyyəsi elmin müxtəlif sahələrində əldə edilmiş nəzəri biliklərin sintezi ola bilər. Məsələ ondadır ki, formal və qeyri-rəsmi (humanitar) planların müxtəlif elmi sahələrinin nailiyyətlərinə əsaslanaraq, təhsil müəssisəsinin fəaliyyətinin idarə edilməsinin xüsusiyyətlərini əks etdirən elmi bilikləri təcrid etmək mümkündür.

Elmi bilik yalnız bu və ya digər cəhətləri ilə dərk edilə bilən reallığa xas olan ümumini ifadə edir. Buna görə də, elmi biliklərin, xüsusən də təhsil müəssisəsinin fəaliyyətinin idarə edilməsinə düzgün tətbiqi tamamilə haqlıdır. Onların köməyi ilə biososial hadisənin növlərindən biri kimi təhsil müəssisəsinin fəaliyyətinin idarə edilməsində ümumi xüsusiyyətlərin mövcudluğunu qeyd etmək olar.

Təhsil müəssisəsinin fəaliyyətinin idarə edilməsinə xas olan qeyri-müəyyənliyin aradan qaldırılmasında elmi biliklərə arxalanmağın zəruriliyi göz

qabağındadır. Elmi biliklərdən istifadə etməklə təhsil müəssisəsində təzahür edən ümumi meyilləri izah etmək, onların gələcək inkişafını proqnozlaşdırmaq olar. Elmi biliklər təhsil müəssisəsinin fəaliyyətini idarə etmək üçün strateji şəraitin layihələndirilməsində də faydalıdır. Bir sözlə, elmi biliklər, müəyyən nüanslarla əlaqəli olmadıqda, təhsil müəssisəsinin fəaliyyətini idarə edən subyektlər tərəfindən öz səlahiyyətlərinin icrasında qeyri-müəyyənliyin aradan qaldırılmasına kömək edir. Bu cür nəzarətin sxematik (səthi) olması aydındır. Ona görə də təhsil müəssisəsinin idarə edilməsində yalnız elmi biliklərə arxalanmaq kifayət deyil (1, s. 21).

Fakt budur ki, elmi biliklər müəyyən bir təhsil müəssisəsinin xüsusiyyətlərini, onun fəaliyyətinin idarə edilməsinin konkret subyektlərini əks etdirmir. İdarə olunan obyektin xüsusiyyətləri təhsil müəssisəsinin fəaliyyətində özünü göstərir, subyektlərin qəbul etdiyi idarəetmə qərarlarına təsir göstərir. Bütün bunlar, əlbəttə ki, təhsil müəssisəsinin (onun ayrı-ayrı elementlərinin) fəaliyyətinin idarə edilməsi xüsusiyyətlərinin xüsusiyyətlərini də müəyyən edir. Buradan belə nəticə çıxır ki, təhsil müəssisəsi ilə bağlı qeyri-müəyyənliyin aradan qaldırılmasında elmi biliklərə etibar həm subyektlərin, həm də onların idarə etdiyi obyektlərin (təhsil müəssisəsinin elementlərinin) xüsusiyyətlərinə dair biliklərlə birləşdirilməlidir.

Müasir reallıqlarda təhsilin keyfiyyətinin yüksəldilməsinin vacib istiqamətlərindən biri də qiymətləndirmə və ölçmə prosedurudur.

Universitetdə təhsilin keyfiyyəti probleminin həllində bir neçə əsas istiqamət var:

- Ali təhsil müəssisəsində təhsilin keyfiyyətinin yüksəldilməsi üçün texnologiyalar və amillərin təmin edilməsi prosesləri ilə bağlı idarəetmə;
- Mütəxəssis hazırlığının keyfiyyəti;
- Təhsil standartlarının, kurikulumların və dərsliklərin keyfiyyəti;
- Tədris prosesinin təşkilinin keyfiyyəti və onun elmi, metodiki, informasiya, kadr və maddi-texniki təminatının keyfiyyəti (2, s. 12).

Təhsilin keyfiyyətinin yüksəldilməsi məqsədilə müasir idarəetmə üsullarının tətbiqi günümüzün əsas vəzifəsidir. Universitetdə tədris prosesinin keyfiyyətinin qiymətləndirilməsi sistemində nəticəyönümlü idarəetmə və praktiki qərarların qəbulunu müəyyən edən mühüm elementlərdən biri pedaqoji monitorinqdir.

Təhsil xidmətlərinin keyfiyyətinin məqsədyönlü uzunmüddətli müşahidəsi və qiymətləndirilməsi kimi monitorinqin dəyəri ondan ibarətdir ki, o, bu prosesin vəziyyətinin diaqnostikasını aparmağa, tədris fənlərinin məqsədlərinə, məzmununa və texnologiyalarına vaxtında düzəlişlər etməyə imkan verir. Monitorinq hər bir mərhələdə təhsilin vəziyyətini, pedaqoji vasitələrdən istifadənin rasionallığını onların qarşıya qoyulan məqsədlərə uyğunluğunu, pedaqoji texnologiyaların səmərəliliyini müəyyən etməyə imkan

verir. Pedaqoji hadisələrin vəziyyətinin monitorinqinin müddəti onların dəyişmə meyillərini müəyyən etməyə, müəyyən amillərdən asılılığını müəyyən etməyə imkan verir (3, s. 65).

Bu cür monitorinqin sosial yönümünü də qeyd etmək lazımdır, çünki peşə təhsili prosesinin özü, onun məzmunu, forması, strukturu və bütün səviyyələrdə (dövlət, regional, yerli) təşkili sosial, iqtisadi, siyasi və mənəvi prosesdir. Ona görə də cəmiyyətin dəyişən şərtlərini daim izləmək və nəzərə almaq lazımdır. Başqa sözlə, monitorinq kifayət qədər dinamik olmalıdır, əks halda o, tez bir zamanda əvvəlcədən müəyyən edilmiş müəyyən sxemə çevrilə bilər və onun vəzifələri müşahidə olunan faktların və pedaqoji hadisələrin sadə qeydiyyatına qədər azaldıla bilər. Bu yanaşma sayəsində monitorinqin nəticələri sosial motivasiyanın, sabitliyin və ya davranış dəyişikliyinin, təhsil alanların peşə istəklərinin təhlili və qiymətləndirilməsi üçün zəngin material təqdim edə bilər, eləcə də bu amilləri müəyyən etmək olar.

Monitorinq elmi biliyin metodu kimi pedaqoji reallıq obyektlərinin vəziyyətinin və inkişafının elmi əsaslarla müşahidəsini nəzərdə tutur, o biliyin vasitələrindən biri kimi çıxış edən təhlil metodu ilə ayrılmaz şəkildə bağlıdır.

Universitetdaxili pedaqoji monitorinqin strukturunda tələbənin şəxsi inkişaf dinamikasının monitorinqi və müəllimlərin fəaliyyətinin monitorinqi mühüm yer tutur.

Tələbələrin və şagirdlərin təhsil aldığı dövrdə fərdi inkişaf dinamikasının monitorinqi hər bir tələbənin üç istiqamətdə diaqnostikasından başlayır:

- akademik uğur,
- fərdin yaradıcı potensialı,
- qeyri-peşəkar maraqlar (4, s. 32).

Bu cür iş "İxtisasa giriş" fənninin öyrənilməsi prosesindən başlayır. Akademik tərəqqinin monitorinqi kompüter testi, pedaqoji, psixoloji və istehsalat vəziyyətlərinin təhlili əsasında biliyə ənənəvi nəzarət prosesində həyata keçirilir. Şəxsiyyətin yaradıcı potensialı tələbələrin müxtəlif yaradıcılıq müsabiqələrində, olimpiadalarda, elmi konfranslarda və s.-də şəxsi iştirak dərəcəsi ilə müəyyən edilir.

Müəllimlərin fəaliyyətinə nəzarət üsullarından biri reytinq ola bilər. Reytinqin müəyyən edilməsində məqsəd professor-müəllim heyətinin əməyinin keyfiyyətinin obyektiv qiymətləndirilməsi, rəqabətli sistemin yaradılması, professor-müəllim heyətinin ixtisasının artırılması istiqamətində işlərin stimullaşdırılmasıdır.

Pedaqoji kollektivin müxtəlif fəaliyyət növlərinin kəmiyyət mütənasibliyini müəyyənləşdirməkdə çətinliklərlə əlaqədar olaraq, müəllimin reytinqi müəllimin fəaliyyətinin komponentləri üçün dörd özəl reytinqin dəyişən nisbətindən alınır:

- Elmlər doktorları (dosentlər, professorlar);
- Elmlər namizədləri (akademik professorlar, dosentlər, baş müəllimlər);
- Magistrlər;
- Elmi dərəcəsi olmayan bütün müəllimlər (baş müəllimlər, müəllimlər).

Fərdi reytinqlər müəllim heyətinin fəaliyyətinin aşağıdakı komponentləri üzrə aparılır:

- Tədqiqat işi;
- Müəllimin peşəkarlığı;
- Tədris-metodiki iş. Təhsil işi və ictimai fəaliyyət (5, s. 55).

Pedaqoji monitorinq universitetin təhsil fəaliyyətini aşağıdakı parametrlər üzrə tənzimləyir:

- Təhsil;
- İctimai fəaliyyət;
- Digər fəaliyyətlər.

Pedaqoji monitorinqin tərkib elementlərindən biri universitetin fəaliyyətinin özünüqiymətləndirilməsidir. Müəllimin tədris və tərbiyə fəaliyyətinin qiymətləndirilməsi üsulları aşağıdakılardır:

- Müəllimlərin hesabatları;
- Müəllimlərin fəaliyyətinin təhlili (şagirdlərin sorğulanması, ekspert sorğusu, sosiometriya və s.);
- Daxili audit;
- Fəaliyyətin keyfiyyət göstəricilərinin statistik təhlili metodu.

Pedaqoji monitorinq həm də orta və ali təhsil sistemində məktəb və universitetin imicini və reytinqini müəyyən etməyə imkan verir. Onların müəyyən edilməsi üsulları bunlardır:

- Kadr seçimi üsulları;
- Sosioloji metodlar;
- Tədris prosesinin modelləşdirilməsi və dizaynı;
- İnformasiya və kommunikasiya üsulları.

Məktəbin və universitetin idarəetmə sistemində məlum təhsil modellərinə uyğun işləyən ayrıca modullar deyil, onların optimal kombinasiyası mövcuddur. Onların fəaliyyəti aşağıdakı strateji tələblərlə müəyyən edilir:

- iş sahələrinin tam əhatə olunması;
- müxtəlif şöbələrin fəaliyyətinin əlaqələndirilməsi və qarşılıqlı əlaqəsi;
- idarəetmə modelinin dəyişən sosial-iqtisadi şəraitə uyğunlaşması;
- idarəetmə subyektlərinə, mövcud sistemə vaxtında yeni strukturlar daxil etməyə, köhnəlmiş strukturlardan imtina etməyə imkan verən açıqlıq;
- məktəb və universitet idarəçiliyində müasir informasiya texnologiyalarından istifadə;

- bu model üçün optimal olan, idarəetmə qərarlarının qəbul edilməsinə ixtisaslı mütəxəssislərin, o cümlədən ictimaiyyətin cəlb edilməsidir.

Məktəbdə və universitetdə idarəetmə strukturu bu proseslərin bütün iştirakçılarının mənafeyinə uyğun olaraq dövlət və ictimai prinsiplərin optimal birləşməsini təmin etmək məqsədi ilə qurulub (6, s. 8).

## NƏTİCƏ

Reytinq nəticələri və təhsil sənədlərinin təhlili təhsil prosesinin ümumi mənzərəsini və müəyyən bir tələbənin şəxsi inkişaf səviyyəsini yaratmağa imkan verir. Monitorinq texnologiyası mütəxəssislərin hazırlanmasının keyfiyyətinin obyektiv və sübuta əsaslanan qiymətləndirilməsinə kömək edir və onların peşəkar hazırlığının məzmununu və texnologiyasını müasir elmi nailiyyətlərə, tələbələrin tələbatlarına və universitetdə real imkanlarına uyğunlaşdırmağa imkan verir.

***Ədəbiyyat***

1. *Mərdanov M. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı, 2018.*
2. *Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri. (Mühazirə xülasələri). Dərs vəsaiti, Bakı, 2019.*
3. *Mərdanov M. Azərbaycan təhsili yeni inkişaf mərhələsində. Bakı, 2019.*
4. *Nəzərov A. "Müasir təlim texnologiyaları" fənni üzrə proqram. Bakı, 2021.*
5. *Cabbarov R. Təlim-tərbiyə müəssisələrinin idarə olunması məsələləri. Bakı, 2021.*

**M.M.Allahyarova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***allahyarovamelek@gmail.com***

# EKOLOJİ TƏHSİL SAHƏSİNDƏ BEYNƏLXALQ ƏMƏKDAŞLIQ

***Xülasə***

Distant təhsil hər bir tələbə ilə fərdi işləmək imkanı verir. Distant tədris texnologiyası hər bir tələbəyə öz yanaşmasını tapmağa kömək edir. Elə olur ki, utancaq uşaq iyirmi sinif yoldaşının gözü ona dikilmiş sinifdə fəal işləməkdən utanır. Ancaq uzaqdan belə sakit adam özünü daha sərbəst hiss edir, söhbətdə müəllimə suallar verir və tapşırıqları uğurla yerinə yetirir. Müəllim isə öyrənməyə marağını qorumaq üçün belə şagirdlər üçün onların meyllərinə uyğun əlavə tapşırıqlar seçə bilər. Distant təhsil şagird və tələbələri daha yaxından tanımaq üçün əla şansdır.

Oyun tapşırıqları. Distant təhsil rəqəmsal texnologiyalardan çox fəal istifadəni nəzərdə tutur. O cümlədən oyunlaşdırılmış tapşırıqlar: onlayn oyunlar, viktorinalar, interaktiv beyin oyunları. Unutmayaq ki, hər bir uşaq üçün oyun dünyanı öyrənməyin ən təbii yoludur. Orta məktəb şagirdləri isə dərslikdəki quru tapşırıqlardan daha çox bu cür informasiyaları bəyənirlər. Oyunlar təkcə öyrənməni əyləncəli etmir, onlar tərəqqini ölçməyə kömək edir və öyrənməyə sağlam rəqabət elementi gətirir. Təhsil oyunları rəsmi proqrama daxil edilmir, lakin onları müntəzəm tapşırıqlarla qısaltmağı məsləhət görürük. Öyrənməkdən həzz alan uşaq dərsdə darıxan uşaqdan daha böyük uğur qazanacaq.

Daha rahat iş tempi. Distant təhsilin sizə verdiyi əsas şey vaxtdır. Tələbələrinizlə ünsiyyətinizin çox hissəsi messencer vasitəsilə həyata keçirildiyinə görə, onların suallarına cavablarınızı düşünməyə daha çox vaxtınız olur. Axı, səhv etmək riski ilə dərhal cavab vermək məcburiyyətində deyilsiniz istinad ədəbiyyatını yoxlaya və daha düşünülmüş və ətraflı cavab verə bilərsiniz. Bu, müəllim və tələbələr arasında münasibətləri daha peşəkar, eyni zamanda daha rahat edir.

Biliyin aktuallığı. Vərdiş etdiyimiz çap olunmuş dərsliklər heç də həmişə zamanın gedişi ilə ayaqlaşmır. Çox vaxt onlar mağazalara və kitabxanalara çatmazdan əvvəl köhnəlir. Uzaqdan təhsil prosesi müəllimə 21-ci əsr uşağının maraqlarına cavab verən müvafiq materialları tapmağa imkan verir. Məsələn, ingilis dilini təkcə dərsliklərdən deyil, həm də cari internet saytlarından, mahnılardan, sosial şəbəkə və televiziya şoularının ən son seriyalarından öyrənə bilərsiniz.

Tədris materiallarının mövcudluğu. İndi bir çox onlayn kitabxanalar virtual qapılarını açıb və dərslik və dərs vəsaitlərindən pulsuz istifadə etməyə icazə veriblər. Ancaq əslində, şəbəkədə dərs hazırlamaq üçün faydalı olan elektron kitablara çox sayda pulsuz giriş tapa bilərsiniz. Bu, həm məktəb kitabxanasında mövcud olan dərsliklərlə məhdudlaşmayan müəllimin, həm də onlarla bahalı əlavə dərslik almağa imkanı olmayan şagirdlərin valideynlərinin həyatını asanlaşdırır.

Rəqəmsal texnologiyaları anlamaq ehtiyacı. Heç kim mübahisə etmir, yeni iş üsuluna keçmək narahatedici və yorucudur. Xüsusilə vahid təlimat yoxdursa və hər şeyi tez başa düşməlisiniz. Hardan başlayacağınızı bilmirsinizsə, distant təhsil vebinarları ilə başlayın. Bir az səylə, bir həftə ərzində bütün rəqəmsal təhsil alətləri üzrə praktiki olaraq ekspert ola bilərsiniz, əslində, onlar üçün çətin bir şey yoxdur.

Şəxsi ünsiyyətin olmaması. Dərs zamanı bütün şagirdləri göz önündə saxlamağa adət etmiş müəllim üçün "ev" dərsi çətin sınaq ola bilər. Axı distant təhsillə bütün uşaqları idarə etmək çətindir. Video konfrans, müəllimin uşaqlarla ünsiyyət qura biləcəyi ümumi söhbət, Google sənədlərdə qrup layihələri üzərində işləyə bilməsi və real vaxt rejimində qarşılıqlı əlaqə üçün digər alətlər bu problemi həll etməyə kömək edəcək.

Tələbə motivasiyası ilə işləmək ehtiyacı. Müasir müəllimin işi dərsliyi ucadan oxumaq deyil. Onun vəzifəsi tələbələri həvəsləndirmək və ruhlandırmaq, onları fənnlə maraqlandırmaq, maraq və təşəbbüskarlığı təşviq etməkdir. Bu funksiyaları öz üzərinə götürə bilən kompüter sistemi yoxdur. İndi isə hər zamankından daha çox müəllim bütün bu istedadları nümayiş etdirməlidir. Ola bilsin ki, müəllimlər motivasiya və təşkilatlanma ilə bağlı problemləri olan uşaqlara daha çox diqqət yetirməli olacaqlar: belə tələbələr

öyrənmənin artıq lazım olmadığına qərar verə bilərlər. Ona görə də müəllimlər belə şagirdlərə nəzarətin yeni formalarını icad etməli olacaqlar.

Əlbəttə ki, distant təlim nəticə əldə etmək üçün tələbənin böyük şəxsi marağını tələb edir, xarici dəstək olmadıqda öyrənmədə lazımi ritmi saxlamaq lazımdır. Zəif kompüter səriştəsi də bu tip təhsildə maneə hesab olunur. Sadəcə fərdi kompüter haqqında bəzi əsas biliklərə sahib olmaq kifayət deyil, siz internetdə tam işləməyi, həmçinin mövcud məlumatları emal etməyi bacarmalısınız.

Digər çətin məsələ istifadəçinin identifikasiyası məsələsidir. Bu problemi imtahandan və qeydiyyatdan keçərkən həll etmək xüsusilə çətindir. Nəzəriyyə və praktikada bu məsələlər fəal şəkildə müzakirə olunur.

Bundan əlavə, distant təhsilin inkişafına mane olan digər mühüm şərt əhalinin bu cür təhsil alma metodunun səmərəsiz olması, keyfiyyətinin distant təhsildən də aşağı olması mövqeyidir. Distant təhsil ümumi təhsil üçün böyük imkanlar açır, lakin bu konsepsiya hələ də mükəmməllikdən uzaqdır, distant təhsilin bir sistem olaraq öhdəsindən gəlməli olacağı bir sıra problemlər var.

Beləliklə, belə nəticəyə gəlmək olar ki, distant təhsil hazırda əyani və ya qiyabi təhsilin oxşar konfiqurasiyaları ilə birlikdə təhsil sisteminin ayrılmaz tərkib hissəsi hesab olunur. Deyə bilərik ki, hazırda ölkəmizdə distant təhsil öz inkişafının kuliminasiya nöqtəsinə çatmamışdır lakin bu, universitetlərə distant tədris xidmətləri göstərməyə mane olmur. Digər inkişaf etmiş ölkələrdə, məsələn, ABŞ və ya Yaponiyada distant təhsil Azərbaycan Respublikası ilə müqayisədə daha erkən və daha məhsuldar şəkildə inkişaf etməyə başladı, lakin bu ştatlarda distant təhsil almaq bir sıra şərtlər və məhdudiyyətlərlə müşayiət olunur. Distant təhsil təhsil formalarından biri kimi təhsil sistemində klassik və formalaşmış normalarla bərabər mövcud olmaq qabiliyyətinə malikdir.

Eləcə də, qeyd etmək lazımdır ki, distant təhsil ənənəvi təhsildən əsaslı şəkildə fərqlənir ki, o, hansı bilik, və bacarıqlara ehtiyacı olduğunu dəqiq bilən şagirdin gəldiyi yeni təhsil informasiya mühitini yaradır. Həmçinin, hesab etmək olar ki, distant təhsilin fərqləndirici xüsusiyyəti müxtəlif informasiya resurslarından istifadə etməklə tələbələrə tələb olunan məlumatları müstəqil toplamaq imkanı verməkdir. Distant təhsillə ənənəvi təhsil arasındakı fərqlər arasında distant təhsil kursunun müəllimi və tələbələrinin həll etməli olduğu bir sıra tipik psixoloji və pedaqoji problemləri ayırmaq olar: təlim prosesinin iştirakçıları arasında şəxsiyyətlərarası əlaqələrin qurulmasında çətinliklər; əməkdaşlıqda təlim zamanı səmərəli işləyən kiçik təhsil qruplarının formalaşdırılması problemləri; təhsil prosesinin daha səmərəli təşkili üçün tələbələr arasında məlumatın qavranılmasının fərdi xüsusiyyətlərinin və öyrənmə üslublarının müəyyən edilməsi; öyrənmə motivasiyasını yeniləmək və saxlamaq.

2020-ci ildə ümumi orta məktəbdən tutmuş bütün universitetlər də COVID 19 virusu epidemiyasına görə tez bir zamanda distant təhsil formatına keçməli oldu. Bu, bir sıra problemləri üzə çıxardı: bir çoxunun serverləri distant təhsil saytları belə sayda tələbə üçün nəzərdə tutulmamışdır, çünki distant təhsil, əsasən az sayda insan və müəyyən bir yaş qrupu üçün eyni vaxtda dərslərin keçirilməsinə yönəldilmişdir. Əsas problemlərdən biri interaktiv formalardan istifadə edərək, oyun elementləri ilə, immersiv texnologiyalarla onlayn dərslər üçün müasir təhsil məzmununun hazır olmaması hesab edilə bilər. Onlayn rejimə məcburi keçid ali təhsilin vasitəçiliyini kökündən sürətləndirdi. Onun inkişafına daha da təkan verdi.

Bu məsələnin müxtəlif aspektlərini təhlil etdikdən sonra belə bir fikir söyləmək olar ki, distant təhsil istər ölkəmizdə, istərsə də xaricdə ixtisaslaşdırılmış informasiya və təhsil mühitindən istifadə etməklə geniş əhali kütləsinə bir sıra təhsil xidmətləri göstərən yeni təhsil formasıdır. Təlimin təşkili və tələbələrlə müəllim arasında qarşılıqlı fəaliyyət strategiyası distant kursun inkişafının əsasını təşkil edən pedaqoji texnologiya ilə müəyyən edilir.

Beləliklə, hansısa səbəbdən (başqa şəhərə, ölkəyə köçmək, maliyyə imkanları və s.) ənənəvi təlim variantı olmadıqda distant təhsil rahat və faydalı formadır. Distant təhsil əlavə təhsil və ya təkmilləşdirmə sahəsində, eləcə də kifayət qədər təhsil müəssisələrinin olmadığı regionlarda daha effektivdir.

***Ədəbiyyat***

1. *Asəf Zamanov, Hikmət Əlizadə, Səbinə Rüstəmova, Səbinə Əlizadə - Distant Təhsilin Pedaqogikası. Dərs vəsaiti. Bakı, ADPU Nəşriyyatı, 2021, 155 səh.*
2. *Rüfət Lətif oğlu Hüseynzadə, Zenfira Əzizova, Sahib Əliyev, Ülviyyə Verdiyeva – Pedaqogika. Dərslik. Bakı, Mütərcim Nəşriyyatı, 2021, 488 səh.*
3. *Rüfət Lətif oğlu Hüseynzadə, Firədun İbrahimov. Pedaqogika: 2 cilddə. I cild. – Bakı: Mütərcim, 2012, 706 səh.*
4. *Пьянкова Н.Г., Матвиюк В.М. Дистанционное образование как элемент интернет-технологий // В книге: Наука, техника, управление, социальное развитие - двигатели научно-технического прогресса. Материалы XIII Межвузовской (международной) научно-практической конференции. 2014. С. 332-333.*
5. *Сердюк А.В., Матвиюк В.М. Основные проблемы и перспективы развития информационного общества на современном этапе // В сборнике: Первые шаги в науку: Современные проблемы и перспективы развития. Материалы I (первой) краевой научно-практической конференции преподавателей и студентов среднего профессионального образования. Краснодар, 2013. С. 205-207.*

6. *Теория и практика дистанционного обучения: Учеб. пособие для студ. высш. пед. учеб. заведений / Е.С.Полат, М.Ю.Бухаркина, М.В.Моисеева; Под ред. Е.С.Полат. - М.:Издательский центр «Академия», 2004.-416с.*
7. *Хабибулина Э.М., Дистанционное обучение: основные термины, принципы и модели // URL: http://nsportal.ru/vuz/pedagogicheskie-nauki/library/.. distantsionnoe-obuchenieosnovnye-terminy-printsipy-i.*
8. *http://www.anl.az/down/meqale/az_mektebi/2021/4/787044(meqale).pdf*
9. *http://www.anl.az/down/meqale/az_muellimi/2014/yanvar/348284.htm*
10. *http://www.anl.az/down/meqale/azerbaycan/2020/aprel/717261.htm*
11. *http://www.anl.az/down/meqale/palitra/2011/mart/160685.htmhttps://ict.az/uploads/konfrans/GOOGLE_SCHOLAR_e-gov/54B.Ismayilova.pdf.*

**S.F.Nəsibzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***snesibzade88@gmail.com***

# AZƏRBAYCANDA PEŞƏ TƏHSİLİNİN İNKİŞAF ETDİRİLMƏSİNİN PRİORİTET İSTİQAMƏTLƏRİ

***Xülasə***

*Azərbaycanda ümumtəhsil müəssisələrində peşə təhsilinin inkişaf etdirilməsinin prioritet istiqamətləri, idarə edilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycanda peşə təhsilinin strukturu və təhlili, inkişaf etdirilməsinin prioritet istiqamətləri, peşəyönümünün inkişafının müqayisəli təhlil olunması və inkişaf strategiyası vacib hesab olunur.*

*Tədqiqatın mövzusu Azərbaycanda peşə təhsilinin inkişafının müqayisəli təhlili, prioritet istiqamətləri olduğu üçün məqalədə bu barədə bəhs edilmişdir.*

*Peşə təhsili Azərbaycan Respublikasında fasiləsiz təhsil sisteminin pilləsi kimi fərdin, cəmiyyətin və dövlətin maraqları nəzərə alınmaqla davamlı inkişaf etdirilən və təhsilalanlar tərəfindən bilik, bacarıq və vərdişlərin mənimsənilməsini, onların ixtisaslarının daim artırılmasını, eyni zamanda, zəruri əmək bacarıqlarına yiyələnmələrini təmin edən prioritet fəaliyyət sahəsidir.*

*Məqalədə peşə təhsili, onun prioritet məsələlərindən bəhs olunur və bu tədqiqatın əsas amil və predmetinə çevrilmişdir.*

# ПРИОРИТЕТНЫЕ НАПРАВЛЕНИЯ РАЗВИТИЯ ПРОФЕССИОНАЛЬНОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ

***Резюме***

*Приоритетные направления и управление развитием профессионального образования в общеобразовательных учреждениях Азербайджана имеют большое значение. Важными считаются структура и анализ профессионального образования в Азербайджане, приоритетные направления развития, сравнительный анализ профессионального развития и стратегии развития.*

*Поскольку предметом исследования является сравнительный анализ развития профессионального образования в Азербайджане, его приоритетных направлений, в статье упоминается именно это.*

*Профессиональное образование является приоритетной сферой деятельности в Азербайджанской Республике, которая непрерывно развивается с учетом интересов личности, общества и государства как ступень системы непрерывного образования и обеспечивает усвоение знаний, умений и навыков. привычки студентов, постоянное повышение их*

*квалификации, и в то же время они приобретают необходимые трудовые навыки.*

*Профессиональное образование, его приоритетные вопросы рассмотрены в статье и стали основным фактором и предметом данного исследования.*

# PRIORITY DIRECTIONS OF VOCATIONAL EDUCATION DEVELOPMENT IN AZERBAIJAN

***Summary***

*The priority directions and management of the development of vocational education in general educational institutions in Azerbaijan are of great importance. The structure and analysis of vocational education in Azerbaijan, priority directions of development, comparative analysis of vocational development and strategy of it are considered important.*

*The topic of the research is the comparative analysis of the development of vocational education in Azerbaijan, its priority directions are mentioned in the article.*

*Vocational training in the Republic of Azerbaijan as a step of the continuous education system, which is developed continuously taking into account the interests of the individual, society and the state, and the assimilation of knowledge, skills and habits by the students, and the constant improvement of their qualifications, at the same time is a priority area of activity that ensures they acquire the necessary labor skills.the article talks about vocational education, its priority issues and became the main factor and subject of this research.*

***Açar sözlər:*** *peşə təhsili, ixtisas, prioritet, təlim, əmək bazarı*

***Ключевые слова:*** *профессиональное образование, квалификация, приоритет, обучение, рынок труда*

***Key words:*** *vocational education, qualification, priority, training, labor market*

Müasir dövrdə texnologiya və elm sürətlə inkişaf etməkdədir. Elmin inkişaf etdiyi ölkələrdə yeni texnoloji sistemlər kütləvi tətbiqi xüsusi keyfiyyətlərə malik insan kapitalının yetişdirilməsinə və inkişafına gətirib çıxarır. Belə ki, müasir tələblərə cavab verən, yeni məzmunlu peşə təhsili qurulmalı və bu zaman təhsilalanlara müasir texnoloji metodların mənimsədilməsi əsas amil kimi götürülməlidir.

Peşə təhsili əmək bazarının tələbatına uyğun olaraq, ümumi orta təhsil və tam orta təhsil bazasında müxtəlif peşələr üzrə ixtisaslı işçi kadr hazırlığı aparılan təhsil pilləsidir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən ümumi orta təhsilin məqsədləri sırasında təhsilalanlara öz gələcək həyat yolunu və fəaliyyət istiqamətlərini müəyyən etmək, müstəqil öyrənmə və qərar qəbuletmə bacarığını, peşə seçiminə və əmək fəaliyyətinə hazırlığını təmin

etmək mühüm əhəmiyyət daşıyır. Məhz bu məqsədlərin həyata keçirilməsi bilavasitə təhsil sistemində peşəyönümü işinin səmərəli təşkili ilə sıx əlaqədardır.

Peşəyönümü gənc nəslin təlim-tərbiyə işləri sistemində mühüm yer tutan problemlərdən biridir. Onun əsas məqsədi yeniyetmə və gənclərin həyatda öz yerini düzgün tapa bilməsi, maraq və qabiliyyətlərinə uyğun müvafiq peşə və ixtisaslara yiyələnmələrinə kömək göstərməkdir. Ona görə də peşə təhsili mürəkkəb bir prosesdir.

Yeniyetmə və gənclər özlərinin gələcək həyat yollarını müəyyənləşdirərkən mühüm məsələlərə daha çox diqqət vermələri, bacarıq və qabiliyyətlərini düzgün qiymətləndirə bilmələri, istəklərinə uyğun qərar qəbul edə bilmələri mühüm xarater daşıyır.

Peşə təhsili rəqabətqabiliyyətli iqtisadiyyatın və inkişaf etmiş cəmiyyətin təşəkkül tapmasında böyük əhəmiyyətə malikdir. Əmək bazarının tələblərinə uyğun kadr hazırlayan peşə təhsili sisteminin yaradılması böyük əhəmiyyət kəsb edir.

Peşə təhsili və təliminin ümumi iqtisadi inkişafdakı əhəmiyyətini nəzərə alaraq, bir çox ölkələr bu sahənin inkişafı üzrə proqramlar hazırlayır və həyata keçirir. Son illərdə ölkə iqtisadiyyatının diversifikasiyası, qeyri-neft sektorunun davamlı inkişafının təmin olunması istiqamətində aparılan məqsədyönlü islahatlar ölkədə əlavə dəyər yaradan sektorların inkişafını təmin etməklə yanaşı, əmək bazarında rəqabətqabiliyyətli, ixtisaslı kadr potensialına tələbatı artırmaqla, bu tələbatın ödənilməsinə imkan verən çevik və bazaryönümlü peşə təhsili sisteminin qurulmasını zəruri edir.

Azərbaycanda peşə təhsilinin inkişafının təmin edilməsi istiqamətində mühüm addımlar atılıb. Prezident İlham Əliyevin 2016-cı il 20 aprel tarixli Fərmanına əsasən, Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılıb və əsasnaməsi təsdiq edilib. Agentlik Azərbaycan Respublikasında ilk peşə-ixtisas təhsili sahəsində dövlət siyasətinin həyata keçirilməsi və əlaqələndirilməsini, o cümlədən Təhsil Nazirliyinin tabeliyində olan ilk peşə-ixtisas təhsili müəssisələrinin fəaliyyətinin təşkil edilməsini həyata keçirir. Agentliyin təsis edilməsi peşə təhsilinin inkişaf etdirilməsi və müasir dövrün standartlarına uyğunlaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir.

Belə ki, peşə təhsili müəssisələrinin infrastrukturunun müasirləşdirilməsi və maddi-texniki bazasının gücləndirilməsi daim diqqət mərkəzindədir. Bu diqqət günbəgün artmaqdadır. Peşə təhsilinin dünya standartları səviyyəsinə çatdırılması məqsədilə beynəlxalq təşkilatlarla əməkdaşlıq qurulmuşdur.

Azərbaycan Respublikasında dinamik inkişaf edən iqtisadiyyatın peşə-ixtisas kadrlarına tələbatının daha dolğun ödənilməsi, əhaliyə göstərilən texniki

peşə təhsili xidmətlərinin günün tələbləri səviyyəsində qurulmasının təmin edilməsi üçün sərəncamlar verilmişdir. Burada texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər) təsdiq edilmiş, sərəncamın 1-ci bəndi ilə təsdiq edilmiş Dövlət Proqramının əlaqələndirici orqanı Azərbaycan Respublikasının Təhsil Nazirliyi müəyyən olunmuş, Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etməsi qeyd edilmiş və bu sərəncam dərc edildiyi gündən qüvvəyə minmişdir.

Azərbaycan Respublikasında texniki peşə təhsili müxtəlif inkişaf mərhələlərində formalaşaraq ölkə iqtisadiyyatının peşə-ixtisas kadrlarına olan ehtiyacının ödənilməsində mühüm rol oynamışdır.

1988 - 1993-cü illərdə Azərbaycanda yaranmış mürəkkəb iqtisadi-siyasi şərait bütün sahələrdə olduğu kimi, texniki peşə təhsilinin inkişafına da öz mənfi təsirini göstərmişdir. Bu dövrdə hökm sürən ictimai və sosial-iqtisadi sabitsizlik, istehsal həcminin kəskin azalması və nəticə etibarilə əmək bazarında ixtisaslı işçi qüvvəsinə tələbatın aşağı düşməsi, büdcədən maliyyələşmənin sıxılması, həmçinin təhsil təşkilatları ilə müəssisələr arasında ənənəvi əlaqələrin qırılması texniki peşə təhsili sistemini iflic vəziyyətinə salmış və tamamilə dağılmaq təhlükəsi ilə üz-üzə qoymuşdu.

1990-cı illərin ortalarından başlayaraq ölkədə texniki peşə təhsilinə diqqət artırılmış, onun zamanın tələblərinə uyğun təkmilləşdirilməsi istiqamətində müvafiq addımlar atılmışdır. Bazar münasibətləri əsasında formalaşan iqtisadi reallıqlar texniki peşə təhsili sistemində ilk növbədə təşkilati dəyişikliklərə yol açmışdır. Maddi-texniki bazası zəif və yüksək ixtisaslı kadrlar hazırlamaq imkanları məhdud olan texniki peşə məktəbləri ləğv edilmiş və ya birləşdirilmiş, texniki peşə təhsili müəssisələrinə peşə məktəbi və peşə liseyi statusu verilmişdir.

Bununla bərabər, peşə təhsilinin məzmununun yeniləşdirilməsi sahəsində xeyli iş görülmüş, tədris plan və proqramlarının məzmunu və quruluşunun təkmilləşdirilməsi istiqamətində əməli addımlar atılmışdır.

Hazırda respublikada 114 texniki peşə təhsili müəssisəsi mövcuddur. Onlardan 7-si işğal olunmuş ərazilərdə fəaliyyət göstərmiş və hazırda fəaliyyəti dayandırılmış peşə məktəbləridir. Fəaliyyət göstərən texniki peşə təhsili müəssisələrindən 47-si peşə liseyi, 60-ı isə peşə məktəbidir. Respublikanın peşə məktəbi və peşə liseylərində 101 peşə üzrə 23 mindən artıq şagird təhsil alır. Hər il texniki peşə təhsili müəssisələrinə orta hesabla 13 mindən yuxarı şagird qəbul olunur.

Son illər ölkədə iqtisadiyyatın inkişafının dinamikliyi daha da artmaqdadır. Azərbaycan Respublikasının iqtisadi potensialının sürətlə yüksəlişi, bazaryönümlü islahatların dərinləşməsi və regionların inkişafındakı müsbət dəyişikliklər, bütövlükdə ölkə iqtisadiyyatında müşahidə olunan müasir meyillər peşə sistemi qarşısında yeni tələblər irəli sürür.

Hazırda əmək bazarında rəqabətədavamlı yüksək ixtisaslı kadrlara yaranan və gündən-günə artan tələbatı ödəmək qabiliyyətli yeni tip pilləli təhsil komplekslərinin yaradılması ən vacib məsələ kimi ön plana çəkilir.

Ölkədə neft-qaz sənayesi sahələrinin güclü inkişafı ilə yanaşı qeyri-neft, yüksək əlavə dəyər tutumlu sahələrin də təkamülü dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindəndir.

Bazar münasibətləri, iqtisadiyyatın infrastrukturunun kökündən dəyişməsi mühümdür. Orta və kiçik müəssisələrin iqtisadiyyatda hakim mövqe tutmalı, qarışıq iqtisadiyyatın rəqabət sisteminin formalaşmasından asılı olaraq istehsal profillərinin tez-tez dəyişməsi qısa müddətdə və daha az xərclə çevik təfəkkürə malik təşəbbüskar mütəxəssislər tələb edir. Bu zaman respublika iqtisadiyyatının üstün inkişaf etdirilməsi sahələrinin müasir tələblərə cavab verən kadrla təmin olunması, onların hazırlığının aparıcı istiqaməti olmalıdır.

Bu gün Azərbaycan Respublikasında peşə təhsili sahəsində mövcud problemlər sırasında aşağıdakılar xüsusilə qeyd olunmalıdır:

- peşə təhsili müəssisələrinin maddi-texniki və tədris bazası müasir tələblərə cavab vermir;
- kadr hazırlığı əmək bazarının tələbləri ilə uzlaşmır, peşə təhsili sistemində kadr hazırlığının planlaşdırılması işi müasir tələblər səviyyəsində qurulmamışdır, iqtisadiyyatın inkişaf perspektivlərinə uyğun olaraq əmək bazarının tələbatlarının uzunmüddətli elmi əsaslandırılmış proqnozlaşdırılması sistemi yoxdur;
- peşə təhsilinin mövcud idarəolunma strukturu bazar iqtisadiyyatı prinsipləri ilə tam uzlaşmır, onun dövlət büdcəsindən maliyyələşdirilməsi mexanizmi kifayət qədər səmərəli deyildir;
- peşə təhsili sistemində istifadə olunan proqramlar, ixtisas fənləri üzrə dərslik və dərs vəsaitləri müasir tələblərə cavab vermir, texniki və humanitar peşə təhsili müəssisələrinin fəaliyyətinin monitorinqi və qiymətləndirilməsi üzrə yeni mexanizmlər tam tətbiq edilmir;
- peşə təhsili sistemində ixtisaslı kadrlar çatışmır, mühəndis-pedaqoji heyətin hazırlıq səviyyəsi qənaətbəxş deyildir.

Son illərdə qəbul edilmiş bir sıra sənədlərdə peşə təhsilinin inkişafına yönəlmiş tədbirlərin həyata keçirilməsinin vacibliyi xüsusilə vurğulanır. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə təsdiq edilmiş "Yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı (2003-2005-ci illər)", "Azərbaycan Respublikasında kiçik və orta sahibkarlığın inkişafının Dövlət Proqramı (2002-2005-ci illər)", "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2004-2008-ci illər)", "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)", "Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2006-2015-ci illər)" və "Azərbaycan

Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər)" kimi normativ hüquqi aktlarda peşə-ixtisas təhsilinin təkmilləşdirilməsinə, peşə təhsili müəssisələri ilə işəgötürənlər arasında əlaqələrin daha da yaxşılaşdırılmasına və müasir tələblərə cavab verməsinə ciddi ehtiyac olduğu göstərilmiş və müvafiq tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.

Göründüyü kimi, bu ümumtəhsil sistemində peşə hazırlığına prioritet məsələlərdən biri kimi üstünlük verilir. Bu kontekstdə bazar iqtisadiyyatı şəraitində rəqabətədavamlı ixtisas və peşə sahiblərinin hazırlığı kimi mühüm problemin həlli bilavasitə kiçik yaşlardan başlayır, yeniyetməlik və gənclik illərində davam etdirilərək onların həyata hazırlanması işinin düzgün və effektiv təşkilini təmin edir.

Yeniyetmə və gənclərin həyata hazırlanmasının əsas göstəricisi olan peşə seçiminin lazımı səviyyədə təşkili məqsədini özündə ehtiva edən Azərbaycan Respublikasında peşə təhsilinin İnkişaf Konsepsiyasında (2006-cı il) bu məramın reallaşdırılması vacibliyi irəli sürülmüşdür. Bu da təhsil sisteminin bütün pillələrində peşəyönümü işinin səmərəli təşkilini aktuallaşdırır, islahatın müvəffəqiyyətlə aparılmasına rəvac verir.

Məhz bu səbəbdəndir ki, son dövrlər problemin məqsədyönlü həlli iqtisadçıların psixoloq və pedaqoqların elmi-tədqiqat obyektinə çevrilmiş, bu sahədə bir sıra səmərəli araşdırmalar aparılmış, kitablar yazılmışdır.

Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqının adət və ənənələrinə hörmət edən, ümumbəşəri dəyərləri qoruyan, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil, yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək, sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq, təhsilalanlarda sahibkarlıq düşüncə tərzinin formalaşdırılması, onlara müasir qeyri-standart yanaşma və sahibkarlıq bacarıqlarının aşılanması istiqamətində həm nəzəri məlumatların, həm də praktiki bacarıqların öyrədilməsi məqsədilə müvafiq səriştələr əsasında təlim və təhsil proqramları (kurikulumlar) tərtib etmək peşə təhsilinin əsas məqsəd və prioritet məsələlərindəndir.

İşçi təhsil proqramları (kurikulumlar) peşə təhsili müəssisələrində maraqlı tərəflərin nümayəndələrinin (işəgötürənlər, mütəxəssislər, təhsilalanlar, təhsilverənlər) iştirakı ilə nümunəvi təhsil proqramları (kurikulumlar) əsasında hazırlanır.

Texniki peşə məktəblərində verilən nəzəri və praktiki biliklər bəzən yetərli olmur. Avropada ən güclü iqtisadiyyata sahib olan Almaniya, Fransa və İngiltərə kimi ölkələrin peşə təhsili modeli digər ölkələrinkindən kəskin surətdə fərqlənir. Bu modellər Azərbaycan peşə təhsili sisteminə uyğunlaşdırılaraq tətbiq olunur.

Dünyadakı peşə təhsili modelləri əsasında formalaşan, inkişaf edən Azərbaycan peşə təhsili sistemində bəzi məqamlarda kökü müxtəlif səbəblərə dayanan problemlər meydana çıxmaqdadır. Ona görə də, Azərbaycanda peşə təhsilinin gələcəkdə güclü modelə çevrilməsi üçün qabaqcadan yarana biləcək problemlər müəyyən olunmalı və vaxtında aradan qaldırılmalıdır.

Bir sözlə, peşə təhsili peşəkar mütəxəssislər və tədqiqatçılar tərəfindən qiymətləndirilməli, məqsədyönlü, səmərəli təkliflər hazırlanmalıdır. Çünki Azərbaycanda praktiki tədqiqatların aparılmaması problemlərin həllini yubadır.

Peşə təhsilində qiymətləndirmə müxtəlif faktorlar əsasında mümkündür və bu zaman onun yetişdirdiyi fərdlərin fikirlərinin də nəzərə alınması lazımdır.

Peşəyönümü xidmətinin həyata keçirilməsində ümumtəhsil müəssisələrinin bir çox pedaqoji işçiləri kompleks şəkildə çalışırlar. Bu xidmətin yerinə yetirilməsini bilavasitə icra edən pedaqoji işçilər daima müasir əmək bazarının tendensiyaları, ölkə üzrə, regional və spesifik bölgədə təhsil və məşğulluq imkanları barədə məlumatlı olmalı, regional məşğulluq mərkəzləri ilə əməkdaşlıq etməlidirlər.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasının Qanunu. Ümumi təhsil haqqında//Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Fərmanı ilə təsdiq edilmişdir. http://www.e-qanun.az/ framework/42543*
2. *Azərbaycan Respublikasının Qanunu. 29 mart 2019-cu il tarixli 1554-VQD nömrəli (“Azərbaycan” qəzeti, 26 may 2019-cu il, № 115, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, № 5, maddə 799)*
3. *https://edu.gov.az/az/vocational-education*
4. *https://edu.gov.az/upload/file/serencama-elave/2016/peshe-tehsil-yol-xeritesi.pdf*
5. *https://e-qanun.az/framework/39275*
6. *https://e-qanun.az/framework/42543*
7. *İlyasov M.İ. Peşə, ixtisas seçimi. Yeniyetmə və gənclər üçün elmi - metodik vəsait. / M.İ. İlyasov. - Bakı: ADPU, - 2015. - 100 s.*
8. *İlyasov M.İ. Peşəyönümünün əsasları. Dərs vəsaiti. / M.İ. İlyasov. - Bakı: Mütərcim, - 2011. – 324 s.*
9. *Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi Qaydası // Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 21 yanvar tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmişdir. http://www.e-qanun.az/framework/29152*
10. *Peşə maraqları, peşə meylləri testləri (2021). https://e-psixoloq.az/testler*
11. *Peşə təhsili pilləsində təhsilalanların attestasiyasının aparılmasının müvəqqəti Qaydası // Azərbaycan Respublikası Təhsil Nazirliyinin*

*Kollegiyasının 22 may 2020-ci il tarixli KQ-04 №-li qərarı ilə təsdiq edilmişdir. http://www.e-qanun.az/framework/45070*

12. *Ayriza Y. Exploring Children's Career Interests and Knowledge Based on Holland's Theory/Ayriza Y., Triyanto A., Setiawati F.A. [et.al.]//International Journal of Instruction, - 2020, Volume 13(2), p. 643- 662. http://www.e-iji.net/dosyalar/iji_2020_4_40.pdf*
13. *Euroguidance Network. National Guidance System. [online] access May 2021.https://www.euroguidance.eu/guidance-systems-and-practice/national-guidance-systems*
14. *Hiebert B. Career Development: The Role of Guidance and Counselling in Fostering an Increased Range of Educational and Career Alternatives. / B.Hiebert, W.A.Borgen, K.Schober.-TVETipedia,2010.p.*
15. *Investing in Career Guidance. CEDEFOP. 2019, 12 p. https://www.cedefop.europa.eu/en/publications-and-resources/publications/2227*

**S.N.Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mmmdovasrmay@gmail.com***

# ELEKTRON TƏHSİL SƏNƏDLƏRİ TƏHSİL MÜƏSSİSƏSİNİN İDARƏ EDİLMƏSİNDƏ ƏSAS VASİTƏ KİMİ

***Xülasə***

*Bir təhsil müəssisəsinin ən vacib fəaliyyətlərindən biri məlumatlar toplusu funksiyasını yerinə yetirən sənədlərlə işdir. Təhsil müəssisələrində sənədləşmə işləri idarəetmə prosesinin tərkib hissəsidir və aparıcı mövqeyə malikdir. Müasir cəmiyyətin tələbləri baxımından idarəetmə sistemi ilə yanaşı, sənədlərlə işin təşkilində də təkmilləşdirməyə ehtiyac duyulur. Belə ki, artıq kağız məlumat daşıyıcıları elektron daşıyıcılar ilə əvəz olunur. Faylları rəqəmsal məlumatlara çevirməyin real üstünlükləri var. Elektron sənəd sistemindən istifadənin üstünlüklərindən biri vaxtın səmərəliliyidir. Yaxşı təşkil edilmiş məlumat daha sürətli idarəetmə qərarları qəbul etməyə, həm də bütövlükdə idarəetmə proseslərini təkmilləşdirməyə imkan verir. Digər bir üstünlük isə əlçatanlığın və məlumat təhlükəsizliyinin təmin edilməsidir. Kağız sənədlər təhsil müəssisəsinin bazasında toplanır və hər yeni fayl ilə təhsil müəssisəsinə lazım olan xüsusi məlumatları sürətli şəkildə əldə etməni ləngidə bilər. Saxlama yeri, saxlama təchizatı və sənədlərin tapılması, əldə edilməsi və yenidən fayla verilməsi üçün lazım olan əlavə vaxt da daxil olmaqla kağız üçün resurs xərcləri elektron daşıyıcılar vasitəsilə aradan qaldırıla bilər. Elektron sənədlər idarəetmə sistemində məhz bunun üçün nəzərdə tutulmuşdur və onlar vasitəsilə çatışmazlıqları minimuma endirmək olar.*

# ЭЛЕКТРОННЫЕ ОБРАЗОВАТЕЛЬНЫЕ ДОКУМЕНТЫ КАК ОСНОВНОЕ СРЕДСТВО В УПРАВЛЕНИИ ОБРАЗОВАТЕЛЬНЫМ УЧРЕЖДЕНИЕМ

***Резюме***

*Одним из важнейших направлений деятельности образовательного учреждения является работа с документами, служащими сбором данных. В образовательных учреждениях делопроизводство является неотъемлемой частью управленческого процесса и занимает ведущее место. С точки зрения требований современного общества возникает необходимость в совершенствовании системы управления, а также организации работы с документами. Так бумажные носители информации вытесняются электронными носителями. Преобразование файлов в цифровые данные имеет реальные преимущества. Одним из преимуществ использования системы электронного документооборота является экономия времени. Грамотно организованная информация позволяет быстрее принимать управленческие решения, а также совершенствовать процессы управления в целом. Еще одним*

*преимуществом является обеспечение доступности и безопасности данных. Бумажные документы накапливаются в базе данных образовательного учреждения, и с каждым новым файлом это может замедлять быстрое получение конкретной информации, необходимой образовательному учреждению. Затраты на бумагу, включая место для хранения, расходные материалы для хранения и дополнительное время, необходимое для поиска, извлечения и повторного хранения документов, могут быть устранены с помощью электронных носителей. Электронные документы предназначены для этой цели в системе управления, и с их помощью можно минимизировать недостатки.*

## ELECTRONIC EDUCATIONAL DOCUMENTS AS THE MAIN TOOL IN THE MANAGEMENT OF EDUCATIONAL INSTITUTIONS

***Summary***

*One of the most important activities of an educational institution is work with documents that serve as a collection of data. In educational institutions, paperwork is an integral part of the management process and has a leading position. In terms of the requirements of modern society, there is a need to improve the management system as well as the organization of work with documents. So, paper data carriers are being replaced by electronic carriers. Converting files to digital data has real advantages. One of the advantages of using an electronic document system is time efficiency. Well-organized information allows for quicker management decisions, as well as improvement of management processes as a whole. Another advantage is ensuring availability and data security. Paper documents are accumulated in the educational institution's database, and with each new file, it can slow down the rapid acquisition of specific information needed by the educational institution. Issues such as resource costs for paper, including storage space, storage supplies, and additional time needed to locate, retrieve, and re-file documents, can be eliminated through electronic carries. Electronic documents are designed for this purpose in the management system, and through them, deficiencies can be minimized.*

***Açar sözlər:*** *sənəd, idarəetmə, təhsil sənədləri, elektron sənədlər, məlumat daşıyıcıları, sənədlərin saxlanılması*

***Ключевые слова:*** *документ, управление, учебные документы, электронные документы, носители информации, хранение документов*

***Key words:*** *document, management, educational documents, electronic documents, data carriers, storage of documents*

Cəmiyyətin müasir inkişafı informasiya axınını sürətləndirmiş, mövzu etibari ilə yeniləndirmişdir və bu ildən-ilə artmaqda da davam edir. Bu məlumatların çatdırılması sənədlər vasitəsilə aparılır ki, bu da müxtəlif növlü sənədlərin hazırlanmasına gətirir. Təhsil sənədləri təhsil müəssisələrində etibarlı informasiyanın effektiv şəkildə əldə edilməsi üçün təşkil edilmiş

məlumat toplusudur. Təhsil müəssisələrində işlərin təşkili və aparılması sahəsində təhsil sənədləri əsas götürülür və ən vacib amillərdən birinə çevrilir. Sənədlər vasitəsi ilə məlumatlar saxlanılır və təyinatı üzrə çatdırılır. Sənədlər bütün idarəetmə prosesinin tərkib hissəsi olmaqla idarəetmədə aparıcı mövqeyə malikdir.

Sənədlərdən müxtəlif idarəetmə məqsədləri üçün istifadə edilməsilə müxtəlif vəzifələrin icrasını təmin edir:

- Sənəd hər hansı faktların sübutudur.
- Sənəd tarixi mənbədir.
- Sənəd idarəetmə qərarlarının hazırlanması, qeydi və verilməsidir. Bir sözlə, sənəd - informasiya daşıyıcısıdır. (3,1)

Sənədlər mövzu etibarilə müxtəlif sahələri əhatə edir ki, bunları aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Məlumatların saxlanması və toplanması;
2. Uçotun aparılması;
3. Çoxlu istifadə imkanı;
4. Başqa insanlara köçürmə imkanı;
5. Müəyyən bir müddət ərzində məlumatlara qayıtmaq;
6. Sübut dəyərinin mövcudluğu və ya təmin edilməsi (4).

İdarəetmədə sənədin əhəmiyyətinə əmin olmaq üçün bu prosesdə sənədlərin işlənməsinə nəzarət etmək kifayətdir. Təhsil müəssisələrinin gündəlik işlərində istehsalın, elmi araşdırmaların, təsərrüfatın, maliyyə və ictimai fəaliyyətin müxtəlif məsələləri üzrə sənədlər hazırlanır və təşkil edilir. Belə ki, idarəetməyə təhlil, məqsəd qoyma, proqnozlaşdırma, planlaşdırma, təşkilatlanma, koordinasiya, uçot və nəzarət, ünsiyyət üçün motivasiya, qərarlar qəbul etmək və s. kimi proseslər daxildir. Bütün bu proseslər bir-biri ilə sıx bağlıdır və eyni zamanda onlar sənəd resurslarını müəyyən edir.

Həm dövlət, həm də özəl məktəblərdə mövcud tələblərə uyğun idarə edilməli olan böyük həcmli təhsil faylları var. Ən kiçik məktəb rayonundan tutmuş ən böyük universitetə qədər təhsil işçiləri sənədlərlə dolub-daşır. Təhsil sənədləri uzun müddətli və qısa müddətli hazırlanmaqla müvafiq qaydada işlənməli və təqdim edilməlidir. Bu sahədə məsuliyyət təhsil idarəçiləri üzərinə düşür. İşin çevik görülməsi, düzgün və vaxtında qərarların çıxarılması sənədlərin dövriyyəsindən asılıdır. Sənəd dövriyyəsinin düzgün təşkili sənədlərin hərəkətinin maksimum icrasına təsir edir. Beləliklə, sənədlərin tez təhlil edilməsi və sistemləşdirilməsi təhsil müəssisələrinin idarəetmə sahələrinin məhsuldarlığına təkan verir.

Təhsil müəssisələrinin fəaliyyətində kargüzarlıq prosesi zamanı çoxlu sayda sənədlər yığılır. Bu sənəd yığımını qaydaya salmaq üçün qarşıya bu vəzifələr qoyulur:

- Sənədlərin etibarlı saxlanılması üzrə onların səmərəli bölüşdürülməsi;

- Məlumatların axtarılması və onlardan istifadə üçün əvvəlcədən sənədlərin qruplaşdırılmasını təşkil etmək;
- Sənədlərin işlərdə qruplaşdırılmasının təşkili;
- Sənədlərin sistemləşdirilməsi;
- Sənədlərin saxlanmasının təmin edilməsi;
- Arxivlərdə sənədlərin saxlanmasının təşkili.

Sənədlərin dövriyyəsində əsas şərtlərdən biri təhsil müəssisələrində sistemli şəkildə onların saxlanılmasıdır. Təhsil sənədləri ilə işin təşkili zamanı həm kağız, həm də elektron məlumat daşıyıcılarından istifadə edilir. Bunlar içərisində ən çox yayılanı kağız üzərində tərtib olunmuş mətnli sənədlərdir. Bunlar idarəetmənin təşkilində və təkmilləşdirilməsində mühüm rol oynasa da, müasir dövrümüzdə öz əhəmiyyətini itirməyə başlamışdır.

Düzgün sənədin izinə düşmək ümumi təhsil məktəbi və ali məktəb işçiləri üçün çox vaxt aparan işdir. Zaman isə pedaqoqlar üçün çox qiymətlidir. Məlumatı tez tapmaq və təhsilalanlara kömək etmək üçün geri qayıtmaq lazımdır. Sənədləri rəqəmsal şəkildə fayllaşdırmaq, saxlamaq və əldə etmək üçün daha az vaxt tələb olunur, tez tapmağı asanlaşdırır. Beləliklə, sənədləri saxlamaq və əldə etmək üçün dəyərli vaxt sərf etməyə ehtiyac yoxdur. Təhsil müəssisələrinə qəbul üçün müraciət edildikdə müəssisənin müəyyən etdiyi sənədlər yığılır: ərizələr, transkriptlər, test balları və s. Eləcə də bu baxımdan təhsil sənədlərinin yığılıb idarəetmədə istifadə edilməsində elektron daşıyıcılar müsbət rola və əhəmiyyətə malikdir.

Elektron sənəd anlayışı daha az işçi heyəti ilə getdikcə artan sənədləri idarə etmək probleminin öhdəsindən gəlməyə kömək edə bilər. Məhz bu baxımdan daha kiçik bir heyət əvvəlkindən daha böyük sürətlə istehsal olunan sənədləri asanlıqla idarə edə bilər. Paralel olaraq bu da idarəetmənin keyfiyyətinin yaxşılaşdırılması üzrə görülən işlərin səmərəliliyini artırır. Elektron sənəd idarəetmə sistemi olmadan bu, kifayət qədər problemdir.

Elektron sənəd dövriyyəsi sisteminə keçməklə, ümumi təhsil məktəbləri və ya ali məktəblər kağız və saxlama yerlərinin qiymətinə qənaət etməklə ölçülə bilən fayda da əldə edə bilər. Elektron sənəd istifadəsi zamanı sənəd təhlükəsizliyi ilə bağlı narahat olmağa ehtiyac yoxdur. Çünki təhsil sənədinin elektron idarə edilməsi sistemi məxfi sənədləri səlahiyyətli şəxslər üçün asanlıqla əlçatan edir, eyni zamanda tamamilə gizlidir. Yəni məlumat təhlükəsiz şəkildə saxlanılır. Üzərinə heç vaxt məlumat yazıla, itirilə və ya düzgün etimadnaməsi olmadan istifadəçi tərəfindən əldə edilə bilməz.

Kompüter texnikasından istifadə edilməsi ilə kütləvi daşıyıcı olan sənədlərdə məlumatların qaydaya salınması sənədlərin hazırlanması işini yüksəldir; yaradıcı, analitik əmək, insanın iş keyfiyyətinin tam açılması üçün lazımi şərait yaradır. Geniş internet sistemi tətbiq olunmaqla beynəlxalq sənədləşmə sistemi ilə işgüzar əlaqə yaradılır. Məlumat axınının

avtomatlaşdırılması və lazım gəldikdə onu daha asan əldə etmək kimi əlavə üstünlüklər təklif edən elektron sənədlər məlumatların saxlanmasının səmərəliliyini artırır.

***Ədəbiyyat***

1. *Ə.A.Kəlbəliyev. Təhsili idarəetmənin əsasları (Məktəbşünaslıq). Bakı: Nurlan, 2006, 88 səh.*
2. *"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009.*
3. *İ.A.İbrahimov. Sənəd və onun idarəetmədə əhəmiyyəti. Bakı: Bakı universitetinin xəbərləri, 2010, 8 səh.*
4. *mailto:https://archivexpert-ru.translate.goog/u7b/rol-i-znachenie-dokumentov-v-obshhestve/?_x_tr_sl=ru&_x_tr_tl=tr&_x_tr_hl=tr&_x_tr_pto=sc*
5. *O.A. Abbasov. Təhsilin idarə olunması. Bakı: MM-S müəssisəsi, 2016, 232 səh.*
6. *M. C. Mərdanov. Azərbaycan təhsil sistemi; real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı: Təhsil, 2005, 340 səh.*
7. *E.Ə. Musayev. Kargüzarlığın təşkili. Bakı: Qanun, 2003, 344 səh.*

**R.M.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***muxtar1952@mail.ru***

# SİNQAPUR TƏHSİL SİSTEMİNDƏN ÖYRƏNƏCƏKLƏRİMİZ

***Xülasə***

*Məqalədə Sinqapur təhsilinin keçdiyi inkişaf yolu, təhsilin keyfiyyətinin yüksəldilməsi və beynəlxalq standartlara cavab verməsi üçün atılan addımlar, qəbul edilən qərarlar və onların nəticələri, həmçinin bu təhsil sisteminin dünya təhsil sisteminə necə təsir etməsindən bəhs edilir.*

# ЧТО МЫ УЗНАЕМ ИЗ СИСТЕМЫ ОБРАЗОВАНИЯ СИНГАПУРА

***Резюме***

*В статье рассматривается путь развития Сингапурского образования, предпринятые шаги для повышения качество образования и соответствия международным стандартам, принятые решения и их последствия, а также то, как это система образования влияет на мировую систему образования.*

# WHAT WE WILL LEARN FROM SINGAPORE EDUCATION SYSTEM

***Summary***

*The article examines the development path of Singaporean education, the steps taken to improve the quality of education and compliance with international standarts , the decisions made and their consequences, as well as how this education system affects the world education system.*

***Açar sözlər:*** *kurikulum, PİSA qiymətləndirməsi, xərclər, yaradıcı düşüncə, təhsil sistemi, model*

***Ключевые слова:*** *учебный план (курикулум), оценка PISA, затраты, креативное мышление, образовательная система, модель*

***Key words:*** *curriculum, PISA assessment, expences, creative thinking, educational system, model*

Azərbaycan təkrar müstəqillik əldə etdikdən dərhal sonra qarşısında həlli vacib bir çox taleyüklü məsələlər dayanmışdı. Onların ən önəmlilərindən biri də elə məhz dövlətin təhsil siyasətini yeniləmək idi. Bunun üçün bir çox addımlar atıldı və çoxsaylı qərarlar qəbul edildi. Bütün bu görülən tədbirlərin məntiqi yekunu olaraq Azərbaycanda təhsil sahəsində ardıcıl nailiyyətlər əldə

etmək mümkün oldu. Belə keşməkeşli yolu bir tək Azərbaycan keçmədi. Dünyanın bir çox dövlətləri dəyişən coğrafi-siyasi vəziyyətlə bağlı olaraq bu mərhələlərdən keçmişlər. Bu dövlətlərdən biri də Sinqapurdur.

Sinqapur Şərqi Asiya qitəsində xırda dövlətlərdən biridir. Tarixi qədim keçmişə dayanan bu dövlət ən son müstəqilliyini 1965-ci ildə Malayziyadan ayrılıb suverenliyini elan etməklə nail olmuşdur. Müstəqilliyinin ilk illərində Sinqapur kifayət qədər kasıb və əhali artımının minimal baş verdiyi üçüncü dünya dövlətləri adlandırılan ölkələr siyahısında olan bir dövlət idi. Çoxsaylı cəhdlərə, qəbul olunmuş bir çox qanunlara baxmayaraq, təhsil sahəsində yaxşıya doğru irəliləyiş əldə etmək mümkün olmurdu.

1991-ci ildən Sinqapur Təhsil Nazirliyi təhsilin əsas məqsədləri ilə bağlı böyük araşdırmalar apardılar və bu araşdırmaların nəticələrinə əsaslanmış xüsusi proqramlar işlənib hazırlandı. Qəbul edilmiş yeni proqramda əsas hədəf şagirlərin yaradıcı potensialını müəyyənləşdirmək, həmin potensiala uyğun proqram əsasında dərslərin tədrisi təmin etmək, şagirdlərin hər birini yaradıcı, düşünən fərd kimi yetişməsinə şərait yaratmaq, həmçinin onlarda işgüzar və liderlik bacarıqlarını formalaşdırmaq, inkişaf etdirmək və ən nəhayətində yüksək mənəvi dəyərlərə sahib olan bir vətəndaş kimi yetişdirməkdir. Sinqapurun dövlər olaraq qarşısında dayanan ən vacib məsələ qarşıya qoyulmuş bu proqramı reallaşdırmaq idi.

Bu məqsədlə "Az öyrət, çox öyrən" şüarı altında təhsil modelinin tətbiqinə start verildi ( İ 1.as.journal.edu.az). 2004-cü ildə fəaliyyətə başlayan bu model Sinqapur təhsil sistemində köklü dəyişikliklər yaratmağa imkan verdi. Əgər əvvəllər Sinqapur təhsil sistemi əzbərçiliyə əsaslanmış idisə, tətbiq edilən modeldən sonra yaranmış problemi qavrayan, onun həlli yollarını araşdıran və və bu yolları öyrənən bir təhsilə əsaslanmağa başladı. Bu modeldə əsas diqqət yetirilən nüanslardan biri şagirdlər üçün müxtəlif təhsil modelləri yaratmaq və şagirdləri bu təhsilin bu məqsədlərinə, maraqlarına istəklərinə uyğun sahələrə yönəltməkdir. Öz istək və maraqlarına uyğun dərslər almaqla yanaşı, şagirdlərə həmçinin onları maraqlandıran sahələrdən başqa digər sahələrlə əlaqədar olan kurslara da qoşulmaq imkanları yaradılır.

Müstəqillik əldə etdikləri ilk illərdə ölkədə yalnız elitar təbəqəyə mənsub olan şəxslərin təhsili var idi. Əhalinin böyük əksəriyyəti adi oxuma-yazma bacarıqlarına belə sahib deyildi. Lakin hazırda Sinqapur təhsil sistemi dünyada ən qabaqcıl və innovativ təhsil sistemlərindən biri bəlkə də birincisidir. Qısa zaman kəsiyində belə yüksək nəticələr əldə etmək elə də asan olmadı. Belə ki bu təhsil sisteminin müsbət tərəfləri olduğu kimi mənfi cəhətləri də mövcuddur. Qəbul olunmuş yeni modelə əsasən diqqət yetirilən və daha çox önəm verilən fənn olaraq riyaziyyat fənni seçildi. Bu da təsadüfi seçim deyildi. Çünki XXI əsr elmin, texnikanın, informasiya texnologiyalarının, biotexnologiyanın, nanotexnologiyanın əsridir və ciddi

riyazi biliklərə sahib olmadan zamanın tələbi ilə ayaqlaşmaq mümkün deyil. Bütün bu sadalananları nəzərə alaraq Sinqapur təhsilində riyaziyyata xüsusi önəm verildi və qısa zaman ərzində ciddi nailiyyətlər əldə edilməyə başlandı.

Sinqapurun uğurundan sonra başqa dünya dövlətləri kimi Azərbaycan da bu modeldən yararlanmağa çalışdı. Bu məqsədlə Sinqapurun Marşal Kavendiş İnstitutu ilə Azərbaycan Təhsil İnstitutu arasında qarşılıqlı müqavilə imzalandı. Bu müqavilənin şərtlərinin birinci mərhələsində azərbaycanlı fənn mütəxəssisləri sinqapurlu mütəxəssislərin riyaziyyat fənni üzrə təhsil proqramının nəzərdən keçirilməsi və təhlili üçün distant təlimlərdə iştirak edəcəklər. Əlavə olaraq yerli mütəxəssislər riyaziyyat fənni üzrə ölkədə tətbiq olunan təlim və tədris materiallarının təhlili istiqamətində də təlim görəcəklər. Növbəti mərhələdə sinqapurlu mütəxəssisələrin tövsiyyəsi əsasında yerli mütəxəssislər riyaziyyat fənninin tədrisi üzrə cari vəziyyəti təhlil etdikdən sonra müasir dövrün tələbləri və beynəlxalq təcrübələri nəzərə alaraq, riyaziyyat fənni üzrə təhsil proqramında və dərsliklərdə təkmilləşdirmə işləri aparacaqlar. Sonda sözügedən layihə çərçivəsində riyaziyyat kurikulumunun və I-IX sinif riyaziyyat təlim və tədris materiallarının təhlilinə dair iki hesabat və tövsiyyə sənədi hazırlanaraq Təhsil Nazirliyinə təqdim olunacaq.

Sinqapur təhsil modeli hal-hazırda mövcud olan təhsil modelləri içərisində ən uğurlu modellərdən biri hesab olunur. Bunu adi faktlarla da görmək mümkündür. Belə ki, 2015-ci il nəticələrinə əsasən 14 yaşlı sinqapurlu şagirdlər 57 ölkədən 600000 şagirdin iştirak etdiyi Riyaziyyat və Təbiət elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramında (TIMSS-Trends in international Mathematics and Science Study) I yerə layiq görülüblər. Bundan başqa 2018-ci ildə Şagird Nailiyyətlərinin Beynəlxalq Qiymətləndirilməsi Proqamı (PISA-Programme for International Student Assessment) nəticələrinə görə, riyaziyyat fənni üzrə Sinqapurunun 15 yaşlı şagirdləri ortalama 569 bal toplayaraq İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri arasında II yerə layiq görülmüşdür (i.2.yenixeber.org.). Bu kifayət qədər yüksək göstəricidir. Məhz belə göstəricilərə əsaslanaraq istənilən bir ölkənin gələcək insan kapitalı və perspektivləri haqqında fikir irəli sürmək mümkündür. Xatırladaq ki, PİSA bacarıqları təməl, orta və yüksək olmaq üzrə 3 kateqoriyada qiymətləndirir. Nəzərə alsaq ki, öncə üstünlük riyaziyyat fənninə verilib, burda şagirdlərin yiyələnməli olduqları bir çox bacarıqlar formalaşdırılmalıdır. Bunlara yenidənqurma və sadə riyazi əməliyyatlar, əlaqələndirmək və bir problemi həll etmək üçün fərqli düşüncə və metodları bir araya gətirmək və vacib olanı riyazi nəticələr əldə etmək daxildir.

| Математика | | | Наука | | | чтение | | |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | Сингапур | 564 | 1 | Сингапур | 556 | 1 | Сингапур | 535 |
| 2 | Гонконг | 548 | 2 | Япония | 538 | 2 | Гонконг | 527 |
| 3 | Макао | 544 | 3 | Эстония | 534 | 3 | Канада | 527 |
| 4 | Тайвань | 542 | 4 | Тайвань | 532 | 4 | Финляндия | 526 |
| 5 | Япония | 532 | 5 | Финляндия | 531 | 5 | Ирландия | 521 |
| 6 | Китай | 531 | 6 | Макао | 529 | 6 | Эстония | 519 |
| 7 | Южная Корея | 524 | 7 | Канада | 528 | 7 | Южная Корея | 517 |
| 8 | Швейцария | 521 | 8 | Вьетнам | 525 | 8 | Япония | 516 |
| 9 | Эстония | 520 | 9 | Гонконг | 523 | 9 | Норвегия | 513 |
| 10 | Канада | 516 | 10 | Китай | 518 | 10 | Новая Зеландия | 509 |
| 11 | Нидерланды | 512 | 11 | Южная Корея | 516 | 11 | Германия | 509 |
| 12 | Дания | 511 | 12 | Новая Зеландия | 513 | 12 | Макао | 509 |
| 13 | Финляндия | 511 | 13 | Словения | 513 | 13 | Польша | 506 |
| 14 | Словения | 510 | 14 | Австралия | 510 | 14 | Словения | 505 |
| 15 | Бельгия | 507 | 15 | Великобритания | 509 | 15 | Нидерланды | 503 |
| 16 | Германия | 506 | 16 | Германия | 509 | 16 | Австралия | 503 |
| 17 | Польша | 504 | 17 | Нидерланды | 509 | 17 | Швеция | 500 |
| 18 | Ирландия | 504 | 18 | Швейцария | 506 | 18 | Дания | 500 |
| 19 | Норвегия | 502 | 19 | Ирландия | 503 | 19 | Франция | 499 |
| 20 | Австрия | 497 | 20 | Бельгия | 502 | 20 | Бельгия | 499 |
| 21 | Новая Зеландия | 495 | 21 | Дания | 502 | 21 | Португалия | 498 |
| 22 | Вьетнам | 495 | 22 | Польша | 501 | 22 | Великобритания | 498 |
| 23 | Россия | 494 | 23 | Португалия | 501 | 23 | Тайвань | 497 |
| 24 | Швеция | 494 | 24 | Норвегия | 498 | 24 | Соединенные Штаты | 497 |
| 25 | Австралия | 494 | 25 | Соединенные Штаты | 496 | 25 | Испания | 496 |

***Şəkil 1. (2015-ci il PİSA hesabatı)***

Göründüyü kimi, Azərbaycan bu siyahıda yoxdur. Buna qədər Azərbaycan iki dəfə bu proqrama qatılmışdı. Amma nəticələr ürək açan olmadı. Belə ki, 2006 və 2009-cu illərdə PİSA-ya qatılmış, 2006-cı ildə 64 ölkə arasında 54-cü, 2009-cu ildə isə 65 ölkə arasında 64-cü olmuşuq. Bundan sonra Azərbaycan bu proqramda iştirak etməyib.

| | Reading | Mathematics | Science |
|---|---|---|---|
| Shanghai (PRC) | 556 | 600 | 575 |
| Russian Federation | 459 | 468 | 478 |
| Kazakhstan | 390 | 405 | 400 |
| Azerbaijan | 362 | 431 | 373 |
| Kyrgyz Republic | 314 | 331 | 330 |

PRC = People's Republic of China.

*Source:* Organisation for Economic Co-operation and Development. PISA 2009 Database. http://www.oecd.org/pisa/pisaproducts/pisa2009keyfindings.htm

***Şəkil 2. (Tanju Yurukoglu 2009-cu il PİSA hesabatı)***

Bu hesabatlardan nəticə çıxarmağa çalışan Azərbaycan 2018-ci ildə təkrar PİSA proqramına qatıldı. Nəticədə 15 yaşlı uşaqlar arasında oxu savadlılığı üzrə ortalama 389 bal toplayıblar. Bu əvvəlki illərin nəticələrindən 26 xal daha çoxdur. Riyaziyyat fənni üzrə də irəliləyiş qeydə alınıb. Belə ki, orta bal kimi riyaziyyat fənnindən 420 bal götürülür və Azərbaycan 489 xal toplayıb. Burada maraqlı məqam ondan ibarətdir ki, 5 ballıq irəliləyiş qeydə alınıb və bu irəliləyiş oğlan şagirdlərdə nəzərə çarpıb. 15 yaşlı şagirdlərin elmi biliklər üzrə nəticələrində də irəliləyişlər var. Ortalama 489 baldan 398 bal toplayaraq 5 ballıq irəliləmə qeydə alınıb.




*Şəkil 3.( Oxu, riyaziyyat və elm üzrə performans)*

Burada diqqət çəkən məqamlardan biri də odur ki, PİSA-nın tələbə rifahı statistikasında da azərbaycanlı şagirdlərin rifah halının yaxşılaşdığı müşahidə olunur.




*Şəkil 4. (Tələbələrin rifahı və böyümə düşüncəsi)*

Bütün bu uğurlara baxmayaraq bu təhsil modelinin özünün də mənfi təzahürləri mövcuddur. Belə ki, tədris proqramının ağırlığı və istirahət günlərinin azlığı, həmçinin şagirdlərin üzərinə düşən həddən artıq məsuliyyətlilik onlarda fəsadlara gətirib çıxarır. Təsadüfi deyil ki, son dövrlərdə şagirdlər arasında intihar meyilləri artmaqdadır. Bu cür problemləri vaxtında müəyyənləşdirmək və ağır fəsadlarını aradan qaldırmaq üçün məktəblərdə sosial-pedaqoqlara xüsusi diqqət yetirilir. Lakin bütün bu mənfi cəhətlərinə baxmayaraq, Sinqapurda ölkə əhalisinin 95%-i təhsillidir.

Bəs Sinqapur təhsil sistemini Azərbaycanda necə tətbiq etmək lazımdır? Öncə qeyd etmək lazımdır ki, Sinqapur təhsil modeli Azərbaycan təhsilinin bütün pillələrində tətbiq edilməlidir. Amma təəssüflər olsun ki, bizdə riyaziyyat fənnini belə mükəmməl tədris edəcək müəllimlər çox azdır. Elə məhz ona görə də Azərbaycan və Sinqapur İnstitutları arasında əməkdaşlıq müqaviləsi imzalandı.

Sinqapur təhsil modelinin uğurunu bir tək tədris metodlarında, təhsil materiallarında və müəllimlərin hazırlıq səviyyələrinin yüksək olmasında görmək də doğru olmazdı. Belə ki, dövlət büdcənin 20-25%-ə qədərini məhz təhsilə ayırır. Azərbaycanla müqayisədə bu çox böyük məbləğdir. Elə məhz buna görə keyfiyyətli təhsildə müəllimlərin özləri də maraqlı tərəfdirlər. Sinqapur təhsil sisteminin sərt nizam-intizam tələb etməsinə baxmayaraq, müəllimlərin ilkin başlanğıcda aylıq məvacibi 1500-1600 manat civarında olur. Şagirdlərinin beynəlxalq yarışlarda əldə etdikləri nailiyyətlərə əsasən müəllimlərin də maaşlarında dəyişikliklər olunur. (İ.4. bbc.com)

Qeyd etmək lazımdır ki, hazırda Sinqapur dünyada ən inkişaf etmiş və həmçinin ən perspektivli təhsil sisteminə sahib ölkələrdən biridir. Sinqapur bu uğurunu müəllimlərinə yüksək maaş verməklə və onları birbaşa təhsil fəaliyyətinə cəlb etməklə, səriştələrini artırmaq və rəqabətli təhsil mühiti yaratmaqla nail olmuşdur. Maraqlı cəhət ondan ibarətdir ki, Sinqapur ailələrində uşaqların karyera planlaması təcrübəsi son dövrlərdə daha qabarıq özünü göstərir və artıq ailələr öz övladlarının karyera planlamasına onların 2 yaşlarından etibarən başlayırlar. Amma bu faktorun özünün də mənfi cəhətləri var. Çünki həyatları əvvəlcədən planlaşdırılmış uşaqlar təlimdə gözlənilən nailiyyəti göstərmədikdə onlarda "ailələrinin ümidlərini doğrultmadıqlarına və buna görə də qorxan uşaqların həyatlarını çətinləşdiyini" qeyd edirlər. İntihar hallarının sayının artmasının səbəblərindən biri kimi də elə məhz bu faktorlar göstərilir. Belə halların artması Sinqapur Təhsil Nazirliyini də narahat etmişdir və bu xüsusda Sinqapurun İnformasiya Naziri olan Ong Ye Kung "Sistemin şagirdlərə çox əziyyət verməyəcəyi şəkildə inkişaf etməsini təmin edəcəyik" demişdir. ( İ.4. bbc.com)

Onu da qeyd etmək lazımdır ki, Sinqapur və Azərbaycan əmək bazarı eyni deyil. Azərbaycan müəllimi Sinqapurdakı müəllim qədər əmək haqqı

almır. Sinqapur müəllimləri illik 35000 dollar əmək haqqı aldıqları halda, Azəbaycanda bu rəqəm 2000 dollar belə deyil. Həmçinin Azərbaycanda daha çox nəzəri dərslərə üstünlük verildiyi halda, Sinqapur təhsilində daha çox praktik dərslərə üstünlük verilir. Əgər Sinqapurun PİSA nailiyyətindən danışırıqsa, qeyd etmək lazımdır ki, bura cəlb edilən şagirdlər xüsusi təlimlərdən keçirilir və yalnız təlimlərdə yüksək nailiyyət göstərən şagirdləri PİSA-da iştirakı təmin edilir.

Həll edilməsi vacib olan məsələlərdən biri də Azərbaycanda dərsliklərin sadələşdirilməsi və bu məsələyə təcrübəli müəllimləri birbaşa cəlb etməkdir. Həmçinin, MİQ imtahanlarında ixtisas üzrə az bal toplayan müəllimlər təkrar kurslara göndərilməli, ümumi nəticəyə bal limiti qoyulmalıdır. Həmçinin müəllimləri mütəmadi olaraq müxtəlif kurslara, seminarlar, təlimlərə cəlb etməklə onlarda yaracılıq həvəsi və yeni öyrətmə metodları yaratmağa sövq etmək lazımdır. Nəzərə almaq lazımdır ki, savadlı müəllim savadlı şagirddir. Savadlı şagird isə dövrlərin təməl daşıdır.

***Ədəbiyyat***

1. *Tanju Yurukoglu- PİSA results for Kırgız republic.*
2. *BBC.com - Singapore education and education standard.*
3. *Müdafiə Maxmudov "Dünya təhsil sistemləri" Bakı, 2010.*
4. *as.journal.edu.az*
5. *studyabroadnations.com*

**G.M.Abbasova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gunes.abbasova.99@mail.ru***

# RƏQƏMSAL MÜHİTDƏ STRATEJİ İDARƏETMƏ

***Xülasə***

*Müasir dövrdə bütün müəssisələrdə rəqəmsallaşma prosesi baş verir. Belə rəqəmsal mühitlərdə texnologiyadan istifadə edərək strateji idarəetməni həyata keçirə biləcək liderlərə ehtiyac duyulur. Tədqiqatın məqsədi təhsilin idarəolunmasında rəqəmsal liderlik anlayışı, onun xüsusiyyətləri, kompetensiyaları və təşkilatlarda liderlərin kibertəhlükəsizliyin təmin olunmasında rolunu müəyyən etməkdir. Məqalədə ədəbiyyat araşdırılması, rəqəmsal liderlərin sahib olduğu xüsusiyyət və bacarıqlar təhlil olunmuş və kibertəhlükəsizlik məsələlərinə toxunulmuşdur.*

# СТРАТЕГИЧЕСКИЙ УПРАВЛЕНИЕ В ЦИФРОВОЙ СРЕДЕ

***Резюме***

*В современное время процесс цифровизации происходит на всех предприятиях. В таких цифровых средах необходимы лидеры, способные осуществлять стратегическое управление с помощью технологий. Цель исследования - определить понятие цифрового лидерства в управлении образованием, его характеристики, компетенции и роль лидеров организаций в обеспечении кибербезопасности. В статье был проанализирован обзор литературы, характеристики и навыки, которыми обладают цифровые лидеры, а также затронуты вопросы кибербезопасности.*

# STRATEGİC MANAGEMENT İN THE DİGİTAL AREA

***Summary***

*In modern times, the digitalization process is taking place in all enterprises. In such digital environments, there is a need for leaders who can implement strategic management using technology. The purpose of the study is to determine the concept of digital leadership in education management, its characteristics, competencies and the role of leaders in organizations in ensuring cyber security. In the article, the literature review, characteristics and skills possessed by digital leaders were analyzed and cyber security issues were touched upon.*

***Açar sözlər:*** *liderlik, rəqəmsal liderlik, rəqəmsal savadlılıq, kibertəhlükəsizlik, strategiya, texnologiya, insan resursları, motivasiya*

***Ключевые слова:*** *лидерство, цифровое лидерство, цифровая грамотность, кибербезопасность, стратегия, технологии, человеческие ресурсы, мотивация*

***Key words:*** *leadership, digital leadership, digital literacy, cyber security, strategy, technology, human resources, motivation*

Liderlik sivilizasiyanın tarixində diqqət çəkən bir anlayış olmuşdur. Təşkilatların mövcud olma mübarizəsi baxımından da liderlik mühüm rol oynayır. Tarixən liderliyə müxtəlif şəxslər tərəfindən bir çox təriflər verilmişdir. Yukl'a görə liderlik bir qrupun üzvlərinin hadisələrin izahına, fəaliyyətin təşkilinə, seçilən hədəfə, onların fərdi motivasiyasına və səriştələrinə təsir edən sosial prosesdir (16, s.26). Burns'ə görə liderlik təşkilatlarda və ya cəmiyyətdə, eyni zamanda onların üzvlərində əsaslı bir dəyişikliyi izləyən, həyata keçirən bir lider kimi başa düşülür (12). Senge'yə görə liderlik öyrənən bir təşkilatın formalaşdırılması və işçilərini buraya üzv olmağa uyğunlaşdırma prosesidir (12). Liderlik bir qrup insanı müəyyən məqsədlər ətrafında toplaya bilmə və bu məqsədləri gerçəkləşdirə bilmək üçün onları hərəkətə keçirməkdir (5, s.130). 1940-cı illərdən bəri liderin xüsusiyyətləri, davranışları, situasiyadan asılılığı, işçilərə rol model olması, empatiya qurması, onları motivasiya etməsi və s. cəhətlərinə görə müxtəlif liderlik nəzəriyyələri meydana gəlmişdir (1, s.5; 16, s.32). Bu nəzəriyyələrin ən yenilərindən biri də rəqəmsal liderlikdir (1, s.5-6). 1990-cı illərin sonlarında internet e-poçtu, video konfrans və s. kimi qabaqcıl informasiya texnologiyalarının sürətli inkişafı nəticəsində liderliyin təkamülü təhsil liderliyinə təsir etmişdir. Buna görə direktorlar məktəblərdə texnologiyanın tətbiqində ciddi addımlar atmalı və rəqəmsal mühitdə strateji idarəetməni bacarmalıdırlar (10, s.1481). Rəqəmsallaşma həyatımızın bütün sahələrinə daxil olmuşdur və 4-cü sənaye inqilabında əsas faktor hesab olunur. Bu gün texnologiyada baş verən irəliləyişlər, sürət və internet istifadəsinin artımı qarşımıza mobil cihazlar, texnoloji avadanlıqlar, süni intellekt və virtual gerçəklik olaraq çıxmaqdadır.

Kurt Lewin'in "Təşkilati dəyişiklik güc sahəsi" nəzəriyyəsində qeyd etdiyi kimi insanlar başlanğıcda dəyişikliklərə qarşı müqavimət göstərirlər. Buna görə rəqəmsallaşmaya qarşı da insanlar tərəfindən müqavimət göstərilməsi müşahidə olunur. Rəqəmsal dövr xidmət modellərinə, müştəri münasibətlərinə, məhsul formalarına yenilik gətirir və fərqli "bacarıq" anlayışını ortaya qoyur. İş strategiyalarında bu sürətli dönüşüm qısa müddətdə yeni və fərqli bacarıqlara malik rəqəmsal liderlərin ortaya çıxmasına səbəb olmuşdur. Bu liderlər ənənəvi liderlərdən daha fərqli məqamlara diqqət yetirir (9, s.4). Rəqəmsal lider texnologiyanı və rəqəmsallaşmanı istiqamətləndirən şəxsdir. Rəqəmsal liderlər idarəetmə zamanı texnologiya və mobil cihazları istifadə edir, internetə çıxışı təmin edir (6, s.8). Sheninger rəqəmsal lideri "...istiqamət formalaşdırmaq, başqalarına təsir etmək, təşkilatın gələcək

nailiyyətləri ilə bağlı vizyon müəyyən etmək üçün əlaqələr yaratmaq, məlumat toplamaqla davamlı dəyişikliyə nail olmaq…” kimi müəyyən edir (13, s.3).

Rəqəmsal liderlik tərzi bu gün təhsil müəssisələrinin öz məqsədlərinə çatması üçün təsirli bir faktor kimi dəyərləndirilir. (6, s.8). Rəqəmsal informasiya cəmiyyətinə uyğunlaşmaq və tələbələri buna uyğun hazırlamaq üçün məktəb rəhbərlərinin və müəllimlərin bu bacarıqlara sahib olması gözlənilir (1, s.14). Rəqəmsallaşma təhsil müəssisələrində öyrətmə formalarına yeniliklər gətirir və tədris prosesinə texnologiyanın inteqrasiya edilməsi prosesini sürətləndirir. Məktəblərdə kompüter, tablet, ağıllı lövhə və internet kimi rəqəmsal cihazların istifadəsinin getdikcə artmasını bu inteqrasiya prosesinə misal göstərə bilərik (6, s.4-5).

Rəqəmsal savadlılıq bacarıqları rəqəmsal liderlərin ən əsas xüsusiyyətlərindəndir. Rəqəmsal savadlılıq - istifadəçilərin texnologiyadan istifadə edərək məlumatları tapmaq, öyrənmək, qiymətləndirmək, təşkil etmək və inkişaf etdirmək və texnoloji cəhətdən zəngin mühitlərdə bu bacarıqlardan istifadə edərək problemləri həll etmək, ünsiyyət yaratmaq və informasiya-kommunikasiya texnologiyalarından səmərəli istifadə etmək bacarığı kimi müəyyən edilir (1, s.14). Rəqəmsal liderliklə bağlı aşağıdakı rəqəmsal liderlik xüsusiyyətlərini qeyd edə bilərik (1; 4, s.456; 9, s.514; 11; 13; 16):

- **Rəqəmsal və texniki bacarıqlar** – Rəqəmsal lider texnoloji avadanlıqlarla işləməyi bacarmalıdır.
- **Rəqəmsallaşmaya maraqlılıq -** Uğurlu rəqəmsal liderlər iş yerlərində istifadə edilən texnologiyanı dərindən dərk edirlər. Təşkilatda həm liderin, həm də işçilərin rəqəmsallığa marağı yüksək qiymətləndirilir.
- **İnnovasiya və yaradıcılıq** – Bu anlayışları qarışdırmaq olmaz. İnnovasiya daha əhəmiyyətli faktor hesab olunur. İnnovasiya əməkdaşlıq etmək, yeni ideya qurmaq və kommersiyalaşdırmaq bacarığı ilə təkmilləşdirilmiş yaradıcılıqdır.
- **Təşəbbüskarlıq və texniki bacarıqlar** – Liderlər təşəbbüskar olur və işçiləri də təşəbbüskar olmağa təşviq edirlər.
- **Kommunikasiya və koordinasiya təşkil etmək** – Rəqəmsal liderlər maraqlı tərəflər haqqında məlumatları müxtəlif yollarla paylaşırlar. Burada tək tərəfli ünsiyyət vasitələrinə yox, iki tərəfli kommunikasiyanın mümkün olduğu açıq sosial media hesabları kimi vasitələrə üstünlük verilməlidir. Liderlər bu hesablardan istifadə edərək ictimaiyyətlə əlaqələr yaratmalıdırlar.
- **Brendləşmə -** Liderlər sosial media hesablarından istifadə edərək məktəb mədəniyyətinin müsbət tərəflərini vurğulayacaq paylaşımlar edir. Bu araşdırma məktəbin potensial şagirdləri və onların valideynlərində müsbət təəssürat yaradır.

- **Motivasiya vermək –** Rəqəmsal əsrdə liderlərin sahib olmalı olduğu ən vacib keyfiyyətlərdən biri izləyiciləri motivasiya etməkdir. Təşkilatda yeni ideyaların yaranmasında çalışanların motivasiya edilməsinin böyük əhəmiyyəti vardır.
- **Peşəkar inkişaf** – Rəqəmsal liderlər rəqəmsal vasitələrdən istifadə etməklə özlərinin və komandalarının çatışmazlıqlarını aradan qaldıra və peşəkar inkişaflarını təmin edə bilərlər.
- **Fürsət** – Rəqəmsal liderlər üçün peşəkar inkişafın müxtəlif yollarını tapmaq vacibdir. Onlar mövcud fürsətləri görərək, texnologiya vasitəsilə əlaqələr qurur və məktəb mədəniyyətinin müxtəlif sahələrini təkmilləşdirmək üçün ondan istifadə edirlər.
- **Gerçəkliyi qorumaq –** Liderlər öz etimadlarını göstərmək üçün təbii və real davranmalı, eyni zamanda, müəssisədə saxta davranışın qarşısını almalıdırlar. Rəqəmsallaşmadan sonra sosial media vasitəsilə insanlar əvvəl olduğu kimi şəxsi və iş həyatlarında çox fərqli xarakter göstərə bilmirlər.
- **Vizyonlu olmaq –** Bu liderlər uzaqgörən olurlar. Təşkilat üçün vizyon müəyyən edərkən çalışanlarla birgə işləməlidirlər ki, onlar vizyonu asanlıqla mənimsəyə bilsinlər.
- **Risk almaq -** Sınaqdan keçmiş texnologiyaya riayət etmək ehtiyatlı olsa da, risk götürmək də vacib bir faktordur. "Ən böyük risk - risk etməməkdir" anlayışını mənimsəmək lazımdır (M.Zukerberq).
- **Müdriklik** – Liderlər mürəkkəb zamanlarda dərin bilik və anlayışla istiqamətləndirmək, qərarların qəbulu zamanı informasiyanı izah və sintez etmək üçün biliklərindən istifadə etmək kimi səriştələrə malikdir.

Rəqəmsallaşmanın həyatın bütün sahələrində əks olunması insanları rəqəmsal vasitələrdən istifadə etməyə məcbur edir. 21-ci əsrdə rəqəmsal vasitələrdən istifadə etmək səriştəsinə malik olmayan insanlar ciddi çətinliklər ilə üzləşirlər. Avropa İttifaqı Komissiyası rəqəmsal cəmiyyətdə fərdlərin sahib olduğu rəqəmsal səriştəlik bacarıqlarını aşağıdakı kimi müəyən etmişdir.
(8, s.7-8):

Malayziya məktəb liderləri rəqəmsal liderliyin aşağıdakı modelini formalaşdırmışlardır (10, s.1482):

| **1.İnformasiya və məlumat savadlılığı** | **2.Ünsiyyət və əməkdaşlıq** | **3.Rəqəmsal məzmunun yaradılması** | **4.Təhlükəsizlik** | **5.Problem həlletmə** |
|---|---|---|---|---|
| Rəqəmsal məzmunun və informasiyanın toplanılması, nəzərdən keçirilməsi və filterlənməsi | Kommunikasiyanın texnologiya vasitəsilə həyata keçirilməsi | Rəqəmsal məzmunun hazırlanması | Cihazların təhlükəsizliyini təmin etmək | Texniki problemlərin həlli |
| Rəqəmsal məzmunun və informasiyanın monitorinqi | Paylaşımın texnologiya vasitəsilə həyata keçirilməsi | Rəqəmsal məznunun inteqrasiyası və yenidən təşkili | Şəxsi məlumatların və məxfiliyin qorunması | Tələblərin və texnoloji reaksiyaların müəyyən edilməsi |
| Rəqəmsal məzmunun və informasiyanın idarə edilməsi | Rəqəmsal vətəndaşlıq | Müəllif hüquqları və lisenziyalar | Rifah və sağlamlığın qorunması | Yaradıcı formada texnologiyalardan istifadə edilməsi |
| | Koordinasiyanın texnologiya vasitəsilə həyata keçirilməsi | Proqramlaşdırma | Ətraf mühitin təhlükəsizliyini təmin etmək | Rəqəmsal kompetensiya tələblərinin müəyyən edilməsi |
| | İnternet etikası | | | |
| | Rəqəmsal şəxsiyyətin idarə edilməsi | | | |




Hazırda biz bütün məlumatların rəqəmsal və ya kiber formada saxlanıldığı bir dünyada yaşayırıq. Kibertəhlükəsizlik bütün dünyada milyonlarla təşkilat üçün ən aktual mövzulardan biridir (3, s. 23). Bu gün, müəssisələrdə rəqəmsal texnologiyalardan istifadənin kəskin artması nəticəsində kibercinayətkarların korporativ şəbəkələrə çıxış əldə etməsi üçün potensial yolların sayında artım müşahidə edilmişdir. Buna görə də rəqəmsal lider kimi məktəb rəhbərinin ən mühüm vəzifəsi müəssisədə kibertəhlükəsizliyi təmin etmək olmalıdır. Bildirilir ki, təhlükəsizlik konsepsiyası kimi kibertəhlükəsizliyin tarixi kompüter və informasiya elmləri fənləri ilə başlayır.

Bu kontekstdə kibertəhlükəsizlik anlayışının ilk istifadələrindən biri ABŞ-da olmuşdur. Kibertəhlükəsizlik təşkilatın məlumatlarının daxili və xarici pis faktorların hücumlarından qorunmasını təmin edir. Kibertəhlükəsizlik informasiya sistemlərində rabitə, həyat, inteqrasiya, maddi və ya qeyri-maddi aktivlərin və hətta məlumatlarımızın təhlükəsizliyinin, bütövlüyünün və məxfiliyinin elektron informasiya sistemləri mühitində qorunmasıdır. (2, s.1046)

Kiber məkanda təhdidləri yalnız fiziki zərər, məlumat oğurluğu və ya casusluqla məhdudlaşdırmaq mümkün deyil. Kibertəhlükələrə ünsiyyət vasitəsilə də məruz qala bilərik. İnternet vasitəsilə istəməyən elektron məktubların göndərilməsi, informasiyanın manipulyasiyası və ya təbliğat vasitəsi kimi istifadə edilməsi nəticəsində yarana biləcək zərərləri də qeyd etmək vacibdir. Bunun ən əhəmiyyətli səbəbi, müəssisələrin fiziki və ya virtual varlıqlarını hədəf alan kibercinayət proqramların bu istənməyən elektron məktublarda tapıla bilməsidir (7, s.152). Belə ki, göndərilmiş saxta elektron məktubu açdığımız zaman virus kompüterimizə daxil ola və məlumatlarımızı oğurlaya bilər. Müəssisələrin kibertəhlükəsizlik təhdidlərinə qarşı görülən tədbirləri gücləndirmək lazımdır. Əks halda, rəqəmsal transformasiya fürsətdən daha çox əhəmiyyətli xərclərə səbəb ola bilər. Bu səbəbdən rəqəmsal transformasiya zamanı strateji idarəetmə, marketinq, təşkilat mədəniyyəti və insan resursları amillərini effektiv şəkildə idarə edən və nəzərə alan təşkilatlar müvəffəqiyyətli olacaqlar. Buna görə də təhsil müəssisəsi də daxil olmaqla bütün təşkilatlarda kibertəhlükəsizlik təhdidlərinə qarşı uğurlu mübarizə apara bilən rəqəmsal liderlərə ehtiyac var. Həqiqətən də, müxtəlif "kiber qəhrəmanlar" sadəcə bir smartfonla şəbəkələrə nüfuz edə və qorunan məlumatları əldə edə bilərlər. Müəssisələr özlərini bu yeni və təhlükəli təhdidlərdən müdafiə etmək üçün strategiyalar yaradır, kiber fəaliyyətlə bağlı hədəflər qoyurlar. Effektiv rəqəmsal liderlər texnologiya vasitəsilə törədilə biləcək təhlükələrə qarşı sığorta rolunu oynaya bilərlər. (2, s.1047).

***Ədəbiyyat***

1. *Aydın, K. (2022). Eğitim örgütlerinde dijital liderlik ve örgütsel bilgelik ilişkisi. Eğitim Yönetimi, Teftişi, Planlaması ve Ekonomisi Anabilim Dalı.*
2. *Bingöl, D. və Koçak, D. (2020). Dijitalleşen örgütler ve siber güvenlik yönetiminde siber liderlik yaklaşımı. Research Gate.*
3. *Cardoso, M. G. M.S., Laureano, R. D. ve Serrão C. (2017). Cybersecurity culture in Portuguese organizations: An exploratory analysis, 12th Iberian Conference on Information Systems and Technologies (CISTI). DOI: 10.23919/CISTI.2017.7976008.*

4. *Çelen, A.İ. (2020). Dijital dönüşüm sürecinde yükselen bir değer: Dijital liderlik. The Impact of Brand Value Constituent Factors on Brand Value: A Case Study of Ocarina Brand in Kabul City. Research Gate.*
5. *Demir, C., Yılmaz, M.K., Çevirgen, A. (2010). Liderlik yaklaşımları ve liderlik tarzlarına ilişkin bir araştırma. Alanya İşletme Fakültesi Dergisi.*
6. *Küçükali, R., Coşkun, H.C. (2021). Eğitimde digitalleşme ve yapay zekanın okul yöneticiliğindeki yeri. International Journal of Leadership Studies: Theory and Practice.*
7. *Öğün M, N. ve Kaya, A. (2013). Siber Güvenliğin Milli Güvenlik Açısından Önemi ve Alınabilecek Tedbirler. Güvenlik Stratejileri Dergisi, 9(18): 145-181.*
8. *Öz, Ö. (2020). Dijital liderlik: Dijital dünyada okul lideri olmak. International Journal of Leadership Studies: Theory and Practice.*
9. *Özmen, Ö.N., Eriş, E.D., (2020). Süral Özer P. Dijital liderlik çalışmalarına bir bakış. Süleyman Demirel Üniversitesi İktisadi ve İdari Bilimler Fakültesi Dergisi.*
10. *Rahimi, M.Y., Yaakob, M.F.M., Yusri, M.I. (2019). Digital leadership among school leaders in Malaysia. International Journal of Innovative Technology and Exploring Engineering.*
11. *Raza, B. (2016). Leadership 4.0, module: management cometencies 1, https://www.academia.edu/25513158/LEADERSHIP_4.0_Module_Management_Competencies_1_MC1_MBA_Aviation_Enrolment_number_1042342*
12. *Reid, W.M., Dold, C.J. (2018). Burns, Senge and the study of leadership. Scientific Research Publishing.*
13. *Sheninger, E. (2014). Digital leadership: Changing paradigms for changing times. Thousand Oaks: CA: Corwin Press.*
14. *Toduk, Y., & Gande, S. (2016). What is next in Turkey? A new leadership model for connected age, In Amrop Leadership Series, 1-41.*
15. *Tracy, B. (2010). No excuses!: The power of self-discipline. Vanguard Press.*
16. *Yukl, G. (2009). Leadership in organizations. New Jersey: Pearson Prentice Hall.*

**Z.F.Namazova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***zarifanamazova19@gmail.com***

# MƏKTƏBİN İDARƏEDİLMƏSİNDƏ KOLLEGİAL ORQANLARIN ROLU

***Xülasə***

*Təhsilin keyfiyyəti bir çox cəhətdən təhsilin idarə eidlməsi ilə sıx surətdə bağlıdır. Bu cəhətdən təhsilin pedaqoji əsaslarla, müasir üsullarla və kollegial orqanların birliyi ilə idarə edilməsi bu gün xüsusi aktual bir vəzifə kimi pedaqoji elmin və təhsil işçilərinin qarşısında duran mühüm problemlərdəndir.*

*Təhsilin idarə edilməsinin aktuallığı və yeni üsullarla idarə edilməsi, xüsusilə kollegial orqanların gücündən istifadə edilməsi Dövlət Təhsil Strategiaysında, Təhsil Qanununda və digər rəsmi dövlət sənədlərində qeyd edilmiş və son nəşr edilən "Pedaqogika" dərsliklərində, metodik kitablarda kollegial orqanaların vəzifələri və idarəetmədə onların mühüm rolu göstərilmişdir.*

# РОЛЬ КОЛЛЕГИАЛЬНЫХ ОРГАНОВ В УПРАВЛЕНИИ ШКОЛОЙ

***Резюме***

*Качество образования во многом тесно связано с управлением образованием. С этой точки зрения управление образованием на педагогической основе, современными методами и единством коллегиальных органов является одной из важных проблем, стоящих сегодня перед педагогической наукой и работниками образования как особо актуальная задача.*

*Актуальность управления образованием и управления новыми методами, особенно использование полномочий коллегиальных органов, отмечена в Государственной стратегии образования, Законе об образовании и других официальных государственных документах и обязанности коллегиальных органов и их важная роль в управления были показаны в последние годы изданных учебниках и методических пособиях «Педагогика».*

# THE ROLE OF COLLEGIATE BODIES IN SCHOOL MANAGEMENT

***Summary***

*The quality of education is closely related to the management of education in many ways. From this point of view, management of education on pedagogical basis, with modern methods and the unity of collegial bodies is one of the important problems facing pedagogical science and education workers as a particularly urgent task today. The relevance of education management and management with new methods, especially the use of the power of collegiate bodies, has been noted in the*

*State Education Strategy, the Education Law and other official state documents, and the duties of collegiate bodies and their important role in management have been shown in the recently published "Pedagogy" textbooks and methodical books.*

***Açar sözlər:*** *təhsil, idarəçilik, kollegial orqanlar, rəhbərlik*
***Ключевые слова:*** *образование, управление, коллегиальные органы, руководство*
***Key words:*** *education, administration, collegial bodies, leadership*

Pedaqoji elmin mühüm və mürəkkəb sahələrindən biri ümumtəhsil məktəbinin idarəedilməsi məsələləridir. Çünki təhsilin keyfiyyəti bir çox cəhətdən təhsilin idarə edilməsi ilə sıx surətdə bağlıdır. Bu cəhətdən təhsilin pedaqoji əsaslarla, müasir üsullarla və kollegial orqanların birliyi ilə idarə edilməsi bu gün xüsusi aktual bir vəzifə kimi pedaqoji elmin və təhsil işçilərinin qarşısında duran mühüm problemlərdəndir.

Təhsilin idarə edilməsinin aktuallığı və yeni üsullarla idarə edilməsi "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın üçüncü strateji istiqaməti təhsildə nəticələrə görə cavabdeh, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yartadılamsını nəzərdə tutur (1, s.47). Bu istiqamət tələb edir ki, idarəetmə sistemində təkmil mexanizm yaradılsın, qabaqcıl beynəlxalq təcrübələrdən istifadə edilsin və müasir idarəetmənin təhsilin keyfiyyətinin yüksəldilməsinə bilavasitə təsiri təmin edilsin.

Təhsilin idarə edilməsi məsələləri Azərbaycan Respublikasının Təhsil haqqında Qanunun III fəslində, 30-cu maddəsində öz əksini tapmışdır ki, orada belə deyilir: "Təhsil müəssisəsi aşkarlıq, şəffalıq və demokratiklik prinsipləri əsasında bu Qanuna, digər normativ hüquqi aktlara və öz nizamnaməsinə uyğun idarə edilir" (2, s.47).

Məktəbin kollegial idarə edilməsinin pedaqoji əsasları son dövrlərdə nəşr edilmiş pedaqogika dərsliklərində kifayət qədər dəyərli məlumatlar verilmişdir ki, onlardan xeyli faydalanmaq olur (3;4;5;6).

Bunlarla bərabər bilavasitə məktəbin idarəedilməsinə dair, kollegial orqanların fəaliyyətinə dair metodik kitablar, vasiatlər də yazılmışdır ki, hər bir məktəb rəhbərinin və pedaqoji sahə tədqiqatçılarının, məktəbşünasların daim müraciət etdikləri dəyərli əsərlərdir (7;8;9,10).

Kollegial idarəetmə dedikdə məktəbin qarşısında duran vəzifələri həll etmək üçün idarəetmə subyektlərinin, xüsusilə kollegial orqanlarının müvafiq obyektə təsir göstərməsi, onu uyğun istiqamətə yönəltməsi deməkdir.

İdarəetmə subyektləri dedikdə idarəetmə fəaliyyətini sistemli və ardıcıllıqla həyata keçirən, bu sahədə xüsusi səlahiyyətlərə malik olan şəxslər, idarə və təşkilatlardır. Məsələn, Təhsil Nazirliyi, onun qurumları, yerli regional təhsil idarələri, icra hakimiyyətində xüsusi səlahiyətlənmiş şəxs, məktəb rəhbərləri, ictimai özünüidarə orqanları idarəetmə prosesində

subyektlər kimi çıxış edirlər.

Məktəbdə idarəetmə subyektləri dedikdə ilk növbədə direktor, onun müavinləri, məktəb psixoloqu, hərbi rəhbər və kollegial orqanlardır. Kollegial orqanlara - direktor müavinləri, pedaqoji şura, məktəb şurası, metodik şura, direktoryanı müşavirə, valideyn komitəsi, fənn metodbirləşmələri, sinif rəhbərlərinin metodbirləşmələri, həmkarlar komitəsi daxildir. Bu orqanlar ayrılıqda deyil, vəhdətdə fəaliyyət göstərməlidirlər.

Direktor kollegial orqanlara əsaslanaraq idarəetməni həyata keçirir və həmçinin kollegial orqanların fəaliyyətini də daim gücləndirmək üçün müəllim kollektivinin gücündən, onların təcrübəsindən istifadə edir, bacarıqlı, səriştəli, peşəkar müəllimlərin fikirlərindən, dəyərli məsləhətlərindən faydalanaraq idarə etmə prosesini uğurla yerinə yetirir.

Direktorun verdiyi əmr və sərəncamlar, qərarlar kollektivin və kollegial orqanların fikir birliyinnin nəticəsi olaraq meydana çıxır. Kollegial idarətmə məktəbdə pedaqoji prosesin, müəllim və şagird kollektivinin məqsədyönlü, sistemli fəaliyyətinin tənzimlənməsi deməkdir.

Bunu da qeyd edək ki, kollegiallıq direktorun rəhbərliyi ilə üzvi şəkildə əlaqələndirilməli və birlikdə fəaliyyət gösrtərilməlidir.

Kollegial idarəetmə idarəetmənin vacib pedaqoji prinsipi olmaqla bərabər, həm də səmərəli, idarəetmə üsuludur. Bu prinsip və üsula riayət edən məktəb rəhbərləri daim işində uğur qazanır. Düzgün kollegial idarəetmə sistemində təhsilin keyifiyyəti yüksəlir, müəllimlər rahat və yaradıcı fəaliyyət göstərir və məktəbdə əlverişli pedaqoji mühitin yaranmasına, şagirdlərin idrak fəallığına səbəb olur.

İdarəetmə obyektləri dedikdə isə idarə olunan sahələr, şəxslər, kollektivlər, təşkilati strukturlar, idarəedici orqanların qərar və sərəncamlarının icraçıları və başqaları daxildir.

İdarəetmədə təhsilin demokratik qaydalar, humanist prinsiplər əsasında idarə edilməsi idarəetmədə kollegiallıq prinsiplərinə əməl edilməsini tələb edir. Yəni direktor məktəbi təkbaşına idarə etmir. O idarəçiliyi öz müavinləri vasitəsilə, məktəbin kollegial orqanları vasitəsilə iadarə etməlidir. Təkbaşına məktəbin idarə edilməsi inzibati amirliyə gətirib çıxara bilir. Belə idarəetmə kollektivi mütiliyə və ya aqressivliyə, qruppabazlığa yönəldir, ya da məktəbdə anonimlik, müxtəlif intriqaların yaranmasına rəvac verir. Buna görə də qabaqcıl, müasir məktəb rəhbərləri idarəçilikdə kollegial idarəetməyə daim üstünlük verirlər.

Məktəbdə mənəvi psixoloji iqlimin yaradılmasında, pedaqoji prosesiin düzgün və səmərəli təşkilində müəllimlərin yaradıcı fəaliyyətinin düzgün istiqamətləndirilməsində, təhsilin keyfiyyətinin yüksəldilməsində kollegial orqanları rolu son dərəcə böyükdür.

Məktəbin kollaegial şəkildə idarəedilməsi müəyyən edilmiş pedaqoji

prinsiplərə əsaslanmalıdır.

Məktəbin kollegiallıq şəraitində idarəedilməsi dövlət təhsil siyasətinin ümumi prinsiplərindən irəli gəlmiş və ona əsaslanır. Həmin prinsiplərə müxtəsər nəzər salaq:

1. İdarəetmədə dövlət və ictimai əsasların uzlaşdırılması prinsipi. Bu prinsip təhsil sisteminin idarə olunmasında, məktəbə rəhbərlikdə dövlət orqanlarının fəaliyyəti ilə ictimaiyyətin və onu təmsil edən ictimai özünüidarə orqanlarının fəaliyyətini sıx əlaqələndirməyi, onların birgə əməkdaşlığını nəzərdə tutur.

2. İdarəetmədə kollegiallıqla təkrəhbərliyin uzlaşdırılması prinsipi. Bu prinsip məktəbə təkbaşına rəhbərlik etməyə yox, bu işə kollegial orqanları, ictimai özünüidarə orqanlarını da geniş cəlb etməyi nəzərdə tutur. Belə olduqda məktəb həyatının hər hansı bir məsələsi hərtərəfli kollektiv təhlil olunur, ümumi qərar qəbul edilir. Kollegial idarəetmə olmadan, qərar qəbulunda kollektivin rəyini nəzərə almadan məktəbin idarə edilməsini lazımi səviyyədə həyata keçirmək mümkün deyildir.

3. İdarəetmədə məqsədyönlülük prinsipi. Bu prinsip məktəbə rəhbərliyi məqsədyönlü şəkildə qurmağı, habelə bütün fəaliyyəti, qüvvə və vasitələri qarşıya qoyulmuş məqsədin əldə edilməsinə doğru yönəltməyi nəzərdə tutur. İdarəetmə məqsədyönlü prosesdir: hər sahədə olduğu kimi, burada da hər şey məqsəddən başlayır və onun əldə edilməsi ilə başa çatır. Məktəbə rəhbərlik fəaliyyətinin digər komponentləri - işin məzmunu, vasitə və metodları qoyulmuş məqsəd baxımından seçilməli və onun həyata keçirilməsinə yönəldilməlidir.

4. Elmi nəzəriyyə ilə praktikanın əlaqələndirilməsi prinsipi. Bu prinsip məktəbin kollegial idarə edilməsini elmi əsasda qurmağı - elmi biliklərdən, xüsusən pedaqogika və psixologiya elmlərinin nəticələrindən yaradıcı şəkildə istifadə etməklə yüksək göstəricilərə nail olmağı nəzərdə tutur.

5. Aşkarlıq və şəffaflıq prinsipi. Bu prinsip demokratiyanın təzahürü olub, bir-birilə sıx bağlıdır. Aşkarlıq görülən işlərin, aparılan yoxlamaların, müzakirə və qərarların gizlin yox, aşkar şəkildə olmasını, kollektivə vaxtında məlumət verilməsini, nöqsanların ört-basdır edilməməsini nəzərdə tutur. Şəffaflıq isə məktəbin müxtəlif fəaliyyət sahələrinin, xüsusən, maliyyə-təsərrüfat fəaliyyətinin kollektivə, cəmiyyətə açıq olmasında özünü göstərir.

6. İdarəetmədə planlıq, uçot və nəzarətin vəhdəti prinsipi. Bu prinsip idarəetmə prosesinin bütün mərhələlərini - məktəb işini planlaşdırmağı, təşkil etməyi, bu prosesə nəzarət etməyi, işin nəticələrini hesaba almağı və qiymətləndirməyi kompleks halda həyata keçirməyi nəzərdə tutur.

7. Optimallaşdırma prinsipi. Bu prinsip tələb edir ki, idarəetmə işində konkret şərait üçün ən münasib şərait, (optimal) variant seçib tətbiq edilsin.

***Ədəbiyyat***

1. *Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Bakı: 2013, 124 səh.*
2. *Azərbaycan Respublikasında "Təhsil haqqında Qanun" Azərbaycan Respublikasının 2009-cu il 19 iyun tarixli qərarı. Bakı: Hüquq ədəbiyyatı 2009. 80 s.*
3. *Hüseynzadə R.L. Pedaqogika. Dərslik. Bakı: Mütərcim, 2021, 488 s.*
4. *Qasımova L.N., Nahmudova R.M. Pedaqogika. Dərslik. Bakı: Ekoprint, 2021, 612 s.*
5. *Abbbasov A.N., Məmmədzadə R., Məmmədli L. Pedaqogika: Müntəxabat. Dərs vəsaiti. Bakı: Mütərcim, 2021, 608 s.*
6. *Allahverdiyeva F.M., Tağıyeva S.S. Pedqogika. Dərs vəsaiti. Bakı: Elm və təhsil, 218, 408 s.*
7. *Məmmədzadə R.M., Abdullazadə A.A. Menecmnet, marketinq və təhsilin iqtisadiyyatı. (Tədris vəsaiti). Bakı: Müəllim, 2015, 464 s.*
8. *Əliyeva L.X. Təhsilin idarə olunması. Dərs vəsaiti. Bakı: ADPU, 2018, 257 s.*
9. *İsmixanov M.A., Bəxtiyarova R.Ə. Məktəbin idarə edilməsi. Bakı: BDUŞ 2012, 236 s.*
10. *Cabbarov R.O. Təhsil müəssisələrinin idarə edilməsi. Bakı: 2001, 174 səh.*

**A.R.Paşayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***arzupasayeva99@gmail.com***

# GƏLƏCƏK İBTİDAİ SİNİF MÜƏLLİMİ HAZIRLIĞI

***Xülasə***

*Dissertasiya işi gələcək ibtidai sinif müəlliminin təlim-tərbiyə fəaliyyətinə hazırlanmasına, gələcək ibtidai sinif müəlliminin kiçik yaşlı şagirdləri öyrətməyə hazırlanmasının mahiyyətinə, məzmununa və əhəmiyyətinə, ibtidai sinif şagirdlərinin psixoloji-pedaqoji xüsusiyyətlərinə, əməyin təşkilinə həsr edilmişdir. gələcək ibtidai sinif müəllimini kiçik yaşlı şagirdləri tədris prosesində öyrətmək üçün hazırlamaq.*

*Gələcək ibtidai sinif müəlliminin kiçik yaşlı şagirdlərin təlim-tərbiyəsi işinə hazırlanması yolları da təhlil edilib. Tədqiqat işində ibtidai sinif müəlliminin rolu və yeri, gələcək ibtidai sinif müəlliminin kiçik yaşlı şagirdlərin tərbiyəsi işinə hazırlanması prosesi, məktəblilər, gələcək ibtidai sinif müəlliminin əməyə hazırlanması sisteminin yaradılmasının əsasları, kiçik yaşlı məktəblilərin təhsili, kiçik yaşlı məktəblilər üçün gələcək ibtidai sinif müəlliminin yetişdirilməsi, əməyə hazırlığın vacibliyi nəzərdən keçirilir.*

# БУДУЩЕЕ ПОДГОТОВКА УЧИТЕЛЕЙ НАЧАЛЬНЫХ КЛАССОВ

***Резюме***

*Диссертационная работа посвящена подготовке будущего учителя начальных классов к учебной деятельности, сущности, содержанию и значению подготовки будущего учителя начальных классов к обучению младших школьников, психолого-педагогическим особенностям учащихся начальных классов, организация работы по подготовке будущего учителя начальных классов к обучению младших школьников в учебном процессе.*

*Также были проанализированы пути подготовки будущего учителя начальных классов к работе по воспитанию младших школьников. Роль и место учителя начальных классов в научно-исследовательской работе, процесс подготовки будущего учителя начальных классов к работе по воспитанию младших школьников, школьников, рассмотрены основы создания системы подготовки будущего учителя начальных классов к труду воспитания младших школьников, воспитания будущего учителя начальных классов младших школьников значение подготовки к труду.*

# FUTURE PRIMARY CLASS TEACHER TRAINING

***Summary***

*The dissertation work is devoted to the preparation of the future primary school teacher for educational activities, the essence, content and importance of the preparation of the future primary school teacher for the education of young*

*schoolchildren, the psychological and pedagogical characteristics of primary school students, the organization of the work of preparing the future primary school teacher for the education of young schoolchildren in the training process.*

*The ways of preparing the future primary school teacher for the work of educating young schoolchildren were also analyzed. The role and position of the primary school teacher in the research work, the process of preparing the future primary school teacher for the work of educating young schoolchildren, the basics of creating a system for preparing the future elementary school teacher for the work of educating young schoolchildren, the education of the future primary school teacher for young schoolchildren the importance of preparation for work was discussed.*

***Açar sözlər:*** *təhsil, tərbiyə, təlim, ibtidai təhsil, tərbiyəvi fəaliyyət, pedaqoji ustalıq,səriştə, bilik, bacarıq və vərdiş*

***Ключевые слова:*** *обучение, воспитание, начальное образование, учебная деятельность, педагогическое мастерство, компетентность, знание, умение, навык*

***Key words:*** *training, education, primary education, educational activity, pedagogical mastery, competence, knowledge, skill and habit*

Gələcək ibtidai sinif müəllimlərinin elmdə, məktəbdə təlim-tərbiyə işinə peşə-pedaqoji hazırlığının fəallaşdırılması daima mühüm əhəmiyyət daşıyır. Dövrün tələblərinə uyğun olaraq ibtidai sinif müəllimlərinin üzərinə düşən öhdəlik olduqca çətindir.

Gələcək ibtidai sinif müəllimləri pedaqoji fəaliyyətə hazırlıq zamanı bütün tərbiyəvi fəaliyyəti öyrənməli, hər bir şagirdin xüsusiyyətlərini, həyat tərzini, adət-ənənələrini, mənəvi dəyərlərini, valideyn-övlad münasibətlərinin dərinliyini anlamağı bacarmalı və buna əməl etməlidir. Bu hal ibtidai sinif müəlliminin tərbiyəvi fəaliyyətə hazırlanmasında əsas amillərdəndir.

Müəllimin pedaqoji fəaliyyəti olduqca mürəkkəb texnoloji proseslərin həyata keçirilməsi ilə əks olunur. Bu proseslərin zənginliyi pedaqoji prosesin tamlığına və bütövlüyünə gətirib çıxarır ki, bu da ayrı-ayrı müəllimlərin peşəkarlığının fərdi və fərqli cəhətləri kimi özünü göstərir. Müəllimin pedaqoji peşə mədəniyyəti müəllimin yaradıcı fəaliyyəti ilə sıx surətdə əlaqədardır. İbtidai sinif müəllimlərinin pedaqoji hazırlığı ona görə də çox çətin prosesdir.

Müəllim pedaqoji fəaliyyətə yaradıcılıqla yanaşdıqda, ona yaradıcı münasibət bəslədikdə bunlar həm onun peşə funksiyasının reallaşmasında, həm də müxtəlif texnoloji əməliyyatların yerinə yetirilməsində yüksək nəticələrə səbəb olur, pedaqoji fəaliyyət dəyər səviyyəsinə yüksəlir. Yaradıcı axtarışların nəticəsi olan texnoloji yeniliklər pedaqoji fəaliyyəti daha da məzmunlu və məqsədyönlü edir.

Təlim psixologiyası pedaqoji psixologiyanın ən mühüm, vacib və başlıca sahələrindən birini təşkil edir. Hazırda təhsil, məktəb və müəllimin

qarşısında duran mühüm vəzifələrin həyata keçirilməsində təlim psixologiyası istiqamətində həyata keçirilən işlərin nəticələri həlledici əhəmiyyətə malikdir.

İnkişaf etməkdə olan bəşəriyyətə elmlər haqqında dərin, ətraflı və möhkəm biliklər verməK, həmin biliklərdən istifadə edə bilmək, eyni zamanda bu qazanılmış bilikləri təcrübəyə tətbiq etmək bacarığının yaradılması müasir dövrün ən ciddi tələbləri kimi qarşıda dayanır.

İbtidai sinif müəllimlərinin təlim-təhsil fəaliyyəti onun başlıca vəzifəsinin, yəni təhsilverici vəzifəsinin reallaşdırılmasından ibarətdir. Bu fəaliyyət gənc nəslin bəşəriyyətin min illər boyu toplamış olduğu maddi və mənəvi dəyərlərə yiyələnməsi məqsədilə təşkil edilən, həyata keçirilən xüsusi fəaliyyət və idrak prosesidir. Bu prosesin nəticəsində böyüyən nəsil elmi biliklər sisteminə, həyati bacarıq və vərdişlərə, davranış mədəniyyətinə, müxtəlif fəaliyyət növlərinə yiyələnir və böyük həyata hazırlanırlar. Ona görə də şagirdlərin şəxsiyyət kimi yetişməsində ibtidai sinif müəllimləri bünövrə rolunu oynayır.

Bu işin əsas mahiyyəti müəllimin şəxsiyyətində, onun mövqeyində, fəaliyyətini yüksək professional səviyyədə idarə etmək qabiliyyətindədir. Bundan ötrü isə müəllim pedaqoji fəaliyyətdən baş çıxarmalı, onun məqsədini, vasitələrini, obyektini, subyektini yaxşı bilməlidir, bu işə yaradıcı yanaşmalı, uşağın maraqlarını nəzərə almalıdır. Müəllimin işinin məqsədi cəmiyyət tərəfindən müəyyənləşdirilir.

Məktəbdə təlim-tərbiyə işinin şagirdin şəxsiyyətinin inkişafına təsiri müəllimin tərbiyə prosesinə bələdliyi, şagirdləri, həmkarları ilə, valideynlərlə və ictimaiyyət nümayəndələri ilə rəftarının səviyyəsindən xeyli asılıdır.

Belə ki, ibtidai sinif şagirdlərinin təlim fəaliyyəti təlimin xarakterinin xüsusiyyətlərinə təsir edən amillərin, təlim çətinliklərinin təsviri və xüsusiyyətlərini müəyyənləşdirmək üçün müasir məktəbdəki təzahür formalarının psixoloji təhlilinin həyata keçirilməsinin əhəmiyyəti böyükdür.

Kiçikyaşlı məktəblilərin təlimində çətinlik törədən səbəblər, təlim çətinliklərinin formalaşmasına təsir edən amillər, təlim zamanı müşahidə olunan problemlər, müasir məktəbdəki təzahür formaları psixoloji cəhətdən təhlilə cəlb olunmuşdur.

Təhsil sisteminin strukturunun yeniləşdirilməsi və məzmununun modernləşdirilməsi məqsədin hansı səviyyədə dərk olunmasından asılıdır. Təhsilin məzmununun modernləşdirilməsi, onun humanistləşdirilməsi və bütöv bir varlıq kimi qəbul edilməsi ilə sıx əlaqədardır. Təhsil sisteminin strukturunun müasirləşdirilməsi və məzmununun modernləşdirilməsində böyük elmi-nəzəri və praktik əhəmiyyət daşıyan səriştəli yanaşma böyük əhəmiyyət daşıyır.

Ənənəvi təhsil və yeni təhsil yanaşmaları, təhsildə səriştəlilik - şərəf, ləyaqət, məsuliyyət, mükəmməl bilik, aldığı biliyi həzm etmək, ondan istifadə

edərək xeyir vermək və bunu başqalarına çatdırmaq, bunlara mane olan əməllərə qarşı barışmaz mövqe tutmaq bacarıqlarını formalaşdırır.

Səriştəli sinif müəllimi hazırlığı zamanı geniş bilik, bacarıq və vərdişlər sisteminin formalaşması, şəxsi və ictimai inkişafın əsas amili kimi tədris-təlim prosesinin səmərəliliyinin yüksəldilməsində əsas istiqamətlərdən biri hesab olunur. Təhsil sisteminin modernləşdirilməsinin əsas strateji istiqamətlərindən biri kimi qiymətləndirilən səriştəli yanaşma təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsinin əsas vasitəsidir.

Belə ki, pedaqojiyönümlü ali təhsil müəssisələrində səriştəli kadr hazırlığında keyfiyyətin idarəedilməsi, mütəmadi olaraq diaqnostik müşahidələrin ekspert qiymətləndirilməsinin təşkili, pedaqoji sistemin vəziyyətinin vaxtında müəyyən edilməsi və müvafiq korreksiya işlərinin aparılması təhsilimizin qarşısında duran əsas məqsədlərin həyata keçirilməsində mühüm rol oyanyır.

İbtidai siniflərdə pedaqoji proses və onun təşkilində sinif müəlliminin rolu, mövqeyi, tətbiq edilən innovativ texnologiyaların təlimin keyfiyyətinə təsiri səmərəli nəticələr verməlidir. Tədris-təlim prosesinin keyfiyyəti müəyyənləşdirilərkən onun üç əsas tərkib hissəsi - məzmun, texnologiya və eyni zamanda əldə olunmuş nailiyyətlər təhlil olunmalı və ayrı-ayrı tərkib hissələri üzrə nəticələr çıxarılmalıdır.

Keyfiyyətin qiymətləndirilməsində sistemli yanaşmadan istifadə olunması səmərəli nəticələr verir. Təhsil sistemində keyfiyyətin idarə olunmasında insan faktoru həlledici rol oynayır. Bu da çoxlu komponentlərdən asılıdır. Ona görə də keyfiyyətin idarə olunmasının müasir modellər əsasında təşkili, təhsilin səmərəliliyinin yüksəldilməsində əvəzsiz imkanlara malikdir.

Müəllim peşəkarlığı və pedaqoji səriştəliliyin müasir problemləri hər zaman üçün aktualdır. Gələcək ibtidai sinif müəllimi hazırlığının məzmunu, səriştəli sinif müəllimi hazırlığına konseptual yanaşma zamanı düzgün qərar vermək və mühüm addımlar atmaq lazımdır.

### *Ədəbiyyat*

1. *Abbasov A.N., Əlizadə H.Ə. Pedaqogika. Bakı: Renessans, 2000, 202s.*
2. *Ə.Ağayev, Pedaqogika. Bakı, 2006.*
3. *Əliyev R.İ., Tərbiyə psixologiyası. Bakı: Nurlan, 2006, 200 s.*
4. *https://aztehsil.com/news/5140-agirdlrd-mntiqi-tfkkrn-inkiaf-mntq.html*
5. *Müəllimin pedaqoji qabiliyyətləri, https://aztehsil.com/news/6795-müəllimin-pedaqoji-qabiliyyətləri.html).*
6. *R.Məmmədzadə. Təhsildə keyfiyyət aparıcı istiqamətlərdən biri kimi. Bakı 2010. "Müəllim nəşriyyatı"*
7. *Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı, "Təhsil", 2008. 476s.*

**Ş.B.Məmmədzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***memmedzadesebnem99@gmail.com***

# MƏKTƏB VƏ SOSİAL TƏRBİYƏ PROBLEMLƏRİ

***Xülasə***

*Məktəb və sosial nizam-intizam problemləri şagird davranışı və münasibəti ilə bağlı müxtəlif məsələlərdən ibarət olan çətinliklər və problemlərdir. Bu problemlər sinifdə kiçik fasilələrdən tutmuş zorakılıq, zorakılıq və məktəbdə narkotik istifadəsi kimi daha ciddi hadisələrə qədər dəyişə bilər.*

*Məktəb və sosial nizam-intizam problemlərinə səbəb olan əsas amillərdən biri valideynlər, icma üzvləri və digər maraqlı tərəflər tərəfindən lazımi dəstək və diqqətin olmamasıdır. Güclü dəstək sistemi olmadan məktəblər sinifdə nizam-intizamı qorumaqda çətinlik çəkə bilər.*

*Araşdırmada məktəb anlayışı, onun mahiyyəti, habelə sosial tərbiyə problemləri araşdırılmışdır. Məqalənin məqsədi məktəb və sosial tərbiyə problemlərinin araşdırılmasıdır. Araşdırmanın nəticələri sosial tərbiyə rolunun daha da artırılmasında məktəbin rolunu vurğulayır.*

# ШКОЛА И СОЦИАЛЬНО-ВОСПИТАТЕЛЬНЫЕ ПРОБЛЕМЫ

***Резюме***

*Проблемы школьной и социальной дисциплины - это трудности и проблемы, состоящие из множества вопросов, связанных с поведением и отношением учащихся. Эти проблемы могут варьироваться от незначительных сбоев в классе до более серьезных инцидентов, таких как издевательства, домогательства и употребление наркотиков в школе.*

*Одним из основных факторов, способствующих проблемам школьной и социальной дисциплины, является отсутствие адекватной поддержки и внимания со стороны родителей, членов сообщества и других заинтересованных сторон. Без сильной системы поддержки школам может быть трудно поддерживать дисциплину в классе.*

*В исследовании исследовано понятие школы, ее сущность, а также проблемы социального воспитания. Цель статьи - рассмотреть проблемы школьного и социального воспитания. Результаты исследования подчеркивают роль школы в дальнейшем повышении роли социального воспитания.*

# SCHOOL AND SOCIAL EDUCATIONAL PROBLEMS

***Summary***

*School and social discipline problems are difficulties and problems that consist of a variety of issues related to student behavior and attitudes. These problems*

*can range from minor disruptions in class to more serious incidents such as bullying, harassment and drug use at school.*

*One of the main factors contributing to school and social discipline problems is the lack of adequate support and attention from parents, community members and other stakeholders. Without a strong support system, schools may struggle to maintain discipline in the classroom.*

*In the study, the concept of school, its essence, as well as the problems of social education were investigated. The purpose of the article is to examine the problems of school and social education. The results of the research emphasize the role of the school in further increasing the role of social education.*

***Açar sözlər:*** *məktəb, sosial tərbiyə, sosial problem, şagird, müəllim*

***Ключевые слова:*** *школа, социальное воспитание, социальная проблема, ученик, учитель*

***Key words:*** *school, social education, social problem, student, teacher*

Məktəb və sosial nizam-intizam problemlərinin həlli bu problemlərə səbəb olan mürəkkəb və bir-biri ilə əlaqəli amilləri nəzərə alan kompleks yanaşma tələb edir. Birlikdə işləmək və sübuta əsaslanan strategiyaları qəbul etməklə, müəllimlər, valideynlər və icma üzvləri müsbət davranış və akademik nailiyyətləri təşviq edən təhlükəsiz və dəstəkləyici məktəb mühiti yaratmağa kömək edə bilərlər. Bütün bunlar daha detallı olaraq növbəti bölmədə qeydə alınacaqdır

Tərbiyə insanların davranışlarını, düşüncələrini, inanclarını, mənəvi dəyərlərini, cəmiyyətə uyğunluğunu, sosial və mənəvi anlayışını formalaşdırmaq üçün tətbiq edilən bir prosesdir. Bu proses, insanların doğumdan sonrakı bütün həyatı boyunca davam edir və onların zehni, mənəvi, psixoloji və fiziki inkişafına təsir edir.

Tərbiyə prosesi, ümumiyyətlə, ailə, məktəb, mədəniyyət və dövlət tərəfindən həyata keçirilir. Bu proseslər insanların inkişafını müəyyən edir və insanların cəmiyyətdəki rolu və funksiyalarını formalaşdırır.

Tərbiyə prosesi çoxlu cəhətlərdən ibarətdir və insanların müxtəlif sahələrdə mənəvi, intellektual və fiziki olaraq inkişafına təsir edir. Tərbiyə prosesi, insanda özünə qarşı məsuliyyət hissini, mənəvi dəyərləri və cəmiyyətə qarşı məsuliyyət hissini artırır.

Məktəbin əsas məqsədi tərbiyə prosesini yerinə yetirməkdir. Təhsil prosesi səmərəli və effektiv olmalıdır ki, insanlar mənəvi, intellektual və fiziki cəhətdən inkişaf etsinlər. Bu proses insanların həyatında vacib rol oynayır və onların sosial və mənəvi olaraq inkişaf etməsinə kömək edir.

Ümumiyyətlə, tərbiyə prosesi insanların gələcək üçün hazırlaşmasında əhəmiyyətli rol oynayır. Onların mənəvi, intellektual və sosial tərbiyəsi

sayəsində, onlar özlərini daha yaxşı anlayır və cəmiyyətdə faydalı bir vəzifələr üstlənə bilirlər.

Uşaqların tərbiyəsi onların gələcək həyatında mühüm rol oynayır. Uşaqlar doğulduğu andan ətraf mühitdən təsirlənməyə başlayır və bu qarşılıqlı əlaqələr onların şəxsiyyətini, düşüncələrini, davranışlarını və dəyərlərini müəyyən edən amillərdir.

Uşaqların təhsili ailə, məktəb, cəmiyyət və dövlət tərəfindən təmin edilir. Bu prosesdə uşaqlara insan hüquqları, məsuliyyət, hörmət, sevgi, tolerantlıq, ədalət, dürüstlük, zəhmətkeşlik və dözümlülük kimi təməl dəyərlər öyrədilir.

Təhsil uşaqların sosial və emosional inkişafını, özünə inamını, özünə hörmətini və özünə nəzarətini artırır. Bundan əlavə, uşaqların akademik uğurlarına, iş və karyera həyatına, evlilik həyatına, sağlam həyat tərzinə və onların cəmiyyətdəki rol və məsuliyyətlərinə təsir göstərir.

Uşaqların tərbiyəsi onların gələcək həyatlarını formalaşdırır, onları cəmiyyətin faydalı üzvlərinə çevirir. Yaxşı tərbiyə uşaqların özünə, ailəsinə, cəmiyyətə və insanlığa faydalı olmasını təmin edir. Bu səbəbdən də uşaqların düzgün tərbiyəsi cəmiyyətin gələcəyi üçün böyük əhəmiyyət kəsb edir.

Məktəb şagirdlərin akademik və sosial inkişafına kömək edən mühüm bir qurumdur. Məktəblərin ən mühüm funksiyalarından biri şagirdlərin oxu, yazı, riyaziyyat və digər tədris fənləri üzrə bilik və bacarıqlara yiyələnməsinə şərait yaratmaqdır.

Bununla belə, təhsildə məktəbin də mühüm rolu var. Məktəb həmçinin şagirdlərə düzgün davranış və münasibətləri öyrənmək və öyrənmə mühitində hörmət, tolerantlıq və əməkdaşlıq mədəniyyətini inkişaf etdirmək kimi sosial bacarıqlar əldə etməyə kömək edir (1, 23).

Məktəblər həm də şagirdlərin özünə inamının inkişafına, onların cəmiyyətə faydalı şəxsiyyət kimi yetişməsinə, xarakterlərinin inkişafına öz töhfəsini verir. Məktəblərin müxtəlif proqramları şagirdlərin liderlik, komanda işi və sosial məsuliyyət kimi mövzularda inkişaf etmələrinə şərait yaratmaqla onların sosial və şəxsi inkişafına töhfə verir.

Məktəbin tərbiyə və xarakter tərbiyəsindəki rolu təkcə şagirdlərin akademik nailiyyətlərinə deyil, həm də onların sosial və emosional inkişafına böyük təsir göstərir. Bu səbəbdən məktəblər şagirdlərin akademik bacarıqlarını inkişaf etdirməklə yanaşı, xarakter və nizam-intizam tərbiyəsinə də önəm verməlidirlər.

Uşaqların tərbiyəsi ailə ilə məktəb arasında əməkdaşlıq şəraitində həyata keçirilməlidir. Ailə və məktəb birgə işləməsi uşaqların sosial, emosional, akademik və fiziki inkişafına kömək edir. Uşaqların ilk müəllimləri kimi ailələr onların əsas dəyərlərini və davranışlarını öyrənməkdə böyük rol oynayırlar. Onlar, həmçinin uşaqların emosional və sosial ehtiyaclarına cavab

verir və onları özünə güvənən, özünə hörmət edən, məsuliyyətli və uğurlu şəxsiyyətlər etməyə çalışırlar.

Məktəblər uşaqların akademik inkişafına töhfə verir və onları cəmiyyətə hazırlayır. Məktəbdə müəllimlər uşaqların koqnitiv, sosial və emosional ehtiyaclarını ödəmək üçün çalışırlar. Bundan əlavə, məktəblər uşaqlara karyera seçiminə, universitet hazırlığına və sosial məsuliyyətlərə hazırlaşmağa kömək edir.

Uşaqların tərbiyəsi və təhsili üçün ailə və məktəb əməkdaşlığı çox vacibdir. Ailələr məktəblərin sinifdə və sinifdənkənar fəaliyyətlərində iştirak etməli və mütəmadi olaraq müəllimlərlə əlaqə saxlayaraq uşaqlarının məktəb fəaliyyətinə nəzarət etməlidirlər. Eynilə, məktəblər ailələrlə mütəmadi olaraq əlaqə saxlamalı və uşaqların akademik və sosial inkişafı haqqında məlumat paylaşmalıdırlar.

Ailə ilə məktəb əməkdaşlığı uşaqların tərbiyə və təhsilində ən səmərəli üsul hesab olunur. Ona görə də uşaqların inkişafı və uğurları üçün ailələr və məktəblər birlikdə çalışmalıdırlar.

Sosial nizam-intizam fərdlərə sosial həyatlarında uğur qazanmaq üçün lazım olan bacarıqları öyrənməyə imkan verən bir prosesdir. Bu proses fərdlərə cəmiyyətdəki davranışları üçün uyğun normaları, dəyərləri və gözləntiləri öyrənməyə imkan verir.

Sosial nəzakətin məqsədi fərdlərə, özünə və başqalarına hörmət etmək, başqalarına kömək etmək, empatiya qurmaq, problemləri həll etmək və münaqişələri idarə etmək üçün lazımi bacarıqları əldə etmək imkanı verməkdir. Bu bacarıqlar fərdlərə işdə, sosial həyatda və münasibətlərdə uğur qazanmağa kömək edir.

Sosial tərbiyə ailə, məktəb, cəmiyyət, media kimi müxtəlif mənbələr vasitəsilə həyata keçirilə bilər. Bununla belə, ən vacib resurslardan biri məktəbdir. Məktəb şagirdlərə akademik bilik və bacarıqları, həmçinin cəmiyyətə uyğunlaşmaq üçün zəruri olan sosial və emosional bacarıqları öyrədir (2, 19-20).

Məktəblər şagirdlərin qarşılıqlı əlaqə qurma, əməkdaşlığı öyrətmək, problemləri həll etməyi öyrənmək və başqalarına kömək etmək kimi sosial bacarıqlar əldə etmələrinə kömək etmək üçün müxtəlif proqramlar təklif edir. Bu proqramlar şagirdlərin özünə inamını artırır, liderlik bacarıqlarını inkişaf etdirir və məsuliyyət daşımağa təşviq edir.

Bu işdə məktəbdə sosial tərbiyə ilə yanaşı, ailələr də mühüm rol oynayır. Ailələr övladlarına düzgün davranışları öyrətmək, onların inkişafına dəstək olmaq üçün nümunə göstərməlidirlər. Bundan əlavə, ailələrin övladlarının dostluq və sosial qarşılıqlı əlaqəsini yaxından izləməsi potensial problemlərin erkən aşkarlanmasına və həllinə kömək edir.

Nəticə etibarı ilə ictimai tərbiyə fərdlərin həyatında mühüm yer tutur. Bu proses fərdlərə cəmiyyətdə harmonik yaşamağa, başqalarına kömək etməyə və sosial bacarıqlarını inkişaf etdirməyə imkan verir. Məktəblər, ailələr və cəmiyyətin digər qurumları birgə fəaliyyət göstərməli, fərdlərin sosial tərbiyəsinə dəstək olmalıdır.

Məktəb və sosial nizam-intizam, tərbiyə problemləri bugünkü təhsil sistemində çox mühüm məsələdir. Şagirdlər təhsil həyatı boyu məktəb nizam-intizamı ilə bağlı bir çox problemlərlə üzləşə bilərlər. Bu problemlərdən ən mühümləri arasında şagirdlərin nizam-intizamsızlığı, sosial davranış problemləri, zorakılıq, zorakılıq, nizam-intizamdan kənar davranışlar, şagirdlərin dərsdən yayınması, dərsə gecikmələri daxildir.

Məktəblərin əsas məqsədləri şagirdlərə akademik bilik və bacarıqları, həmçinin sosial və emosional bacarıqları öyrətməkdən ibarətdir. Bununla belə, məktəblərin bu məqsədlərə çatmaqda nizam-intizam və sosial ədəb problemləri ilə üzləşməsi ehtimalı var.

Şagirdlərin nizam-intizamsızlığı müəllimlərin və digər şagirdlərin təhsil mühitinə mənfi təsir göstərə bilər. Bu problemin əsas səbəbi şagirdlərin qaydalara uyğun hərəkət etmək üçün kifayət qədər öz intizamının olmamasıdır. Bu səbəblə məktəblərin şagirdlərə öz intizamını təmin edəcək proqramlar təklif etmələri təşviq edilməli və şagirdlər bu proqramlarda iştirak etməyə təşviq edilməlidir (3, 13-14).

Sosial davranış problemləri şagirdlərin bir-biri ilə münasibətlərində yaşanan problemlər kimi müəyyən edilə bilər. Zorbalıq, zorakılıq, münaqişə və sosial təcrid əsas problemlərdəndir. Bu problemlərin əsas səbəbləri arasında şagirdlərin empatiyasının olmaması, özünəinamın aşağı olması, sosial bacarıqların olmaması, ailə problemləri və medianın təsirini göstərmək olar. Buna görə də məktəblərin şagirdlərə sosial bacarıqların öyrədilməsi üçün proqramlar təklif etməsi və bu problemlərin həlli üçün müvafiq mexanizmlərin yaradılması vacibdir (5, 28).

Zorbalıq məktəblərdə ən çox rast gəlinən sosial problemlərdən biridir və şagirdlərin fiziki və ya emosional əziyyətlərinə səbəb ola bilər. Zorbalığın kökü çox vaxt şagirdlərin özünə inamının aşağı olması və sosial bacarıqların olmamasıdır. Bu problemi həll etmək üçün məktəblər zorakılığın qarşısını almaq üçün proqramlar təklif etməli və şagirdləri bu proqramlarda iştirak etməyə təşviq etməlidirlər.

Nəticə etibarı ilə məktəb və sosial nizam-intizam problemləri şagirdlərin təhsil həyatında uğur qazanması üçün həll edilməli olan mühüm problemlərdir. Məktəblər bu problemlərin həlli üçün şagirdlərə öz nizam-intizamının aşılanması, sosial bacarıqların öyrədilməsi və müvafiq mexanizmlərin yaradılması kimi addımlar atmalıdır.

Lakin bu problemlərin həllində təkcə məktəblərin deyil, ailələrin də üzərinə düşən vəzifələr var. Ailələr uşaqların öz intizamını təmin etməklə, onların sosial bacarıqlarını təkmilləşdirməklə və münaqişələrin həlli üçün müvafiq mexanizmləri təmin etməklə məktəbin nizam-intizam problemlərinin həllində mühüm rol oynayırlar (4, 10).

Xülasə, məktəb və sosial nizam-intizam problemləri şagirdlərin təhsil həyatında qarşılaşa biləcəkləri mühüm problemlər sırasındadır. Məktəblər şagirdlərə öz nizam-intizamının aşılanması, sosial bacarıqların öyrədilməsi, müvafiq mexanizmlərin yaradılması istiqamətində addımlar atmalı, ailələr isə bu məsələlərdə uşaqlarına dəstək olmalıdır. Beləliklə, şagirdlərin təhsil həyatı daha səmərəli və xoşbəxt keçə bilər.

Nəticə etibarıyla, məktəb və sosial nizam-intizam problemləri şagirdlərin təhsil həyatında qarşılaşa biləcəkləri mühüm problemlər olsa da, bu problemlərin həlli üçün atılacaq addımlar da çox əhəmiyyətlidir. Məktəblər şagirdlərə öz intizamını təmin etməli, onların sosial bacarıqlarını təkmilləşdirməli və müvafiq mexanizmlər yaratmalıdırlar. Lakin bu problemlərin həllində təkcə məktəblərin deyil, ailələrin də üzərinə məsuliyyət düşür.

Ailələr məktəbin nizam-intizam problemlərinin həllində, övladlarının öz intizamının təmin edilməsində, onların sosial bacarıqlarının təkmilləşdirilməsində, münaqişələrin həlli üçün müvafiq mexanizmlərin təmin edilməsində mühüm rol oynayır. Ona görə də məktəb və ailələr arasında əməkdaşlıq etməklə şagirdlərin daha məhsuldar və xoşbəxt təhsil həyatı yaşamasına kömək etmək olar.

Nəticədə məktəb və sosial nizam-intizam problemləri şagirdlərin təhsil həyatına təsir edən mühüm problemlərdir. Ancaq bu problemlərin həllində atılacaq addımlarla şagirdlərin daha məhsuldar və xoşbəxt bir təhsil həyatı yaşamaları mümkündür. Bu mövzuda birgə fəaliyyət göstərən məktəb və ailələr şagirdlərin yaxşı tərbiyə alaraq həyatları boyu qarşılaşacaqları çətinliklərin öhdəsindən gəlməyə kömək edəcəklər.

***Ədəbiyyat***

1. *Akman, Y. (2012). Okullarda disiplin sorunu: Nedenleri ve çözüm önerileri. Eğitim ve Bilim, 37 (164), 238.*
2. *Baş, G. (2014). Okul disiplin sorunlarına çözüm önerileri. Eğitim Bilimleri Araştırmaları Dergisi, 4(1), 231.*
3. *Kılıç, A., & Karadeniz, Ş. (2017). Okul disiplin sorunları ve öğretmenlerin bu sorunlarla başa çıkma yöntemleri. Mustafa Kemal Üniversitesi Sosyal Bilimler Enstitüsü Dergisi, 14(36), 233.*
4. *Tamer, M. (2015). Sosyal terbiye ve öğretmen. Eğitim ve Bilim, 40(179), 173.*
5. *Tuna, E. (2016). Okulda sosyal disiplin sorunları: Nedenleri ve çözüm önerileri. Mersin Üniversitesi Eğitim Fakültesi Dergisi, 12(1), 92.*

**G.R.Bağırlı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***gunay.bagirli@adpu.edu.az***

# TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ SİM (SAĞLAMLIQ İMKANLARI MƏHDUD) UŞAQLARIN MƏDƏNİ-KÜTLƏVİ TƏDBİRLƏRƏ CƏLB OLUNMASI

***Xülasə***

*Məqalədə Azərbaycandakı təhsil müəssisələrində keçirilən mədəni-kütləvi tədbirlərin fərdlərin inkişafında göstərdiyi təsirlərdən, eyni zamanda müəssisələrdə sağlamlıq imkanları məhdud (SİM) təhsilalanların bu tədbirə cəlb edilməsinin yollarından danışılır. SİM təhsilalanların sosial mədəni inkişafını təmin etmək məqsədi ilə təhsil ocaqlarında aparılması zəruri olan tədbirlər, keçirilən görüşlərdə bu qəbildən olan təhsialalanların da nəzərə alınmasının vacibliyi qeyd olunur. Xüsusən orta təhsil müəssisələrində sağlamlıq imkanları məhdud şəxslərin bacarıq və imkanlarına uyğun peşələrə yönəldilməsi məqsədi ilə keçirilən tədbirlərin onların həyatında hansı müsbət dəyişikliyə səbəb ola biləcəyi araşdırılır. Öz üzərində işləməyi, təkmilləşməyi, bilik-bacarıqlarını artırmağı qarşısına məqsəd qoyan təhsilalanları bu istiqamətdə ruhlandırmaq üçün hansı nüanslara diqqət edilməsi gərəkdiyi vurğulanır.*

# ВОВЛЕЧЕНИЕ ДЕТЕЙ С ОГРАНИЧЕННЫМИ ВОЗМОЖНОСТЯМИ В КУЛЬТУРНО-МАССОВЫЕ МЕРОПРИЯТИЯ В ОБРАЗОВАТЕЛЬНЫХ УЧРЕЖДЕНИЯХ

***Резюме***

*В статье говорится о влиянии культурно-массовых мероприятий, проводимых в учебных заведениях Азербайджана, на развитие личности, а также о способах привлечения учащихся с ограниченными возможностями в учреждениях к этим мероприятиям. В целях обеспечения социального и культурного развития учащихся с ограниченными возможностями упоминаются необходимые меры, которые необходимо принять в учебных заведениях, и важность учета особенностей таких учащихся на встречах. В частности, исследуется, какие положительные изменения в жизни людей с ограниченными возможностями здоровья могут быть вызваны принимаемыми мерами по направлению их к профессиям, соответствующим их навыкам и способностям, в общеобразовательных учреждениях. Подчеркнуто, на какие нюансы следует обращать внимание, чтобы побудить студентов, стремящихся работать над собой, совершенствоваться, повышать свои знания и навыки в этом направлении.*

# INVOLVEMENT OF DİSABLED CHİLDREN İN EDUCATİONAL İNSTİTUTİONS

***Summary***

*The article talks about the effects of cultural and mass events held in educational institutions in Azerbaijan on the development of individuals, as well as ways to involve students with disabilities in institutions to this event. In order to ensure the social and cultural development of disabled students, the necessary measures to be taken in educational institutions and the importance of considering such students in the meetings are mentioned. In particular, it is investigated what positive changes in the lives of people with disabilities can be caused by the measures taken in order to direct them to professions suitable for their skills and abilities in secondary educational institutions. It is emphasized what nuances should be paid attention to in order to encourage students who aim to work on themselves, improve, and increase their knowledge and skills in this direction.*

***Açar sözlər:*** *sağlamlıq, inklüziv, təhsilalanlar, tədbirlər, inkişaf*
***Ключевые слова:*** *здоровье, инклюзия, учащиеся, мероприятия, развитие*
***Key words:*** *health, inclusion, learners, measure, development*

Təhsil almaq hər kəsin hüququdur. Sağlamlıq imkanlarından asılı olmayaraq azyaşlıların təhsilə cəlb olunması bu gün Azərbaycan üçün xüsusi diqqət yetirildiyi məsələlərdəndir. Fiziki və əqli baxımdan heç bir diaqnozu olmayan uşaqlar təhsil müddətini rahat başa vurduğu halda SİM uşaqlar üçün bu heç də asan olmur. Xüsusi təhsilə ehtiyacı olan uşaqlar diaqnoz qoyulduğu andan etibarən xüsusi təhsil müəssisələrində təhsil alırlar. Bu müəssisələrə gedən uşaqlar sağlamlıq imkanları icazə verdiyi müddətcə sağlam uşaqların təhsil aldığı məktəblərdə də təhsilini davam etmək hüququna malikdirlər. Məktəb yaşı yaxınlaşdıqca məktəb təhsilinə də hazırlaşmaq həm uşaqlar, həm də onların valideynləri üçün olduqca ağır bir ərəfə olur. Lakin, nəzərə almaq lazımdır ki, vacib olan təkcə xüsusi qayğıya ehtiyacı olan uşağın hazırlanması deyil, həm də müəllimlərin və təhsil müəssisəsinin uşağa uyğun təhsil verməyə hazırlanmasıdır. Əlil uşağa öz potensialından maksimum istifadə etmək imkanı vermək mühüm tələbdir. Uğurlu inklüziv proqram üçün inklüziv təhsil verəcək müəllimin xüsusi təhsilə, xüsusi təhsilə ehtiyacı olan fərd və inklüzivliyə münasibəti nəzərə alınmalıdır. Müəllimlərin münasibəti inklüzivliyin effektivliyini şərtləndirən ən mühüm amillərdən biridir. Bir çox araşdırmalar göstərir ki, müəllimlərin inklüzivliyə mənfi münasibəti var. Sinif müəllimlərin inklüzivliyə mənfi münasibət bəsləməsinin əsas səbəbi onların bu barədə qeyri-adekvat və məlumatsız hiss etmələridir. Müəllimlər inklüziv təhsil üçün sinif otağına gələn uşaqla rastlaşdıqda onları nə gözlədiyini bilməlidirlər. Ona görə də inklüzivliyin ilk mərhələlərindən inklüziv təhsil verəcək müəllim də bu prosesə cəlb edilməli və onların ehtiyacları ödənilməlidir. Bu gün cəmiyyətdə

belə bir fikir formalaşıb ki, hər hansı sağlamlıq problemi olan uşaqları sağlam uşaqlar ilə eyni mühitə, məktəbə göndərmək düzgün deyil, onların xüsusi təhsilə yönləndirilməsi şərtdir. Lakin, təcrübə göstərir ki, əksinə, SİM uşaqların sağlam uşaqlarla birlikdə istər təhsil, istərsə də təhsildənkənar sosial məşğuliyyət, tədbirlərə qoşulması onların formalaşmağı üçün də düzgün addımdır.

Sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə hazırlanmasında əlbəttə ki, müəllimlər birbaşa rol oynayır. Bu müəllimləri yetişdirən isə təhsil müəssisələri, xüsusən pedaqoji yönümlü təhsil verən ali təhsil müəssisələridir. Bir müəllimi keyfiyyətli formalaşdırmaq cəmiyyətə yüzlərlə sağlam düşüncəli və savadlı fərd qazandırmaq deməkdir. Dünyada inkluziv təhsillə bağlı yaxşı praktikalar var. Həmin praktikalar bir çox dövlətlər üçün yol xəritəsidir. Məsələn, “Hərkəs üçün təhsil” hərəkatı Finlandiyada inkluziv təhsilin inkişafı sahəsində mühüm rol oynayıb. Günümüzdə Finlandiyada bütün uşaqlar eyni təhsil sisteminin içərisində yer alırlar. Böyük Britaniya, Fransa, Amerika Birləşmiş Ştatları, Avstraliyada xüsusi ehtiyacı olan şəxslər mümkün olan geniş və əhatəli təhsil sistemindən faydalanırlar. Bu məsələdə ən təsirli qiymətləndirmə, dərs proqramları, metodika və təhsil xidmətləri ilə yanaşı, ailə ilə məktəb arasında əməkdaşlığın forması, dərsdən sonra kütləvi yığıncaq və tədbirlərə cəlb olunma istiqamətində xüsusi diqqət də önəmlidir. Ölkəmizdə inklüziv təhsilin əhatə dairəsinin genişlənməsinə, belə məktəblərin sayının artırılmasına böyük ehtiyac var. Bu prosesdə müəllimlərdən də gözləntilər böyükdür. Çünki burada xüsusi, fərqli uşağın müəllimindən söhbət gedir. Psixoloji cəhətdən möhkəm, düzgün tədris edə bilən, dərsdən sonrakı tədbir və yığıncaqlarda maksimum səbrli və diqqətli olmağı bacaran müəllimlərin yetişdirilməsi hədəf istiqamətlərindəndir. Müəllimlər inklüziv təhsilin tətbiqində məktəb, uşaq və valideyn arasında körpü rolunu həyata keçirir. Onların cəmiyyətə qazandırdığı hər bir təhsilalan gələcəkdə yüzlərlə uşağın da formalaşmasında təsir rolunu oynayır. Bu uşaqların gələcəkdə peşə və əmək vərdişlərinə yiyələnməsi üçün təhsil müəssisələrində keçirilən mədəni-kütləvi tədbirlərə cəlb olunması onların cəmiyyət içində özlərini rahat, kompleksiz aparmasında böyük önəm daşıyır.

Təhsil müəssisələrindəki mədəni-kütləvi tədbirlərdə sağlamlıq imkanları məhdud təhsilalanların iştirakı nə üçün faydalıdır? Öyrənmə əks prinsip üzərində qurulur - fərdi fəaliyyət yüksək qiymətləndirilir, çünki bu yolla hər bir uşağın biliklərini qiymətləndirmək mümkündür. Qrup halında işləmək çox nadir haldır və çox vaxt ciddi layihələr yaratmaqdansa, bir oyun tapşırığını yerinə yetirmək deməkdir. Məlum olur ki, əvvəlki illərdə təhsil alan məktəblilər və tələbələr əksər hallarda həmkarları ilə ünsiyyət qurmağı və komandada nəticə əldə etməyi yalnız iş yerində öyrənirlər. Sağlamlıq imkanları məhdud uşaqlar üçün isə sonradan ünsiyyət qurmaq heç də asand olmur. Onlar

üçün bu mərhələ ali təhsili bitirənə qədər tamamlanmış olmalıdır. Onların cəmiyyətdə müəyyən bir statusa, yerə sahib olmaları üçün sağlamlıq imkanları yetərli olan uşaqlarla müqayisədə daha çox əzmli, iradəli çalışma tempində olmaqları mütləqdir. Unutmaq lazım deyil ki, bir qabiliyyətli insanın arxasında hər zaman başqa qabiliyyətli insanlar var. Məhz bu cür uşaqların da cəmiyyətdə rahat olmaları və inkişafı üçün yaşıdlarının dəstəyi ilə komanda şəklində çalışmaq və ünsiyyət qurmaq mütləqdir.

İnkişaf etməkdə olan ölkələrdə əlilliyi olan uşaqların əksəriyyəti məktəbə getmirlər. Məktəbdə oxuyanların çoxu öz ailələrindən, dostlarından və həmyaşıdlarlından uzaq olan xüsusi məktəblərdə təhsil alırlar. Buna baxmayaraq, əlilliyi olan uşaqlar adi məktəblərə getməyə başlayır. Bu məktəblərdə onlar oynayırlar, təhsil alırlar və əlilliyi olmayan həmyaşıdları ilə böyüyürlər (inklüziv təhsil). Bütün uşaqların ümumtəhsil məktəblərində keyfiyyətli təhsil almasını təmin etmək üçün biz məktəblərin hər bir şagirdin inkişaf və iştirakını təmin etdiyinə əmin olmaq üçün onların - məktəblərin fəaliyyətinə nəzər yetirməliyik. Bir çox müəllimlər, məktəb direktorları və valideynlər fiziki əlilliyi olan uşaqların məktəbə qəbul olmalarından narahat olurlar. Məktəblər şagird qəbulu, maliyyə və dəstəyə görə bir-biriləri ilə rəqabətdə olduqlarına görə (bu dünyanın bir çox ölkələrində belədir) inklüziv təhsilin məktəbdəki digər uşaqların fəaliyyətlərinə necə təsir edəyindən narahat olurlar. Buna baxmayaraq, əgər bütün məktəblər yaxın icmadan gələn uşaqlara yaxşı təhsil versələr, onlar bərabər səviyyədə rəqabət aparacaq və narahatlıqları aradan qalxacaq. Buna görə də inklüziv və uşaqyönümlü təhsilə məktəbin inkişafına bir yanaşma kimi baxılmalıdır: İnklüziya hər kəsin keyfiyyətli təhsillə təmin edilməsidir. Ümumiyyətlə, Dövlət Proqramı çərçivəsində beynəlxalq təşkilatlarla birlikdə həyata keçirilmiş layihələr Bakı şəhərində 220, 138, 202 və 252 nömrəli məktəblərdə reallaşdırılıb. Bundan başqa, Sumqayıtda 4 və 11 nömrəli məktəblərdə, Yevlax və Mingəçevir şəhərində inklüziv təhsil tətbiq edilirdi. Rəqəmlərdən də görünür ki, sağlamlıq imkanları məhdud uşaqların əsas hissəsi nəinki inklüziv təhsilə, ümumiyətlə təhsilə cəlb olunmayıb. Bu həmin uşaqların təhsil hüququnun birbaşa pozulmasıdır. 2005-2009-cu il üçün qəbul edilən Dövlət Proqramında qeyd edilir ki, xüsusi təhsil müəssisələrində təlim-tərbiyə ilə əhatə olunmuş uşaqların sayı (5535 nəfər) heç də ölkə üzrə real vəziyyəti əks etdirmir. Aparılmış təhlil göstərir ki, xüsusi qayğıya ehtiyacı olan uşaqların sayı 20 min nəfərə yaxındır və yalnız onların 27,6 faizi təhsil müəssisələrinə cəlb olunmuşdur. Həmin uşaqların qeydiyyatının aparılması və təhsilə cəlb edilməsi bu Proqramın əsas məqsədlərindən biri kimi müstəsna əhəmiyyət kəsb edir.

Kütləvi tədbirlərin faydaları, xüsusən SİM uşaqlar üçün olduqca böyükdür. Erkən yaş uşaqlarının hələ böyük bir kəşf etmək niyyəti olmasa belə, bu, onların komanda işi prinsipləri ilə tanış olmalarına imkan verir.

Qazanılan bu bacarıq gələcəyin möhkəm təməlinə çevrilir. Bir komandada, hər hansı bir insanla ortaq dil tapmaq xüsusi istedad tələb edir. Sağlam uşaqlar üçün bu heç də çətin olmur. SİM uşaqları üçün isə tədbirlərin təşkili prosesində iştirak etmək imkan verir ki, özlərində bu xüsusiyyəti formalaşdırsınlar. Brian Tracy – "Total Involvement" kitabının müəllifinin fikrincə, həyatdakı müvəffəqiyyətin sirlərindən biri, kiminləsə razılaşmamaq, ancaq özünü düzgün aparmaq bacarığıdır. Komanda işi bu incə sənəti mənimsəməyin ən yaxşı yoludur. Məhz bu səbəbdən təhsil müəssisələrinin dərsdən kənar məşğuliyyəti təhsilalanların sağlamlıq imkanlarına baxmadan inkişafına kömək etmiş olur. Qrup halında hər hansı bir tədbirdə iştirak və ya onun təşkil edilməsi bir komandada güclü və zəif tərəfləri aşkara çıxarmağa kömək edir. Qrupda yüksək nəticələr əldə etmək yalnız hər bir iştirakçı öz yerində olarsa mümkün olur. Bu səbəbdən SİM uşaqlar da özlərinə yer tuta bilmək üçün əzmlə çalışmaq məcburiyyətində qalır. Heç bir halda uşaqları heç bir şəkildə müqayisə edə biləcək tədbirlərə yol verilməməlidir. Bu yalnız bir-birinə qarşı şiddətə səbəb olacaq. Rəqabətli oyunların qurulması, tədbirlərin təşkilində maksimum diqqətli olmaqda fayda var. Xüsusən SİM uşaqların təhsil aldığı müəssisələr mədəni-kütləvi tədbirlərin istiqamətinin seçilməsində diqqətli olmalıdır. Uşaq özünü əhəmiyyətsiz hiss edərsə, rəqibə qarşı xoşagəlməz münasibət göstərər və buna icazə verilməməlidir. Uşaqlar üçün komanda qurma, bir komandadakı uşaqların bir-biri ilə yaxınlaşmasının və bir-biri ilə ünsiyyət qurmasının bir yoludur. Tədbirlər isə komandanı gücləndirmək üçün bir vasitədir.

"Xüsusi qayğıya ehtiyacı olan uşaqlar" ifadəsi ilə "əlilliyi olan uşaqlar" və ya "sağlamlıq imkanları məhdud olan uşaqlar" ifadələri sinonim təşkil edir. Yəni, bu məhdudiyyətlərə eşitmək, görmək, danışmaq, anlamaq, öyrənmək və ya hərəkət etmək qabiliyyətini çətinləşdirən şərtlər daxildir. İnteqrasiyaya cəmiyyətin üzvü olmaq və ya hərəkət etmək qabiliyyətini çətinləşdirən şərtlər daxildir. İnteqrasiya - cəmiyyətin üzvü olmaq və ona məxsus sahələrində iştirakını təmin edən qırılmış bağlantıların bərpa edilməsi prosesidir. Xüsusi qayğıya ehtiyacı olan uşaqların cəmiyyətə inteqrasiyası onların ilk növbədə təhsil müəssisələrinə cəlb edilməsindən başlayır. Təəssüf ki, bu gün Azərbaycanda SİM uşaqların cəmiyyətə adaptasiyası üçün valideynlər də çəkinir. Bu cür uşaqlardan utanmaq, bacaracağına inanmamaq, əskik görmək onların inkişafı üçün olan son ümidləri də yox etmiş olur. Sağlam uşaqlarla birlikdə təhsil almasına şərait yaratmaq onların sosiallaşması üçün mütləqdir. Onlara tədbirlərin təşkilində məsuliyyət yükləmək, hətta sağlam uşaqlarla birlikdə eyni məsuliyyət altına salmaq da onların inkişafı üçün müsbət təsir göstərir.

Sağlamlıq imkanları məhdud olan uşaqların düzgün başa düşülməməsi və onlara laqeydlik bu uşaqların ailələrində, icmada, məktəbdə və daha geniş

cəmiyyətdə təcrid olunmasına gətirib çıxarır. Odur ki, istər məktəb, istərsə təhsil orqanları, istərsə də valideynlər bu cəhəti nəzərə almalı və belə uşaqlardan, onların inklüziv təhsillərindən öz qayğılarını əsirgəməməlidirlər. Sağlamlıq imkanları məhdud olan uşaqlar tez yorulur, onların diqqəti yayınır və iş zamanı müxtəlif neqativ davranış xüsusiyyətləri özünü biruzə verir. Belə halların aradan qaldırılması və qarşısının alınması, həmçinin işgüzarlıq müddətini və səviyyəsini artırmaq üçün valideyn müxtəlif fəaliyyət növlərindən istifadə etməli və onları tez-tez dəyişməlidir. Ümumiyyətlə, sağlamlıq imkanları məhdud olan uşaqlar tərəfindən yerinə yetirilən tapşırıqlar onların həddən artıq yorulmasına və ya qıcıqlanmalarına gətirib çıxarmamalıdır. Odur ki, istirahət dəqiqələri hər hansı tapşırığın yerinə yetirilməsindən sonra aparılsa yaxşıdır. Bu həm də görülən işin səmərəliliyinə müsbət təsir göstərir, onlara özünəinam vərdişlərinin formalaşmasına gətirib çıxarar.

Əvvəllər belə bir mənfi tendensiya vardı ki, fiziki məhdudiyyəti olan uşaq cəmiyyətdən gizlədilirdi, valideynlər onlar barədə danışmaq istəmirdilər, ya da ki, bu uşaqlardan imtina olunurdu. Təəssüf ki, sonuncu hal da az yayılmamışdı. Elə olurdu ki, valideyn bu cür uşağının olduğunu hər kəsdən gizlətməyə çalışırdı. Amma ölkəmiz müstəqillik qazandıqdan sonra bu məsələyə dövlət səviyyəsində yeni münasibət sistemi formalaşdı. Artıq dövlət bu cür uşaqların cəmiyyətə, təhsil müəssisələrinə inteqrasiya etməsində maraqlıdır. Əlil uşaqların problemləri hər zaman dövlətin diqqətindədir. Bu gün ölkədə əlil uşaqlar üçün bir sıra işlər görülüb, onlar üçün şərait yaradılıb. Əlil uşaqlar müxtəlif yaradıcılıq mərkəzlərinə gedir, orada öz bacarıqlarını nümayiş etdirirlər. Bundan başqa, əlil uşaqlar üçün reabilitasiya mərkəzləri də fəaliyyət göstərir. Burada da fiziki qüsurlu uşaqlar məşğul olur. Dövlətimiz və ictimaiyyət əlil uşaqlara qayğı hissilə yanaşmaqla yanaşı, həm də onları adi insanların sırasında aktiv görmək istəyir. Dövlətin əlil uşaqlarla bağlı apardığı məqsədyönlü və humanist siyasət ictimai maraqların müdafiəsinə yönəlib. Çünki o əlil uşaqlar ictimaiyyətin daxilindən çıxıb və onların hərtərəfli müdafiəsi ictimaiyyətin maraqlarının dövlət tərəfindən təmin olunması deməkdir.

***Ədəbiyyat***


1. *www.unicef.org*
2. *Macit Ayhan Melekoğlu, Öğrenme güçlüğü ve özel yetenek, Akademi yayıncılık*
3. *Elif Sazak, Özel eğitimde sosyal uyum becerilerinin öğretimi*
4. *https://www.egitenkitap.com Özel eğitimde etkinliklerin faydaları makale*

**A.S.Bayramova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*bayramovaaynur2000@gmail.com*

# TƏRBİYƏ PROSESİNİN MƏKTƏBDAXİLİ İDARƏ EDİLMƏSİ

**Xülasə**

*Dissertasiya işi ibtidai siniflərdə şagirdlərin tərbiyə prosesinin idarə edilməsi, tərbiyə nəzəriyyəsində müasir yanaşmalar, tərbiyənin vəzifələri, üsulları və formaları, həmçinin tərbiyə prosesinin planlaşdırılması və məqsədyönlülük kimi məsələlərə həsr olunmuşdur.*

*Eyni zamanda tərbiyə prosesinin məktəbdaxili idarə edilməsi, mahiyyəti, elmi-nəzəri əsasları və tərbiyə prosesinin şagirdlərin idarə edilməsində subyekt kimi rolu təhlil olunmuşdur.*

*Dissertasiya işində tərbiyə prosesində dəyişikliklər, onların rolu və mövqeyi tədqiq olunmuşdur. Mövzunun təhlili aparılaraq vacib nəticələr əldə edilmişdir.*

# ВНУТРИШКОЛЬНОЕ УПРАВЛЕНИЕ ОБРАЗОВАТЕЛЬНЫМ ПРОЦЕССОМ

**Резюме**

*Диссертационная работа посвящена таким вопросам, как управление образовательным процессом учащихся начальных классов, современные подходы в теории образования, задачи, методы и формы обучения, а также планирование и целеустремленность образовательного процесса.*

*При этом были проанализированы внутришкольное управление образовательным процессом, его сущность, научно-теоретические основы и роль образовательного процесса как субъекта в управлении учащимися.*

*В дипломной работе изучены изменения в образовательном процессе, их роль и место. Важные результаты были получены при анализе темы.*

# IN-SCHOOL MANAGEMENT OF THE EDUCATIONAL PROCESS

**Summary**

*The dissertation is dedicated to issues such as management of the educational process of students in primary classes, modern approaches in the theory of education, tasks, methods and forms of education, as well as planning and purposefulness of the educational process.*

*At the same time, the in-school management of the educational process, its essence, scientific-theoretical bases and the role of the educational process as a subject in the management of students were analyzed.*

*Changes in the educational process, their role and position were studied in the thesis work. Important results were obtained by analyzing the topic.*

***Açar sözlər:*** *təlim, təhsil, tərbiyə, müasir yanaşmalar, tərbiyənin vəzifələri, üsul, subyekt*

***Ключевые слова:*** *обучение, воспитание, воспитание, современные подходы, задачи воспитания, метод и предмет*

***Key words:*** *training, education, education, modern approaches, tasks of education, method and subject*

İdarəetmənin elmi əsasını elmi biliklər sistemi təşkil edir. Elmi biliklər idarəetmə praktikasının nəzəri əsasını təşkil edir. Ümumiyyətlə, idarəetmə dedikdə məqsədəuyğun qərarlar qəbul etməyə, idarə olunan obyekti təşkil etməyə, ona nəzarət etməyə, tənzimləməyə yönəldilmiş fəaliyyət, düzgün informasiya əsasında işin təhlili və onun yekunlaşdırılması başa düşülür. Bioloji, texniki, sosial sistemlər idarəetmə obyekti ola bilərlər. Sosial sistemlərin növlərindən biri ölkə, şəhər, rayon və s. miqyasında fəaliyyət göstərən təhsil sistemidir.

Tərbiyə prosesinin məktəbdaxili idarə edilməsi mühüm əhəmiyyət kəsb edir. Məktəbi idarəetmə nəzəriyyəsi məktəbdaxili menecment nəzəriyyəsi ilə əhəmiyyətli şəkildə tamamlanır. Menecerin (məktəbi idarə edən) fəaliyyəti öz əməkdaşlarına hörmət və etibar əsasında, işdə uğur qazanmaq üçün onlara şərait yaratmaq əsasında qurulur.

Tərbiyə dedikdə, biz pedaqoji prosesdə həyata keçirilən müxtəlif növlü fəaliyyətin stimullaşdırılmasını və təşkilini nəzərdə tuturuq ki, onlar ictimai təcrübə əldə etmək üçün şəxsiyyətə imkanlar verir. O, bilik, bacarıq, sosial və mənəvi münasibətləri ilə formalaşır.

Tərbiyə cəmiyyətimizin demək olar ki, bütün sahələrində həyata keçirilir. Ailənin, uşaq bağçasının, ümumtəhsil məktəblərinin, texniki peşə məktəblərinin, orta, ali ixtisas məktəblərinin, kolleclərin, idarə, müəssisə və təşkilatların tərbiyə imkanları genişdir. Başqa sözlə, sadalanan ictimai qurumlar tərbiyənin həyata keçirildiyi yerlərdir.

Belə ki, tərbiyəçilər və tərbiyə olunanlar tərbiyənin iştirakçılarıdır. Valideynlər, müəllimlər, ustalar, idarə, müəssisə və təşkilatların rəhbərləri və s. şəxslər tərbiyəçilər kimi fəaliyyət göstərirlər.

Tərbiyə prosesi tərbiyəçilərin tərbiyə olunanlara fasiləsiz, sistematik ardıcıl təsiri prosesidir. Burada məqsədli iş sistemi qurulur. Tərbiyə işi insanın bütün həyatı boyu davam edir, nəticəsi gec görünən və insanın əməllərində özünü göstərən bir prosesdir.

Tərbiyə kompleks prosesidir. Bu o deməkdir ki, tərbiyə prosesinin məqsədləri, vəzifələri, məzmunu, forma və metodları vəhdətdədir. Bunların hamısı şəxsiyyətin tam formalaşması ideyasına tabedir. Şəxsiyyətin əxlaqi keyfiyyətlərinin formalaşması kompleks halda, vəhdətdə baş verir.

Planlaşdırma ən mühüm amil olub məktəbi idarə etməyin və ona rəhbərliyin zəruri tərkib hissəsidir. Planlaşdırma və məktəbə rəhbərlik

məsələləri məktəbin müəllim kollektivi ilə razılaşdırılır. Planlaşdırmanın əsasını əldə olan daxili və xarici informasiyalar təşkil edir. Məktəb işinin planlaşdırılmasında üç növ plan – cari, illik ve perspektiv plan nəzərdə tutulur. Perspektiv plan bir neçə il üçün tərtib edilir və burada aşağıdakı məsələlər öz əksini tapır:

- əvvəlki illərdə görülən işlərin təhlili;
- yeni illər üçün məktəbin ən zəruri vəzifələrinin müəyyən edilməsi;
- şagird kontingentindəki və sinif komplekslerində dəyişiklik;
- məktəbin inkişafının təşkilati pedaqoji problemi;
- təlim-tərbiyə işlərini təkmilləşdirmənin əsas istiqamətləri;
- pedaqoji kadrlarla iş;
- inzibati təsərrüfat işləri və məktəbin maddi texniki bazasının möhkəmləndirilməsi.

Müəllimlərin nəzarətinə cari, dövri, yekun nəzarəti daxil edilir. Cari nəzarəti müəllim hər gün dərsdə təşkil edir, sistemli şəkildə şagirdlərin bütün hərəkətlərini - müvəffəqiyyət və nöqsanlarını qeydə alır. Belə nəzarət sayəsində müəllim hər bir şagirdi, habelə kollektivi bir tam halında öyrənir. Dövri nəzarət, adətən bütöv bir mövzu, bölmə başa çatdıqdan sonra aparılır.

Yekun nəzarəti isə ilin sonunda kurs tamamlandıqda aparılır. Nəzarətdə məqsəd şagirdlərin bilik, bacarıq və vərdişlərinin keyfiyyətini yüksəltmək üçün əhəmiyyətli təkliflər hazırlamaqdır, müəllimlərin pedaqoji fəaliyyətinə düzgün istiqamət vərməkdir.

Təhsilin indiki məzmunu bütün peşələrdə şəxsiyyətin dünyabaxışının düzgün formalaşdırılmasına əngəl törədir, onun yüksək ixtisaslı mütəxəssis olmaq imkanını məhdudlaşdırır. Donub qalmış təhsil strukturları, formaları, elmi-pedaqoji fəaliyyətdə hökmranlıq edən mühafizəkarlıq, idrakla real həyat, diplom və attestatla biliklərin vəziyyəti qarşıdurma əmələ gətirmişdir.

Şagird, tələbə, müəllim, idarəetmə orqanları işçiləri, habelə valideynlərin pedaqoji əməyinin nəticələrinə görə məsuliyyət və cavabdehlik dairəsi aydınlaşdırılmışdır. Əməyin düzgün qiymətləndirilməsi mexanizmi yaradılmışdır. Respublikada təhsilin məzmununda milli xüsusiyyətlər kifayət qədər nəzərə alınmamış, bu işin elmi-pedaqoji strategiyası yüksək səviyyədə işlənməmişdir. Təhsilin təşkili və idarə edilməsində inzibati amirlik metoduna üstünlük verilmiş, məktəb həyatının demokratikləşdirilməsi istiqamətində həyata keçirilən tədbirlər kosmetik təmir xarakteri daşıyır.

Lakin irəli atılan addımlarla yanaşı, məktəb şuralarının fəaliyyətinin bugünkü səviyyəsi onların qarşısında duran vəzifələrə lazımi cavab vermir. Bu da hər şeydən əvvəl məktəb şuralarının fəaliyyətinin pedaqoji şuranın fəaliyyətini bir növ təkrar etməsi və inzibati-amirlik metodlarından xilas ola bilməyin nəticəsidir. Ancaq belə bir məsələyə diqqət yetirmək lazımdır ki, məktəb şurası məktəbin kollektivinə, onun müstəqilliyinin

məhdudlaşdırılmasına qarşı hər cür inzibati-komanda əmrlərinə qarşı yaradılmış bir orqan olduğu halda, onun özünün belə bir alətə çevrilməsi düzgün deyildir və bu şuranın əsas məqsədini həyata keçirməyə imkan verməyəcəkdir. Buna görə də məktəb şurasının fəaliyyəti, hər şeydən əvvəl, demokratik prinsiplər əsasında qurulan bir orqan olmalıdır.

Təlim, tərbiyə və inkişafın bütövlüyü və ümumiliyi əsasında vəhdətinin təmin edilməsi pedaqoji prosesin əsas mahiyyətidir.

**Məqalənin aktuallığı.** Tərbiyəçilər və tərbiyə olunanlar tərbiyənin iştirakçılarıdır. Valideynlər, müəllimlər, ustalar, idarə, müəssisə və təşkilatların rəhbərləri və s. şəxslər tərbiyəçilər kimi fəaliyyət göstərirlər. Tərbiyənin daima əhəmiyyəti, vacibliyi və dərs prosesində istifadə edilməsi ön plana çəkilir. Bu isə məqalənin aktuallığını əks etdirir. Pedaqoji proses kimi tərbiyə hər zaman diqqət mərkəzində durur və aktual proseslərdəndir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik, təhsil prosesində baş verən yeniliklər, tərbiyə təhsilin keyfiyyətinin daha da inkişaf etdirilməsində, yüksəldilməsində, eyni zamanda, bütün fənlərin tədrisində tətbiqinin mühümlüyü məsələsindən ibarətdir. Bu da ibtidai siniflərdə şagirdlərin tərbiyə prosesinin idarə edilməsi, tərbiyə nəzəriyyəsində müasir yanaşmalar, tərbiyənin vəzifələri, üsulları və formaları, həmçinin tərbiyə prosesinin planlaşdırılması və məqsədyönlülük kimi məsələlərinin mühüm və vacib rolunu əks etdirir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbə və magistrantlar istifadə edə bilərlər. Məqalə hər zaman üçün aktualdır. Çünki tərbiyə məsələləri hər zaman diqqət mərkəzindədir.

## NƏTİCƏ

Tərbiyə məqsədyönlü, geniş bir anlayış və prosesdir. Tərbiyənin məqsədi tərbiyə olunana yaxın və aydın olanda prosesin təşkili ən yüksək səmərəni təmin edir.

Tərbiyə çoxamilli prosesdir. Bu prosesdə çoxlu obyektiv və subyektiv amillər özünü göstərir. Şəxsiyyətin daxili tələbatını ifadə edən subyektiv amillərin şəxsiyyətin yaşadığı obyektiv şəraitə uyğun gəlməsi tərbiyə vəzifələrini uğurla həll etməyə kömək edir.

Tərbiyə dialektik prosesdir. Belə ki, ibtidai siniflərdə şagirdlərin tərbiyə prosesinin idarə edilməsi, tərbiyə nəzəriyyəsində müasir yanaşmalar, tərbiyənin vəzifələri, üsulları və formaları, həmçinin tərbiyə prosesinin planlaşdırılması və məqsədyönlülük kimi məsələlər hər zaman aktual problemlərdəndir. Bu onun fasiləsiz inkişafında, dinamikliyində, dəyişkənliyində özünü göstərir.

Tərbiyə prosesi çoxçalarlı, dinamik və dəyişkən prosesdir. Bu prosesdə bir tərəfdən sosial-psixoloji, digər tərəfdən pedaqoji əlaqə və asılılıqlar özünü

göstərir. Bu əlaqə və asılılıqlar bir-biri ilə sıx surətdə bağlıdır. Onları nəzərə almadan tərbiyə prosesini düzgün təşkil etmək olmaz. Sosial əlaqə və asılılıqlar dedikdə, tərbiyə prosesinin gedişində şagirdlərin ictimai sərvətləri mənimsəməsi zamanı özünü göstərən əlaqələr və asılılıqlar nəzərdə tutulur.

Tərbiyə fəaliyyətində xüsusi, təşkilati cəhətindən söhbət getdikdə, adətən, burada müəyyən şəxsiyyətin formalaşmasına olan təsir assosiasiyası nəzərdə tutulur. Tərbiyə ənənəvi olaraq xüsusi inkişaf edən şəxsiyyətə, onun formalaşması məqsədi ilə cəmiyyət tərəfindən müəyyənləşdirilmiş sosial xassə və keyfiyyətinə pedaqoji təsiridir.

Tərbiyə dedikdə, biz pedaqoji prosesdə həyata keçirilən müxtəlif növlü fəaliyyətin stimullaşdırılmasını və təşkilini nəzərdə tuturuq ki, onlar ictimai təcrübə əldə etmək üçün şəxsiyyətə imkanlar verir. O, bilik, bacarıq, sosial və mənəvi münasibətləri ilə formalaşır.

***Ədəbiyyat***

1. *Mehdizadə M.M. Şagird şəxsiyyətinin hərtərəfli və ahəngdar inkişafı haqqında. // Azərbaycan məktəbi. 1982, №9.*
2. *Həsənov A.Ə., Ağayev Ə.Ə. Pedaqogika. Bakı, Nasir, 2007, 496 s. 11-28 səh.*
3. *Həsənova S.H. Kiçikyaşlı məktəblilərin davranış mədəniyyəti üzrə işin imkanları və yolları. Bakı: APİ 1991.*
4. *Ağayev M., Nəzərov A. Qabaqcıl təcrübənin ünvanı. Bakı, 2004.*
5. *https://aztehsil.com/mel/577-trbiy-prosesinin-sciyyvi-xsusiyytlri.html*
6. *Abdullayev A., Abdullayeva S., İbtidai təhsilin pedaqogikası. Bakı: 2016*
7. *Azərbaycan Respublikasında ali təhsilin bakalavr pilləsində ibtidai sinif müəllimlərinin hazırlığı üzrə çərçivə Kurikulumu. Bakı, 2008.*

**X.Q.Ağabalayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***khanim.aghabalayeva@gmail.com***

# KOQNİTİV İNKİŞAF ANLAYIŞININ MAHİYYƏTİ

***Xülasə***

*Məqalədə koqnitiv inkişaf anlayışı və onun mahiyyəti araşdırılmışdır. İbtidai məktəb yaşındakı təhsil fəaliyyəti, ilk növbədə, ətrafdakı reallıq - hisslər və qavrayışlar haqqında birbaşa bilik prosesləri və funksiyalarının inkişafını stimullaşdırır. Bu yaşda olan uşaqlar qavrayışın kəskinliyi və təravəti ilə, sözdə təfəkkürlü maraqla fərqlənirlər. Onların xarakterik xüsusiyyəti qavrayışın açıq emosionallığıdır.*

# СУТЬ КОНЦЕПЦИИ КОГНИТИВНОГО РАЗВИТИЯ

***Резюме***

*В статье рассматривается понятие когнитивного развития и его сущность. Учебная деятельность в младшем школьном возрасте в первую очередь стимулирует развитие непосредственных процессов и функций познания об окружающей действительности - чувств и представлений. Дети этого возраста отличаются остротой и свежестью восприятия, так называемым вдумчивым интересом. Их характерной чертой является открытая эмоциональность восприятия.*

# THE ESSENCE OF THE CONCEPT OF COGNİTİVE DEVELOPMENT

***Summary***

*The article examines the concept of cognitive development and its essence. Educational activity at primary school age primarily stimulates the development of direct knowledge processes and functions about the surrounding reality - feelings and perceptions. Children of this age are distinguished by the sharpness and freshness of perception, so-called thoughtful interest. Their characteristic feature is open emotionality of perception.*

***Açar sözlər:*** *uşaq, koqnitiv inkişaf, məktəb, mahiyyət, təlim*

***Ключевые слова:*** *ребенок, познавательное развитие, школа, сущность, обучение*

***Key words:*** *child, cognitive development, school, essence, training*

Təlim zamanı qavrayış yenidən qurulur, daha yüksək inkişaf səviyyəsinə yüksəlir, məqsədyönlü və idarə olunan fəaliyyət kimi xarakterizə

olunmağa başlayır. Məktəbdə təhsil prosesində qavrayış daha çox təhlil, fərqləndirici olur və mütəşəkkil müşahidə xarakteri alır. İbtidai sinif şagirdlərinin əsas yaş xüsusiyyəti könüllü diqqətin zəifliyidir. İbtidai məktəb çağının başlanğıcında diqqətin iradi tənzimlənməsi, onun idarə edilməsi məhduddur. Qeyri-ixtiyari diqqət uşaqlarda daha yaxşı formalaşır. Koqnitiv inkişaf isə uşağın ümumi zehni inkişafının və onun idrak bacarıqlarının dəyişməsi ilə əlaqəli aspektidir (6, s.205).

Koqnitiv inkişafın əsası və məhsulu olan idrak strukturu idrak fəaliyyətində fərqli rütbə və statusa malikdir. Onların dərəcələrinə görə idrak strukturları daha sadə və ya mürəkkəb ola bilər. Koqnitiv strukturun statusu onun idrak prosesində tutduğu yer və ya çəki ilə müəyyən edilir. Koqnitiv strukturun dərəcəsi və statusu idrak strukturunun hazırkı vəziyyətini xarakterizə edən idrak səriştəsini təşkil edir və növbəti "inkişaf mərhələsi" olan idrakın yenidən qurulması üçün zəruri tələbdir. Prosedur tərəfdən koqnitiv inkişaf idrak strukturlarının rütbəsinin artmasında, sadədən daha mürəkkəb idrak strukturlarına keçiddə ifadə olunur. İnkişaf zamanı daha mürəkkəb koqnitiv strukturların statusunda artım müşahidə olunur. Koqnitiv inkişafın dizaynı idrak strukturlarının vaxtında transformasiyasını asanlaşdırmağa və daha yüksək səviyyəli strukturları gücləndirməyə yönəlmiş fəaliyyət kimi qəbul edilə bilər. Beləliklə, maraq, adətən insanın öz fəaliyyətinə müsbət qiymətləndirici münasibəti kimi müəyyən edilir. Koqnitiv inkişaf öyrənmənin mühüm motivlərindən biri, sabit şəxsiyyət xüsusiyyəti və effektiv öyrənmə vasitəsi kimi qəbul edilə bilər. Koqnitiv inkişaf mərhələlərlə baş verir.

- Bir sıra hallarda təhsilə, təlim prosesinə ayrılan diqqətin tərbiyə işinə göstərilən diqqət və qayğı ilə müqayisədə üstünlük təşkil etməsi və s.

Məqsədyönlü ideoloji tərbiyə gənclərdə dünyagörüşünün və mənəvi dəyərlərin aşılanması, onlara öz xalqının tarixi irsi və yaradıcı əməyinə düzgün münasibətin formalaşması ilə bağlı fəaliyyətin əhəmiyyətini və səmərəliliyini yüksəldir.

Müasir dövrümüzdə yeniyetmə və gənclərdə xalqımızın tarixinə və mədəniyyətinə düzgün münasibət formalaşmaqdadır, onların üzv olduqları vətəndaş cəmiyyəti ölkənin azadlığı və dövlətin müstəqilliyi, humanizm və həmrəylik, tolerantlıq və milli barışıq, ailə institutu və konfessional ənənələrə hörmət, vətənpərvərlik kimi ümumi dəyərlər ətrafında birləşməkdədir.

***Ədəbiyyat***

1. *Ağayev Ə. Təlim prosesi: Ənənə və müasirlik. Bakı, 2006.*
2. *Qaralov Z. Tərbiyə (prinsiplər, məzmun, metodika), I, II, III cild. Bakı, 2003.*
3. *Mərdanov M. Azərbaycan təhsil sistemi: real vəziyyət, problemlər və islahat istiqamətləri. Bakı, 2005.*
4. *Mehrabov A., Abbasov Ə., Zeynalov Z., Həsənov R., Pedaqoji texnologiyalar. Bakı, 2006.*
5. *Nəzərov A., Məmmədov R. Pedaqoji ustalıq. Dərs vəsaiti. Bakı, 2008.*
6. *Nəzərov A., Mollayeva E. Müasir dövrün təhsil problemləri. Dərs vəsaiti. Bakı, 2011.*

**F.S.Rzayeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***fidanrzayevaa77@gmail.com***

# İNGİLİS DİLİNDƏ İDİOMLARIN ROLU VƏ TƏDQİQİ ZAMANI YARANAN ÇƏTİNLİKLƏR

**Xülasə**

*Xarici dil öyrənən zaman idiomlar dilin əsas tərkib hissəsini təşkil edir və ünsiyyət zamanı cümlənin təsir gücünün artmasına gətirib çıxarır. İdiomlar, əsasən dildə gündəlik danışıq zamanı istifadə olunan hazır ifadələrdir ki, bu ifadələri bəzən anlamaq olmur. İngilis dili öyrənən zaman da bu ifadələri öyrənmək, onların ana dilində qarşılığını bilmək əhəmiyyətlidir. Bu məqalədə ingilis dilində istifadə olunan idiomlardan,onların rolu,əhəmiyyəti və Azərbaycan dilindəki qarşılıqlarından bəhs edilmişdir. Bundan əlavə olaraq bəzi alimlərin, dilçilərin mövzuya dair fikirlərindən, tədqiqatlarından bəhs edilmiş və müasir dövrlə qarşılaşdırılmışdır.*

# РОЛЬ ИДИОМ В АНГЛИЙСКОМ ЯЗЫКЕ И ПРОБЛЕМЫ, ВОЗНИКАЮЩИЕ В ИССЛЕДОВАНИЯХ

**Резюме**

*Во время изучения иностранного языка, идиомы составляют основую часть, и во время общения способствуют усилению влияния предложения. Идиомы-это в основном готовые выражения, используемые в ежедневном общении,которые иногда не могут быть понятны. Во время изучения английского языка, важно учить эти выражения и их замены на родном языке. В этой статье повествуется об идиомах, используемых на английском языке, их роль,важность и замена на азербайджанском языке. Более того, были обсуждены и сравнены с современной эпохой мнения и исследования некоторых ученых и лингвистов.*

# THE ROLE OF IDIOMS IN ENGLISH AND CHALLENGES ARISING IN RESEARCH

**Summary**

*Idioms are the main parts of the language while learning a foreign language and increase in the impact of the sentence during communication. Idioms are mainly ready-made expressions used in the daily conversation in the language, which sometimes can not be understood. When learning English it is important to learn these expressions and know their equivalent in the mother tongue. This article is about idioms used in English, their role, importance and equivalent in Azerbaijani. In*

*addition, the opinions and researches of some scientists and linguists on the topic were discussed and compared with modern era.*

***Açar sözlər:*** *ingilis dili, idiom, tərcümə, mədəniyyət, problemlər*
***Ключевые слова:*** *английский язык, идиом, перевод, культура, проблемы*
***Key words:*** *english, idiom, translation, culture, problems*

Əksər dillərdə olduğu kimi ingilis dilində də idiomlar dilin lüğət tərkibinin böyük bir hissəsini təşkil edir. Ümumiyyətlə, idiom nədir?, harada və necə istifadə olunur? və s. kimi suallara cavab tapmaq zərurəti yaranır. İdioma tərif versək deyə bilərik ki, idiomlar köçürülmüş məna daşıyan frazeoloji vahidlərdir. Misal olaraq "kill two birds with one stone" ifadəsində "bir daşla iki quş vurmaq" mənasına gələn ifadəni görürük və buradan aydın olur ki, hər hansı bir şəxs iki işi və ya tapşırığı eyni zamanda həll edir. Müasir ingilis dilində idiomların rolu əvəzsizdir, işlənmə dairəsi isə çox genişdir. Yazılı nitqdə idiomların, frazeoloji birləşmələrin işlədilməsi qeyri-formal hesab olunsa da, şifahi nitqdə istifadə olunan əksər cümlələrdə ifadələr, idiomlar və ya məcazi mənalı sözlər çoxluq təşkil edir. Dildə idiomların rolunun əhəmiyyətli olmasının səbəbi onların dilə təsir gücüdür ki, danışıq zamanı hər hansı bir cümlədə idiomların işlədilməsi həmin cümlənin daha təsirli, emosional olmasını, dilin təsir gücünün artmasını göstərir. Danışıq zamanı bəzi idiomların mənasını hərfi tərcümə edərkən tapmaq olursa, digər idiomların mənasını hərfi tərcümə ilə tapmaq çox çətindir. Buna misal olaraq "be in the same boat" (eyni gəmidə olmaq)" ifadəsini göstərmək olar. Bu nümunədə ifadənin "eyni gəmidə olmaq" kimi hərfi tərcümə olunması ilə yanaşı daha idiomatik yəni, daha məcazi bir mənasıda vardır. "I found this problem difficult at first, but we were all in the same boat" cümləsində isə "problem ilk dəfə mənə çətin gəldi, amma hamımız eyni vəziyyətdə idik" kimi tərcümə olunduğunu görürük. İdiomların danışıqda rolu, onların öyrənilməsi, tərcümə zamanı yaşanan problemlər hər zaman dilçilərin, tədqiqatçıların diqqətini cəlb etmişdir. Bu mövzu üzrə A.V.Koonin, V.V.Vinoqradov, V.N.Teliya və s. azərbaycanlı alimlərdən isə Q.Kazımov, Y.Seyidov və başqaları tədqiqat işi aparmışlar. Bundan əlavə demək olar ki, tədqiqat zamanı idiomlar gündəlik istifadə olunan dil vahidləri kimi deyildə, ədəbi dilin elementi kimi tədqiq olunur. Lakin hal-hazırda bir çox koqnitiv sahəni inkişaf etdirən dilçilər idiomları gündəlik nitqin bir hissəsi olduğunu vurğulayaraq onları daha dərindən təhlil etməyə başlamışdılar. İngilis tədqiqatçıları isə idiomları dil anomaliyaları kimi təsvir edirlər.

Yuxarıda qeyd olunanlara əsasən demək olar ki, ingilis dili idiomlarla zəngindir və mədəniyyət dəyişdikcə, inkişaf olduqca dildən bəzi idiomlar çıxır, köhnəlir, bəzi idiomlar isə daha da dilə nüfuz edir. İdiomlar dildə daha çox yayılmağa başladıqca artıq onun nüfuz dairəsi genişlənir, həddən artıq istifadə

olunur və dildə klişelərə çevrilir. Buna misal olaraq “when pigs fly”, “a piece of cake” kimi idiomları göstərmək olar. Hər bir ölkənin öz mədəniyyəti, qayda-qanunları vardır ki, ingilis dilində də idomları istifadə edən zaman dilin qayda-qanunlarını, ölkə mədəniyyətini bilmək lazımdır. Yazılı və ya şifahi nitqdə bu kimi problemlər tərcümə zamanı da çətinlik yaradır və bəzən danışanın nə dediyini, fikrini anlamaq başa düşülən olmur.

Bir sıra dilçilər vurğulayır ki, bəzi insanlar dilin qaydalarını mükəmməl şəkildə bilməsinə rəğmən dildə ünsiyyət qura bilmirlər. C.Cacciari bunun səbəbini dili ikinci dil olaraq öyrənməkdə görür və idiomların ana dilində daha başa düşülən, xarici dil öyrənənlər üçünsə daha qəliz olduğunu iddia edir.

Hal-hazırda demək olar ki, ingilis dilində 25 000-dən çox idiom var və onların əksəriyyətini anlamaq,yadda saxlamaq qeyri-mümkündür. Qeyd etmək vacibdir ki, idiomlar dilin bir hissəsini təşkil edir və həmin ifadələri bilmək danışanın fikrini, emosiyalarını daha dərindən anlamağa kömək edir. Bu idiomlar bəzən hərfi, bəzən məcazi məna ifadə edə bilər və buna görə də metafora idiomların əsas xüsusiyyəti kimi başa düşülür. Misal olaraq “hold your tongue (dilini tut)” ifadəsini göstərmək olar. Dili bilməyən bir şəxs bu ifadəni hərfi tərcümə edərkən onun məcazi mənada olduğunu anlamayacaq və bu bir sıra problemlərə gətirib çıxaracaq. İdiomları öyrənən zaman onları lüğətlərdən və ya bir sıra kitablardan mənimsəmək olar. Lakin bəzi tədqiqatçılar, xüsusilə M.Makkartiyə görə dili bu üsulla, yəni lüğətlərdən öyrənmək uşaqlar üçün çox maraqsızdır.

İngilis dilində idiomların rolu danılmazdır və onlar dilə müxtəlif yollarla daxil olmuşdular. Onların dilə daxil olmasının əsas səbəbi antik dövrdə insanların yazılı nitqdən istifadə etməməsi və praktiki olaraq savadsız olmaları idi. Lakin idiomlar uzun illər o qədər istifadə olunmuşdur ki, artıq onların dildə idiomatik ifadə olduğunu anlamaq olmur. Müvafiq olaraq idiomlar dildə tez-tez işlədilərək nəsildən-nəsilə ötürülmüşdür. Digər tərəfdən bu ifadələr dilə yazıçılar tərəfində daxil edilmiş, İncildə isə mənşəyini tapmışdır. İdiomlar xüsusi ilə dildə danışanın öz fikrini daha səlis, doğru ifadə etməsinə imkan verir. Misal olaraq “you are correct (düz deyirsən)” deməkdənsə, “you hit the nail on the head” demək daha maraqlı və təsirli bir ifadədir. J.Lionun dediyi kimi məcazi ifadələri anlamadan danışanı başa düşmək, ünsiyyət zamanı iştirak qeyri-mümkün olur.

İdiomların əhəmiyyətindən danışarkən onların daxili xüsusiyyətlərini də nəzərə almaq lazımdır. Bir idiomun cümlədə işlədilməsi və onun kəsb etdiyi məna həmçinin bir sözün mənasına bərabər ola bilir. İdiomları cümlədə ayırmaq, bölmək və ya dəyişdirmək mümkün olmur, çünki onlar dildə hazır şəkildə olan ifadələrdir. V.Çeyf, N.Nayak, Q.Nunberq və başqaları idiomatik və qeyri-idiomatik ifadələrin xüsusiyyətləri haqqında daha ətraflı fikirlər söyləmişlər. Beləliklə, araşdırmalar əsasında idiomları iki qrupa bölmək olar:

1. Tərkib hissəsinə görə ayrılmayan ifadələr. (face the music)
2. Tərkib hissəsinə görə ayrılan ifadələr. (make someone's blood boil)

Birinci qrup idiomlar donmuş ifadələrdir və bu ifadələrin tərkibinə başqa söz əlavə etmək mümkün deyil. İkinci qrup idiomların isə tərkib hissələri fərdi məna daşıyır.

İkinci bir yanaşmaya əsasən C.Fernardo idiomları üç qrupa bölmüşdür:

1. Saf idiomlar
2. Yarım idiomlar
3. Hərfi idiomlar

Nəticə olaraq belə qərara gəlmək olar ki, idiomlar dildə xüsusi bir bölməni təşkil edir və onların tədqiqi hər zaman aktual bir mövzu olmuşdur. Qeyd edilməlidir ki, idiomlar həmçinin təhlil olunmayan bir vahid kimi işlənilir və onlarda bəzi sintaktik dəyişikliklər aparıla bilər. Bu kimi problemlərə əsaslanaraq idiomların əsas tədqiqində çətinlik törədən amillərdən birinin də məhz onların məchul növ kimi sintaktik dəyişikliyə məruz qalmasıdır. Bəzi idiomlar məchul növ kimi sintaktik dəyişikliyə məruz qalarkən, bəzilərində isə belə dəyişikliklər mümkün deyil.

İdiomlar və ya hər hansı bir frazeoloji birləşmənin yaranmasının əsas səbəbi insan beynindəki şüurun həcmi ilə müəyyən edilir. Bununla bərabər bu kimi frazeoloji vahidlərin yaranmasının əsas səbəbi şüurda həkk olunmuş obrazlardır.

***Ədəbiyyat***

1. *Cacciari C., Tabossi P. Idioms: processing, structure, and interpretation. Lawrence Erlbaum Associates, Inc., 1993*
2. *Cutler A. Idioms: the colder the older.*
3. *Fernando C. Idioms and Idiomaticity. Oxford: Oxford University Press, 1996*
4. *Richards J.C., Schmidt R. Longman dictionary of language teaching and applied linguistics. London: Pearson, 2010*

**L.İ.Namazova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*lamiye.namazova@inbox.ru*

# MİLLİ AİLƏ DƏYƏRLƏRİ

***Xülasə***

*Ailə təkcə hər hansı bir sivilizasiyanın bünövrəsi deyil, həm də milli-mənəvi idealların anbarıdır. Ailə bir sistem olaraq çoxşaxəli əlaqələrdən ibarətdir. Bu, nənə və babaları, müxtəlif nəsillərin nümayəndələrini və qohumları özündə birləşdirən, valideyn-övlad münasibətlərindən asılı olmayaraq valideyn-övlad əlaqələrini ifadə edən hərtərəfli sistemdir. Müasir dünyada ailə institutu sosial, mədəni və siyasi inkişafları əks etdirən sosial institut kimi fəaliyyət göstərir. Bu səbəbdən zamanın çağırışlarına uyğun olaraq ailə institutunun funksiyalarına mütəmadi olaraq yeni elementlər daxil olur. Ailə mənsub olduğu xalq və millət haqqında ilkin təsəvvürləri formalaşdırır. Bu məqalədə ailənin milli-mənəvi idealları təcəssüm etdirib ötürməyindən, uşaqların ilk təhsil və tərbiyəsini almağından, şəxsiyyətlərin formalaşdığı yer olan ailədən bəhs olunur.*

# НАЦИОНАЛЬНЫЕ СЕМЕЙНЫЕ ЦЕННОСТИ

***Резюме***

*Семья является не только ядром любого общества, но и носителем национальных и нравственных ценностей. Семья как система включает в себя многосторонние отношения. Это широкая система, включающая бабушек и дедушек, представителей разных поколений и родственников, выражающая отношения между родителями и детьми в отдельности, а также детско-родительские отношения. В современном мире институт семьи выступает как динамичный социальный институт, отражающий социальные, культурные и политические изменения. По этой причине в соответствии с требованиями времени в функции института семьи регулярно включаются новые элементы. Семья формирует первоначальные представления о народе и нации, к которой она принадлежит. В данной статье говорится о семье, воплощающей и передающей национальные и нравственные идеалы, о первом образовании и воспитании детей, о семье, являющейся местом формирования личности.*

# NATIONAL FAMILY VALUES

***Summary***

*The family is not only the core of every society, but also the bearer of national and moral values. The family as a system includes many-sided relationships. It is a broad system that includes grandparents, representatives of different generations, and relatives, expressing the relations between parents and children separately, as well as parent-child relations. In the modern world, the family institution acts as a dynamic social institution reflecting social, cultural and political changes. For this reason,*

*according to the demands of time, new elements are regularly included in the functions of the family institution. The family forms the initial ideas about the people and nation to which it belongs. This article talks about the family embodying and transmitting national and moral ideals, the first education and upbringing of children, and the family, which is the place where personalities are formed.*

***Açar sözlər:*** *ailə, qadın, uşaq, adət-ənənə, dəyər*
***Ключевые слова:*** *семья, женщина, ребенок, традиция, ценность*
***Key words:*** *family, woman, child, tradition, value*

Sağlam ailə sağlam cəmiyyətin göstəricisidir. Beləliklə, sağlam ailə cəmiyyətin və dövlətin təməlidir. Müasir qloballaşma və müasirlik dövründə bu məsələdə valideynlərin üzərinə mühüm vəzifə düşür. Ailələr texnologiya və iqtisadi tərəqqinin, eləcə də qloballaşmanın yaratdığı problemlərlə üzləşirlər. Bu problemləri tanımayan, yarandığı zaman onları həll edə bilməyən xalqların yaşayaraq öz dəyərlərini, adət-ənənələrini gələcək nəsillərə ötürməsi şübhəli görünür. Milli-mənəvi prinsiplərdən biri qloballaşmanın pəncələri arasında itəndə ailə mühitindəki korrupsiya zaman keçdikcə bütün cəmiyyətə yayılır.

Samirə Qarayeva (2021) öz elmi məqaləsində Azərbaycan ailələrində evlilik münasibətlərində qadınların rolundan və Azərbaycanda milli ailə dəyərlərindən bəhs edir. O qeyd edir ki, XX əsrin ilk yarısına qədər qadınlar əmək bazarına çıxış əldə edən zamandan öncəki dövrdə Azərbaycanda ailə dəyərləri tamamilə indikindən fərqli və xeyli konservativ prinsiplərə əsaslanırdı. Belə ki, kişilər qadınlardan üstün hesab edilirdi, qadınlar məişət işlərinə cəlb edilər və onların hüquq və azadlıqları xeyli məhdud olurdu, habelə cəmiyyət arasında "qız uşağına bunlar olmaz" deyilərək qadın cinsinə qoyulan qadağalar və basqılar məhz ailə dəyərləri olaraq tanınırdı (7).

Yuxarıda Qarayevanın bəhs etdiyi ailə dəyərləri əslində ənənəvi ailə dəyərləri adlanır. Günümüzdə bu dəyərləri məhz cari dövrün şərtlərinə adaptasiya olunmuş yeni – müasir dəyərlər tutdu.

Bir vaxtlar böyüklərin yanında ailə qayğısını göstərməyin qeyri-etik sayıldığı bir tendensiya artıq qayğısız bir ailə mühitinin qeyri-sağlam fərdlər yetişdirdiyi tendensiya ilə əvəz edildi.

Qayğı baxımından əskiklik yaşanılan ailələrdə sevgi, hörmət və etibar, qarşılıqlı anlayış yerinə paxıllıq, iqtsiadi maraqlar ikiüzlülük, xəyanət və xudbinlik kimi hisslər ortaya çıxır və bu da ailələri faciəyə sürükləyir. Belə ki, fərdlər sədaqət, ədalət, şəfqət və mərhəmət hisslərini itirdikdə onların sülh, sakitlik və hörmət içində bir arada yaşamaları qeyri-mümkün olur.

Nəticə etibarı ilə valideynlərdən övladlarının təhsilində və öz ölkəsini təmsil etmək mövqeyində keçmişlə müqayisədə daha çox rol almaları tələb olunur. Ailənin ictimai formalaşmada ən nüfuzlu mövqeyə yüksəlməsinə görə bu vəzifəni yerinə yetirmək üçün ailəyə dövlət yardımı hər zamankindən daha

mühümdür. Xalq olaraq ailədən başlayaraq bəşəri dəyərlər milli-mənəvi dəyərlərə, keçmişindən və milli mənsubiyyətindən aldıqları güclə qul psixologiyasından uzaq olan demokratik prinsiplər və güclü sevgi və ədalət hissi ilə gələcəyə inamla baxan, adət-ənənələrə sadiq, eyni zamanda, milli-mənəvi dəyərlərə sahib olan fədakar və qətiyyətli gənclər formalaşmışdır.

Biz əsas diqqətimizi köhnə dəyərlərin arasından məntiqəuyğun olanları saxlayıb, yerdə qalanları yeni dövrə uyğunlaşdırmağa və beləliklə köhnə ailə dəyərlərimizi daha yeni, daha adaptasiya etdirilmiş formada yaşatmağa yönəltməliyik. Qloballaşmanın hər yerdə hiss olunduğu və hər şeyin maddiləşdiyi bir dövrdə "sağlam cəmiyyət" formalaşdırmaqdan ötrü məhz mənəvi dəyərlərlə bağlı güclü maarifləndirmə istiqamətləri tələb edilir.

Müqayisə üçün bildirməliyik ki, hazırda müasir Qərb sivilizasiyasında müşahidə olunan neqativ hallar əxlaqi keyfiyyətlərin dəyərdən düşməsi ilə nəticələnmişdir. Bu zərərin nəticəsi olaraq, bir neçə ölkə ailə institutunu bir mənəviyyat institut kimi deyil, məhz investisiya aləti kimi qəbul etməyə başlamışdılar. Demoqrafik böhranın Qərbdə geniş yayılmış məsələ olduğu və elmin cəmiyyətin ailə quruluşu haqqında biliklər verə bilmədiyi təkzibolunmaz reallıqdır (1,52).

Zənnimcə, müasir ailə dəyərləri məhz aşağıdakı prinsiplərin üzərində qurulmalıdır:

- ailə məhz sevgi üzərində qurulmalıdır;
- fərdi xoşbəxtlik prinsipi ümumi cəmiyyətin rifahı və mənəviyyatı prinsipindən üstün olmamalıdır;
- nikaha daxil olan insanlar eyni zəka və baxışlara malik olmalıdırlar və psixoloji olaraq, həmçinin mənəvi sağlam, güclü fərdlər olmalıdırlar ki, onların yetişdirdikləri uşaqlar da eyni qaydada sağlam təməl əsasında böyüyüb başa çata bilsinlər;
- əlavə olaraq nikaha daxil olan ailə üzvlərinin həm də mədəni səviyyələri bir-birilərinə uyğun olmalıdır;
- sonda isə nikaha daxil olan ailə üzvlərinin sosial və iqtisadi mövqeləri uyğun olmalıdır.

Ümumiyyətlə, ailə məsələsi daima müqəddəs tutulmalı və ailə quracaq olan şəxslər mütləq şəkildə ailə quracaqları insanlar baxımından diqqətli olmalı, ailəyə ötəri bir mərhələ kimi baxmamalı, bunu təzyiq altında, icbari şəkildə həyata keçirməməli, habelə ailə planlaması etməzdən əvvəl ciddi planlar qurmalıdırlar. Keçmiş ailə dəyərlərimizdə boşanmaq məsələsi birmənalı qəbul edilmirdi, hazırda isə hər iki cins, həm kişi, həm də qadın boşanmaqda sərbəstdirlər. Əlbəttə, boşanma seçiminin olması bəzi hallarda fərdlərin psixoloji-sosial inkişafı baxımından olduqca əhəmiyyətlidir, amma mən düşünürəm ki, bu, əslində ən asan yoldur.

Mən düşünürəm ki, evli olan cütlüklər müvafiq addımı atmazdan əvvəl ailə psixoloquna, terapevtə baş çəkməli, boşanma qərarı verməzdən əvvəl ailənin dağılmaması və ailə mühitinin sağlamlaşdırılması üçün bütün səylərini səfərbər etməlidirlər və yalnız bütün cəhdlər əgər boşa çıxarsa, o halda artıq son qərarlarını verməlidirlər.

Amma, əlavə olaraq, keçmiş ailə dəyərlərimizə zidd olsa da, mən düşünürəm ki, insanlar nikaha daxil olub bir ailə olmazdan əvvəl birlikdə yaşamalıdırlar və bir-birilərini daha yaxından tanımalıdırlar. Bu zaman artıq onlar həqiqətən də bir-birilərini sevib-sevmədiklərini və sağlam ailə ola bilib-bilməyəcəklərini başa düşəcəklər.

Sevgi əbədi və plansız olduğu üçün hər ailə onun üzərində qurulmur. Birgə yaşayış müddətində isə empatik narahatlıq və dərin hörmət hissləri sevgiyə çevrilir. Uzunömürlü, sağlam ailənin inkişafı üçün qadın və kişilərin bir-birlərinin həyat və mədəni səviyyələrə baxışlarını balanslaşdırmaları, hər iki tərəfin məsuliyyət və hörmət nümayiş etdirmələri vacibdir (2).

Ailə qurmaq və onu dağıtmaq sadədir, lakin həyatın çətinliklərinə tab gətirmək çətin və nəcib bir işdir. İnsan varlığının ən mühüm mərhələlərindən biri olan evlilik öz mahiyyəti və keyfiyyəti baxımından böyük məsuliyyət tələb edir. Ailənin dağılması psixi və sosial sarsıntılarla müşayiət olunur (3, 527).

Bu vəziyyətdən ən çox uşaqlar təsirlənir. Eqoizm və öz razılığını camaatın xeyrinə üstün tutmaq boşanmalara səbəb olan mənəvi pozğunluqlardandır. Başqalarının fikirlərinə məhəl qoymamaq, həmişə “mən”dən istifadə etmək “biz” anlayışını sarsıdır.

Təəssüf ki, Azərbaycan cəmiyyətində bəzən müasir görkəmli, lakin məşədi təfəkkürlü gənclər ailə qurduqdan sonra (ailənin sevgi üzərində qurulmasına baxmayaraq) qadına qadağalar qoyur, özünü qəbul etməklə yanaşı, sənətini də qəbul etmir. Gənclərdə evləndikdən sonra bu əlamətlərin yaranmasının qarşısını almaq üçün tərəflər ümumiliyə, demokratik düşüncə tərzinə, mədəni səviyyəyə, hörmətə və qayğıya yüksək qiymət verməlidirlər.

Kütləvi informasiya vasitələrinin, xüsusən də televiziyanın ailə dəyərlərinin təbliğində mühüm vəzifəsi var. Bu, milli-mənəvi dəyərlərin təbliğinin ictimai və dövlət televiziyasının rəhbər prinsiplərindən biri olmasından aydın görünür. Ancaq özəl televiziyalar nadir hallarda ailə dəyərlərimizi təbliğ edirlər. Sosial məişət proqramlarında verilişlərin ardınca reklam verən televiziyalarda cəmiyyətin yalnız xoşagəlməz cəhətləri göstərilir (4, 61).

Lakin Azərbaycan cəmiyyətində müstəsna ailələr bu nisbətlə müqayisədə qeyri-mütənasib şəkildə yayılıb və bolluq təşkil edir. Düzdür, ailə məsələlərinə diqqət çəkməklə cəmiyyətin çatışmazlıqlarını göstərmək olar, amma burada tarazlıq pozulmamalıdır. Kütləvi informasiya vasitələrinin qlobal inteqrasiyasını və miqyasını nəzərə alsaq, bir milləti təmsil edən ailələrin

həmin xalq haqqında fikir formalaşdırdığını da nəzərdən qaçırmaq olmaz. Kütləvi informasiya vasitələri də adət-ənənələrimizi, milli-mənəvi ideallarımızı örnək edən müxtəlif sosial təbəqələrdən olan ailələri əks etdirməli və onları təşviq etməlidir. Və bu ailə formasının mükəmməlliyinin və uzunömürlülüyünün açarlarını açmaqla, bəlkə də yeni həyat quracaq gəncləri maarifləndirə bilər (5, 131).

Beləliklə, ailə birgə yaşayışın ilk modeli kimi səadət mənbəyi, müqəddəs dəyər, millətin yaşaması üçün əsasdır. Çağdaş Azərbaycan ailəsi bu təməli layiqincə qurmaq və bu dəyəri qoruyub saxlamaq üçün həm ixtiraçı, həm də qoruyucu olmalıdır. Zamanın sınağından çıxmış və indi də varlığını davam etdirən ailə dəyərlərimiz qorunmalı və qorunmalıdır. Eyni zamanda, demokratik ideallara sarılmalı, zamanın nəbzini izləməli, faydalı ənənələrimizə xələl gətirməyəcək yenilikləri qəbul etməliyik. Fərdlərin fikir və seçim azadlığı məhdudlaşdırılmamalıdır.

Ailə dəyərlərinə gəldikdə isə, düşünürəm ki, günümüzdə fərdlər ailə olmazdan öncə hələ tanışlıq mərhələsində aralarında hansı ailə prinsipləri və dəyərlərinin onların evliliklərinin mərkəzlərində duracaqlarını qarşılıqlı şəkildə müəyyən etməlidirlər ki, evlənəndən sonra ortaya çıxacaq olan yanaşma düşünücələr aralarında ziddiyyət formalaşdırmasın.

***Ədəbiyyat***

1. *Allahyarova T., Balayeva A. “Azərbaycanda mövcud ailə münasibətləri: sosial-psixoloji təhlil.” Bakı, 2021, 64 səh.*
2. *http://ikisahil.az/post/85487-news-85487*
3. *Hüseynzadə R., Allahverdiyeva L. “Ailə Pedaqogikası.” Bakı, 2016, 706 səh.*
4. *Mehtiyev E. “Azərbaycanda ailə dəyərləri.” Bakı, 2018, 73 səh.*
5. *Андреева Т.В. “Семейная психология.” Москва, 2004, с.129-140.*
6. *Джамалов Э.С. “Особенности семейного воспитания в Азербайджанской культуре”. Моя профессиональная карьера, 2021, 1(23), с.285-289.*
7. *Караева Н.С. “С упружеская роль женщин в азербайджанских семьях”. Актуальнi питання гуманiтарних наук, 2021, с.238-243.*

**S.C.Məmmədzadə**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
*mammadzadesabina8@gmail.com*

# MÜSAİR ŞƏRAİTDƏ UŞAQLARIN TƏRBİYƏSİNDƏ SOSİALLAŞMANIN ROLU

***Xülasə***

*Uşaqların sosiallaşması uşaqların əsas motor bacarıqlarını, dil bacarıqlarını, ilkin özünə qulluq bacarıqlarını və özünə qulluq bacarıqlarını əldə etdiyi prosesdir. Məqaləmizdə uşaqlarda sosiallaşma, onun vacibliyi haqqda məlumatlar əldə edəcəyik.*

# РОЛЬ СОЦИАЛИЗАЦИИ В ОБРАЗОВАНИИ ДЕТЕЙ В СОВРЕМЕННЫХ УСЛОВИЯХ

***Резюме***

*Социализация ребенка — это процесс, посредством которого дети приобретают основные двигательные навыки, языковые навыки, базовые навыки самообслуживания и навыки самообслуживания. В нашей статье мы получим информацию о социализации у детей и ее важности.*

# THE ROLE OF SOCIALIZATION IN EDUCATION OF CHILDREN IN MODERN CONDITIONS

***Summary***

*Child socialization is the process by which children acquire basic motor skills, language skills, basic self-care skills, and self-care skills. In our article, we will get information about socialization in children and its importance.*

***Açar sözlər:*** *sosiallaşma, uşaqların sosiallaşması, sosiallaşmanın əhəmiyyəti, uşaqların tərbiyə mexanizmi, sosiallaşmanın şərtləri*

***Ключевые слова:*** *социализация, социализация детей, значение социализации, механизм воспитания детей, условия социализации*

***Key words:*** *socialization, children's socialization, the importance of socialization, the mechanism of children's upbringing, conditions of socialization*

Sosiallaşma elə bir sistemdir ki, insan öyrənmək üçün ömrünün sonuna qədər bu sistemi istifadə edə bilər. Biz hər birimiz doğulduğumuz andan etibarən sosiallaşmağa başlayırıq və bunun nəticəsində yeni vərdiş, bacarıq, biliklərə yiyələnmiş oluruq. Sosiallaşma ailədən başlayır, məktəblərdə,

kollektivlərdə, universitetlərdə, ümumiləşdirsək, cəmiyyət arasında davam edir. (1)

İnsan böyüdükcə mühiti, maraqları, düşüncələri dəyişdiyi kimi sosial həyatı da dəyişir. Onda belə nəticəyə gələ bilərik ki, yaş faktoru sosiallaşma prosesində vacib elementdir. 4-5 yaşlı uşağın sosiallaşması üçün lazımlı mühit ilə 20-25 və ya 40-50 yaşlı insanların sosiallaşması üçün yaranan mühit eyni ola bilməz. (2)

Sosiallaşma, uşaqların ilk illərində inkişafının vacib hissəsidir. İnkişaf körpə anadan olduğu andan başlayır və yetkinlik yaşına qədər davam edir. Uşaq inkişaf mərhələlərinin hər birini günü gündən daha yaxşı formalaşdırır. Uşağın nə qədər böyük və ya kiçik olmasından asılı olmayaraq hər bir qarşılıqlı əlaqəsi ona dil bacarıqlarını öyrənməyə, duyğuların öhdəsindən gəlməyə və sosial normalar çərçivəsində işləməyə kömək edir.

Uşaq böyüdükcə düşüncələrini və duyğularını necə müəyyənləşdirməyi öyrənməyə başlayacaq. Onlar, həmçinin ətrafdakıların hisslərini tanıyacaq, bir insanın xoşbəxt və ya kədərli olduğunu deşifrə edə biləcəklər. Onlar stresi idarə etməyi, münaqişələri həll etməyi və ətrafdakılarla ünsiyyət quraraq uyğunlaşmağı öyrənəcəklər.

Uşaqların sosiallaşması üçün vacib bir sıra faktorlarla tanış olaq: (4)

**1. Ailə**

Ailə uşağın sosiallaşmasının ilk dərsində böyük rol oynayır. Bu, fərdlərin bir qrupun fəaliyyət göstərən üzvlərinə çevrilməsi və həmin qrupun ümumi dəyərlərini, davranışlarını və inanclarını mənimsəməsi prosesidir. Bu, uşağın erkən təcrübələrinin strukturunu təmin edir. Onlar hər bir vəziyyəti və hiss edə biləcəkləri hər bir emosiyanı idarə etməyin yolları üçün ailəsini müşahidə edəcəklər. Uşaqlar ailə üzvlərinin xoşbəxtlik, çətin vəziyyətlər, şənliklər, fikir ayrılıqları və s. hallarını izlədikcə etibar etməyi öyrənirlər.

**2. Dostluq**

Sosiallaşaraq, uşağın empatiya bacarıqlarını inkişaf etdirməyi, dil bacarıqlarını təkmilləşdirməyi, paylaşma və komanda işi anlayışlarını kəşf etməyi, özünə inamını artırmağı və məktəbə daha yaxşı hazırlaşmağı öyrənəcək. Sosiallaşma yolu ilə bu anlayışları tətbiq etmək uşaqlara dostluq qurmağa kömək edəcək və buna görə də başqalarına hörmət etməyi öyrənəcək.

Sosiallaşma sadəcə ağlımıza gələn tipik tərif deyil: dostlarla görüşmək və bir-birimizlə söhbət etmək. Uşaqlar dostları ilə oynayır və söhbət edə bilərlər, lakin bu, onların inkişafına daha çox kömək edir. Əvvəlcə balacanızı buraxmaq çətin ola bilər, lakin onların çiçəklənməsinə icazə vermək həyatlarının qalan hissəsi üçün faydalı olacaqdır.

**3. Uşaq bağçasına və yaxud məktəbə getmək**

Uşaqlar ətrafında nə qədər öz yaşıdları ilə vaxt keçirsə, bir o qədər daha çox uşaq görər və sosiallaşmaq üçün ona münasib şərait yaranar.

Belə sual yarana bilər ki, erkən yaşda sosiallaşmanın mahiyyəti nədir? Gəlin aşağıda erkən yaşda sosiallaşmanın 7 müsbət xüsusiyyətini yazaq. (3)

1) Komandanın bir hissəsi olmağı öyrənmək.

Uşaq bağçası təcrübəsi uşaqlara komandanın bir hissəsi olmağı öyrətməyə kömək edir. Növbəli davranma, paylaşma və davranış tərzi sinifdə modelləşdirilir və həvəsləndirilir. Uşaqlar necə yaxşı dost olmağı və müxtəlif vəziyyətlərdə uyğun davranışların sərhədlərinin nə olduğunu öyrənirlər.

2) Problemi həll etməyi öyrənmək.

Problemlərin həlli və əsaslandırma bacarıqlarının formalaşdırılması kurikulumun bir hissəsidir. Uşaqlar çətinliklərlə üzləşərkən təslim olmamağı öyrənir və istər akademik, istərsə də sosial həyat problemlərini həll etmək üçün strategiyalar hazırlayırlar.

3) Təlim keçmiş kadrların dəstəyi.

Əksər valideynlər öyrənmə pozuntularının ilkin əlamətlərinin nə olduğunu bilmirlər. Digərləri uşaqlarının idrak və ya intellektual problemlərlə üzləşə biləcəyini qəbul etmək istəmirlər. Erkən müdaxilə ilə uşaqlar məhsuldar yola çıxa və böyüklüyünü davam etdirə bilərlər.

4) Məktəbə hazır olmaq.

Uşaq bağçaları uşaqlara gündəlik cədvəllərlə məktəbə bənzər iş rejiminə keçməyə kömək edir. Yaxşı təchiz olunmuş uşaq baxımı müəssisəsi təkcə məktəbə bənzər mühiti təqlid etmir, həm də yaşa uyğun öyrənmə və oyun vasitəsilə öyrənməni fəal şəkildə təşviq edir.

5) Dil bacarıqlarının inkişafı.

Müxtəlif yaşlarda keçirilən bir çox insanla ünsiyyət, uşağın şifahi bacarıqlara yiyələnməsinə kömək edir. Hekayə vaxtı, dramatik oyun və hətta digər uşaqlarla söhbət etmək uşağın özünü şifahi ifadə etmək bacarıqlarını inkişaf etdirməsinə kömək edir. Adekvat şifahi bacarıqlara malik olmayan uşaqlar tez-tez məyus olur və nəticədə müxtəlif anti-sosial davranışlar nümayiş etdirirlər.

6) Hakimiyyətə hörmət.

Hörmət evdə başlasa da, valideynlərindən başqa səlahiyyətlərə hörmət etməyi öyrənmək bir çox uşağın mübarizə apardığı bacarıqdır. Uşaqlar hakimiyyətə hörmətin real dünya nəticələri olduğunu tez öyrənirlər. Oyuncaqlara qulluq etmək, təlimatlara əməl etmək, nağıl dinləyərkən və ya televiziya şousuna baxarkən sakit oturmaq bütün uşaqlardan səlahiyyətlərə qulaq asmağı və onlara əməl etməyi tələb edir. Onlar öyrənirlər ki, əgər hakimiyyətə məhəl qoyulmursa və ya ona qarşı çıxırsa, bunun nəticəsi oyuncaqların qırılması və fəaliyyətdən həzz ala bilməyən sinif yoldaşlarının qəzəbinə səbəb olur.

7) Ayrılmanın asanlaşdırılması və yeni bağların yaradılması.

Uşaq bağçasında uşaqlar, part-time, bəzən də uzun müddət valideynlərindən asılı olmayaraq fəaliyyət göstərməyi öyrənirlər. Onlar mütləq öyrənirlər ki, valideynlərin geri qayıtmasına inanmaq olar. Ayrılmaq tərk edilmək deyil. Onlar öyrənirlər ki, ehtiyaclarını ödəmək üçün etibar edilə bilən (valideynlərindən başqa) rutinlər və insanlar var. Yalnız bu deyil, həmyaşıdları ilə güclü əlaqələr qurmağı öyrənirlər. Və günün sonunda, onlar valideynləri ilə bölüşmək üçün gözəl təcrübələr və hekayələr, eləcə də vermək üçün "hədiyyələr"lə valideynləri ilə görüşürlər. Bir sözlə, onların dünyası eksponent olaraq genişlənir və bu, məktəbə keçidi asanlaşdırır.

Sosiallaşmanın ən mühüm cəhəti onun tərbiyəvi əhəmiyyətidir. O, uşaqların sosial inkişafı ilə əməkdaşlıq edir, sosial normaların öyrədilməsini həyata keçirir, uşaqlarda başqalarına qarşı empatiya ruhunu tərbiyə edir.

Uşaqlıq insanın sosiallaşmasının kritik dövrüdür. Uşaqların bütün sosiallaşma prosesində müxtəlif yaş mərhələlərinə uyğun olaraq aşağıdakı keçid dövrləri olur:

1) 0-1 yaş. Döl ananın içindəki mühitdən anadan kənar mühitə keçir və ətrafındakı insanlarla ilkin ünsiyyət qurmağa başlayır.

2) 1 yaşdan 3 yaşa qədər. Gəzinti və danışmağı öyrənmə məşqləri vasitəsilə uşaqlar özlərini və ətraflarını dərk etmə prosesində mühüm addım ataraq qarşılıqlı əlaqə və sosiallaşma diapazonunu genişləndirirlər.

3) 3 yaşdan 6 yaşa qədər. Uşaqların özünüdərkinin formalaşması mərhələsində psixoloji inkişaf sürətlə dəyişir, şəxsiyyət özünü göstərməyə başlayır, şüur və fəaliyyətin müstəqil meyli ən güclüdür.

4) 6-11, 12 yaş. Diqqətçəkən cəhət ondan ibarətdir ki, əhval-ruhiyyə nisbətən sabitdir, öz iradəsi və inadkarlıq fenomeni getdikcə aradan qalxır, daha çox "rollar" oynanır, şəxsiyyətlərarası münasibətlər mürəkkəbləşir.

5) Qızlar 11-12, oğlanlar isə 13-14 yaş. Uşaqlarda yeniyetməlik dövrünün başlanğıcıdır. Uşaqlığın uşaqlığından qurtulmağa, yeniyetməlik dövrünə qədəm qoymağa, uşaqlıqdan yetkinliyə keçidə başlayırlar. Özünüdərk daha da inkişaf etdirildi, tədricən öz şəxsiyyət keyfiyyətlərini şüurlu şəkildə dərk edə və qiymətləndirə bilir, müstəqillikləri xeyli möhkəmlənir. Eyni zamanda, sosial dairə genişlənir, dostlar və tərəfdaşlar həyatlarında mühüm yer tutmağa başlayırlar.

### *Ədəbiyyat*

1. *Təhsil lüğəti. Şanxay Təhsil Mətbuatı, 1998.*
2. *Doç.Dr.M.Sait Doğan, Sosyalleşme, Sosyal değişme ve siyasal sosyalleşme.*

3. *https://www.google.com/url?sa=t&source=web&rct=j&url=https://dergipark.org.tr/en/download/articlefile/100968&ved=2ahUKEwjxsM_99qf9AhUBsKQKHZQVBKgQFnoECBgQAQ&usg=AOvVaw2OqWntb-n2eCr1cabGZI68*
4. *https://baike.baidu.hk/item/%E5%85%92%E7%AB%A5%E7%A4%BE%E6%9C%83%E5%8C%96/1349636*
5. *Ə. Paşayev, F.Rüstəmov. Pedaqogika. Bakı. 2017.*
6. *Ə.Ağayev, Y.Rzayeva, T.Hüseynova, T.Vahabova. Sosial pedaqogika. Bakı. 2008*
7. *M.İsmixanov, S.Vəliyeva. Sosial pedaqogika. Bakı. 2013.*

**M.S.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***mujganeliyeva00@gmail.com***

# TƏHSİLALANLARDA MÜƏLLİMLİK PEŞƏSİNİN SƏRİŞTƏ SƏVİYYƏSİNİN FORMALAŞDIRILMASININ MONİTORİNQİ

***Xülasə***

*Yerli təhsilin müasirləşdirilməsi təhsil fəaliyyətinin keyfiyyətcə yeni xüsusiyyətlərini və onun keyfiyyətinin resurs təminatının əsas amili kimi pedaqoji kadrlara olan tələbləri müəyyən etmişdir. Pedaqoji fəaliyyət subyektinin peşə səriştəsinin davamlı təkmilləşdirilməsi problemi təhsil sisteminin tələblərinə cavab verməli olan cəmiyyətin dinamik inkişafı ilə əlaqədar olaraq artıq aktualdır. Hər bir müəllimlik peşəsinə yiyələnmək istəyən təhsilalan öz peşə fəaliyyətini dövrün tələblərinə uyğunlaşdırmağı, peşəkar səviyyəsini davamlı olaraq təkmilləşdirilməyi, xarici dəyişikliklərə, yeni çağırışlara tez və effektiv cavab verməyi bacarmalıdır. Məqalə müəllimlik peşəsinə yiyələnmək istəyən təhsilalanların peşə səriştəsinin formalaşma səviyyəsinin monitorinqi modelinin təsvirinə həsr olunmuş, işlənib hazırlanmış və eksperimental olaraq sınaqdan keçirilmişdir.*

# МОНИТОРИНГ ФОРМИРОВАНИЯ УРОВНЯ ПЕДАГОГИЧЕСКОЙ ПРОФЕССИОНАЛЬНОЙ КОМПЕТЕНЦИИ СТУДЕНТОВ

***Резюме***

*Модернизация отечественного образования определила качественно новые характеристики образовательной деятельности и требования к педагогическим кадрам как ключевому фактору ресурсного обеспечения его качества. Проблема постоянного совершенствования профессиональной компетентности субъекта педагогической деятельности актуальна уже в силу динамичного развития общества, требованиям которого и должна соответствовать система образования. Педагог должен уметь приводить собственную профессиональную деятельность в соответствие с требованиями времени, непрерывно повышая свой профессиональный уровень, быстро и эффективно реагируя на внешние перемены и новые вызовы. Статья посвящена описанию разработанной и прошедшей опытно-экспериментальную проверку модели мониторинга уровня сформированности профессиональной компетентности педагога для студентов, которые хотят стать учителями.*

# MONITORING THE FORMATION OF TEACHING PROFESSION COMPETENCY LEVEL IN STUDENTS

***Summary***

*Modernization of local education has determined qualitatively new features of educational activity and requirements for pedagogical staff as the main factor of resource provision of its quality. The problem of continuous improvement of the professional competence of the subject of pedagogical activity is already relevant in connection with the dynamic development of society, which must meet the requirements of the educational system. A teacher must be able to adapt his professional activity to the requirements of the times, continuously improve his professional level, respond quickly and effectively to external changes and new challenges. The article is devoted to the description of the model of monitoring the level of formation of the teacher's professional competence for students who want to be teacher, developed and experimentally tested.*

***Açar sözlər:*** *təhsilin müasirləşdirilməsi, müəllimin peşəkar səriştəsi, müəllimin peşəkar səriştəsinin monitorinqi*

***Ключевые слова:*** *модернизация образования, профессиональная компетентность педагога, мониторинг профессиональной компетентности педагога*

***Key words:*** *modernization of education, teacher's professional competence, monitoring of teacher's professional competence*

Yerli təhsilin modernləşdirilməsinin strateji istiqamətlərindən biri pedaqoji kadrların peşəkar fəaliyyətinin keyfiyyətinin təhsil paradiqmasında dəyişiklik nəticəsində yaranan və ümumi təhsilin, dövlət təhsil standartlarında əksini tapmış müasir tələblərə uyğunlaşdırılmasıdır. Müəllim, təhsil fəaliyyətinin əsas təşkilatçısıdır, onun peşəkarlığı təhsilin yeni keyfiyyətinə nail olmaq üçün əsas amildir.

Ümumi təhsil təşkilatlarının pedaqoji işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi üzrə kompleks proqramda xeyli sayda müəllimin hazırkı peşə fəaliyyəti ilə peşə standartının tələbləri arasında uyğunsuzluğun mövcudluğu qeyd olunur. Beləliklə, qəbul edilir ki, müəllimlərin əksəriyyəti təhsilin yeni keyfiyyətinə nail olmaq, onun səmərəliliyini və rəqabət qabiliyyətini artırmaqla bağlı təcili peşə problemlərini həll etməyə hazır deyil.

Bununla belə, suallar yaranır: faktiki peşə vəzifələri hansılardır və müəllimlər onları nə dərəcədə həll edə bilmirlər? “Nöqsanların” aradan qaldırılması üçün ən təsirli mexanizmlər hansı olmalıdır? Cəmiyyətdə və nəticədə təhsildə baş verən dinamik dəyişikliklərlə bağlı müəllimlərin davamlı peşəkar inkişafı necə təmin edilməlidir? Qiymətləndirmə və analitik prosedurların, ilk növbədə monitorinqin təşkili olmadan yuxarıdakı və digər

əlaqəli suallara cavab vermək mümkün deyil. Müasir təhsildə monitorinq tədqiqatları adi bir hadisəyə çevrilmişdir. Bu, təhsil sistemlərinin operativ və strateji idarə olunması üçün effektiv informasiya təminatı vasitəsi kimi monitorinqin funksionallığı ilə bağlıdır. (1)

Xarici sözlər lüğətində monitorinq "istənilən nəticəyə və ya ilkin ehtimallara uyğunluğunu müəyyən etmək məqsədilə prosesin daimi monitorinqi" kimi müəyyən edilmişdir. Hal-hazırda monitorinqin ümumi elmi xüsusiyyətləri kifayət qədər müəyyən edilmişdir ki, bu da onu zehni fəaliyyətin universal növü, reallığın öyrənilməsi metodu, fəaliyyətin idarə edilməsinə informasiya təminatı metodu, proqnozlaşdırmanın informasiya təminatı metodu kimi baxmağa əsas verir.

Baxılan fenomenin bir çox tərifləri arasında bizim anlayışımıza ən yaxın olanı A.N.Maiorov tərəfindən tərtib edilmiş tərifdir. Müəllif monitorinqi "bir sistem və ya onun ayrı-ayrı elementləri haqqında məlumatın toplanması, emalı, saxlanması və yayılması sistemi, bu sistemin idarə olunması üçün informasiya dəstəyinə yönəldilmiş, istənilən vaxt onun vəziyyətini mühakimə etməyə imkan verən və mümkün edən sistem" kimi şərh edir.

Eyni zamanda, biz monitorinqi texnologiya hesab etməyə meyilli oluruq, çünki o, texnologiyanın bütün xüsusiyyətlərini, yəni konseptuallıq, məntiqi ardıcıllıq, idarə oluna bilənlik, effektivlik və təkrar istehsal imkanlarını əldə edir. Bu, müəyyən edilmiş məqsəd və vəzifələrin, müəyyən şərtlərin təsiri altında dəyişməz olaraq davam edən və nəzərdə tutulan nəticəni təmin edən bir obyektin vəziyyətini və inkişafını izləmək üçün konseptual şəkildə qurulmuş, sistemoloji, idarə olunan bir prosesdir. Monitorinq onun mərhələlərini əks etdirən müəyyən struktura malikdir: (3,s 85)

- məqsəd qoyma (nəzarət tapşırığı);
- monitorinqin məzmununun, üsullarının müəyyən edilməsi;
- monitorinqin həyata keçirilməsi (obyektin vəziyyəti haqqında məlumatların toplanması, saxlanması);
- nəticələrin şərhi (qiymətləndirici nəticələr (qiymətləndirmə));
- nəticələrin təqdimatı.

Monitorinq komponentlərinin öz vəzifələri, xüsusi məzmunu var, vahid məntiqdə bir-birini izləyir, monitorinqin məqsədinə tabedir. Komponentlərin struktur və funksional əlaqələri əsasında vahid monitorinq dövrü formalaşır. Sistemin hər hansı bir komponentinin itirilməsi onun dağılmasına gətirib çıxarır, monitorinqi az dəyərli və keyfiyyətsiz edir. Əlbəttə ki, bu dövrə hər bir halda fərqli məzmunla doldurulur, lakin funksionallıq baxımından hərəkətlər eyni alqoritmə tabedir.

Monitorinq müxtəlif təhsil hadisələrini və ya proseslərini əhatə edə və izləməyə yönəldilə bilər. Eyni zamanda, monitorinq olunan fenomen və ya

prosesin xüsusiyyətləri nəzərə alınmaqla həyata keçirilən invariant monitorinq strukturu qorunur. Monitorinq tədqiqatının məqsədi onun obyektini təkmilləşdirmək üçün əks əlaqə yaratmaqdır. (2, s.430)

Yuxarıda göstərilənlərin hamısı müəllimin peşəkar səriştəsinin formalaşma səviyyəsinin monitorinqinə də aiddir ki, bununla da biz müəllimin peşəkar səriştəsinin formalaşma səviyyəsi haqqında məlumatların toplanması, emalı, saxlanması və yayılmasının təşkili texnologiyasını nəzərdə tuturuq ki, bu da onun davamlı olmasını təmin edir.

Monitorinq prosedurunun effektivliyi, ilk növbədə, monitorinq modelinin dizaynı ilə bağlı onun elmi işlənməsi ilə təmin edilir. Model “ilkin sistemin bəzi vacib xassələrini əks etdirən obyektlər və ya işarələr sistemidir”.

Monitorinqin obyekti müəllimin peşəkar səriştəsidir. Hazırda müəllimin peşə səriştəsinin mahiyyətini, onun struktur və məzmununu nəzərdən keçirmək üçün vahid yanaşma mövcud deyildir. Müəllimin peşə səriştəsi bilikdən, peşə və həyat təcrübəsindən, dəyərlərdən və meyillərdən istifadə edərək peşəkar pedaqoji fəaliyyətin real vəziyyətlərində yaranan peşəkar problemləri və tipik peşə vəzifələrini həll etmək qabiliyyətini müəyyən edən ayrılmaz bir xüsusiyyətdir. Peşəkar səriştənin monitorinq obyekti kimi nəzərdən keçirilməsi onun operativləşdirilməsini, yəni ölçülə bilən dəyişənlər şəklində təqdim edilməsini tələb edir.

Problemi nəzərdən keçirməyimiz kontekstində peşəkar səriştələr inteqrativ sosial və peşəkar konstruksiya kimi müəllimin peşəkar səriştəsinin struktur komponentləri kimi tanınmalıdır. Bu konsepsiyanın məzmununun açıqlanmasında xeyli müxtəliflik var. (4, s.62)

Pedaqoji ədəbiyyatda mövcud olan səriştə anlayışlarının təhlili ona “fəal qabiliyyət” mənasını verməyə imkan verir ki, bu da müəyyən bir hərəkəti yerinə yetirmək, dar bir vəzifəni (müəyyən növ tapşırıqları) həll etmək bacarığı kimi başa düşülməlidir. “Səriştə” anlayışının fəaliyyət tərifi onu fəaliyyətin məntiqi strukturuna daxil edir. Kompetensiya səriştələr məcmusundan formalaşır, onların formalaşma səviyyəsi müvafiq səlahiyyətlərə yiyələnmə dərəcəsini əks etdirəcək.

Təhsilin müasirləşdirilməsi şəraitində müəllimin aktual peşə problemlərinin uğurlu həllini müəyyən edən və monitorinq texnologiyasında ölçülən dəyişənlər kimi çıxış edən əsas peşə səriştələrinin müəyyənləşdirilməsinə ehtiyac var.

N.F.Radionova və A.P.Tryapitsynanın nöqteyi-nəzərini bölüşərək qeyd edirik ki, peşə pedaqoji fəaliyyət üçün əsas səlahiyyətlər cəmiyyətin inkişafının müəyyən mərhələsində təhsil sisteminə olan tələblər kontekstində peşəkar fəaliyyətin “qurulması” üçün zəruri olanlardır. (6, s.12)

Müəllimin peşəkar səriştəsi səviyyəsində bir mütəxəssisin müəyyən bir növ peşəkar problemləri həll etmək üçün inteqral qabiliyyətinin inkişaf

dərəcəsini başa düşürük. Pedaqoji fəaliyyət subyektinin əsas peşə səriştələri ilə mənimsənilmə dərəcəsini əks etdirir. Monitorinq vəzifələri: (5)

1) Müəllimlərin peşə səriştəsinin mövcud vəziyyəti haqqında məlumat toplamaq;
2) Müəyyən edilmiş xüsusiyyətlərin normativlərə uyğunluq dərəcəsini müəyyən etmək;
3) Monitorinq edilən obyektin vəziyyətindəki meyilləri, potensial riskləri və cari problemləri təhlil etmək və müəyyən etmək;
4) Normativ tələblərə nail olmaq üçün müəllimlərin peşə səriştəsinin formalaşma səviyyəsinə dair analitik hesabat hazırlamaq və onun inkişafı üçün tövsiyələr hazırlamaq.

Monitorinq zamanı əldə edilən məlumatlar təcrübənin inkişafının elmi əsaslandırılmış proqnozlarını verməyə imkan verir, məcmu və fərdi peşəkar pedaqoji fəaliyyətin nəticələrinin proqnozlaşdırılması və qiymətləndirilməsi üçün əsas olur. Bu da öz növbəsində metodiki xidmətlərin idarəetmə və iş sistemlərini vaxtında yenidən istiqamətləndirməyə imkan verir. Strategiyanın işlənib hazırlanması üçün müvafiq məlumatların mövcudluğu innovasiyaların həyata keçirilməsi zamanı əvvəlcədən düşünməyə və fəal hərəkət etməyə imkan verir. Monitorinq məqsədlərinə uyğun sayğacın olmaması onun işlənib hazırlanmasını zəruri edirdi. Müəllifin "Müəllimin peşə səriştəsinin formalaşma səviyyəsinin müəyyən edilməsi" metodologiyası, məzmunu pedaqoji fəaliyyət subyektinin peşəkar səriştəsinin struktur komponentləri kimi əsas peşə səriştələrindən ibarət olan, dərəcəsindən asılı olaraq səviyyələr üzrə paylanan refleksiv sxemdir. Reflektiv diaqnostikaya müraciət onun müəllimin öz peşə fəaliyyətinə diaqnoz qoyması üçün psixoloji cəhətdən əlverişli mühit yaratmaq qabiliyyəti ilə bağlıdır. Müəllimin peşəkar səriştəsinin monitorinqinin nəticələri aşağıdakı hədəf qrupları, bu və ya digər dərəcədə pedaqoji heyətin peşəkar inkişafı üçün sistemli dəstək işində iştirak edən potensial məlumat istehlakçıları üçün maraqlı ola bilər: (2, s.33)

- Təhsili idarəetmə orqanları (pedaqoji kadrların peşəkarlıq səviyyəsinin yüksəldilməsi sahəsində idarəetmə qərarlarının qəbul edilməsi və resursların ayrılması);
- Təhsil işçiləri üçün əlavə peşə təhsili (təkmilləşdirmə) sisteminin təşkili (təkmilləşdirmə proqramlarının hazırlanması və tənzimlənməsi, təhsil sisteminin elmi-metodiki təminatının təkmilləşdirilməsi, müəllimlərin peşəkar səriştəsinin inkişafına kömək etmək üsullarının təkmilləşdirilməsi, təhsilin qiymətləndirilməsi, təlim təşkilatlarının fəaliyyətinin keyfiyyəti və s.);
- Bələdiyyə və institusional metodik xidmətlər (fərdi təhsil trayektoriyasının qurulmasında müəllimlərə yardım, müəllimlərə məsləhət dəstəyi və s.).

Beləliklə, sistemli şəkildə qurulmuş monitorinq proseduru peşəkar inkişafın kortəbii mexanizmlərindən şüurlu şəkildə idarə olunan və özünü idarə olunan prosesə keçidi təmin edir. Bu proses iştirakçılarının funksional və praktiki fəaliyyətlərinin əlaqələndirilməsinə kömək edir, onların pedaqoji heyətin peşəkar səviyyəsinin yüksəldilməsi və müəllimlərin tədris təcrübəsinin keyfiyyətinin dəyişdirilməsi sahəsində imkanlarını reallaşdırmağa kömək edir. Əgər monitorinq düzgün və sistemli şəkildə aparılarsa, təhsilanlarda müəllimlik peşəsinin səriştə keyfiyyətləri yüksək səviyyədə formalaşdırılar və təhsil prosesinin əsas iştirakçılarından biri olan müəllim fəaliyyət prosesində daim müvəffəqiyyət əldə edər.

***Ədəbiyyat***

1. *Комплексная программа повышения профессионального уровня педагогических работников общеобразовательных организаций (утверждена зам. Председателя Правительства РФ О.Ю.Голодец, 28.05.2014 № 3241п – П8) // Вестник образования России. – 2015. – № 4, февраль. – С. 23–32.*
2. *Словарь иностранных слов / отв. ред. В.В.Бурцева, Н.М.Семенова. – М. : Рус. яз. – Медиа, 2003. – 820 с.*
3. *Майоров А.Н.Мониторинг в образовании. Книга 1 / А.Н.Майоров. – СПб. : Образование – культура, 1998. – 344 с.*
4. *Борытко Н.М. Диагностическая деятельность педагога / Н.М. Борытко. – М. : Академия, 2008. – 288 с.*
5. *Радионова Н.Ф. Перспективы развития педагогического образования: компетентностный подход / Н.Ф.Радионова, А.П.Тряпицына // Человек и образование. – 2006. – № 4–5. – С. 7–14.*
6. *Об утверждении профессионального стандарта «Педагог (педагогическая деятельность в сфере дошкольного, начального общего, основного общего, среднего общего образования) (воспитатель, учитель)» (приказ Минтруда России от 18.10.2013 № 544н, зарегистрирован в Минюсте России 06.12.2013 № 30550) // Вестник образования России. – 2014. – № 2, январь. – С. 10–36.*

**A.N.İbrahimov**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***asimnibrahimov@gmail.com***

# NƏRİMAN NƏRİMANOVUN MÜƏLLİM KADRLARI HAZIRLIĞINDA ROLU

***Xülasə***

*Məqalədə Nəriman Nərimanovun müəllim kadrlarının hazırlanmasındakı xidmətlərindən bəhs edilir. Həmçinin Azərbaycan müəllimlərinin birinci qurultayındakı fəaliyyəti, Azərbaycan Dövlət Kişi Pedaqoji İnstitutunun təşkilində rolu, institutun məzunlarına yazdığı məktub təhlilə cəlb edilir.*

# РОЛЬ НАРИМАНА НАРИМАНОВА В ПОДГОТОВКЕ УЧИТЕЛЕЙ

***Резюме***

*В статье упоминаются заслуги Наримана Нариманова в подготовке учителей. Также в анализ включены деятельность первого съезда азербайджанских учителей, роль в организации Азербайджанского государственного мужского педагогического института, письмо, написанное выпускникам института.*

# THE ROLE OF NARIMAN NARIMANOV IN THE TRAINING OF TEACHERS

***Summary***

*The article mentions the services of Nariman Narimanov in the training of teachers. Also, the activities of the first congress of Azerbaijani teachers, the role in the organization of the Azerbaijan State Men's Pedagogical Institute, the letter written to the graduates of the institute are included in the analysis.*

***Açar sözlər:*** *müəllim hazırlığı, qurultay, seminariya, təhsil, ana dili*

***Ключевые слова:*** *подготовка учителей, съезд, семинария, образование, родной язык*

***Key words:*** *teacher training, convention training, seminary, education, mother language*

Nəriman Nərimanovun pedaqoji görüşlərində müəllim kadrlarının hazırlanması məsələsi əsas yer tutur. O, bütün işıqlı həyatını əhalinin savadlanması uğrunda mübarizəyə həsr etmiş, bu sahədə çox böyük işlər görmüşdür. Bu məsələlər Nərimanovun əsərlərində də öz əksini tapır. “Nadanlıq” əsərində yaratdığı Məhəmməd ağa obrazı X1X əsrdə kəndlərdə pedaqoji fəaliyyətlə məşğul olan əsl xalq müəllimidir. O, əhalinin nadanlığının

səbəbini cəhalətdə görür. “Amma bunlar kimi avam mən görməmişəm. İnsan ki, oxumağa və elmə düşmən ola, onun gələcəyi nə olmalıdır?”- deyir (4.s.27), savadsızlığı xalqın inkişafı yolunda ən böyük buxov hesab edir. Məhəmməd Ağa cəhalətin azalması uğrunda səylə çalışaraq elmin və təhsilin əhəmiyyətini əhaliyə başa salmağa təşəbbüs göstərir (5).

Nəriman Nərimanovun müəllim hazırlığı ilə bağlı fikirlərinə Azərbaycan müəllimlərinin 1906-ci ildəki birinci qurultayı ərəfəsindəki yazılarında da rast gəlmək mümkündür. 1905-1907-ci illərdəki burjua-demokratik inqilabı Azərbaycan maarifçilik hərəkatına öz töhfəsini göstərdi. Bu ərəfələrdə təlimin ana dilimizdə aparılması Azərbaycan Milli Azadlıq Hərəkatının tələbləri arasında əsas yeri tuturdu. Ana dilimizdə təlimin aparılmasını müəllimlər tələb edirdi. Həmin vaxtda məktəblərin azlığı, dərsliklərin olmaması, xalq müəllimlərinin hüquqlarının qorunmaması kimi məsələlər ziyalıları düşündürürdü. 1905-1907-ci illərdə Azərbaycan ziyalıları dəfələrlə ərizə göndərmiş, bu ərizələrdə tədrisin ana dilimizdə aparılması, icbari və ödənişsiz ibtidai təhsilin verilməsi, müəllim hüquqlarının müəyyən edilib qorunması, başqa millətlərin müəllimləri ilə öz millətimizdən olan müəllimlərin hüquqlarının bərabərləşdirilməsi, Azərbaycanda müəllim hazırlığı üçün seminariyanın açılmasının zəruriliyini xüsusi vurğulamışdır. Həmin vətənpərvər ziyalılarımızdan biri də Nəriman Nərimanov idi. Təlim-təhsil prosesində irəli sürülən tələbləri ümumiləşdirsək, onları aşağıdakı kimi qruplaşdıra bilərik:

1) təlim prosesini (xalq maarifini) azərbaycanlıların idarəetməsinə vermək;
2) ibtidai təhsili üç il olmaqla icbari formada həyata keçirmək;
3) qadınlar və kişilərin təhsil hüququnu bərabərləşdirmək;
4) bütün tədris prosesinin ana dilində aparılması;
5) orta məktəb, məktəbəqədər təlim-tərbiyə müəssisələrini genişləndirib inkişaf etdirmək.

Bu illər ərzində müxtəlif maarif-mədəniyyət müəssisələri, xeyriyyə qurumları yaranmış, jurnal və qəzetlər nəşr edilməyə başlanmışdı. Bolşevik hümmətçilər də bu istiqamətdə maarifləndirici iş aparır, məktəblərin, təhsil müəssisələrinin açılmasına çalışırdılar. Bu işdə “Nəşri-maarif” və “Nicat” xeyriyyə cəmiyyətləri aktiv iştirak edirdi. “Nicat” xeyriyyə cəmiyyətinin sədr müavini Nəriman Nərimanov idi. O, bu qəbildən heç də az iş görməmişdir.

1906-cı ildə “Nicat” cəmiyyəti vasitəsilə Bakı şəhərində Qafqaz müsəlman müəllimlərinin qurultayı çağırıldı. Qurultayın təşkili, qurultayda irəli sürülən problemlərin həll olunmasnda Nəriman Nərimanovun bilavasitə rolu var idi. O, müəllimləri bir yumruq altında birləşdirmiş, vacib qərarların qəbul olunmasında aparıcı mövqe tutmuşdur. Nəriman Nərimanovdan başqa Üzeyir bəy Hacıbəyli, Həsən bəy Zərdabi, Süleyman Sani Axundov, Abdulla Şaiq və başqalarının qurultayın uğurla həyata keçirilməsi və vacib qərarların

verilməsində önəmli rolu olmuşdur. Qurultaya hazırlıq prosesində Nəriman Nərimanov “Müəllimlər ictimaiyyətinə aid”, “Bu gün”, “Mühüm bir məsələ” və s. məqalələrlə çıxış etmişdir.

Nəriman Nərimanov həmin məqalələrdə Qafqaz Müsəlman Müəllimlərinin qurultayının məqsədini bildirərək müəllimlərin bir araya gələcəyini, öz şikayətlərini, fikirlərini bildirəcəyini, problemlərin həlli uğrunda birlik göstərəcəklərini xüsusi olaraq vurğulayırdı.

Qurultayın uğurla keçirilməsi üçün Nəriman Nərimanov bütün regionlardan, kəndlərdən müəllimləri dəvət etməyə, hər bir məktəbdən ən azı bir müəllimin iştirakına çalışırdı. Dəvət olunan müəllimlərə Qurultayın əsas məqsədini də izah edirdi. İstəyirdi ki, Qurultayda maarif sahəsində ciddi fikirlər, problemlərin həllində yeni yanaşmalar ortaya atılsın. Nərimanov Qurultaya gələrkən “görəsən plov olacaqmı” deyənləri kəskin tənqid edirdi. Belələri xalq maarifinin inkişafı uğrunda daim çalışan müəllimlərə (F.Köçərli) baxıb gülümsəyirdilər. Onlar deyirdi: “Ay biçarə, aldığın çoxca məvacib, üç-dörd müftə otaq, müftə odun, müftə çıraq, müftə qulluqçu, hər ildə “çox zəhmətlərdən sonra azarlayıb aldığınız posobiya qarnımızımı dəlir?! Bizə nə düşübdür, özümüzü bəlaya salaq! Millət qeyrətini gərək bizmi çəkək? Arxayın ye, iç, kef çək. Kim kimədir? Bayılı görmüsənmi? Daha qoymazsınız bir doyunca şəhərin pullarından xərc edək...Həm də tərəqqi edək. (3. s.258-259). Nərimanov belələrini xalqa xəyanət edən biri kimi görürdü.

Nəriman Nərimanov həmin dövrün yenilikçi, mütərəqqi fikirli müəllimlərinin işlərinə xüsusi qiymət verirdi. Həmin müəllimlərin rus-müsəlman məktəblərini təşkil etmələri, gənc nəslin savadlanması, təlim-tərbiyə prosesinə dəstəyini təqdirəlayiq hesab edirdi. Cavan müəllimlərin rus-müsəlman məktəblərində gördüyü iş təkcə gənc nəsil üçün deyil, həm də böyüklər üçün də faydalı idi.

Nərimanov qurultaya hazırlıq dövründə yazdığı məqalələrdə qurultayda həll olunacaq məsələlərlə bağlı qiymətli fikirlər söyləmişdir. O, müəllimlər qarşısında aşağıdakı şərtləri qoyurdu:

1) xalqa qurultayın məqsədini aydın izah etmək;
2) müəllimlər arasında birlik yaratmaq;
3) təlim prosesində mövcud nöqsanları aradan qaldırmaq;
4) yeni tədris proqramlarını tərtib etmək;
5) ana dilində dərsliklər yazmaq;
6) yeni təlim üsulları seçmək;
7) müəllim hazırlığında problemləri yoluna qoymaq.

Qurultaya hazırlıq prosesində Nərimanovun sədrliyi ilə 11 dəfə iclas keçirilmişdir. Nəhayət 1906-cı ilin 15 avqust tarixində Bakıda qurultay çağırıldı. Qurultayın gündəliyində, əsasən, yuxarıda qeyd etdiyimiz məsələlər əsas yer tuturdu.

Avqustun 15-dən başlayaraq 13 gün davam edən (15-28 avqust) qurultayda 100 nəfərdən artıq nümayəndə iştirak etmişdir.

Qurultayın iclasına H.Zərdabi sədrlik etmiş, N.Nərimanov isə müavin kimi fəaliyyət göstərmişdir. S.Acalov sədr köməkçisi, F.Ağayev isə katib seçilmişlər.

Müəllimlər qurultayının böyük ictimai əhəmiyyətini xüsusi olaraq vurğulayan bir qrup tərəqqipərvər Zaqafqaziya ziyalıları qurultayı təqdir edən çıxışları ilə seçildilər. O dövrün mətbuat səhifələrində öz əksini tapan həmin çıxışlarda əlifba islahatı, yeni proqram və dərsliklərin hazırlanması, müəllim hazırlığı və təlimin ana dilində aparılması məsələləri öz əksini tapmışdı.

Qurultayda çıxış edən N.Nərimanov azərbaycanlı uşaqların məktəbə cəlb olunması işindəki nöqsanları mövcud quruluşla əlaqələndirir, tədrisdə hökm sürən yararsız metodların aradan qaldırılmasını tələb edirdilər.

Xalq müəllimləri və demokratik ruhlu Azərbaycan ziyalılarının müdafiə etdiyi bu tələblər sonralar Azərbaycanda vüsət tapan milli-azadlıq hərəkatının əsas tələbinə çevrildi.

Hər bir millətin tərəqqisini məktəblə, məktəbin tərəqqisini isə müəllimlə əlaqələndirən N.Nərimanov müəllimlərin ictimai-siyasi həyatda da fəal iştirakının tərəfdarı olmuşdur.

N.Nərimanov təlim-tərbiyə işində şagirdlərin fərdi xüsusiyyətlərini nəzərə almağı çox vacib hesab edir, bunu müəllimin tədris fəaliyyətinin ən uğurlu cəhəti sayırdı. Onun fikrincə, hər uşağın özünəməxsus təbiəti olduğundan hamıya eyni ölçü ilə yanaşmaq qeyri-mümkündür. Uşaqlara məhəbbət bəsləyən müəllim bütün bunları nəzərə alarsa, hər kəsin biliyini, davranışını nəzərə alıb buna görə çarə ararsa, o zaman təlim-tərbiyə işində uğur əldə etmək və tərəqqiyə nail olmaq mümkündür.

N.Nərimanov müəllimlərin ictimai tərəqqidəki rolunu yüksək qiymətləndirir və belə hesab edir ki, müəllimi fərqləndirən yalnız universitet nişanı deyil, o özünün gündəlik əməli fəaliyyəti ilə seçilir.

Görkəmli ictimai xadim Qori Seminariyasının azərbaycanlı müəllimlərin hazırlanmasındakı roluna da münasibət bildirmişdir. O, seminariyanın Azərbaycan şöbəsinin 27 illik fəaliyyətini (1879-1905) təhlil edərək belə qənaətə gəlir ki, məhz təlimin ana dilində aparılmaması və seminariyanı bitirən kadrların sayının azlığına görə o, bizim məktəblərimizin müəllim kadrlarına olan ehtiyacını ödəyə bilmir. Ona görə də seminariyanın Azərbaycan şöbəsinin bizim öz şəhərlərimizin birinə köçürməyi məsləhət bilirdi. Bununla da həm müəllim hazırlığı işini yaxşıladırmağı, həm də məktəb şəbəkəsini genişləndirməyi tövsiyə edirdi.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra məktəblərin müəllim kadrları ilə təmin edilməsi məsələsi N.Nərimanovun diqqətini cəlb

edən başlıca məsələlərdən biri olmuşdur. Müəllim hazırlığı ilə məşğul olan ilk Ali Pedaqoji İnstitutun yaradılması da onun adı ilə bağlıdır.

26 avqust 1921-ci ildə N.Nərimanovun imzaladığı dekretdə qeyd edilirdi: "... bu ilin sentyabr ayının 1-dən etibarən Bakı şəhərində ikinci dərəcəli şura məktəbləri üçün türk (Azərbaycan) dilində müəllimlər hazırlaya biləcək Azərbaycan Dövlət Kişi Pedaqoji İnstitutu təsis edilsin" (2).

1924-cü ildə o, institutun ilk məzunlarını təbrik etmək üçün Moskvadan göndərdiyi "Elmlərini yeni tamam etmiş müəllimlərə açıq məktub"unda yazırdı: "Əziz yoldaşlar! Təzə həyata qədəm qoymağınızı təbrik edirəm. Vəzifəniz hər nə qədər qayət çətin, ağır və məsuliyyətli vəzifədirsə də, bunu da düşünməlisiniz: insanın ruhunu ucaldan çox şey varsa, onun ən birincisi zəhmətdir. Ona görə də sizin tərbiyənizdə olan Azərbaycan balaları gərək zəhmətsevər olsunlar...Sizin tərbiyənizdən çıxan cavanlarımız gərək cəsur, cürətli və dəyanətli olsunlar" (1. s.39).

N.Nərimanov xüsusilə şagirdlərin düzlük və doğruluq tərbiyəsində müəllimin roluna, onun şəxsi nümunəsinə böyük əhəmiyyət verirdi. Görkəmli ictimai xadimin gənc nəslin formalaşmasında müəllimin müstəsna xidmətləri, onun ictimai tərəqqidəki rolu ilə bağlı fikirləri bu gün də öz əhəmiyyətini qoruyub saxlayır.

***Ədəbiyyat***

1. *Ali Pedaqoji İnstitutun salnaməsi. (Tərtib, transliterasiya, izahlar və "Ön söz"ün müəllifi prof. F.A.Rüstəmov). B: Elm və təhsil, 2020.-176 s.*
2. *"Kommunist" qəzeti, 26 avqust 1921-ci il, № 194*
3. *Nərimanov N. Seçilmiş əsərləri. B: "Lider", 2004.- 496 s.*
4. *Yenə orada, səh.27*
5. *Əhmədov H. Nəriman Nərimanovun pedaqoji fikirləri. B: "Maarif", 2000.- 138 s.*

**Г.И.Казимова**
**Азербайджанский Государственный Педагогический Университет**
***gunayaliyeva0822@gmail.com***

# ПСИХОЛОГО-ПЕДАГОГИЧЕСКИЕ ПРЕДПОСЫЛКИ РАЗВИТИЯ РЕЧИ УЧАЩИХСЯ

***Резюме***

*В статье рассматривается психолого-педагогический подход к сопровождению детей раннего возраста с задержкой речевого развития (задержка речевого развития проявляется в замедлении темпов овладения родной речью детьми, недоразвитии словарного запаса, несформированности выразительной речи, отсутствие фразовой и связной речи и др.). Цель исследования - разработать программу психолого-педагогического сопровождения детей с задержкой речевого развития. При апробации программы особое внимание уделялось процессам развития мелкой, общей и артикуляционной моторики детей раннего возраста в различных видах деятельности (игровой, познавательной, продуктивной, коммуникативной и др.); формирование психических процессов (восприятие, мышление, память и др.); речевое развитие детей (понимание речи взрослого, развитие слухового восприятия, коррекция звукопроизношения, формирование пассивного словаря, увеличение объема активного словаря, развитие связной речи, грамматического строя речи и др.) ; взаимодействие специалистов и родителей детей раннего возраста (педагог-психолог, логопед, педагоги, воспитатели, медицинский персонал и др.) с использованием офлайн- и онлайн-технологий (консультации, мастер-классы, семинары, открытые занятия и др.). В результате апробации программы у детей раннего возраста с задержкой речевого развития отмечены положительные сдвиги в формировании речевых и неречевых функций (понимание речи других, формирование диалогической формы речи, развитие двигательной сферы и др.).*

# TƏHSİLALANLARIN NİTQİNİN İNKİŞAFININ PSİXOLOJİ VƏ PEDAQOJİ İLKİN ŞƏRTLƏRİ

***Xülasə***

*Məqalədə nitq inkişafı ləngimiş gənc uşaqları müşayiət etmək üçün psixoloji və pedaqoji yanaşma müzakirə olunur (nitqin inkişafının ləngiməsi uşaqların ana nitqini mənimsəmənin daha yavaş tempində özünü göstərir, lüğətin zəif inkişafı, ifadəli nitqin formalaşmaması, ifadəli nitqin olmaması, ardıcıl nitq və s.). Tədqiqatın məqsədi nitq inkişafı ləngimiş gənc uşaqlar üçün psixoloji və pedaqoji dəstək proqramının hazırlanmasıdır. Proqramın sınaqdan keçirilməsi zamanı müxtəlif fəaliyyət növlərində (oyun, idrak, məhsuldar, kommunikativ və s.) kiçik yaşlı uşaqların incə, ümumi və artikulyasiya motor bacarıqlarının inkişaf proseslərinə xüsusi diqqət yetirilmişdir;*

*psixi proseslərin formalaşması (qavrayış, düşüncə, yaddaş və s.); uşaqların nitqinin inkişafı (böyüklərin nitqinin başa düşülməsi, eşitmə qavrayışının inkişafı, səs tələffüzünün korreksiyası, passiv lüğətin formalaşması, aktiv lüğətin həcminin artması, ardıcıl nitqin inkişafı, nitqin qrammatik quruluşu və s.); oflayn və onlayn texnologiyalardan (məsləhətləşmələr, seminarlar, açıq dərslər və s.) istifadə etməklə mütəxəssislərin və gənc uşaqların valideynlərinin (müəllim-psixoloq, loqoped, müəllimlər, tərbiyəçilər, tibb işçiləri və s.) qarşılıqlı əlaqəsi. Proqramın aprobasiyası nəticəsində nitq inkişafı ləngimiş gənc uşaqlarda nitq və qeyri-nitq funksiyalarının formalaşmasında müsbət dəyişikliklər (başqalarının nitqinin başa düşülməsi, nitqin dialoq formasının formalaşması, nitqin inkişafı motor sferası və s.).*

# PSYCHOLOGICAL AND PEDAGOGICAL PREREQUISITES FOR STUDENTS' SPEECH DEVELOPMENT

***Summary***

*The article discusses the psychological and pedagogical approach to accompanying young children with delayed speech development (delay in speech development manifests itself in a slower pace of mastering native speech by children under three years of age, underdevelopment of the vocabulary, lack of formation of expressive speech, lack of phrasal and coherent speech etc.). The purpose of the study is to develop a program of psychological and pedagogical support for young children with delayed speech development. During the testing of the program, special attention was paid to the processes of development of fine, general and articulatory motor skills of young children in various types of activity (play, cognitive, productive, communicative, etc.); the formation of mental processes (perception, thinking, memory, etc.); speech development of children (understanding of an adult's speech, development of auditory perception, correction of sound pronunciation, formation of a passive vocabulary, an increase in the volume of an active vocabulary, development of coherent speech, grammatical structure of speech, etc.); interaction of specialists and parents of young children (teacher-psychologist, speech therapist, teachers, educators, medical personnel, etc.) using offline and online technologies (consultations, workshops, seminars, open classes, etc.). As a result of approbation of the program in young children with delayed speech development, there were positive changes in the formation of speech and non-speech functions (understanding of the speech of others, the formation of a dialogue form of speech, the development of the motor sphere, etc.).*

***Ключевые слова:*** *словарный запас, речевое развитие, речевая функция*
***Açar sözlər:*** *sinonimlər lüğət, nitqin inkişafı, nitq funksiyası*
***Key words:*** *vocabulary, speech development, speech function*

Одним из первостепенных приоритетов современного образования является полноценное и гармоничное развитие детей на разных этапах развития, что требует поиска эффективных методов и приемов его достижения. Ранняя диагностика и коррекция аномалий развития ребенка становятся актуальной проблемой специальной педагогики, в связи с тем, что в последнее время значительно увеличилось количество детей с отклонениями в развитии двигательной, речевой и познавательной сферы, они пишут об этом в своих работах. Ф.Архипова, О.Г.Приходько (1, с.95), Т.В.Суркова (2, с.295), О.В.Добронравов, Х.Н.Галимова, А.В.Панкова (3, с.271) и др.

Во многих исследованиях речь рассматривается как важнейшая психологическая функция (А.Н.Леонтьев) (4, с.51). Любые нарушения в развитии речи являются объектом изучения специалистов разных областей (дефектологии, специальной педагогики и психологии, педиатрии, детской психиатрии и др.). Многие ученые подчеркивают тот факт, что среди различных форм аномалий развития психики в раннем онтогенезе наиболее часто встречаются речевые нарушения (М.Л.Скуратовская, Е.А.Климкина, Н.Н.Абашина, Н.А.Платохина и др.) (5, с.119). В зарубежных исследованиях проблемы развития и оказания ранней помощи детям рассматривали: Г.В.МакРобертс, Д.Э.Бернье, К.С.Уайт, Х.Чанг, К.Фарр, К.Э.Поллок, Э.И.Токи, Т.Оздаш, А.Санемшали, Б.С.Оздемир, Э.Бельгин, П.Дж.Ван, С.Р.Зенталл, Б.Дж.Моррис, Д.П.Китинг, Дж.Э.В.Ллойд, С.Герцман, P.A.McDermott. Становится очевидным, что специалистам, работающим с детьми, родителям важно осознать, что нарушения речевого развития, а также нарушения развития психических процессов у детей раннего возраста могут в последующем приводить к тяжелым речевым и психическим расстройствам, такие как моторная алалия, дизартрия и др. Раннее выявление речевых нарушений, диагностика и профилактика речевых нарушений способствуют полноценному речевому развитию детей раннего и младшего дошкольного возраста, формированию личности в целом.

Детям нужен язык для общения, который можно развивать вместе с их ростом. Это происходит в процессе взросления. Словарный запас становится индикатором развития речи детей. Они приобретают словарный запас, используемый для разговорной речи, от простых до сложных предложений. Эксперты утверждают, что развитие языка - это способность не только приобретать словарный запас, но и создавать язык, который используется для общения посредством различных выражений при передаче сообщений, чувств и даже идей. У детей есть уникальные способы овладения языком и вехи речевого развития; некоторые из них

могут быть быстрее, а некоторые нет. И язык, и речь становятся наиболее частыми частями для детей с задержкой речи, потому что у 20% из них была задержка речи. Однако проблемы с языком и речью могут возникать одновременно или по отдельности). На этапах изучения языка некоторые дети могут столкнуться с некоторыми проблемами, связанными со звуками, словами и даже предложениями в устной форме.

Педагогика вызвала споры и была определена по-разному. Педагогика описывается как «дискурс, который информирует и оправдывает акт преподавания и обучения», или «любая сознательная деятельность одного человека, направленная на улучшение обучения». Педагогика, применяемая для детей с задержкой речи, трансформировалась в педагогическую деятельность и методы, такие как моделирование, изучение и опрос, а также создание строительных лесов, которые способствуют обучению детей , и все подходы должны поддерживаться, например, соответствующим управлением классом. группировка учащихся. Дети - лучший подражатель. Они могли естественно имитировать вещи в благоприятной среде. Одним из инструментов обучения является моделирование, которое используется для того, чтобы попросить учащихся подражать тому, что учителя делали в процессе обучения. Более того, сверление и группировка - неразделимые стратегии, которые предлагают повторение, используемое с определенной целью. Целями являются формирование, модификация и создание модели. Моделирование является частью социального конструктивизма, который предполагает социальное взаимодействие в процессе обучения. Выготский утверждает, что это зона ближайшего развития (ЗБР), под которой понимается зона, в которой дети учатся с более опытными взрослыми или сверстниками посредством взаимодействия. Эти люди, взрослые и сверстники должны помогать и поощрять их в обучении и мышлении за пределами области, в которой они могут делать это без помощи других. Это означает, что присутствие других людей, лучше понимающих конкретные исторические и культурные обычаи, может помочь детям стать лучше, в то время как практика различной поддержки, оказываемая во время урока преподавания и обучения с опытным человеком. Чтобы дать наилучшее руководство в соответствии с их развитием. Таким образом, эти концепции должны быть объединены в качестве стратегии обучения в классе. Для успешной реализации вышеизложенных концепций необходимо управление классом, особенно для дошкольного образования. Необходимо принимать во внимание два аспекта управления классом, а именно среду в раннем классе и социальное взаимодействие с маленькими детьми. Среда в классе нуждается в особых

условиях, связанных с предоставляемыми средствами. В Монтессори, например, детям не разрешается выполнять действия с предметами, предназначенными для взрослых. Вместо этого удобства спроектированы и предоставлены в зависимости от размера и роста детей, чтобы они могли комфортно заниматься. Кроме того, среда должна быть организована с учетом различных сфер интересов детей.

При рассмотрении специфических особенностей задержки речевого развития становится очевидным, что задержка речевого развития выражается в более медленном темпе овладения родной речью, а также в отсутствии связной речи у детей. Дети с замедленным темпом речевого развития нуждаются в комплексном обследовании многих специалистов (логопеда, педагога-психолога, невролога, отоларинголога, а также, при необходимости, лечебно-диагностического обследования). Становится понятным, что работа с детьми с задержкой речевое развитие должно включать два взаимосвязанных направления - психолого-педагогическое (как и логопедическое) и лечебное (С.В. Ваторопина, Е.Н.Смородина, С.В.Ракова, О.Л.Леханова, О.А.Глухова и др.). Одной из наиболее эффективных форм работы с детьми раннего возраста с задержкой речевого или психического развития является психолого-педагогическое сопровождение. Мы рассматриваем психолого-педагогическую поддержку как особый вид помощи детям, направленный на профилактику возможных речевых и психических нарушений у детей разного возраста. В современных условиях развития общества и образования проблема организации ранней помощи детям с речевыми нарушениями или недоразвитием речи остается актуальной. Ранний возраст является благоприятным периодом для развития детской речи благодаря пластичности и чувствительности детской психики к различным воздействиям, дает большие возможности для оптимизации психолого-педагогического сопровождения. Целью ранней психолого-педагогической поддержки является создание оптимальных условий, необходимых для полноценного физического и психического развития, эмоционального и социального благополучия ребенка. Использование информационных технологий в процессе психолого-педагогического сопровождения детей с особыми образовательными потребностями в разное время изучали: А.В.Боков, Б.П.Невзоров, Н.Н.Загузин и др. В работе с родителями авторы используют следующие формы поведения: консультации, беседы, тренинги, опросы, проводимые как очно, так и дистанционно (с использованием теле- и видеоконференций, электронной почты, стационарного и мобильного телефона и др.). Эффективной формой также является организация работы телефона доверия для родителей. При этом важно, чтобы родитель находился в пределах

физической досягаемости ребенка, чтобы ему вовремя потребовалась помощь.

***Литература***

1. *Приходько О.Г. (2018), «Специальное образование», М.:Просвещение, с.95-105.*
2. *Суркова Т.В. (2011), «Вектор науки», ТГУ, с.295-298.*
3. *Добронравова О.В., Галимова Х.Н., Панков А.В., (2016), «Балтийский гуманитарный журнал», М.:Просвещение, с.271-273.*
4. *Леонтьев А.Н. (2009), «Психологические основы развития и обучения ребенка», Изд-во «Смысл», Москва, с.51.*
5. *Скуратовская М.Л., Климкина Е.А. (2016), «Известия Южного федерального университета. Педагогические науки», с. 119–125.*

**Ş.R.Məmmədova**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***sebnem.Memmedova.TTS2123M@adpu.edu.az***

# KEYFİYYƏTİN İDARƏ OLUNMASINDA MONİTORİNQ

***Xülasə***

*Cəmiyyətin gələcəyinə xidmət edən əsas sahələrdən biri təhsil sahəsidir. Təhsil sistemi müasir dövrdə cəmiyyətin sosial-iqtisadi inkişafına əsaslı şəkildə təsir göstərir. Bu baxımdan, təhsil sisteminin inkişafına, onun keyfiyyətinin yüksəldilməsinə xüsusi diqqət yetirilir. Bunun üçün təhsilin keyfiyyətinin inkişaf dinamikasına nəzarət etmək lazımdır. Bunu isə keçirilən monitorinqlər təmin edir. Məqalədə təhsilin keyfiyyətinin idarəolunması üçün keçirilən monitorinqlər barədə məlumatlar təqdim olunur. Təhsil sahəsində keçirilən bu monitorinqlərin əsaslandığı prinsiplərə və monitorinqlərin müxtəlif növlərinə nəzər salınır.*

# МОНИТОРИНГ В УПРАВЛЕНИИ КАЧЕСТВОМ

***Резюме***

*Одной из основных сфер, обслуживающих будущее общества, является образование. Система образования оказывает фундаментальное влияние на социально-экономическое развитие общества в современное время. В связи с этим особое внимание уделяется развитию системы образования и повышению его качества. Для этого необходимо контролировать динамику развития качества образования. Это обеспечивается проводимым мониторингом. В статье представлена информация о мониторинге, проводимом для управления качеством образования. Рассмотрены принципы, на которых основаны данные мониторинги в сфере образования и различные виды мониторинга.*

# MONITORING IN QUALITY MANAGEMENT

***Summary***

*One of the main areas serving the future of society is education. The education system has a fundamental influence on the social and economic development of society in modern times. In this regard, special attention is paid to the development of the education system and its quality improvement. For this, it is necessary to control the dynamics of the development of the quality of education. This is ensured by the conducted monitoring. The article presents information about the monitoring conducted for the management of the quality of education. The principles on which these monitorings are based in the field of education and different types of monitoring are considered.*

***Açar sözlər:*** *keyfiyyət anlayışı, təhsilin keyfiyyəti, monitorinq*
***Ключевые слова:*** *понятие качества, качество образования, мониторинг*
***Key words:*** *concept of quality, quality of education, monitoring*

Müasir dövrdə digər sahələrdə olduğu kimi təhsil sahəsində də inkişaf nəzərə çarpır. Təhsil sahəsində aparılan dövlət siyasətinin əsas istiqamətlərindən biri təhsilin uzunmüddətli inkişafının təmin edilməsi və onun keyfiyyətinin artırılmasıdır.

"Keyfiyyət, ümumiyyətlə, istənilən obyektin müəyyənliyini bildirən fəlsəfi kateqoriya olub, onun xassələrinin məcmusunda təzahür edən obyektiv və ümumi (bütöv) xarakteristikasıdır. Bundan başqa keyfiyyət istənilən prosesin elə bir müəyyənləşdiricisidir ki, onun sayəsində proses başqa proses kimi yox, məhz həmin proses kimi çıxış edir və digər proseslərdən fərqlənir." (3, səh. 212.)

Təhsildə keyfiyyət dedikdə, əvvəlcədən müəyyən edilmiş standartlarla əldə olunmuş təlim nəticələrinin nisbəti nəzərdə tutulur. Təhsilin keyfiyyəti, həmçinin beynфlxalq səviyyədə qoyulmuş standartların, keyfiyyəti müəyyən edən göstəricilərin təhsil sistemində əks olunmasıdır. Təhsilin keyfiyyəti təkcə təhsilalanların biliyinin dövlət və ya beynəlxalq standartlarına uyğunluğu deyil, həmçinin təhsil müəssisəsinin özünün uğurlu fəaliyyəti, təhsilverən və idarəçilərin fəaliyyətinin təşkili deməkdir.

Aparılmış araşdırmalara əsasən təhsildə keyfiyyətin idarəedilməsinin səmərəliliyini təmin etmək üçün lazım olan prinsipləri aşağıdakı kimi qruplaşdırmaq olar:

- "İdarəolunan sistemin səmərəliliyinin əsas göstəricisi kimi təhsilin keyfiyyət anlayışı haqqında məlumatların dəqiqliyi;
- Təhsilin keyfiyyətinin səmərəli idarəolunma sisteminin idarəetmənin ümumi qanunlarına uyğunluğu;
- Təhsilin keyfiyyətinin səmərəli idarəolunma sisteminin tədris-təlim prosesinin qanun və qanunauyğunluqlarına müvafiqliyi (3, səh. 214)".

Təhsilin keyfiyyəti mürəkkəb bir anlayışdır. Onu yalnız təlim nəticələri ilə əlaqələndirmək olmaz. Təhsil prosesinin reallaşdığı mühit və onun xarakteristikası, yaradılan şərait, təhsilverənlərin pedaqoji hazırlığı kimi amillər də nəzərə alınmalıdır. Təhsil sahəsində tətbiq olunan yeniliklərin effektivliyini, səmərəliliyini artırmaq, keyfiyyətin təmin olunmasını yoxlamaq üçün keçən əsrin 90-cı illərindən monitorinq geniş şəkildə tətbiq olunmağa başlanılmışdır. Bu baxımdan təhsil sahəsində monitorinq böyük əhəmiyyətə malikdir. Monitorinq digər nəzarət üsullarından fərqlənir. Belə ki, monitorinqlərin təşkili təhsil prosesinin müntəzəm izlənməsini nəzərdə tutur.

Monitorinq sözü ingilis dilində bir situasiya haqqında bir şey tapmaq üçün bir müddət diqqətlə izləmək və yoxlamaq mənasını verir və “müşahidə etmək, izləmək, nəzarət etmək” kimi dilimizə tərcümə olunur. “Monitorinq müəyyən prosesin dinamikasını öyrənmək, real və ilkin vəziyyətin uyğunluğunu müəyyənləşdirmək məqsədi ilə daimi müşahidə aparma və ya insan fəaliyyəti ilə əlaqədar ətraf mühitdəki dəyişikliklərin müşahidəsi, qiymətləndirilməsi və proqnozlaşdırılması sistemidir. (2, səh.184)”.

Monitorinqlərin keçirilməsi ilə təhsilin keyfiyyətinə, təhsil prosesinin irəliləməsinə və ya geriləməsinə daimi nəzarət etmək, bunlara səbəb olan faktorları aşkara çıxarmaq mümkündür. “Təhsil monitorinqi bütövlükdə təhsil sisteminin, o cümlədən təhsil müəssisələri və təhsil məkanına daxil olan digər obyekt və subyektlərin durumu üzərində sistemli şəkildə müşahidələrin aparılmasını təmin edən kompleks prosesdir. O, məlumatların toplanması, saxlanması, emal olunması və yayılması yolu ilə dəyişikliklər dinamikasının fasiləsiz izlənilməsi, cari vəziyyətin təhlili, qiymətləndirilməsi və dəyərləndirilməsi, bununla da təhsil sisteminin, xüsusilə təhsil keyfiyyətinin proqnozlaşdırılması üçün möhkəm zəmin yaradır (1, səh. 288)”.

Tədqiqatlara əsasən təhsilin monitorinqi müxtəlif perspektivlərdən nəzərdən keçirilir (5):

- təhsilin idarə edilməsi aləti kimi;
- təhsil kvalimetriyasının aləti kimi;
- təhsilin keyfiyyətinin idarə edilməsinin effektivliyinin qiymətləndirilməsi aləti kimi.

Təhsildə monitorinq bir sistem kimi qiymətləndirilir. Bu sistemə təhsil prosesinin vəziyyətinin daimi izlənilməsi, müntəzəm nizamlanması və onun inkişafının təmin edilməsi daxildir. “Təhsilin keyfiyyəti, onun monitorinqi və qiymətləndirilməsi dedikdə, şagirdlərin təlim nailiyyətlərinin qiyməti, təhsil proqramlarının keyfiyyəti, konkret olaraq təhsil müəssisəsində tədris prosesinin həyata keçirilmə şəraitinin səviyyəsi başa düşülür. Fikrimizcə, təhsilin idarəolunmasının keyfiyyətinin monitorinqi və qiymətləndirilməsində məqsəd əhalinin təhsilə olan təlabatlarını həyata keçirməyi təmin edən idarəetmə qərarlarının qəbul olunması üçün müvafiq informasiyaların əldə olunmasıdır. Burada əsas məsələ toplanmış informasiyanın keyfiyyətinin analizidir.”
(4, s 49).

Monitorinqlər aparılarkən aşağıdakı prinsiplərə əsaslanmalıdır:
(2, səh. 38)

- Diaqnostik- proqnozvermə prinsipi,
- İnterqrativ informasiyalılıq prinsipi,
- Elmilik prinsipi,
- Pedaqoji kommunikativlik prinsipi,
- Sosial-normativ xarakterlilik prinsipi,

- Peşəkarlığın məqsədəmüvafiqliyi prinsipi,
- Fasiləsizlik, tamlıq və ardıcıllıq prinsipi.

Ali təhsil müəssisələrində, həmçinin ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə olmadan təhsil prosesinin səmərəli olub-olmadığını müəyyən etmək, təhsil prosesini planlaşdırmaq, təşkil etmək və düzgün qaydada idarə etmək mümkün deyil. Monitorinq və qiymətləndirmə bir-birilə bağlı və həmçinin bir-birindən fərqli anlayışlardır. Bunlar arasındakı fərq odur ki, monitoriq zamanı əldə edilən nəticələr vasitəsilə fəaliyyətin effektivliyində və düzəlişlərin edilməsində istifadə oluna bilər. Təhsildə monitorinqlərin nəticələrinin təhsil prosesinin səmərəli və effektiv olması üçün istifadəsi mümkündür. Qiymətləndirmənin nəticələrindən isə növbəti qiymətləndirmə zamanı və ya təhsildə növbəti tədris ilində istifadə etmək olur.

"Müxtəlif monitorinq sistemlərinin mövcudluğu onların ümumi xüsusiyyətlərinin, müəyyən qaydada növlərinin, təsnifatının, həyata keçirilməsinin ümumi prinsiplərinin müəyyənləşdirilməsi zərurətini meydana çıxarır. Hər hansı bir monitorinqin keçirilməsi prosesində müəyyən ölçmələr aparılır, informasiyalar əldə edilir, alınan informasiyalar yenidən işlənir, strukturlaşdırılır və qorunur. Ölçmə və informasiyanın toplanması aparılan monitorinq növlərində başlıca problemi strukturlaşdırmanı və alınan informasiyanın qorunması, informasiya resurslarının asanlıqla əldə olunmasını təmin edir (2, səh 13)". Ədəbiyyatlarda monitorinqin müxtəlif funksiyalarından bəhs edilir. Bunlardan ən geniş istifadə edilənlər adaptiv, diaqnostik, analitik-qiymətləndirici, proqnozlaşdırıcı funksiyalardır. Təhsil sahəsində istifadə edilən monitorinqlər qarşıda duran məqsədə görə müxtəlif mahiyyət daşıya bilər: strateji, operativ və taktiki.

Təhsilin müxtəlif xüsusiyyətlərini nəzərə alaraq monitorinqi aşağıdakı kimi təsnifatlaşdırmaq olar:

1. Monitorinq zamanı məlumatlar əldə edilir, sistemləşdirilir və yayılır. Bu zaman monitorinqin aşağıdakı növlərindən istifadə etmək olar:

- İnformasiya monitorinqi - məlumatlar əldə edilir və sistemləşdirilir.
- Problemli monitorinq - yarana biləcək problemlər müəyyənləşdirilir.

2. Monitorinq zamanı müxtəlif üsullardan istifadə olunur. Bunun üçün istifadə edilən monitorinq növləri:

- Dinamik monitorinq - əldə edilən məlumatlar təhsil müəssisəsinin inkişaf dinamikasını səciyyələndirməlidir.
- Rəqabətli monitorinq - burada əsas kimi müxtəlif təhsil sistemlərinin tədqiqatlarının nəticələri götürülür.
- Müqayisəli monitorinq - təhsil sistemi haqqındakı məlumatlar digər daha yüksək səviyyəli sistemin məlumatları ilə müqayisə edilir.
- Kompleks monitorinq - bir neçə müxtəlif komponent əsas götürülür.

3. Monitorinq zamanı istifadə edilən müxtəlif vasitələrə görə monitorinqin aşağıdakı növləri vardır:
- sosioloji;
- iqtisadi;
- psixoloji;
- demoqrafik;
- tibbi;
- pedaqoji.

4. İdarəetmə qərarlarının alınmasına görə istifadə edilən monitorinq növləri:
- məktəb səviyyəsi;
- rayon və ya şəhər səviyyəsi;
- respublika səviyyəsində keçirilən monitorinqlər.

Monitorinqlərin növlərini aşağıdakı kimi də qruplaşdırmaq olar:
- Təşkilati formasına əsasən: qrup və fərdi;
- Təkrar olunmasından asılı olaraq: müntəzəm, dövri və birdəfəlik;
- Obyekt-subyekt münasibətlərinə əsasən: xarici və daxili (qarşılıqlı nəzarət; özünüqiymətləndirmə);
- Monitorinq zamanı istifadə edilən vasitələrə əsasən: standart və qeyri-standart.

Monitorinqlərin səmərəli olması və toplanılacaq məlumatların obyektivliyini, dəqiqliyini təmin etmək üçün düzgün monitorinq vasitələrini seçmək lazımdır. Monitorinq təşkil edilərkən istifadə edilən vasitələrə sorğular, anketlər, təhsilalanların və təhsil verənlərin portfoliosu, müsahibələr və müşadilər və s. daxildir.

Monitorinq prosesi təhsilin keyfiyyətinə müntəzəm nəzarəti, təhsil prosesinin zəif və güclü tərəflərinin müəyyən edilməsinə xidmət edir. Həmçinin, o, əldə edilən nəticələrə əsasən problemlərin həll yollarını da təklif edir. “Təhsil müəssisələrinin pedaqoji monitorinqi nəinki pedaqoji proses iştirakçılarının qarşılaşdıqları problemləri müəyyənləşdirməyə, pedaqoji kollektivin fəaliyyətinin inkişafına və təkmilləşməsinə, həm də pedaqoji proses iştirakçılarının fəaliyyətinin məqsədəmüvafiqliyini müəyyənləşdirməyə imkan verir. (3, səh. 224)”

## NƏTİCƏ

Monitorinq prosesi davamlı olaraq aparılan bir prosesdir.

- Müntəzəm olaraq keçirilən monitorinqlər nəticəsində təhsil müəssisələri barədə geniş məlumatlar toplanır, təhlil və müqayisə edilir, problemlərin həll edilməsi üçün həll yolları təklif edir.
- Monitorinq vasitəsilə təhsil prosesində istifadə edilən metodların və üsulların yoxlanıla və təkmilləşdirilə bilər.

➢ Bunları nəzərə alaraq, monitorinq sisteminin yaradılması və daimi olaraq həyata keçirilməsi keyfiyyətli təhsil prosesi üçün vacib amillərdən biridir.

***Ədəbiyyat***

1. *A.Cahangirov. Təhsilimiz: dünəndən sabaha. Optimistin baxışları. Bakı, "Şərq-Qərb", 2020, 384 səh.*
2. *A.O.Mehrabov, İ.A.Cavadov. Ümumtəhsil məktəblərində monitorinq və qiymətləndirmə. Bakı: Mütərcim, 2007. – 184 səh.*
3. *A.O.Mehrabov. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010, 516 səh.*
4. *R.Məmmədzadə, A.Abdullayev, F.Kərimova, R.Cabbarov, S.Rəsulov, Ə.Quliyev. Təhsilin idarə edilməsinin bəzi problemləri. Bakı, 2008, 238 səh.*
5. *Ruslan Bazhenov et al. / Procedia - Social and Behavioral Sciences 214 (2015) 103 – 111*

**H.S.Əliyeva**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
***hemideliyeva@mail.ru***

# KONFLİKT ANLAYIŞININ PSİXOLOJİ ƏDƏBİYYATDA QOYULUŞU

***Xülasə***

*Məqalədə konflikt anlayışının psixoloji ədəbiyyatda qoyuluşundan bəhs olunur. Burada konflikt və onun mənası, konfliktlərin sosial-psixoloji ədəbiyyatda yeri, ona yanaşma üsulları, baxış bucaqları öz əksini tapıb. Konfliktlərin obyektiv və subyektiv səbəbləri, onların dərk olunması, mənfi və müsbət təsirlərini məqalədə yerləşib. Antik dövrlərdə filosofların fəlsəfi düşüncələrində konflikt anlayışı yer alıb. Eyni zamanda konflikt anlayışı haqqında Azərbaycan mütəfəkkirlərinin də baxışları, yanaşmaları, fikir və mülahizələri qeyd olunub.*

# ВВЕДЕНИЕ ПОНЯТИЯ КОНФЛИКТА В ПСИХОЛОГИЧЕСКУЮ ЛИТЕРАТУРУ

***Резюме***

*В статье рассматривается понятие конфликта в психологической литературе. Отражены конфликт и его значение, место конфликта в социально-психологической литературе, методы подхода к нему, точки зрения. В статье раскрываются объективные и субъективные причины конфликтов, их понимание, негативные и позитивные последствия. В древности понятие конфликта входило в философские размышления философов. При этом упоминались взгляды, подходы, идеи и мнения азербайджанских мыслителей о понятии конфликта.*

# INTRODUCTİON OF THE CONCEPT OF CONFLİCT İN PSYCHOLOGİCAL LİTERATURE

***Summary***

*The article discusses the concept of conflict in psychological literature. The conflict and its meaning, the place of conflicts in the social-psychological literature, methods of approaching it, and viewpoints are reflected here. Objective and subjective causes of conflicts, their understanding, negative and positive effects are located in the article. In ancient times, the concept of conflict was included in the philosophical thoughts of philosophers. At the same time, the views, approaches, ideas and opinions of Azerbaijani thinkers about the concept of conflict were mentioned.*

***Açar sözlər:*** *ailə, ailədaxili münaqişələr, konflikt, şəxsiyyət, ünsiyyət, davranış*
***Ключевые слова:*** *семья, внутрисемейные конфликты, конфликт, личность, общение, поведение*
***Key words:*** *family, intra-family conflicts, conflict, personality, communication, behavior*

Konflikt mürəkkəb sosial-psixoloji bir hadisədir. Hal-hazırda konflikt anlayışının tərifində iki yanaşma mövcuddur. Daha geniş məna kəsb edən birinci yanaşmada konflikt tərəflərin, fikirlərin, güclərin toqquşması kimi təyin edilir. Belə yanaşmada konfliktlar cansız təbiətdə də mümkündür. Konfliktlər ziddiyyətlərdən doğur. Konfliktin dərk olunmasındakı ikinci yanaşmaya görə konflikt ünsiyyətdə olan subyektlərə məxsus əks istiqamətlənmiş məqsədlərin, maraqların, mövqelərin, fikirlərin və baxışların toqquşmasıdır. Burada konfliktli ünsiyyətin subyektləri rolunda ayrıca götürülmüş insan, insanlar və insan qrupları ola bilər. Cansız təbiətdə isə konfliktlər yox, ziddiyyətlər, əksliklər, toqquşmalar mövcuddur.

Konflikt anlayışında əsas mahiyyət təkcə ziddiyyətlərin yaranmasında, maraqların toqquşmasında deyil, əsas məsələ yaranmış ziddiyyətlərin, subyektlərin sosial münasibətlərindəki əksliklərin həllindədir. (5. səh. 12)

Konflikt həyatın ayrılmaz bir normasıdır. Müxtəlif cür ziddiyyətlər hər yerdə, hər zaman yaranır. Lakin onların çox az qismi konfliktlər şəklində həll olunur. Maraqlar və baxışlar da çox tez-tez kəsişir və toqquşur. Konfliktin mahiyyəti bu toqquşmaya nəzərən daha genişdir. O, konflikt subyektlərinin bütövlükdə bir-biri ilə qarşıdurmasından ibarətdir.

Bu deyilənləri nəzərə alsaq konfliktə belə tərif vermək olar:

Konflikt – qarşılıqlı münasibətlər zamanı meydana çıxan, münaqişə subyektlərinin qarşıdurması və neqativ emosiyaları ilə müşayiət olunan ciddi ziddiyyətlərin çox kəskin həlli yoludur. (1. səh. 9)

Konflikt insan həyatına yaxşı, bəzən isə pis təsirlər göstərir. Buna görə də insan konfliktin mənfi təsirlərini azaltmalı, onlardan gələcək üçün müsbət nəticələr çıxarmağa səy göstərməlidir. (2, səh. 203)

Konfliktlərin yaranma səbəblərinin üz çıxarılması problemin həlli üçün olduqca önəmlidir. Konfliktin hərəkətverici qüvvələrini bilmədən ona tənzimləyici təsir etmək mümkün deyil. Konfliktlərin yaranması və inkişafı 4 faktorun təsiri ilə bağlıdır: obyektiv, təşkilati-idarəetmə, sosial-psixoloji və şəxsiyyət xarakterli faktorlar. (3. səh. 278)

Birinci iki amillər qrupu obyektiv xarakter daşıyır. Üçüncü və dördüncü amillər isə subyektiv xarakterli amillər hesab edilir.

Konfliktin obyektiv-subyektiv səbəblərinin dərk edilməsi şəxsiyyətlərarası konfliktlərin qarşısının alınma yollarının tapılmasında,

konfliklər zamanı insanların davranışlarının seçilməsində olduqca əhəmiyyətlidir.

Konfliktlərin obyektiv səbəblərinə misal olaraq insanların sosial münasibətləri zamanı onların maraqlarının, fikirlərinin, baxışlarının toqquşmasına səbəb olan şəraitləri göstərmək olar. Obyektiv səbəblərə konfliktlərdən öncəki şərait aiddir. O, konfliktlərdən öncəki şəraitin obyektiv komponenti rolunu oynayır. Məsələn, nazirlikdə şöbə müdiri yeri boşalır. Bu yerə bir neçə əməkdaş öz namizədliyini irəli sürür. Namizədlər bir neçə, yer isə bir olduğundan əməkdaşların maraqlarının toqquşması obyektivdir. Onlarının istəklərindən asılı olmayaraq maraqlar kəsişir. Bu toqquşma konflikta səbəb ola da bilər, olmaya da bilər. Əgər bu yerə bir namizəd olsaydı konflikt olmazdı.

Konfliktoloji ideyalar çoxəsrlik tarixa malikdir. İlk yetkin konfliktoloji konsepsiya XIX-XX əsrlərdə yaranmışdır. Lakin əvvəlki dövrlərdə də bu problem haqqında fikirlər, baxışlar mövcud olmuşdur. Eləcə də konfliktlərin aradan qaldırılması və həlli yollarını öyrənilmişdir. Xeyirlə şərin mübarizəsi, həmrəylik və konflikt, sülh və zorakılıq ideyası bütün dini baxışların, müasir dünyəvi və regional dinlərin hər zaman diqqət mərkəzində olmuşdur.
(4. səh. 20)

Konflikt probleminin dövrümüzə gəlib çatmış ilk tədqiqatları miladdan əvvəl VII-VI əsrlərə aid edilir. Qədim çin alimləri hesab edirdilər ki, bütün varlıqlar – materiyaya aid olan müsbət («yan») və mənfi («in») ünsürlərin qarşılıqlı əlaqəsi nəticəsində yaranır. Bu ünsürlər bir-biri ilə daim mübarizədə olub, onların daşıyıcıları arasında ziddiyyət yaradır. Lao Dzı deyirdi: “döyüşdə müharibəni sevməyən qalib gəlir. Əsas sakitliyə riayət etməkdir. Sülh daha dəyərlidir, nəinki müharibə”. Çin filosofuna görə sülh iki əsasa malikdir: «yan»-sülhün işıqlı əsası, «in» - sülhün qaranlıq əsası. Bu iki asas daim mübarizədə olur və bir-birini tamamlayır. Onların varlığı bir harmoniya yaradır.

Yaxın Şərqdə bu ideyalara mitraizm və zərdüştlüyün dini kitabı olan “Avesta”da (m.a. IX-VI asrlar), məzdəkilik, manilik, xürrəmilik cərəyanlarında xüsusi diqqət verilirdi. Xeyir və şərin, xoşbəxtliklə bədbəxtliyin bir-biri ilə üzvi vəhdəti folklorda da geniş yer tutur.

